FİKRƏT CAHANGİROV

İNGİLİŞ VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MODALLIĞIN STRUKTUR-SEMANTİK TƏDQİQİ

(Müqayisəli tipoloji tədqiqat)

BAKI – 2005

Elmi redaktor: **AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Axundov A.A.**

Rəyçilər: **fil.e.d., professor Mahmudov M.**

fil.e.d., professor Məmmədov M.

fil.e.d. Məmmədov A.

fil.e.n. Tahirov İ.

M Ü N D Ə R İ C A T

GİRİŞ…….. 3

FƏSİL 1. GERMANŞÜNASLIQDA VƏ TÜRKOLOCİ ƏDƏBİYYATDA MODALLIĞIN TƏDQİQİNƏ DAİR…… 8

1.1. Modallıq haqqında ümumi qeydlər…….. **8**

1.2. Germanşünaslıqda modallıq kateqoriyasının tədqiqi…….. **38**

1.3. Türkoloci ədəbiyyatda modallıq kateqoriyasının tədqiqi…….. **55**

1.4. Azərbaycan dilçiliyində modallıq

kateqoriyasının tədqiqi……. **59**

1.5. Nəticələr…… **75**

FƏSİL 2. İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MODALLIĞIN STRUKTUR TƏHLİLİ…. **78**

2.1. İngilis və Azərbaycan dillərində modallığın fonetik (prosodik) ifadə vasitələri……. **78**

2.1.1. Ümumi qeydlər……... **78**

2.1.2. Modallıq linqvistik kateqoriya kimi…….. **79**

2.1.3. Modallığın formalaşmasında intonasiya və digər prosodik vasitələrin rolu……... **81**

2.1.4. İngilis və Azərbaycan dillərində modallığın prosodik ifadə vasitələrinin tipoloci səciyyəsi…….. **83**

2.1.5. İngilis və Azərbaycan dillərində tərkibində modal sözlər və birləşmələr olan frazaların prosodik səciyyəsi…… **89**

2.1.6. İngilis və Azərbaycan dillərində tərkibində əminlik / şübhə fel semantik cərgəsi və modal hərəkət felləri olan frazaların prosodik quruluşu…… **91**

2.1.7. İngilis və Azərbaycan dillərində tərkibində ara söz və söz birləşmələri olan frazaların prosodik quruluşu…… **94**

2.1.8. İngilis və Azərbaycan dillərində tərkibində modal fellər olan frazaların prosodik quruluşu…….... **96**

2.1.9. Nəticələr…….. **97**

2.2. İngilis və Azərbaycan dillərində modallığın

leksik ifadə vasitələri……. **100**
2.2.1. Nəticələr…….. **133**
2.3. İngilis və Azərbaycan dillərində modallığın morfoloci ifadə vasitələri…… **135**
2.3.1. İndikativ modallıq…….. **135**
2.3.2. İmperativ modallıq…… **156**
2.3.3. Modal məsdər…… **162**
2.3.4. İngilis dilində modal fellər və Azərbaycan dilində felin modallıq bildirən şəkilləri……... **167**
2.4. İngilis və Azərbaycan dillərində modallığın sintaktik ifadə vasitələri…… **193**
2.4.1. Azərbaycan dilində modallığın sintaktik ifadə vasitələri……... **193**
.
2.4.2. İngilis dilində modallığın sintaktik ifadə vasitələri……... **229**
.
2.5. Modallığın struktur modelləri…….. **235**
FƏSİL 3. İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MODALLIĞIN SEMANTİK TƏHLİLİ….. **238**
3.1. Təsdiq modallığı……... **242**
3.1.1. Feli xəbərlə ifadə olunan təsdiq modallığı…… **242**
3.1.2. Predikativ adlarla ifadə edilən təsdiq modallığı.. **245**
3.2. İnkar modallığı…… **249**
3.2.1. Nəqli cümlələrdə inkar modallığı…….. **249**

3.2.2. Təsdiq və inkar modallıqlarının paralel olaraq işlənməsi……... **252**
3.2.3. Əmr cümlələrində inkar modallığı…… **253**
3.2.4. Şərt bildirən cümlələrdə inkar modallığı……... **253**
3.2.5. İnkar modallığının fellərlə ifadəsi…….. **253**
3.3. Sual modallığı……... **254**
3.3.1. Təsdiq və inkar bildirən sual cümlələri…….. **257**
3.3.2. Sualların formal tipləri…….. **258**
3.3.3. Sual mənasının başqa modal mənalarda birgə işlənməsi……... **260**
3.4. Əmr (təhriketmə) modallığı…… **260**
3.5. Şərt modallığı…… **265**
3.6. "Gələcək zaman" modallığı…… **267**
3.7. Dialoci nitqdə modallıq…… **269**
NƏTİCƏ…… **276**
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT…….. **281**

G İ R İ Ş

Mövzunun aktuallığı. İngilis və Azərbaycan dillərində modallıq kateqoriyasının müqayisəli tədqiqi bir çox cəhətdən aktualdır. Bunlardan birincisi ingilis dilinin tətbiqi sahələrinin Azərbaycanda yayılmasının genişlənməsi amilidir. İngilis dili özünün çoxmillətli auditoriyası ilə Azərbaycan gerçəkliyi ilə üzbəüz dayanmış və qarşılıqlı anlaşma situasiyası yaratmışdır. İkinci mühüm amil Azərbaycan xalqının və dövlətinin dünya iqtisadi, siyasi və mədəni sisteminə getdikcə daha artıq inteqrasiya olunması ilə əlaqədardır. Sovetlər İttifaqı dağıldıqdan sonra müstəqillik əldə etmiş bir çox ölkələrdə olduğu kimi Azərbaycanın da bu sahədəki axtarışları bir neçə istiqamətdə gedir. Bu prosesin uğurlu alınması Azərbaycan ilə xarici dünyanın qarşılıqlı anlaşılmasının, qavranılmasının ilkin şərtlərini tələb edir. Qarşılıqlı anlaşma isə müəyyən dərəcədə müvafiq dil şüurları arasında təmas nöqtələrinin, təmas sahələrinin olması ilə bağlıdır. Belə təmas nöqtələri əhəmiyyətli dərəcədə modallıq kateqoriyasının dərindən tədqiqi, hər iki dildə modal mənaların və onların təzahür formalarının aşkar olunmasını vacib edir. Məsələ burasındadır ki, modallıq kateqoriyası müxtəlifsistemli dillərdə ünsiyyəti təmin edən ən mühüm dil hadisələrindəndir. Bu kateqoriya dilin ifadə planından tutmuş onun məzmun planınadək, dilin adlandırma (işaretmə) funksiyasından tutmuş onun ifadəetmə (kommunikativ) funksiyasına qədər bir çox məsələləri əhatə edir.

Qeyd etmək lazımdır ki, ingilis dilində modallıq kateqoriyası elmi-nəzəri cəhətdən kifayət qədər öyrənilmişdir. Bu mövzuda həm fəlsəfi-məntiqi, həm də linqvistik mövqedən yazılmış əsərlər xeyli çoxdur. Belə bir vəziyyət ingilis dilinin beynəlxalq ünsiyyət rolu ilə bilavasitə bağlıdır.

Təəssüflə demək lazımdır ki, Azərbaycan dili bu barədə diqqət mərkəzində olmamışdır. Cümlənin məqsəd və intonasiyaya görə növləri məsələsi istisna olmaq şərtilə, sırf Azərbaycan dili materialları əsasında yazılmış tədqiqat işlərində modallıq məsələsinə sadəcə olaraq rast gəlmirik.

İngilis və Azərbaycan dillərinin müvafiq ikidilli auditoriyalarda tədris edilməsi, gündəlik ünsiyyət isə bu kateqoriyanın qarşılıqlı-müqayisəli şəkildə öyrənilmədən qənaətbəxş hesab edilə bilməz. Bu baxımdan yanaşdıqda Azərbaycan dilində modallığın öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Bu sahədə tədqiqat aparmaq üçün ingilis dilində modal mənaların ifadə üsulları bir növ çıxış nöqtəsi rolunu oynayır. Qeyd etmək lazımdır ki, ingilis və Azərbaycan dillərinin müxtəlifsistemli dillər olmalarına baxmayaraq bu dillər arasında modal mənalar sahəsində ümumiliklər müşahidə olunur.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın əsas məqsədi modallıq kateqoriyasının strateci və məhəlli ifadə üsullarını ayırd etmək, bu sahədə Azərbaycan və ingilis dillərinin müasir səviyyələrinə məxsus olan materiallardan çıxış etməklə həmin dillərin malik olduğu prosodik, leksik, morfoloci və sintaktik üsulları müəyyənləşdirmək və onları qarşılıqlı-müqayisəli surətdə öyrənməkdir. Bu məqsədə çatmaq üçün tədqiqatda aşağıdakı məsələlərin həllinə diqqət yetirilmişdir:

- germanşünaslıqda, Azərbaycan dilçiliyində və ümumtürkoloci dilçilikdə modallıq kateqoriyasının tədqiq edilməsi vəziyyətini və səviyyəsini müəyyənləşdirmək;
- modallıq kateqoriyasının fəlsəfi-məntiqi və linqvistik-qrammatik mahiyyəti ilə bağlı elmi nəzəri mənbələri nəzərdən keçirməklə ümumiləşdirmələr aparmaq;
- fəlsəfi və linqvistik modallıq bölgüsündən çıxış edərək obyektiv reallıq, təfəkkür və dilin qarşılıqlı əlaqələri baxımından ingilis, Azərbaycan, türkoloci və ümumi dilçilikdə irəli sürülən elmi-nəzəri müddəaları ümumiləşdirmək;
- müxtəlifsistemli german və türk dillərində modallıq kateqoriyasının tədqiq edilmə metodikasındakı istiqamətləri üzə çıxarmaq;
- müxtəlifsistemli ingilis və Azərbaycan dillərinin materialları əsasında modallığı funksional-semantik kateqoriya kimi tədqiqata cəlb etmək;
- modallıq kateqoriyasının fəlsəfi-məntiqi, linqvistik cəhətdən kifayət qədər öyrənildiyi german dilləri üçün əldə

olunmuş elmi-nəzəri müddəalara isnad etməklə Azərbaycan dilində modallığı tədqiq etmək;

- Azərbaycan dilində modallıq kateqoriyasını məzmun və ifadə vasitələri baxımından öyrənmək;
- ingilis və Azərbaycan dillərinin müasir səviyyələrinə məxsus olan materiallardan çıxış etməklə həmin dillərdə modallıq kateqoriyasının ifadəsində prosodik, leksik, morfoloci və sintaktik üsulları müəyyənləşdirmək;
- ingilis və Azərbaycan dillərində modallıq kateqoriyasının prosodik, leksik, morfoloci və sintaktik ifadə üsullarını qarşılıqlı-müqayisəli surətdə öyrənmək, həmin dillərdə modallığın ifadəsində fərqli və oxşar cəhətləri üzə çıxarmaq;
- ingilis və Azərbaycan dillərində modallıq kateqoriyasının struktur modellərini üzə çıxarmaq;
- ingilis və Azərbaycan dillərində modallıq kateqoriyasının semantik təhlilini vermək.

Tədqiqatın elmi yeniliyi. Azərbaycan dilçiliyində ilk dəfə olaraq flektiv analitik və aqqlütinativ quruluşlu ingilis və Azərbaycan dillərində modallıq kateqoriyasının təzahür formaları sistemli şəkildə nəzərdən keçirilmişdir. Bundan əlavə ilk dəfə olaraq Azərbaycan dilində modallıq kateqoriyası həm məzmun, həm də ifadə vasitələri baxımından öyrənilmişdir. Bütün bunlar tədqiqatın elmi yeniliyini təşkil edir.

Tədqiqatın metod və mənbələri. Modalıq kateqoriyasına struktur-semantik və sistemli yanaşma işi çoxşaxəli olduğundan tədqiqat prosesində istifadə edilən metod və üsullar da müxtəlifdir. Tədqiqat prosesində əsasən təsviri və qarşılaşdırma-müqayisə metodlarından, modallığın təhlilində sistem-struktur yanaşma və struktur-semantik təhlil üsullarından istifadə olunmuşdur. Tədqiqat sinxron planda aparılmışdır. Əsərdə faktik dil materialı olaraq müasir ingilis, Amerika və Azərbaycan yazıçılarının əsərlərindən seçilmiş və canlı danışıq nitqi nümunələrindən istifadə edilmişdir.

Tədqiqatın nəzəri və praktik əhəmiyyəti. Tədqiqatın nəzəri əhəmiyyəti ondadır ki, burada iki müxtəlifsistemli dilin materialları əsasında modallıq kateqoiyası ümumlinqvistik baxımdan nəzərdən keçirilir. Modallıq kateqoriyası dilin iki

mühüm cəhəti ilə – işarəvilik (adlandırma) və kommunikativlik (ünsiyyət) funksiyaları ilə sıx bağlıdır. Modallıq eləcə də dilin nisbətən yaxın vaxtlardan bəri tədqiq edilən praqmatik xüsusiyyətinə ən çox yaxın olan kateqoriyalardan biridir. Modallıq kateqoriyası son vaxtlar vüsət almış mətn dilçiliyi ilə bilavasitə olaraq təmasdadır. Aparılan tədqiqatlar sayəsində məlum olur ki, dilə praqmatik aspektdən yanaşma bu kateqoriyanın təzahür formalarının asanlıqla aşkar olunmasını təmin edir.

Tədqiqatın nəticələri ingilis və Azərbaycan dillərinin müqayisəli öyrənilməsi, tədrisi, bir dildən başqa dilə tərcümə və bir sıra ümumdilçilik məsələlərinin dəqiqləşdirilməsinə kömək edə bilər. Tədqiqatın bir məziyyəti də ondadır ki, burada monoloci və dialoci nitq materialları da bərabər hüquqda tədqiqata cəlb edilmişdir. Müvafiq materialların qarşılaşdırılması göstərir ki, nitq aktının bu iki səviyyəsində ümumi cəhətlərlə yanaşı, bir çox özünəməxsus, təkrarolunmaz xüsusiyyətlər də vardır.

Tədqiqatın aprobasiyası. Dissertasiya işi Azərbaycan MEA Nəsimi adına Dilçilik İnstitutunun Nəzəri və tətbiqi dilçilik şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəa və nəticələri müəllifin _____ monoqrafiyasında öz əksini tapmışdır. Mövzu ilə bağlı dilçiliyin aktual problemlərinə həsr olunmuş elmi konfranslarda məruzələr edilmiş və müxtəlif məcmuələrdə məqalə və tezislər dərc edilmişdir.Bu əsərlər dissertasiyanın məzmununu tam əhatə edir.

Tədqiqatın strukturu. Dissertasiya “İşin ümumi səciyyəsi” adlı hissədən, giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

FƏSİL 1.

GERMANŞÜNASLIQDA VƏ TÜRKOLOCİ ƏDƏBİY-YATDA MODALLIĞIN TƏDQİQİNƏ DAİR

1.1. Modallıq haqqında ümumi qeydlər.

Modallıq danışanın ifadə olunan fikrə münasibətini, ifadə olunan fikrin obyektiv varlığa münasibətini əks etdirən qrammatik-semantik kateqoriyadır. *"İzahlı dilçilik terminləri"* sorğu lüğətində göstərildiyi kimi *"ifadə olunan fikir məzmunca ya real, ya da qeyri-real şəkildə, ya mümkün, ya da qeyri-mümkün şəkildə, ya arzu olunan, ya da arzu olunmayan şəkildə, ya zəruri, ya da ehtimali şəkildə və s. anlaşıla, işlədilə bilər. Zaman və şəxs mənaları ilə modal məna birləşib predikativlik kateqoriyası əmələ gətirir. Modallıq anlayışı qrammatik və leksik vasitələrin (fel formaları, modal sözlər, intonasiya, ədatlar) köməyi ilə ifadə olunur"* [7, s.164].

Danışanın bütövlükdə ifadə olunan fikrə və ya bu fikrin ayrı-ayrı hissələrinə münasibətini bildirən sözlər isə modal sözlər kimi səciyyələndirilir [7, s.164].

Prof. M.Hüseynzadə isə belə hesab edir ki, modal sözlər nə əsas nitq hissəsinə, nə də köməkçi nitq hissəsinə aid edilə bilməz. Müəllifə görə, onlar əsas nitq hissələrindən əmələ gəlsələr də, artıq lüğəti mənaları olmur, bütün cümləyə, ya da cümlənin bir hissəsinə modallıq verən söz vəzifəsini daşıyırlar. Lakin, M.Hüseynzadə modallığı müəyyən bir iş, hadisə, əşya, əlamət və keyfiyyət haqqında verilən hökmün gerçəkliyini, həqiqiliyini ya təsdiq, ya da inkar edən bir məntiqi-qrammatik kateqoriya hesab edir [28, s.352].

Qrammatik kateqoriya kimi modallıq danışanın nitq prosesində ifadə olunmuş fikrə münasibətini bildirən nitq hissəsidir. Münasibət bütöv fikrin hamısına və ya onun ayrı-ayrı hissələrinə aid ola bilər. Qrammmatik baxımdan bu fikir müxtəlif səciyyəli və istiqamətli ola bilər. Ayrı-ayrı dil ailələrinə aid materialların araşdırılması nəticəsində deyilən fikrə münasibəti aşağıdakı kimi qruplaşdırmaq olar:

- təsdiqedici və ya inkaredici modallıq;

- obyektiv və ya subyektiv modallıq;
- həqiqi və ya qeyri-həqiqi *(yalan)* modallıq;
- real və ya qeyri-real modallıq;
- arzuolunan və ya arzuolunmaz modallıq;
- ehtimal olunan və ehtimal olunmaz modallıq;
- zəruri və ya qeyri-zəruri modallıq;
- vacib və ya qeyri-vacib modallıq;
- zaman modallığı.

Göstərilənlərdən əlavə, subyektiv modallığın daha bir neçə məna qrupunu göstərmək olar:

- əminlik və ya inamsızlıq bildirənlər;
- müəyyənlik və ya qeyri-müəyyənlik bildirənlər;
- ekspressivlik, gücləndirmə və ya zəiflətmə mənası bildirənlər.

Subyektiv modallığın müxtəlifsistemli dillərdə ifadə vasitələri də zəngindir. Belə ki, subyektiv modallıq intonasiya ilə, söz sırası ilə, sintaktik təkrarlarla, intensivlik və sürəklilik bildirən xüsusi konstruksiyalarla, ədat, modal sözlər, ara sözlər və ara cümlələrlə ifadə oluna bilər. Lakin, subyektiv modallıq münasibətlərini doğuran əsas vasitə modal sözlər hesab olunur.

Modal sözlər deyilən fikrə münasibət bildirən leksik qrammatik söz qruplarıdır. Onları konkret bir nitq hissəsinə aid etmək mümkün deyil. İsim, sifət, fel və başqa nitq hissələri ilə ifadə olunan nitq hissələri deyilən fikrə müxtəlif aspektlərdən münasibət bildirirlər. Araşdırmalar göstərir ki, əslində ifadə hansı nitq hissəsindən törəmişsə, onu ifadə edir. Deməli, modallaşma burada sonrakı prosesdir.

Modallaşmış söz qrupları vaxtilə mənsub olduqları nitq hissələri ilə bütün *"qrammatik"* münasibətlərini itirir, cümlədə başqa sintaktik ampulada çıxış edirlər. Modal sözlərdə vaxtilə mənsub olduqları nitq hissələrinin qrammatik əlamətləri daşlaşmış şəkildə qalır. Nitq hissələrinin qrammatik-valentlik xüsusiyyətləri də modallaşma prosesində itirilmiş olur. Dəyişməzlik, qrammatik əlaqə və münasibətlərin formal göstəricilərinə *"passiv"* münasibət modal sözlərin aparıcı cəhəti hesab olunur. Bunun məntiqi davamı olaraq modal sözlər ayrılıqda cümlə üzvü olmur, bütövlükdə cümləyə və ya onun bir üzvünə aid münasibət bildirir.

Cümlədə modal sözlər daha çox intonasiya ilə nəzərə çarpdırılır. Onlar ifadə olunarkən səsin yüksəkliyi, tembri, tonu, ritmi, fasilələrlə dəyişir və bu yolla danışanın deyilən fikrə münasibəti öz əksini tapır. Modal sözlər cümlədə müxtəlif sintaktik funksiyalar yerinə yetirə bilir.

- cümlədə ara söz funksiyasında çıxış edir;
- söz-cümlə kimi dialoq nitqində işlənir;
- mətndə sintaktik bütövlərin sərhədində müstəqil cümlələrin müəyyən tematik mövzu ilə bağlanmasına xidmət edir. Bağlayıcı funksiyasında çıxış edən bu sözlərdə nitqin subyektiv-modal istiqaməti dəyişmiş olur.

Beləliklə, modal sözlərin leksik-qrammatik kateqoriya kimi əsas xüsusiyyətləri onların semantikası və subyektiv modal cəhətləri, morfoloci dəyişməzliyi və müəyyən sintaktik funksiyaları ilə müəyyənləşir.

Modal sözlər üslubi baxımdan da zəngin xüsusiyyətlərə malikdir. Danışıq dilində, dialoqlarda, şifahi ünsiyyətin başqa növlərində modal sözlər bir çox üslubi funksiyaların yerinə yetirilməsinə xidmət göstərir.

Nəzəri dilçilikdə ən çox mübahisə doğuran məsələlərdən biri də modallığın dil səviyyələrində qatlararası sərhədlərini müəyyənləşdirməkdir. Bu məsələyə münasibətdə dilçilər arasında mübahisə doğuran cəhətlər çoxdur. Bəzən modallıq çoxmənalılıqla eyniləşdirilir və ya onun bir növü kimi səciyyələndirilir, bəzən isə məntiqi kateqoriyanın dilçiliyə süni surətdə köçürülməsi kimi başa düşülür. Məlum olduğu kimi məntiqdə modallığı şərtləndirən əsas əlamətlər mühakimənin reallıqla nisbətdə və müqayisədə həqiqiliyi, zəruriliyi və mümkünlüyü kriteriyalarıdır.

Lakin, bu sadalanan əlamətlər təbii dillərdə bu və ya digər fikrin təsdiqini sübut edən semantik çalarlar sahəsini tam əhatə etmir. Başqa sözlə sözlərin, hökm və mühakimələrin, cümlə konstruksiyalarının ifadəsi prosesində semantik diapazon daha əhatəli olur.

Məntiqi modallıqla linqvistik modallıq arasında prinsipial fərqlər dəqiq müəyyənləşdirilmədiyi üçün çox vaxt bu məsələ də mübahisə və müzakirə mövzusu olur. Məntiq elminin özündə belə modallığın tam məntiqi səciyyəsi verilməmiş, necə deyərlər, məntiq elmi çərçivəsində statusu

müəyyənləşdirilməmişdir. Fikrimizcə, modallığın formal-linqvistik sərhədləri məsələsi sırf dilçilik elminin problemidir və dilçilik elmi çərçivəsində təhlil olunmalıdır. Modallığın məntiqi nəzəriyyəsinin işlənib hazırlanması problemləri ilə əlaqədar yaranmış modal məntiq sahəsində də onun dilçilik aspektləri nəzərə alınmır. Müasir məntiq elmində modallıq nəzəriyyəsinin araşdırıcılarından biri Y.A.Slininin əsərlərində bu problemlərin tədqiqi ilə bağlı maraqlı fikirlərə rast gəlmək mümkündür [145, s.119-147].

Müşahidələr göstərir ki, mətndə birinci cümlə neytral mövqedə və məzmunda olur. Sonrakı mərhələlərdə birdirilən fikrə obyektiv və subyektiv münasibət, fərdin *("Mən"-in)* ziddiyyətli fikirləri *"qeyri-Mən"lə* qarşılaşdırılır. Modallıq kateqoriyası ilkin olaraq ən ümumi şəkildə bu zəmində yaranır və formalaşır. Dərin strukturda təşəkkül tapan modallıqda milli və tipoloci xüsusiyyətlər əks olunmur, daha çox insan dilinin ümumbəşəri, bütün dillər üçün ümumi olan cəhətləri bu kateqoriyada cəmləşir. Sonrakı mərhələdə modallıq qrammatik norma və qanunauyğunluqlardan uzaqlaşır, subyektiv münasibət çalarlarını özündə ehtiva edən xüsusi sintaktik vasitəyə çevrilir. Modallığın formalaşmasında qiymətləndirmə kateqoriyasının da rolu böyükdür. Linqvistik modallıq nəzəriyyəsi üçün mühüm əhəmiyyət kəsb edən amillərdən biri qiymətləndirmə subyektidir. Qiymətləndirmə subyekti obyektin müxtəlif kombinasiyalarında öz nisbi sabitliyini saxlayır. Müxtəlif situasiyaları əks etdirən mətnlərdə qiymətləndirmə subyektinin, danışan şəxsin sintaktik konstruksiyalar şəklində formalaşan subyektiv mülahizələri modallıq kateqoriyasının əsasını təşkil edir. Praktik müşahidələr göstərir ki, danışanın müəyyən obyektə və ya deyilmiş fikrə münasibəti dəyişməz deyildir. Tarixi inkişaf prosesində, cəmiyyətin, iqtisadi münasibətlərin strukturunda və məzmununda baş verən köklü dəyişikliklərlə əlaqədar danışanın deyilən fikrə münasibəti dəyişə bilər. Yəni, subyektiv qiymətləndirmə və münasibət donuq və əbədi deyil, dialektik inkişafın təsiri ilə müəyyən dəyişikliklərə məruz qalan bir prosesdir.

Beləliklə, dillə ifadə olunmuş hər hansı bir fikrin həqiqətə müvafiqliyini təsdiqləyən modallığın məna spektri dəyişərək real situasiyasını düzgün əks etdirə bilir. Bu, hər şeydən əvvəl ondan irəli gəlir ki, hətta eyni hadisəyə də eyni subyektin münasibəti dəyişə bilər. Situasiyanı qiymətləndirən başqa vasitələrdən modallıq bu baxımdan heç nə ilə fərqlənmir. Buradan belə bir nəticə çıxarmaq olar ki, modallığın özünü statik formada götürmək düzgün deyil. Şəxsiyyətin dünyagörüşünün inkişafı və formalaşması ilə əlaqədar olaraq modallığın məzmununda da dəyişiklik ola bilər. Əgər bu müddəanı qəbul ediriksə, onda *"obyektiv modallıq"* anlayışı sərbəst dəyişən modallıqla eyni çərçivəyə sığmır.

Modallığın linqvistik sərhədlərinin müəyyənləşdirilməsi onun tam linqvistik səciyyəsini verməklə və formal meyarlara əsaslanmaqla dil sistemi daxilində formal sərhədlərini müəyyənləşdirməkdir. Məsələn, danışanın deyilən fikrə münasibəti müxtəlif vasitələrlə ifadə oluna bilər: cest, emosional vasitələr, məntiqi nəticəyə əsaslanan münasibət, modal sözlər və ifadələr və s. Bütün bu sadalananlar modallığın linqvistik sərhədlərini müəyyənləşdirməyə mane olan amillərdir.

Müşahidələr belə bir nəticəyə gəlməyə imkan verir ki, sərbəst subyektiv qiymətləndirmə modal hissəcikləri və sözləri funksiyasını bağlayıcılar da yerinə yetirə bilərlər. Sözönlərindən fərqli olaraq onlar müxtəlif cümlə üzvləri ilə sərbəst əlaqəyə girir və modallığa xas xüsusiyyətləri ifadə edirlər. Bağlayıcılar danışanın deyilən fikrə münasibətini qiymətləndirmə vasitəsi rolunu uğurla yerinə yetirirlər. Onlar mətndə sintaktik vahidlərin koordinasiyasına və müxtəlif forma strukturlarına təsir göstərmir, onların idarə edilməsi və əlaqələndirilməsi funksiyalarından kənardır. Bu da onların bir çoxunun semantik məna daşımaları ilə səciyyələnir.

Danışan rasional qiymətləndirmə və ya tənqidi təhlil nəticəsində gəldiyi qənaətə uyğun olaraq müəyyən bağlayıcını seçir. Hətta intellektual səciyyələndirmə də subyektivliyi azaltmır. Bağlayıcının semantikasında danışanın deyilən fikrə qəti, tərəddüdlü, ehtimalı münasibəti öz əksini tapır. Çox vaxt bağlayıcıların modal

qiymətləndirmə cəhətləri nəzərə çarpmır. Əslində isə cümlə üzvlərinin müxtəlif tiplərinin diferensiasiyası və ya birləşmələri, onların növ rəngarəngliyi bağlayıcıların modal mənalarının fərqləndirilməsi yolu ilə əldə edilir.

Modallıq dil sistemində yeni yaranmış hadisə deyildir. Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrində, nağıl və dastanlarda, klassik ədəbiyyatda modallığı səciyyələndirən əlamətlərə rast gəlmək mümkündür. Eləcə də, tarixi mənbələrdə, hətta elmi üslubda yazılmış sələnamələrdə və xronikalarda bu və ya digər hadisəyə müəllifin münasibəti açıq-aydın hiss olunur.

Məna növlərinə və funksiyalarına görə modal sözlər məntiqi emosionallıq və müxtəlif leksik-qrammatik semantik vəzifələri icra edən vahidlərdən ibarətdirlər. Azərbaycan dilində aşağıdakıları misal göstərmək olar: ehtimal ki, şübhəsiz, çox güman ki, aydındır ki, görünür, məlumdur ki, ola bilsin ki, yəqin, bəlkə, deyəsən, nəhayət, doğrudan və s.

Bu modal sözlər cümlədə müxtəlif cümlə üzvlərinə və bütöv cümləyə aid münasibəti formalaşdırmaqla zəngin üslubi çalarlar yaradır.

Modallıq daim dəyişmədə və inkişafda olan canlı bir prosesdir. Nitq prosesində yeni-yeni leksik vahidlərin modal sözlərə çevrilməsi, modallıq ifadə etməsi müşahidə olunur. Bu dialektik inkişaf prosesində modal sözlərin dilin lüğət fondunda xüsusi çəkisi artan xətlə yüksəlir.

Azərbaycan dilində modal sözlər məna növlərinə görə aşağıdakı kimi təsnif edilir:

a) Təsdiqedici modal sözlər: *əlbəttə, həqiqətən, şübhəsiz, doğrudan (da), şəksiz…*

b) Yekunlaşdırıcı modal sözlər: *deməli, qısası, beləliklə, ümumiyyətlə, nəticədə…*

c) Ehtimalı modal sözlər: *bəlkə, yəqin, deyəsən, ehtimal (ki), güman ki), sanki, elə bil (ki)…*

Sintaktik funksiyasına görə daha çox ara söz və söz-cümlə funksiyasında çıxış edir [7, s.164].

Modallıq dilin inkişafının sonrakı mərhələlərində ünsiyyət prosesində yaranmış və formalaşmış ümumi və təbiətinə görə mürəkkəb məntiqi-linqvistik kateqoriyadır. Modallığın mürəkkəbliyi orasındadır ki, onda dilin bütün səviyyələrinə

xas olan əlamət və xüsusiyyətlər, qrammatik, sintaktik, semantik əlaqələr toplusu cəmləşmişdir. İnsan təfəkküründün artıq inkişaf etmiş mərhələsinin məhsulu kimi modallıq həm də milli özünəməxsusluğu əks etdirir. Bu cəhət modallıqla frazeologiya arasında körpu yaratmış olur. Dil səviyyələrindən, onun funksional imkan və vasitələrindən əlavə modallığın frazeoloci birləşmələr tərkibində işlənməsi dilçilik ədəbiyyatında az tədqiq olunmuşdur.

Məlum olduğu kimi, dil və təfəkkür problemləri kontekstində məntiqlə qrammatika elmlərinin kəsişdiyi nöqtələr çoxdur. Məhz bu baxımdan modallığın linqvistik mahiyyəti ilə məntiqi modallıq qarışdırılır. Bəzən modallıq bir linqvistik kateqoriya kimi tamamilə inkar edilir. Onun məntiqi mahiyyəti ön plana çəkilir. Linqvistik modallığa isə məntiqi modallığın dildə təzahür forması kimi baxılır. Qeyd etmək lazımdır ki, modallıq kateqoriyası fəlsəfi baxımdan da təhlil oluna bilər. Bu kateqoriya obyektiv reallıq, təfəkkür və dilin qarşılıqlı əlaqələri fonunda nəzərdən keçirilməlidir. Göstərilən əlaqələr fonunda məntiqi modallıq hökmün ən mühüm əlaməti kimi səciyyələndirilə bilər. Obyektiv əlaqələr məntiqi hökmün məzmununda müxtəlif forma və dərəcələrdə əks oluna bilər. Həmin forma və dərəcələrə görə hökmləri mümkün, həqiqi və zəruri növlərinə ayırırlar. Hökmdəki fikrin məzmunu real olaraq mövcud ola bilər və yaxud ehtimalı olur.

Dilçilik baxımından modallığın səciyyəvi cəhətləri yuxarıda qeyd olunmuşdur. Burada danışanın deyilmiş fikrə münasibəti ön plana çəkilir. Bu baxımdan məntiqi və linqvistik modallığı bir-birinə yaxınlaşdıran cəhətlər üzə çıxır.

Məlum olduğu kimi, linqvistik reallıq, yaxud qeyri-reallıq məntiqi həqiqilik və yalanla üst-üstə düşür. Burada bir mühüm cəhəti də nəzərdən qaçırmaq olmaz: deyilmiş fikrə münasibət *(onun reallığı, qeyri-reallığı, həqiqiliyi, yalan olması, vacibliyi, zəruriliyi, mühümlüyü, ehtimalı olması)* danışan tərəfindən bildirilir və bu münasibət subyektiv və ya obyektiv səciyyə daşıya bilər. Göstərilən xüsusiyyətləri əsas götürərək bir çox tədqiqatçılar (Q.V.Kolşanski, V.V.Panfilov, L.V.Bondarko) linqvistik modallığa məntiqi modallığın ifadə vasitəsi kimi baxırlar [115, s.94-98; 134, s.48; 133; 135; 69].

Lakin, bu məsələ ilə bağlı dilçilər arasında yekdil fikir yoxdur.

Başqa linqvistik kateqoriyalar kimi modallıq da məzmun və ifadə planları ilə səciyyələndirilir. Lakin, modallıq daha çox məzmun planı ilə səciyyələndirilə bilər və bu baxımdan semantik kateqoriya hesab oluna bilər. Modallığı məzmun və ifadə *(forma)* planlarının vəhdəti kimi götürsək, onda ona həm semantik, həm də qrammatik-prosodik kateqoriya kimi baxıla bilər [115; 136].

Tədqiqatçıların haqlı olaraq qeyd etdiyi kimi linqvistik təbiətinə görə modallıq sırf sosial, yaxud sırf fərdi kateqoriya hesab oluna bilməz [171]. Burada parodoksal bir hal müşahidə olunur: bir tərəfdən modallıq danışanın *(müəyyən situasiyada nitq prosesində iştirak edən konkret fərdin)* deyilən fikrə münasibətini bildirir, digər tərəfdən münasibət vasitəsi kimi dildə artıq formalaşmış, sabitləşmiş, hamının qəbul etdiyi leksik vahidlərdən istifadə edir. Deməli, həmin münasibəti ifadə edən vahidlər kimi, onun özü də artıq ictimai hadisədir. Fərd isə həmin ictimai hadisədən, dil faktından nitq prosesində istifadə edir. Əgər modallıq sırf fərdi kateqoriya olsaydı, onda onun dil daşıyıcıları tərəfindən mənimsənilməsi qeyri-mümkün olardı. Lakin, fərd cəmiyyətdə formalışmış münasibətlər toplusundan özünəməxsus şəkildə istifadə edir. Məhz bu göstərilənlərə görə modallığın həm fərdi, həm də sosial aspektləri üzə çıxmış olur.

Ümumiyyətlə, dilçilik ədəbiyyatında modallığın izahı müxtəlifdir. Ən ümumi şəkildə belə bir tərifi qəbul etmək olar ki, modallıq danışanın ifadə etdiyi nitqin *(söyləmin)* reallığa münasibəti deməkdir. Lakin bu tərifin özündə də bir ziddiyyət vardır. Reallıq dedikdə obyektiv olaraq mövcud olan dünya, aləm başa düşülür. Təbiidir ki, reallıqla obyektiv dünya, aləm heç vaxt üst-üstə düşmür. Başqa sözlə, danışanın reallıq, obyektiv dünya haqqında fikirləri subyektiv, şəxsi mülahizə ola bilər.

Linqvistik baxımdan mübahisə doğuran cəhətlərdən biri də modallığın semantik və ya qrammatik kateqoriyaya aidliyi məsələsidir. O.S.Axmanova *"Dilçilik terminləri lüğəti"ndə* modallığı danışanın dediklərinə *(söyləm)* və söyləmin

məzmunun reallıqla münasibəti zəminində izah edir və göstərir ki, modallıq müxtəlif vasitələrlə – qrammatik, leksik yollarla ifadə oluna bilər. Belə qrammatik ifadə vasitələrinə O.S.Axmanova felin şəkillərini, modal felləri intonasiya və s. misal gətirir [57, s.286-287].

Q.V.Kolşanski isə cümlənin modallığını ümumi semantik kateqoriya hesab edir. Modallıq söyləm vasitəsi ilə reallaşır və bütün söyləmə aid olur. Söyləm semantik baxımdan iki hissəyə bölünə bilməz. Məna cəhətinə görə cümlə tamdır. Semantika modallıqdan doğur və kommunikasiya prosesində reallaşır [115].

T.P.Lomtevin fikrinə görə modallıq semantik, daha dəqiq desək, semantik –kommunikativ funksiya kimi daha çox məntiqə aid edilə bilər. Modallıq bütün cümlə boyu yayılır, lakin xüsusi ifadə vasitəsinə malik deyil [125].

Əlbəttə, bu fikirlə razılaşmaq qeyri-mümkündür. Modallığın istər leksik-qrammatik, istərsə də prosodik və s. ifadə vasitələri məlumdur. Bu barədə artıq məlumat verildiyindən əlavə izahata ehtiyac yoxdur.

Semantik kateqoriya kimi modallıq ən yeni sintaksisin obyekti kimi də tədqiq oluna bilər [82; 62; 190]. Törədici qrammatikalarda modallıq dərin strukturun (sintaksisin) anlayışlarından hesab olunur. Tədqiqatçıların fikrinə görə səthi struktur modallığın mahiyyətini tam açа bilmir, çünki modallıq dərin strukturda, semantik qatda əks olunan semantik kateqoriyadır. Səthi strukturda modallığın ifadə üsulları və vasitələri müxtəlif ola bilər. Modallığın hər bir milli dildə ifadəsi də rəngarəng formalara malikdir. Rus dilçiliyində modallıq müxtəlif baxımlardan təsnif edilir [121; 105; 101]. Göstərilən təsniflərin həm oxşar, həm də fərqli cəhətləri vardır. Kruşelnitskaya, Zolotova və Yermolayevin araşdırmalarında modallığın üç tipi göstərilir. Obyektiv modallıq tipində danışanın nöqteyi-nəzərindən deyilmiş cümlənin məzmunun həqiqətə uyğunluğu ifadə olunur. Subyektiv modallıq tipində danışanın söyləmin məzmununa münasibəti əks olunur. Törəmə tipli modallıq daha mürəkkəb struktura malikdir. Burada əlamətin daşıyıcısı subyektlə predikativlik əlaməti arasında əlaqənin həqiqiliyinə münasibət bildirir. Birinci iki əlaqə tipi sintaksisxarici, üçüncü

tip isə sintaksisdaxili əlaqə tipi kimi müəyyənləşdirilir. Bəzi tədqiqatçılar analo]i prosesi fərqli anlayışlarla ifadə edirlər. Burada modallıq xarici və daxili modallığa ayrılır. Xarici modallıq obyektiv və subyektiv modallığı ehtiva edir, daxili modallıq isə subyektin icra etdiyi işə münasibəti bildirir.

Daxili modallıqda subyektin icra etdiyi hərəkətə mümkünlük, zərurilik, arzu və vaciblik planında münasibəti əks olunur.

Bu çərçivədə xarici modallıq altında söyləmin həqiqətə və danışanın söyləmin məzmununa münasibəti başa düşülür.

Anlayışların müxtəlifliyinə baxmayaraq deyilənləri yuvarlaqlaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, modallıq ən ümumi şəkildə iki hissəyə bölünür: obyektiv və subyektiv modallıq.

Obyektiv modallıq obyektiv reallığı *(həqiqəti)* əks etdirir. Subyektiv modallıqda danışanın münasibəti hiss olunur. Subyektiv modallıqda danışanın söylədiyi fikrə inamı /inamsızlığı, deyilən fikirlə razılaşması/ razılaşmaması öz əksini tapır. Bu prosesdə danışan ifadə etdiyi fikri həqiqətə uyğun gəlib-gəlməməsinə görə qiymətləndirmiş olur.

Modallığın obyektiv və ya subyektiv kateqoriyaya aid edilməsi ətrafında mübahisələr uzun müddət davam etmiş, indi də davam etməkdədir. Obyektiv modallıq obyektiv reallıqda obyektiv olaraq mövcud olan əlaqələrin səciyyəsini əks etdirir, subyektiv modallıq obyektiv reallığın konkret fərdin təfəkküründə əksidir. Bu baxımdan obyektiv reallığın əksi həmişə fərdi olur. Mənimsəmə konkret şəxsin bilik səviyyəsindən, məntiqi-psixolo]i təfəkkür tərzindən, yaddaşından və s. amillərdən asılı bir yaradıcı prosesdir. Obyektiv reallığın əksi, onun qavranması, mənimsənilməsi obyektiv ola bilməz, həmişə subyektivdir, çünki obyektiv reallığa münasibət konkret fərd tərəfindən bildirilir. Məhz bunları əsas götürən bir qrup tədqiqatçılar obyektiv modallığın mövcudluğunu qeyri-mümkün hesab edirlər. Modallıq heç vaxt obyektiv ola bilməz, çünki ictimai, kollektiv münasibət olmur. Doğrudur, ayrı-ayrı fərdlərin subyektiv münasibətlərinin toplusu son məqamda ictimai rəyi, münasibəti formalaşdıra bilər.

Deyilənlər bir daha göstərir ki, obyektiv və subyektiv modallıq anlayışları eyni prinsiplər, meyarlar əsasında izah olunmadığı üçün mübahisəlidir. İngilis və Azərbaycan dilinin materialları əsasında apardığımız ilkin araşdırmalar belə bir qənaətə gəlməyə imkan verir ki, modallığı mahiyyətinə və təbiətinə görə subyektiv hesab etmək olar. Subyektiv modallıq isə öz növbəsində obyektiv reallığın insan təfəkküründə əksinin nəticəsidir.

Tədqiqatçıların bir çoxu elə hesab elir ki, ümumiyyətlə, hər bir söyləm üçün subyektiv modallıq mütləqdir. Subyektiv modallıq olmadan söyləm mövcud ola bilməz [154, s-38].

Beləliklə, obyektiv modallıq verilən məlumatın reallığa münasibətinin səciyyəsini ifadə edir. Bundan fərqli olaraq subyektiv modallıq danışanın ifadə etdiyi nitq parçasına, məlumata münasibətini bildirir.

Obyektiv-subyektiv modal mənaların nisbəti məsələsinə ayrı-ayrı tədqiqatçıların münasibəti fərqlidir. Obyektiv-subyektiv modal mənaları əlaqəli olub bir-birini tamamlayır. Subyektiv modallıq obyektiv modallığa təsir edib onu mənaca dəyişdirə bilmir, yalnız bu mənanı başqa formada ifadə edir. Modallıq kateqoriyasına insan təfəkküründə öz əksini tapan obyektiv və subyektivliklərin dialektik vəhdəti kimi baxmaq olar.

Obyektiv və subyektiv modallıq – vahid tamın müxtəlif tərəfləri kimi səciyyələndirilə bilər. Subyektivin istənilən məlumatı təkcə məlumatdan ibarət olmur, həm də həmin verilmiş məlumata danışanın münasibəti bu və ya digər şəkildə öz əksini tapır.

Modallığın iki aspekti – obyektiv və subyektiv modallıq – bir-birini tamamlayaraq bütövlükdə cümlənin ümumi modallıq məzmununu yaradırlar. Hər iki aspekt məna yüklərinə görə eyni- qiymətlidirlər.

Modallığı doğuran, modal mənanı təşkil edən vasitələr müxtəlifdir. Tədqiqatçıların bir qrupu sual, nəqli mənalarını, reallıq, qeyri-reallıq, əsaslılıq, şübhə, mübahisə doğurmayan leksik-qrammatik söz qruplarını, ehtimallıq, mümkünlük, zərurilik, arzu və s. məna çalarları yaradan vasiələri modallığa aid edirlər [51, s.163].

Başqa qrup tədqiqatçılar reallığı, mümkünlüyü, zəruriliyi [115, s.94-98], digərləri nəqli, sual və əmr cümlələrini modallığa daxil edirlər [84, s.217-301].

Dilçilikdə qərarlaşmış başqa bir fikrə görə isə hiss və həyəcan ifadə edən sözlər də modal sözlər sayılır. Ş.Balli danışanın verilmiş məlumata istənilən münasibətini modallığa şamil edir [60, s.43-45].

Həmin müddəanı qəbul edənlər kədər, sevinc, təəccüb, qürur, qəzəb, qorxu və s. emosional-ekspressiv səciyyəli ifadələri modallıq yaradan vasitə hesab edirlər.

Lakin, emosional-ekspessiv vasitələri heç də bütün dilçi alimlər birmənalı olaraq modallıq kateqoriyasına aid etmirlər. Bu ideyanın tərəfdarları belə hesab edirlər ki, modallıqla emosional-ekspessiv vasitələr arasında heç bir əlaqə yoxdur, onlar bir-birinə bəzi cəhətlərinə görə yaxın olsalar da, müxtəlif semantik-funksional səciyyələrə malikdirlər.

Maraqlı problemlərdən biri də modallığın dilin hansı səviyyəsinə aid olması ilə bağlıdır. Tədqiqatçıların əksəriyyəti belə hesab edir ki, modallıq cümlə səviyyəsinə aiddir. Lakin, cümlənin özü də kontekstdə tam izah oluna bilir. Məhz bunu əsas götürərək modallığın çox vaxt cümlə səviyyəsindən daha yuxarı yarusda-mətn səviyyəsində araşdırılması məqsədəuyğun hesab olunur. Əgər indiyə qədər modallıq cümlə səviyyəsində öyrənilirdisə, dilçiliyin inkişafının hazırkı səviyyəsində mətn dilçiliyi sürətlə inkişaf etməyə başlamış, bir çox yeni anlayış və kateqoriyaların daha dərin mənimsənilməsi imkanı yaratmışdır. Modallıq da indi mətn səviyyəsində araşdırıldıqda bir çox yeni məna çalarlarının alınması və izahı reallaşır. Modallıq kateqoriyasının formalaşmasında, modal fonun yaranmasında kommunikativ kontekst elementləri də mühüm rol oynayır.

Məlum olduğu kimi, kommunikativ kontesktdə linqvistik ifadə vasitələri ilə yanaşı bir çox ekstralinqvistik vasitələr də iştirak edir ki, bu da modal mənaların reallaşması prosesində mühüm rol oynayır.

Beləliklə, modallıq kateqoriyası getdikcə genişlənərək söz səviyyəsindən cümləyə, cümlədən isə kontekstə keçmişdir.

Dilçilikdə mübahisə doğuran məsələlərdən biri də modallıqla predikativliyin nisbəti ilə bağlıdır. Tədqiqatçıların bir qrupu modallıqla predikativliyi eyniləşdirir, modallığı cümlənin predikativliyinin müəyyən forması hesab edirlər. Modallığı predikativliyin ifadə forması kimi səciyyələndirənlər də var [140, s.191].

Başqa qrup dilçilər modallığın predikativliklə əlaqəsini inkar etməsələr də, onu predikativliyin əsas ifadə vasitəsi hesab etmirlər. Bu səpkidə olan araşdırmalarda modallıq predikativlikdən daha geniş kateqoriya kimi səciyyələndirilir [52; 161, s.23).

Fikrimizcə, modallığı predikativliklə eyniləşdirmək doğru olmazdı. Modallıq predikativliyi əvəz edə bilməz, başqa sözlə, predikativ funksiya daşıya bilməz. Modallıq predikativliyə müxtəlif çalarlar verə bilər, onun məzmununda semantik mənalar yarada bilər, fel şəkillərinə xas cəhətlər əlavə edə bilər. Bu baxımdan modallıq fel şəkilləri ilə də bəzən eyniləşdirilir. V.Panfilov modallığı məntiqi-qrammatik kateqoriya hesab edir və onu sintaksisə aid edir. Bu cəhətdən modallıq fel şəkillərindən fərqləndirilir. Modallıq məntiqi-semantik kateqoriya kimi səciyyələndirilirsə, felin şəkilləri qrammatik-sintaktik hadisədir. V.Panfilova görə qrammatikada predikativliklə xəbərlik üst-üstə düşə bildiyi kimi modallıqla felin şəkilləri uyğun gələ bilər [133, s.174].

Modallıq kateqoriyası real və irreal kimi iki növə ayrılır. Belə heseb olunur ki, reallıq həqiqətə uyğunluq, irreallıq qeyri-müvafiqlikdir [81; 104; 147; 100; 193].

Bu məsələ də obyektiv və subyektiv modallıq kimi olduqca mübahisəlidir. Tədqiqatçıların bəziləri subyektiv modal mənanı real/irreal modallığa qarşı qoyur, onu heç birinə aid etmirlər.

Modallığın məntiqi-linqvistik mahiyyəti mürəkkəb olduğu kimi onun ifadə vasitələri də rəngarəngdir. Bəzən modallığın ifadə vasitələrini leksik-qrammatik sahə fonunda izah edirlər [87, s.57-58].

İngilis dilində modallıq felin şəkilləri, ara cümlələr, modal fel+infinitiv konstruksiyaları, modal sözlər və s. ilə ifadə olunur.

Kommunikativ modallıq təkcə cümlə növləri, felin şəkilləri, leksik vasitələr, modal sözlər vasitəsi ilə deyil, həm də intonasiya, vurğu, müxtəlif cestlər və s. ilə əmələ gəlir.

Modallığın yaranmasında intonasiya və vurğunun rolu bir çox tədqiqatçılar tərəfindən araşdırılmışdır [61, s.56; 76, s.55-87].

Modallıq çərçivəsində bu və ya digər fel şəkilləri ilə ifadə olunmuş sintaktik vahidlər olan nida, vokativ cümlələrlə də ifadə oluna bilər. Lakin, ingilis dilində modallığın əsas ifadə vasitəsi fel şəkilləridir.

Modallığın daha çox ifadə olunduğu vasitə leksik qatdır. Leksik qat bütün nitq hissələri ilə təmsil olunmuşdur. Həmin qatı təşkil edən sözləri modal sözlər adlandırırlar. Bundan əlavə, modallıq leksik-frazeoloci vahidlərlə də ifadə olunur. İngilis dilində modal fellər vasitəsi ilə də modallıq yaradılır.

L.D.Dolinskaya modallığın ifadə vasitələri kimi qrammatik, leksik, leksik-sintaktik və leksik-frazeoloci formaları göstərir [95]. Bu bölgüdə intonasiya və vurğu göstərilməmişdir. Halbuki, modallığı doğuran bir vasitə kimi Q.A.Zolotova və V.V.Vinoqradov intonasiya-sintaktik vasitənin *(intonasiya, vurğu və s.)* əhəmiyyətini xüsusi qeyd etmişlər.

Yuxarıda göstərilənlərin yekunu olaraq belə bir nəticəyə gəlmək olar ki, istər Azərbaycan, istərsə də ingilis dilində modallığın ifadə vasitələri ən ümumi şəkildə seçilmir. Modallıq əsasən morfoloci, leksik, leksik-sintaktik, leksik-frazeoloci, prosodik vasitələrlə əmələ gəlir. Azərbaycan dili ilə ingilis dili arasında fərq bu vasitələrin məzmununda və struktur tiplərinin müxtəlifliyindədir.

Funksional-semantik kateqoriya kimi modallıq danışanın ifadə etdiyi fikrə və reallığa münasibətini ifadə edir. Bu baxımdan modallıq obyektivliyin və subyektivliyin dialektik vəhdətinin insan təfəkküründə əksidir. Modallıq təsdiq/inkar, emosional-ekspressiv mənalı ifadələr, predikativlik, fel şəkilləri və formaları ilə sıx əlaqədə və münasibətdə olan məntiqi-linqvistik kateqoriyadır. Linqvistik modallıq real və irreal modallıqların məcmuyundan ibarətdir.

İngilis və Azərbaycan dillərində modallıq kateqoriyasının struktur-semantik tədqiqi bir linqvistik kateqoriya kimi onun

mahiyyətinin açıqlanması, müxtəlif sistemli dillərdə modallığın universal ümumi və fərqli xüsusiyyətlərinin müəyyənləşdirilməsi imkanı yaradacaqdır.

Məntiqi modalliq kateqoriyasi. Modallıq müəyyən hadisənin yerinə yetirilməsi gedişinə danışanın münasibətini əks etdirdiyi üçün onu məntiqi subyekt və predikatla əlaqədə də təhlil etmək olar. Hər hansı mühakimənin modallığı dedikdə mühakimədə haqqında danışılan cisim ilə onu bildirən məfhum arasındakı uyğunluqdan danışılır. Modallığın daha çox obyektiv və məntiqi olması fikri əsaslandırılır. Başqa sözlə, modallığın linqvistik olmaqdan daha çox məntiqi xüsusiyyətlərə malik olması və məntiqi baxımdan izah oluna bilməsi fikrini müdafiə edənlər məntiqi sillogizmlərlə bu tezisi əsaslandırmağa cəhd göstərirlər. Məntiqdə modallığa görə mühakimələr müxtəlif cür təsnif olunur:

Obyektiv modallıq üzrə: *a) mümkünat, b) gerçəklik, v) zərurət mühakimələri.*

Məntiqi modallıq üzrə: *a) problematik, b) həqiqi mühakimələr qrupu* [41, s.128].

Modal hökmlər subyekt ilə predikat arasında əlaqə və münasibətlərin ehtimalı, gerçək və zəruri səciyyə daşımasına görə üç növə ayrılır: *1) ehtimal (problematik) hökmləri, 2) gerçəklik (assertorik) hökmləri, 3) zərurət (apodikdik) hökmləri.*

Hələ XIII əsrin ortalarında U.Şevrud modal məntiqin problemləri baxımından təhlil aparmaqla modal hökmlərin aşağıdakı növlərini göstərirdi: həqiqi, yalan, ehtimal, qeyri-ehtimal, təsadüfi, zəruri [29, s.161].

M.İsrafilovun göstərdiyi kimi, hökmlərdə əks olunan əlaqə və münasibətlərin xarakteri və tipi, bir hökmün digər hökmdən asılılığı, hökmlərdə hadisələr arasındakı zaman, məkan və ya digər asılılıqlar əlavə informasiyalarda əks olunur. Əlavə informasiyaya daxil olan hökmlər modal hökmlər hesab olunur.

Hökmlərin modallığı-cisimlər və onların əlamətləri, xassələri arasındakı obyektiv münasibətləri əks etdirən hökmlərin, yaxud subyekt predikat arasındakı asılılıq tipinin əsaslandırılmasının xarakteri haqqında hökmdə əks olunan

aşkar və aşkar olmayan formada əlavə informasiya verməkdir. Müəllif belə hesab edir ki, məntiqdə qarşılıqlı əlaqə və qarşılıqlı təsir kimi qrup anlayışlarının köməyi ilə hökmlərin əlavə səciyyələrinin öyrənilməsinə modal kateqoriyalar deyilir [29, s.161].

Mümkünat mühakimələrində subyekt və predikatda əks olunan hadisələrin bağlılığı ehtimal şəklində verilir: *"S ehtimal ki, P-dir"*. Belə mühakimələrdə əks olunan hadisələr arasındakı bağlılıq müəyyən obyektiv imkana əsaslanır.

Gerçəklik mühakimələrində cisim və hadisələr arasındakı real həyatda olan əlaqələr, subyekt və predikatın arasındakı mövcud olan gerçək bağlılıq kimi əks olunur. Bu mühakimələrin ümumi düsturu belədir: *"S-P"-dir*. Gerçəklik mühakimələri onlarda əks olunan cisim və hadisələrin nə üçün bu bağlılığa malik olduqlarını deyil, gerçək olaraq həyatda mövcud olduqları kimi əks etdirir.

Zərurət mühakimələrində hadisələrin bağlılığı ən ümumi şəkildə əks etdirilir. Belə mühakimələrin köməyi ilə ən ümumi qanunları, ümumi müddəaları, qaydaları və sairləri ifadə edirik. Bu mühakimələrin ümumi düsturu belədir: *"S zəruri olaraq P-dir (deyil)"*.

Problematik mühakimələrdə obyektiv gerçəklikdə mövcud olmayan, lakin ola biləcəyi ağlabatan olan hadisələrin bu və ya digər cəhətlərini öyrənmək məqsədi ilə istifadə olunur. Problematik mühakimələrin düsturu belədir: *"S ola bilsin ki, P-dir (deyil)"*.

Həqiqi mühakimələr həqiqəti və ya yalanı inandırcı şəkildə iqrar və ya inkar edən mühakimələrdir. Həqiqi mühakimələrin düsturu *"S-P-dir (deyil)"* şəklində olur.

Məntiqi zərurət mühakimələri gerçəkliyin qanunauyğun və zəruri mahiyyətini açmaqla sübut edilən mühakimələrə deyilir.

Məntiqi imkanat mühakimələrində faktlar yalnız məntiqi yolla sübut oluna bilər. Əgər mühakimələrdə fikrimizin obyektinə aid edilən iqrar və ya inkar hələ praktikada sübut edilməyibsə, məntiqi yolla ehtimal olunursa, onları məntiqi imkanat mühakimələri adlandırırlar.

Həyatda, təbiətdə elə hadisələr var ki, onların baş verməsi, mövcudluğu qeyri-mümkündür. Məntiqi cəhətdən

qeyri mümkün mühakimələrin idrak prosesində böyük əhəmiyyəti vardır. Məntiqi cəhətdən qeyri-mümkün mühakimələrdə məntiqi yolla əldə etdiyimiz mühakimlər əks olunur.

Məntiqi münasibətlərin tipinə görə mühakimələri aşağıdakılara bölmək olar: *a) qəti mühakimələr; b) şərti mühakimələr; c) təqsimi mühakimələr; ç) birləşdirici mühakimələr.*

Qəti mühakimələr aşağıdakı qrupa bölünür: *a) vahid tərkibli subyektiv və predikatlı qəti mühakimələr b) mürəkkəb tərkibli mühakimələr.*

Vahid tərkibli subyekt və predikatlı mühakimələrin ümumi formulu belədir: "S-P-dir". Bu mühakimələrdə ya subyektdə predikatın həcmi, ya da predikatda subyektin həcmi açılır: *"S-A, B, V, Q və s.-dir"; "A, B, V, Q və s. S-dir".*

Şərti mühakimələrin məntiqi mahiyyəti onlardakı subyektlə predikatın əlaqəsindən asılı olaraq aşağıdakı növlərə bölünür:

a) şərti mühakimələrdə iqrar və ya inkar şərti səciyyə daşıyır, daha doğrusu, həmin mühakimələrin tərkibinə daxil olan müəyyən şəraitdən asılıdır.

b) Şərti mühakimələrdə şərtilik onların subyektlərinin ayrılmaz bir ünsürü kimi mühakiməyə daxil olur.

c) Şərti mühakimələrdə əsasla *(şərtlə)* nəticə arasındakı bağlılıq haqqında bilik, qabaqcadan mühakimənin öz daxilində verilir. Şərti mühakimələr həm də əsasla nəticə arasındakı bağlılıq haqqında bilik verir.

Təqsimi mühakimələrdə hər hansı cismə aid ola biləcək bir neçə xüsusiyyət ya iqrar və ya inkar edilir. Başqa sözlə, əşya və ya hadisəyə aid ola biləcək əlamətlər toplusunda biri ona aid edilir. Əlamətlər toplusu hamısı sadalanır ki, haqqında söhbət gedən obyekt barədə məlumat tam olsun.

Təqsimi mühakimələrin düsturu belədir: *"ya A, ya B və ya da D P-dir"; "S ya, A, ya B, ya da V-dir"*.

Birləşdirici təqsimi mühakimələrdə bir neçə yerə bölünmüş subyekt və ya predikat bir-birini rədd etmir, çarpazlaşırlar və mühakimənin o biri istilahına eyni dərəcədə aid olurlar.

Bu mühakimələrin ümumi düsturu belədir: *"S-(A, ya B, ya V) P-dir (deyil,) "yaxud" "S-(A, ya B, ya V…) P-dir (deyil)"*.

Rəddedici-təqsimi mühakimələrin düsturu belədir: *"S-in, S_1-in yalnız bir hissəsi P-dir", yaxud "S-P-nin, P_1-in, P_2-nin yalnız bir hissəsini təşkil edir"*.

Birləşdirici mühakimələrdə bir neçə sadə mühakimə birləşir. Özü də bu birləşmə məntiqi bağlılıq nəticəsində yaranır. Bu mühakimələrin iki növü vardır:

a) konyunktiv *(çox predikatlı)* mühakimələr. Belə mühakimələrin düsturu belədir: *"A həm B-dir, həm də C-dir"*. Bu mühakimələr onun üçün mürəkkəbdir ki, onun subyektini iki bambaşqa predikat səciyyələndirir.

b) Kapulyativ *(çoxsubyektli)* mühakimələrin formulu *"A və B-C-dir"*. Burada bir predikat iki müxtəlif subyekti səciyyələndirir.

Konyunktiv-kapulyativ *(çoxpredikatlı və çox subyektli)* mühakimlərəin düsturu belədir: *"A və B həm C və həm də D-dir"* [41, s-136-139].

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, modallıq universal bir kateqoriya kimi dilçilik, məntiq, fəlsəfi və fiziki aspektlərdən izah oluna bilər.

Digər tərəfdən modallığın tam mahiyyətini aydınlaşdırmaq üçün ayrı-ayrı elmlərdə onun funksiyalarının və ifadə vasitələrinin araşdırılması vacibdir.

Qrammatik modalliq. Qeyd etdiyimiz kimi, modallıq kateqoriyası haqqında müxtəlif dil materialları əsasında xeyli elmi-nəzəri ədəbiyyatın mövcudluğuna baxmayaraq indiyə qədər haqqında söhbət gedən kateqoriyanın tam linqvistik səciyyəsi verilməmişdir. Bir çox tədqiqatçılar isə modallığı linqvistik baxımdan izah etməyə cəhd göstərsələr də son məqamda məntiqə gedib çıxırlar. Nəticədə məntiqi modallıqla linqvistik modallığın sərhədləri qarışdırılır. Modallıq daha çox danışanın deyilmiş fikrə münasibətini geniş planda əks etdirən kateqoriya kimi səciyyələndirilir [76; 105; 115; 134; 136; 163].

Geniş kontekstdə götürdükdə, dil vasitəsi ilə bizi əhatə edən aləm haqqında müəyyən məlumat *(təsdiq, inkar, ehtimali, xüsui və s.)* verilir. Bu məlumatın verilməsində modal leksika, felin şəkilləri, intonasiya və s. mühüm amil

rolunda çıxış edə bilər. Bir çox dillərdə fel şəkillərinin modallıqla əlaqəsi qəbul edilmir və fel şəkilləri qeyri-modal kateqoriya kimi səciyyələndirilir.

Danışanın deyilən fikrə münasibəti subyektiv, şərti, ictimai norma, fərdin bilik dairəsi və s. amillərlə sıx bağlıdır. Bu göstərilən normalar daha çox fel şəkilləri ilə ifadə olunur *(əmr, arzu, şərt, vacib və s.)*. Qeyd etmək lazımdır bu xüsusiyyət bütün dünya dillərinə aid edilə bilər. Lakin, ayrı-ayrı dillərdə modallığın təzahür formaları və bu təzahürün ifadə formaları fərqlidir.

Göstərilən formalardan əlavə dilçilikdə müvəqqəti modallıq deyilən forma da mövcuddur. Müvəqqəti modallığın da ayrı-ayrı dillərdə leksik və qrammatik ifadə vasitələrinin olması məlum faktdır.

Modallığın elə komponentləri vardır ki, orada insanın verilmiş məlumata münasibəti felin əmr, arzu, şərt şəkli formasında özünü büruzə verir. Fel şəkillərinin modallıq funksiyaları heç də həmişə nəzərə alınmır. Bu da modallığın bir kateqoriya kimi hələ tam formalaşmaması, onun obyektinin müəyyənləşdirilməməsi ilə əlaqədardır. Lakin, müxtəlif sistemli dillərin materialı əsasında aparılmış araşdırmalar göstərir ki, modallıq universal dil kateqoriyasıdır.

Modallığın formalaşmasında mühüm rol oynayan vasitələrdən biri də intonasiyadır. Fonologiyada intonasiya vahidi olaraq müxtəlif terminlərdən istifadə olunur: intonema, prosodema, ikinci *(təkrar)* fonem, superseqment fonem və s. Son zamanlarda elmi ədəbiyyatda *"intonema"* termini daha çox işlənməkdədir. Müxtəlif sistemli dillərdə fonem sistemində intonem eksperimental şəkildə aydınlaşdırıla bilər. İntonemə cümlə semantikasını təyin edən intonasiya modeli kimi baxmaq olar.

Elmi ədəbiyyatda intonemi intellektual və emotiv növlərə ayırırlar [93, s.34-45]. İntellektual intonem kommunikasiya məqsədlərinə görə cümlələrin qarşılaşdırılması ilə nəqli, sual, əmr və nida cümlələrin fərqləndirilməsinə xidmət edir. Bundan başqa məlumat prosesində frazaların mühüm informativ vahidlərə parçalanması da intellektual intonemlərlə aparılır. Tabelilik və tabesizlik əlaqələrinin ifadə

vasitələrindən biri də intellektual intonemlər hesab olunur. Bunlar sadə, mürəkkəb sintaktik vahidlər, eləcə də cümlənin aktual üzvləri arasında əlaqə yaratmaq imkanına malikdirlər.

Məlum olduğu kimi, istər Hind-Avropa, istərsə də türk dillərində kommunikativ tipli cümlələrdə leksik və qrammatik vasitələrlə yanaşı intonasiyadan da istifadə olunur. Sual və nəqli cümlələrdə intonasiyanın rolu daha da artmış olur. İntonasiya modallığın və predikativliyin ifadə olunmasında mühüm amillərdəndir. Kommunikativ intonema cümlə strukturunu formalaşdırmaqla bərabər modallığı və predikativliyi də yaradan vasitəyə çevrilir.

Cümlənin aktual üzvlənməsi müxtəlif sistemli dillərdə özünü müxtəlif cür göstərir. Aqqlütinativ dillərdə sual intonasiyasının formalaşmasında xüsusi morfoloci göstəricilər mühüm rol oynayırsa, flektiv dillərdə morfoloci göstəricinin funksiyasını da intonasiya yerinə yetirir. Məsələn, Azərbaycan dilində *-mı, -mi, -mu, -mü* sual göstəricisi cümlənin ayrı-ayrı üzvlərini aktualllaşdırmaq qabiliyyətinə malik bir hissəcikdir.

Analitik dillərdə predikatın ayrılması və xüsusi vurğu ilə deyilməsi ilə yanaşı modal sözlərdən də istifadə olunur. Belə modal sözlər artikllə bərabər bu və ya digər cümlə üzvünü aktuallaşdırırlar: ***perhaps*** *- "ola bilsin",* ***possibly*** *- "mümkündür",* ***probably*** *- "ehtimal ki",* ***evidently, obviously*** *- "yəqin ki",* ***of course*** *- "əlbəttə",* ***surely*** *- "şübhəsiz, əlbəttə",* ***no doubt*** *- "şübhəsiz",* ***in fact*** *- "faktik olaraq",* ***in truth*** *- "həqiqətən",* ***naturally*** *- "təbii ki" və s.* Modal sözlərdən başqa ayırıcı-məhdudlaşdırıcı hissəciklər də aktual üzvlənmə prosesində fəaldır.

Beləliklə, modallığa müəyyən kommunikativ məqsədi səciyyələndirən leksik-qrammatik kateqoriya kimi baxmaq olar. Subyekt və predikatın əlaqəsi cümlə konstruksiyası ilə tamamlanır ki, bu da öz növlərində danışanın verdiyi məlumata müəyyən münasibətini əks etdirir. Bu cəhətdən modallığın obyektiv və subyektiv qütblərə ayrılması nisbidir. Bütün hallarda modallıqda subyektivlik elementi özünü göstərir.

Linqvistik modallığın struktur-semantik sahəsi aşağıdakı kimi təsvir oluna bilər: $MSS=A\Lambda(A_1VA_2VA_3)$

Burada Λ - *məntiqi konyunksiya işarəsi, V - məntiqi dizünksiya işarəsidir*. Qeyd etmək lazımdır ki, bu halda istənilən cümlədə müvafiq *(A)* sinfinin elementləri hökmən olmalıdır. *(A)* subyekt-predikat əlaqəsində kommunikativ quruluşu təmin edən əsas vasitə funksiyasını yerinə yetirir. cümləni əmələ gətirən üzvlərin istənilәni həqiqidirsə, onda yuxarıdakı düsturdakı dizünksiya həqiqidir. Bu düsturda *(A_1), (A_2)* bir-birindən fərqli moduslardır, lakin bu moduslar bir-birini istisna etmirlər və eyni zamanda işlənə bilərlər [93, s.41]. məsələn: Yəqin, burada maşın saxlamaq qadağandır. Bu cümlədə yəqin və qadağandır leksemləri *(A_1), (A_2)* moduslarına daxildirlər.

Müxtəlifsistemli dillərdə modallığı doğuran əsas vastələrdən biri də felin şəkilləridir. Çünki, danışanın və ya yazanın məlumatın mənasına münasibəti fel şəkillərində öz əksini tapmış olur. Bu o demək deyildir ki, modallığın bütün linqvistik səciyyəsi fel şəkilləri ilə tam əhatə olunmuş olur.

Müxtəlif dillərin materialı əsasında modallığın formalaşmasında mühüm rol oynayan fel şəkillərinə aşağıdakıları aid etmək olar: *1) əmr şəkli (imperativ); 2) təsdiq şəkli; 3) inkar şəkli; 4) sual şəkli; 5) nida şəkli; 6) şərt şəkli; 7) güzəşt şəkli; 8) ehtimal şəkli; 9) lazım şəkli; 10) arzu şəkli; 11) potensiya şəkli; 12) absentiv şəkli (hərəkətin qeyri-şahidliyi şəkli); 13) qadağan edici şəkli; 14) icazəverici şəkli və s.*

Məlum olduğu kimi yuxarıda göstərilmiş fel şəkilləri bütün dillərdə eyni sayda və linqvistik səciyyədə təmsil olunmamışdır. Məsələn, Azərbaycan dilində fel şəkilləri aşağıdakılardır: *1) felin əmr şəkli; 2) felin xəbər şəkli; 3) felin lazım şəkli; 4) felin arzu şəkli; 5) felin vacib şəkli; 6) felin şərt şəkli; 7) felin ümumi şəkli (felin bacarıq şəkli; felin sual şəkli)* [28, s.207-229]. Bundan başqa, məsdəri də bu siyahıya əlavə etmək olardı.

Modallıq morfoloci, sintaktik, leksik və fonetik vasitələrlə ifadə oluna bilər. Xəbər şəklində danışan gerçəkliyin obyektiv təsvirini verdiyi üçün belə modallıq modal gerçəklik kimi səciyyələndirilə bilər. Geniş planda götürdükdə xəbərlik başqa fel şəkillərinə nisbətdə neytral hesab oluna bilər. Felin xəbər şəklində indiki, keçmiş və gələcək zamanda

təsvir olunan hal, vəziyyət və hadisənin başvermə faktı ya təsdiq, ya da inkar olunur. Burada müəyyən hadisənin baş verməsi faktı real olaraq əks olunur və subyektin həmin hadisəyə emosional-şəxsi münasibəti öz ifadəsini tapmır. Başqa sözlə, felin xəbər şəkli öz məzmununa görə obyektiv hesab oluna bilər. Xəbər şəklində danışan hər hansı bir baş verən hadisəni fakt, obyektiv reallıq kimi təsvir edir, lazım şəklində isə fakt deyil, danışanın münasibəti fonunda reallıq izah olunur. İstər Hind-Avropa, istərsə də türk dillərinin tədqiqi ilə məşğul olan dilçi mütəxəssislərin bu məsələyə münasibətlərində yaxınlıq vardır [138; 86; 164; 180; 182; 119; 96; 116; 131].

Qeyd etmək lazımdır ki, xəbərlik kateqoriyasının obyektiv reallığı, gerçəkliyi olduğu kimi heç bir subyektiv münasibət olmadan əks etdirmək fikri ilə tam razılaşmaq qeyri-mümkündür. Danışanın baş vermiş hadisəni, situasiyanı qiymətləndirilməsi faktik reallıqla tam üst-üstə düşə bilməz. Danışan özünün dünyagörüşü, təhsili, bilik səviyyəsinə uyğun şəkildə hadisələr barədə fikir yürüdə bilər. Danışanın tam obyektiv hesab etdiyi situasiya, əslində hadisənin subyektiv izahından başqa bir şey deyildir. Danışanın nöqteyi-nəzərindən reallıq obyektiv gerçəkliyin reallığı deyildir. Obyektiv reallıq və ya gerçəklik adlındırdığımız eyni situasiya və hadisələr danışanlar tərəfindən eyni cür izah olunmur. Əslində, baş vermiş hadisənin subyektiv izahı qabaqcadan qarşıya məqsəd kimi qoyulmamışdır. Danışanın özündə elə fikir yarana bilər ki, onun bu və ya digər hadisəni təsvir etməsi obyektivdir. Lakin, hadisənin mütəxəssis tərəfindən qiymətləndirilməsi nəticəsində məlum ola bilər ki, danışanın təsviri subyektiv səciyyə daşıyır. Buradan belə bir nəticəyə gəlmək olar ki, xəbər şəklinin felin başqa şəkillərinə nisbətən obyektiv səciyyə daşımasının özünə də bir qədər “ehtiyatla” yanaşmaq lazımdır, yəni bu obyektivliyin özü də nisbidir. Danışan cəhd göstərir ki, onun hadisəni təsvir prosesində izahı həqiqətə mümkün qədər uyğun olsun, lakin bu cəhd həmişə uğurla nəticələnə bilməz.

Məhz bu baxımdan bəzi dilçilər xəbər şəklini hadisənin baş verməsi barədə məlumat verilməsinə xidmət edən qrammatik forma hesab edirlər. Onların fikrinə görə, xəbər

şəkli şəxsə və kəmiyyətə görə dəyişir və onda modallıq çalarları çox zəifdir. Ona görə də, onu fel şəkillərindən biri kimi, səciyyələndirmək olmur. Bu fikrin əsas tərəfdarlarından olan S.Cəfərov modallığı yalnız subyektiv kateqoriya hesab edir, onun obyektiv aspektini nəzərə almır [20, s.29].

Məsələyə bu cür yanaşdıqda danışanın obyektiv aləm haqqında söylədiklərini gerçəkliyin tam əksi kimi qəbul etməliyik. Bu isə qeyri-mümkündür. Bütün variantlarda danışan özünün biliyi və dünyagörüşünə uyğun şəkildə obyektiv aləmi dərk edir və mənimsədiyi səviyyədə də təsvir edir. Deməli, burada subyektiv amil hökmən nəzərə alınmalıdır.

Beləliklə, xəbər şəklinin semantik mahiyyətindən danışdıqda qeyd etməliyik ki, burada modallıq danışan şəxsin subyektiv fikirləri ilə sıx əlaqəli olur.

Xəbər şəklinin müxtəlif yozumları bir də onunla əlaqədardır ki, onun özünün xüsusi morfoloci əlamətləri *(göstəriciləri)* yoxdur. Türk dillərində hərəkətin keçmişdə, indi və gələcəkdə baş verdiyini göstərən zaman formaları xəbərin də formal əlaməti hesab olunur. Analoci hal bir çox başqa sistemli dillərdə də müşahidə olunur. Xəbərlik kateqoriyası reallığın, gerçəkliyin modallığını ifadə edən bir kateqoriyadır. Reallıq, gerçəklik isə müəyyən obyektiv zaman çərçivəsində mövcud ola bilər. Məlumatın reallığını sübut etməklə, biz həm də onun həqiqətdə, mövcud zaman hüdudunda baş verdiyini təsdiqləmiş oluruq.

Xəbər formasında morfoloci əlamətin olmamasını sıfır göstərici *(əlamət)* kimi səciyyələndirmək olar. Felin digər şəkillərində real obyektə münasibət müəyyən şəkilçilərlə ifadə olunur. Həmin şəkilçi çox vaxt neqativ əlaməti bildirir. Xəbər şəklində isə belə formal göstərici olmadığı üçün həm real, həm də qeyri-real hadisələri ifadə edə bilər. Azərbaycan dilində vacib, lazım, arzu, şərt və əmr şəkillərinin morfoloci əlamətləri vardır. Onlar real deyil, ideal hadisələrə aid edilə bilər. Bu şəkillər hətta keçmiş zaman şəkilçisi ilə işləndikdə belə onlarda gələcək məzmunu yenə qalır. Belə xüsusiyyət xəbər şəklində özünü göstərmir. Xəbər şəklində hadisənin reallığı və qeyri-reallığına münasibətdə bir neytrallıq hiss olunur. Əgər felin digər

şəkillərində morfoloci göstəricinin olmaması hadisənin qeyri-reallığına işarədirsə, xəbərdə heç bir qrammatik göstəricinin olmaması onun həm real, həm də qeyri-real məzmunu əhatə etməsi kimi izah oluna bilər.

Beləliklə, sıfır şəkilçi, yəni şəkilçinin olmaması, başqa fel şəkilləri ilə müqayisədə üzə çıxır və bu formanın modal neytrallığının göstəricisi olur.

Xəbər şəklinin modal neytrallığı başqa fel şəkillərinin subyektiv modallıqlarının təsiri ilə müəyyən dəyişikliyə məruz qala bilər. Bəzən bu təsir modal neytrallığın daha da güclənməsinə xidmət edir, bəzən isə haqqında danışılan məlumatı reallıqdan qeyri-reallığa çevirir.

Məsələn, Azərbaycan dilində *"heç şübhəsiz"* modal birləşməsi haqqında söhbət gedən gerçək hadisənin gerçəkliyini bir qədər də qüvvətləndirirsə, həmin mövqedə "görünür" modal sözünü yerləşdirməklə məlumatın gerçəkliyinə şübhə, inamsızlıq motivləri yaranmış olur. Məs.: ***Heç şübhəsiz,*** *onun gəlişi çoxunu məyus etdi.* ***Görünür,*** *onun gəlişi çoxunu məyus etdi.*

Felin xəbər şəkli müxtəlif modal sözlərlə işləndikdə digər fel şəkillərinə uyğun modal mənalar yaranır ki, bu da fel şəkillərinin semantik cəhətdən yaxınlaşması ilə nəticələnir. Əslində daha çox gerçək münasibətləri əks etdirməli olan xəbər şəkli *"ehtimal ki", "mənə elə gəlir ki", "ola bilsin ki", "güman ki" və s.* sözlərlə işləndikdə dəyişir və modal ifadələrə uyğun mənalar kəsb edir. Xəbər şəklinin modal modifikasiyaları ədat, vurğu və intonasiyanın köməyi ilə də əldə oluna bilər.

Analoci hal alman dilində də özünü geniş şəkildə göstərir. Müxtəlif modal sözlər və vurğunun köməyi ilə xəbər şəklinin modal mənası dəyişir və geniş məna spektrinə malik olur. Nəticədə gerçəkliyin real əksi subyektiv transformasiya nəticəsində aşağıdakı sadalanan mənaları ala bilər:

- ehtimal, mümkünlük, şübhə, sual;
- tələqin, inandırma, əmr və s.

Alman dilində xəbər şəkli yalnız neytral məzmunlu kontekstlərdə həqiqəti real əks etdirir, yəni bu qəbildən olan mətnlərdə subyektiv amil nəzərə çarpmır. Bu mənanın reallaşması üçün xüsusi səy tələb olunmur. Obyektiv

həqiqətin təsviri leksik-qrammatik vasitələrin köməyi ilə intensivləşdirilə bilər.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, xəbər şəklinin modallıq ifadə etməsi istər türk, istərsə də Hind Avropa dillərində bir çox xüsusiyyətlərə malikdir. Azərbaycan dili bu cəhətə görə hətta bir çox türk dillərindən də fərqlidir. Alman dilində fel şəkillərinin zaman formaları arasında fərqlər yoxdur, modallıq xüsusiyyətinə görə onlar eynicinslidirlər. Azərbaycan dilində xəbər şəklini təşkil edən ayrı-ayrı leksik vasitələr modal planda müxtəlif səciyyəli olurlar və ayrılıqda təhlil oluna bilərlər.

Azərbaycan dilində xəbər şəkli zaman baxımından olduqca zəngindir. Onların səciyyəvi cəhətlərindən biri odur ki, zaman və növ əlaqələri bildirməklə yanaşı, heç bir modal söz və vasitə olmadan, öz morfoloci strukturları ilə subyektiv modallıq ifadə edə bilərlər. Bəzən bir-birinə zidd zaman formaları nisbi cüt əmələ gətirərək zaman müstəvisində iki müxtəlif modallıq-gerçək obyektiv və şübhə, ehtimal, inamsızlıq ifadə edən subyektiv modallıq bildirirlər. Həmin formaların modal-zaman mahiyyəti bu zaman dəyişmir və bu forma xəbər şəkli sistemində qalır. Lakin, bu əsas modallıq sırf subyektiv modallığın müxtəlif çalarları ilə müşayət olunur. Həmin subyektiv modallıq modal sözlər və vasitələrlə deyil, müəyyən kontekst fonda müvafiq fel foması ilə əldə edilmiş olur. Bu fel şəklinin zidd formaları ilə qarşılaşdırma prosesində bu subyektiv modallıq çalarları daha qabarıq və aydın nəzərə çarpır. Bu vaxt onlar semantik-ziddiyyət təşkil edən zaman formalarının köməyi ilə obyektiv gerçək modallıq və şübhə, ehtimal, qeyri-əminlik çaları ifadə edən subyektiv modallıq bildirirlər. Lakin, bu zaman onların əsas funksiyaları – modal-zaman mahiyyəti itmir və felin xəbər şəkli funksiyasında işlənməkdə qalır. Subyektiv çalar modal söz və ya digər leksik hissəciklərin köməyi ilə deyil, müəyyən kontekst daxilində müvafiq fel formalarının köməyi ilə əldə edilir. Azərbaycan dilində semantik ziddiyyət əmələ gətirən cütlərə şühudi keçmiş, nəqli keçmiş, qəti gələcək, qeyri-qəti gələcək, bitmiş və bitməmiş keçmiş formalarını göstərmək olar. Bu zaman formaları baş vermiş hadisənin qəti və ya qeyri-qəti,

şahidliklə və ya nəqli olaraq baş verməsini göstərməklə özündə subyektiv çaları saxlamış olur. Məsələn, danışanın baş verəcək hadisənin mütləqliyi və ya ehtimallı olması barədə düşüncələri qəti və ya qeyri-qəti gələcək zaman formalarında öz əksini tapır: *"Sabah mən Sizə gələrəm"* - cümləsində bir ehtimal, qeyri-əminlik varsa, *"Sabah mən Sizə gələcəyəm"* - cümləsində qətilik, mütləlqlilik çaları açıq-aydın hiss olunur.

Gələcək zamanın subyektiv çalar ifadə etməsi fikri Hind-Avropa dillərinin materialları əsasında da sübut olunmuşdur. Alman dilində gələcək zamanın I və II şəxs formaları ehtimali modallıq ifadə edirlər. Belə ki, alman dilində futurum I gələcək zamanı ifadə etsə də, indiki zamana aid edildikdə ehtimal çaları bildirirlər. Futurum II isə müasir alman dilində gələcək zamanı bildirməklə, keçmiş zamana münasibətdə ehtimal məzmunu bildirir. Qeyd etmək lazımdır ki, bu forma german dillərində böyük işləkliyə malikdir. Ona görə də çox vaxt bu formanı ehtimal mənası verən xüsusi fel şəkli hesab edirlər.

H.Brinkman alman dilində futurumu gələcək zaman forması hesab etmir. O göstərir ki, futurum zaman forması danışanın təsvir etdiyi hadisə məkanında baş verir, yəni burada zaman əslində danışan tərəfindən müəyyənləşdirilir. Məhz bu cəhətlərinə görə Brinkman futurumu *"gözləmə şəkli"* hesab edir (Modu der Erwartung) [173, s.325].

Fransız dilində xəbər şəklinin zaman formalarında modal mahiyyətli formalar vardır. Fransız dilində *futur* keçmiş zaman bildirəndə bu forma *passe compose* ilə üst-üstə düşür. Fərq zamanla deyil, qətilik və ya qeyri-qətiliklə müəyyənləşir. *Futur anterieur* forması keçmiş zamana aid olub vaciblik və ya ehtimal bildirir [128, s.15].

Lakin keçmiş zaman ifadələrinin gələcək zamana aid edilməsi uyğunsuzluq törədir. Belə situasiyalarda *futur anterieur* zaman ifadə etmək qabiliyyətini itirir *passe compose* formasından yalnız modal cəhətlərinə görə fərqləndirilə bilər. Bu formanın modal mənasında ehtimal çaları özünü göstərir. Bir çox tədqiqatçılar bu formanı xüsusi fel şəkli *suppositif* hesab edirlər [128, s.15].

Mətn dilçiliyində son zamanlar mətnin təşkilində subyektiv amil araşdırma obyekti kimi diqqəti cəlb edir. Bu məsələ ilə bağlı Ş.Ballinin, E.Benvenistin, V.Matezeinsun, V.V.Vinoqradovun və başqalarının fikirləri çox maraqlıdır. Məsələn, *məlum olduğu kimi, əlbəttə, həqiqətən, elə bilki, çox güman ki, şübhəsiz* tipli sözlər mətndə subyektiv münasibəti formalaşdıran vasitələr kimi maraq doğurur.

Ümumiyyətlə, modal sözlərin binar xüsusiyyəti hamı tərəfindən etiraf edilir. Yəni, istənilən cümlədə danışanın deyilən fikrə münasibətdə əminliyi/qeyri-əminliyi öz əksini tapır. Məhz bu meyara görə bütün modal sözlər təsnif edilir. Elə bir semantik sahə təsəvvür edilir ki, onun bir qütbündə əminlik, digər qütbündə isə ehtimal, qeyri-əminlik, tərəddüd durur. Bu iki qütb arasında bütün modal sözləri yerləşdirmək olar.

Əminlik qütbünə yaxın olan sözlərdə tam əminlik ifadə olunursa, qütbdən uzaqlaşdıqca ehtimal, qeyri-əminlik artır. Məlum olduğu kimi bütün cümlələrdə modal sözlər işlənmir. Məhz bununla əlaqədar belə bir sual meydana çıxır: modal sözlərin işlənməsini şərtləndirən hansı situasiyalardır? Nə zaman modal sözlərin cümlədə işlənməsi zərurəti yaranır? Adi, təsviri mətnlərdə obyektiv reallıq bədii obrazlarda təsvir olunur və burada müəllif nitqinə, izahına ehtiyac duyulmur.

Müəllif müdaxiləsinin, müəllif "mən"inin iştirak etdiyi mətnlərdə isə modal sözlərin işlənməsi zərurəti yaranır. Yazıçı təhkiyəsində müəllifin mövqeyi, onun ayrı-ayrı personaclara, hadisələrə münasibəti öz əksini tapır. Belə məqamlarda oxucunun diqqətini cəlb etmək üçün hökmən modal ifadələrin işlənməsi yazıçı təhkiyəsinin canlı, cəlbedici və inandırıcı olması imkanı yaradır. Yazıçı-müəllif özünün şəxsi prizmasından, özünün subyektiv-modal münasibətlərini birbaşa ifadə edə bilər. Bu zaman mətn müəllifin hadisələri və insanları şəxsi qiymətləndirmə meyarları ilə səciyyələndirilir. Başqa hallarda mətn müəllifi şərhçi rolunda çıxış edir. Digər şəxslərin mövqeyi və qiymətləndirilməsi baxımından insanları və hadisələri modal ifadələrdən istifadə etməklə qiymətləndirir. Bəzən mətn müəllifi ilə onun personacları, ünvan sahibləri ilə dialoq

recimi yaradılır. Burada dialoq çərçivəsində modal münasibətlər açıqlanır.

Modal sözlər daha çox faktların etibarsız təsir bağışlaması ilə əlaqədar olur. Belə hallarda müəllif nitqində *"ehtimal ki", "ola bilsin ki", "ola bilməz ki"* və s. ifadələr işlənmiş olur.

Müəllif mətnində iştirak bəzən qısa izahatlardan ibarət olur. Bu və ya digər hadisənin təsviri prosesində müəllif ani olaraq öz izahatını verir, sonra yenidən müəllif *"məni"* olmadan hadisələrin təsviri davam edir.

Beləliklə, müəllif nitqinə daxil edilmiş modal sözlər mətn müəllifinin *"mən"inin* ayrı-ayrı surətlərə, təsvir olunan hadisələrə münasibətini bildirməyə xidmət edən bir vasitə rolunu oynayır. Bu, modal sözlərin funksional aspektlərindən birinin aydınlaşdırılması baxımından əhəmiyyətlidir.

Cümlənin modallığı *(təsdiq, inkarlıq, sual, əmr və s.)* ilə aktual üzvlənmənin əlaqəsi məsələləri böyük maraq doğurur. Məsələn: *"O, məktəbə getdi"* cümləsini sual formasında işlədək. *"O hara getdi?"* Burada *"hara?"* sual əvəzliyi qabaqcadan belə bir fikir yaradır ki, o *(haqqında danışılan şəxs)* hara isə getməlidir. Konkret nümunədə bu *"hara isə"* ifadəsini *"məktəb"* sözü əvəz edir. Bu tipli cümlələrdə modal suallıq müşahidə olunmur. Suallıq cümlədə modallıq çərçivəsindən kənarda durur. Cümlənin aktual üzvlənməsi baxımından *"o getdi"* - tema, *"hara"* isə remanı göstərir. Burada remanı modal çərçivədə təhlil etmək olar. Göstərilən nümunədə rema söyləmin assertiv hissəsinin məzmununu, tema isə presuppozisiyanın məzmununu ifadə edir. Deməli, göstərilən cümlə tipini ikimodallı, söyləmlərdən ibarət hesab etmək olar: pressupozisiya təsdiq modalından *(o getdi)* və xüsusi sual modallıqdan *(hara?)* təşkil olunmuşdur. Araşdırdığımız cümlədə *"hara?"* sulanın cavabı əsas informativlik nüvəsi hesab olunur. Bütövlükdə, struktur-semantik tamlıq təşkil edən cümlə *"hara?"* sualına cavabda formalaşır, müəyyən məqsədi yerinə yetirmiş olur. Semantik cəhətdən bu cümləni aşağıdakı kimi komponentlərinə ayırmaq olar: *"O hara isə getməlidir"*. Bu barədə qabaqcadan belə bir etibarlı, səhih, inandırıcı məlumat vardır. *Hara?* sualı bu səhih və inandırıcı

məlumatın əldə olunmasına xidmət edir. Beləliklə, cümlədə modallıq iyerarxiyası əsasında ikili modallıq özünü göstərir. Hər iki modallıq təsdiqdədir. Fərq onların zaman aidiyyətindədir. Onlardan biri qabaqcadan məlumdur, ikincisi isə verilmiş suala cavab şəklində sonradan təsdiqlənir.

Bu qəbildən olan cümlələrin rema hissəsinə presuppozisiya daxil olur ki, o da remanın tam məzmununu əhatə etmir. Bütöv cümlədə tema və rema arasında semantik əlaqə açıq-aydın hiss olunur. Çox vaxt belə əlaqə funksiyasını anaforik element yerinə yetirir. Anafora həm leksik, həm də qrammatik üsullarla, eləcə də aktual üzvlənmə vasitəsi ilə yarana bilər. Aktual üzvlənmənin köməyi ilə cümlənin modal çərçivəsi cümlənin informativ hissəsi üzərinə keçir. cümlənin qalan hissəsi əvvəlki cümlədəki təsdiqin təkrarı kimi çıxış edir.

Modallıq və sözun leksik mənası. Aktual üzvlənmə cümlədəki bir sözün leksik mənasına aid olub onu aktuallaşdıra bilər. Məsələn, *"Əli uşaq deyil"* cümləsində *"uşaq deyil"* mənası *"böyükdür"* mənasını verir. Qalan komponentlər pressuppozisiya əmələ gətirir və aşağıdakı mənalarda işlənir *(böyük, müstəqil, həddi-buluğa çatmış və s.)*. Təbiidir ki, burada modal intonasiya *"böyükdür"* leksik mənası üzərinə düşür. Deməli, bu cümlədə modallıq daha çox predikat komponentin üzərinə düşür, həmin komponentin predmet komponentini əhatə etmir. Həmin komponent növbəti mərhələdə predikat komponent funksiyasını yerinə yetirir. İsmin mənasının komponent quruluşunun belə iyerarxiyası tema və remanın anaforik əlaqəsi ilə şərtlənir. İsmin mənasını şərtləndirən komponentlərin anaforik əlaqəsi cümlədə olan sözlərin hansının pressupozisiya olacağını qabaqcadan şərtləndirir. Qeyd etmək lazımdır ki, cümlədə bu və ya digər funksiyada işlənən istənilən isimdə tematik hissə *(presuppoziya, gizli anafora)* vardır. Bu xüsusiyyət daha çox ümumi tipli cümlələrdə qabarıq hiss olunur.

Modallığın germanşünaslıqda və türkoloci ədəbiyyatda tədqiqi məsələlərinə keçməzdən əvvəl bəzi ümumi cəhətləri nəzərdən keçirək. Məlum olduğu kimi, istər germanşünaslıqda, istərsə də türkologiyada modallıq eyni anlamda qəbul

edilir. Dilçilikdə belə bir ümumi fikir formalaşmışdır ki, modallıq danışanın ifadə olunan fikrə obyektiv və subyektiv münasibətini bildirir. Dünya dilçiliyində modallıq qrammatik-semantik kateqoriya kimi şərh edilir. Bu baxımdan modallığın həm qrammatik, həm də semantik funksiyaları müxtəlif səviyyələrdə, müxtəlif baxış bucaqları altından araşdırıla bilər. İstənilən fikir, söyləm öz məzmun və mənasına görə real *(qeyri-real)*, mümkün *(qeyri-mümkün)*, arzu olunan *(arzu olunmayan)*, zəruri *(qeyri-zəruri)*, mütləq *(qeyri-mütləq)*, həqiqi *(qeyri-həqiqi)*, ehtimali və s. ola bilər. Bu xüsusiyyətlər müxtəlif yollarla və vasitələrlə ifadə oluna bilər. Bu xüsusiyyətlərə görə türk dilləri Hind-Avropa dillərindən fərqlənir. Modallığın məntiqi və qrammatik kateqoriya kimi izahında da qeyd olunan cəhətlər öz əksini tapmışdır.

Modallığın yaranmasında və formalaşmasında qrammatik və leksik vasitələr fəal iştirak edir. Bu cəhətdən də german dilləri türk dillərindən eynilik təşkil etmir. Fel formaları zaman və şəxs şəkilçiləri ilə birləşərək modal mənalı predikativlər əmələ gətirirlər. Modallığın yaranmasında modal sözlərin rolu məsələsi də müxtəlif dil materiallarında fərqli funksiyalarda izah olunur.

İntonasiyanın müxtəlif formaları obyektiv və subyektiv modallığın yaranmasını, onun müxtəlif semantik çalarlarda ifadəsini şərtləndirən vasitələrdəndir. Nida intonasiyası, məlumatverici intonasiya, sual intonasiyası və s. köməyi ilə modallığın çeşidli semantik və qrammatik formaları yaranmış olur.

Modallığın yaranmasında müxtəlif qrammatik vasitələrin iştirak etməsi bəzən dolaşıqlığa aparıb çıxarır. Məlum olduğu kimi, istər german, istərsə də türk dillərində, bu və ya digər şəkillərdə modallıq aşağıdakı qrammatik vasitələrlə yaranır: *modal sözlər, ədatlar, nida, ara sözlər, ara cümlələr, leksik təkrarlar, intonasiya, söz sırası, sual formaları və s.*

Bəzən modallıq anlayışı ilə onun yaranmasında rolu olan qrammatik vasitələr qarışdırılır, eyniləşdirilir. Nəticədə modallıq bir qrammatik-semantik kateqoriya kimi düzgün izah olunmur.

Modallıq kateqoriyası ilə modal sözlərin qarışdırılması da bu qəbildən olan araşdırmalarda müşahidə olunur.

Modal sözlər danışanın ifadə olunan fikrə, müəyyən hadisə və anlayışa münasibətini ifadə edən nitq hissəsidir. Ona görə də, morfologiyanın nitq hissələrindən bəhs edən bölümündə modal sözlərə də ayrıca yer ayrılmalı, onun nitq hissələri arasında linqvistik funksiyası və statusu müəyyənləşdirilməlidir.

Sintaktik roluna görə də modal sözlər bəzən ara sözlərlə və söz-cümlələrlə eyniləşdirilir. Əslində, modal sözlər cümlədə sintaktik funksiyada ara söz kimi işlənə bilər.

Araşdırmaların bir çoxunda modallıq sırf linqvistik kateqoriya kimi izah olunur. Dissertasiyanın girişində modallıq həm linqvistik, həm də məntiqi kateqoriya kimi izah olunmuş, onun elmi mahiyyəti açıqlanmışdır. Modallığın yalnız linqvistik baxımdan deyil, məntiqi kateqoriya kimi də araşdırılması olduqca vacibdir. Hər şeydən əvvəl modallıq universal kateqoriyadır. Ona görə də, modallıq nəzəriyyəsinin dərindən işlənməsi məntiqi kateqoriyaların daha bir maraqlı cəhətini - onların emosional vasitələrlə ifadəsini təhlil etməyə imkan verir. Bu da bütövlükdə insan təfəkkürü mexanizmini öyrənməyin optimal yollarından hesab oluna bilər.

Modallığın müxtəlifsistemli german və türk dillərində tədqiqi eyni sxem üzrə aparılmamışdır. Konkret dil materialından, dil situasiyasından, modallığın ayrı-ayrı dillərdə funksiyaları və ifadə vasitələrindən asılı olaraq bu araşdırmaların da istiqaməti müxtəlif olmuşdur. Məsələn, german dillərində daha çox modallığın funksional-semantik sahə anlayışı, modal sözlərin mətnəməlegətirmədə rolu, modallığın ifadəsinin analitik və sintetik üsulları, modal ədatların semantik təbiəti, modal aktuallaşma məsələləri araşdırma obyekti olmuşdur. Türkoloci ədəbiyyatda isə daha çox fel formalarının və şəkillərinin, modal sözlərin, sintaktik təkrarların və intonasiya növlərinin modallıq anlayışının yaranmasında və ifadəsindəki rolu geniş öyrənilmişdir.

Alman dilçisi L.M.Kannerin tədqiqatlarına görə alman dilçiliyində uzun müddət modallığın leksik ifadə vasitələrinə diqqət yetirilməmiş, yalnız fel formaları ilə yaranan modallıq

araşdırılmışdır. Beləliklə, alman dilində daha çox modal fellər sahəsində tədqiqatlar aparılmışdır [114].

Azərbaycan dilçiliyində isə modal sözlər ön plana çəkilmiş, fel formalarının modallığı sonralar araşdırılmağa başlanmışdır.

Sonralar R.Qrosse özündən əvvəlki tədqiqatçıları dildə modallıq kateqoriyasını yalnız modal fellərlə bağladıqları üçün tənqid etmiş, digər leksik-qrammatik vasitələrin də öyrənilməsini zəruri hesab etmişdir [184].

1.2. Germanşünaslıqda modallıq kateqoriyasının tədqiqi.

Yuxarıda germanşünaslıqda modallıq kateqoriyasının öyrənilməsinin əsas istiqamətləri barədə məlumat verilmişdi. Qeyd etmək lazımdır ki, german dillərində modallığın qrammatik və leksik ifadə vasitələri də özünəməxsusluqları ilə seçilir. Məsələn, məlum olduğu kimi, ingilis dilində *can (could), may (might), must, ought, need, should, shall, will, would, dare* felləri modal fellər adlanır.

Bu fellər əsas məna daşıyan felin ifadə etdiyi hərəkətin mümkün, qeyri-mümkün, məcburi, vacib, məsləhət olunan, şübhəli olduğunu göstərmək üçün işlədilir. Bunlardan daha çox işlək olan *can* feli fiziki bacarıq, qadirlik və şəraitdən asılı olaraq hərəkətin mümkün olub-olmadığını, qadağan və icazə bildirir. *Must* feli infinitivlə işlənərkən işin görülməsinin vacib olduğunu bildirir və həmçinin əmr və ya məsləhət ifadə edir. *May* feli məsdərlə işlənərək icazə mənasını ifadə edir. Elə həmin fel *"Simple infinitiv"* və *"Perfect infinitiv"lə* işlənərsə fərziyyə və güman bildirir. *Should* feli mənəvi borc, məsləhət, icrası vacib olan və ya vacib olmayan hərəkəti göstərmək üçün işlədilir. *Ought* feli də *should* felinin ifadə etdiyi mənanı verir. *Shall* modal fel kimi müraciət edilən adamın fikrini bilmək, əmr, xəbərdarlıq və vəd ifadə etmək üçün işlədilir. Modal mənada *will* niyyət, xahiş, arzu, vəd bildirir. *Dare* feli bir şeyi etməyə cəsarəti olmaq mənasını verir. *Need* modallıq mənasında zərurət bildir və daha çox sual və inkar cümlələrdə işlənir [39, s.159-167; 40, s.75-79).

Azərbaycan dilində analoci funksiyanı təsdiqedici modal sözlər *(əlbəttə, həqiqətən, doğrudan, şübhəsiz, şəksiz)*,

yekunlaşdırıcı sözlər *(deməli, qısası, beləliklə, ümumiyyətlə, nəticədə)*, ehtimal bildirən sözlər *(bəlkə, yəqin, deyəsən, ehtimal ki, güman ki, sanki, elə bil ki)* və s. leksik vahidlər yerinə yetirir. Qrammatik cəhətdən isə modallıq həm də fel formaları və şəkilləri ilə ifadə olunur.

İki konkret dilin (ingilis və Azərbaycan) materialları əsasında nəzərdən keçirdiyimiz situasiya bu dillərin daxil olduğu dil ailələrində də (german və türk dilləri) müxtəlif variantlarda təkrar olunur.

German dillərində modallıq müxtəlif tədqiqatçılar tərəfindən fərqli aspektlərdən araşdırılmışdır. V.Admoni, Ş.Balli, V.Qak, M.Qrepa; E.Qulıqa, E.Şendels, L.Ermolaeva, E.Zveryeva, K.Kruşelnitskaya, O.Moskalskaya, V.Panfilov, N.Petrov, A.Smirnitski, M.Blox, L.Xandvoort, C.Kats, C.Fodor, Zommerfeldt, İ.Brinkmann, V.Bondarenko, V.Qureviç, E.Qulıqa, M.Natanzon, D.Ştellinq, Y.Erben, S.Borkaçov və bir çox başqaları alman, ingilis, eləcə də qismən roman dillərin də istinad etməklə modallığın linqvistik, məntiqi, fəlsəfi mahiyyətini açıqlamaq sahəsində araşdırmalar aparmışlar [51; 52; 60; 61; 81; 84; 87; 100; 104; 121; 134; 136; 147; 171; 193; 190; 106; 173; 71; 89; 86; 164; 182; 73].

Germanşünaslıqda modallığın ifadəsinin analitik və sintetik üsullarının tədqiqi məsələsi mühüm, həlli vacib problemlərdən hesab olunur. Qeyd etmək lazımdır ki, bu məsələ linqvistik olmaqla bərabər həm də fəlsəfi-məntiqi səciyyə daşıyır. Bu konsepsiyanın əsasında modallığın cümlə səviyyəsində araşdırma obyekti seçilməsi durur.

Cümlədə modal məna növlərinin müəyyənləşdirilməsi cümlə modallığı məsələsinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Modal cümlənin təhlili göstərir ki, modallıq anlayışına çox vaxt aşağıdakılar aid edilir: *reallıq, irreallıq, emosionallıq, ekspressivlik, təsdiq, inkar, şübhə, ehtimal, etibarlılıq, müsbətlik, həqiqilik, mümkünlük, gerçəklik, zərurilik, vaciblik, niyyət, arzu, təhlükə, vasitəlik, məlumat, təsirgöstərmə, qeyri-şərtlik, səbəb-nəticə, məqsəd, müqayisə-qiymətləndirmə və s.* daxildir. Bu mənalar çox vaxt mexaniki şəkildə subyektiv kateqoriyalarla müəyyənləşdirilir. Yuxarıda sadalanan modal mənalar

bəzən kəsişir, bir-birini istisna etmir, beləliklə anlayış, məna və s. təsnifinin elmi-məntiqi prinsipləri pozulur. Hətta, yuxarıda göstərilənlərin bəziləri modal məna hesab olunmur, başqa sözlə onlar modallıq baxımından səciyyələndirilmirlər. Lakin, tədqiqatçıların əksəriyyəti iki qrup modallığın mövcudluğunu qəbul edirlər:

- mümkünlük, gerçəklik və zərurilik;
- şübhə, problematiklik *(üstünlük, ehtimal)* və qətilik;

Məlum olduğu kimi, formal məntiqdə təfəkkür forması kimi modal hökmün mahiyyətinin izahında iki nöqteyi-nəzər əsas götürülür. Onların birincisinə görə məntiqi hökmlər mümkünlük, gerçəklik və zərurilik kimi təsnif edilir. Belə hesab edilir ki, haqqında hökm verilən əşya ilə onun əlamətləri arasında mümkünlük, gerçəklik və ya zərurilik münasibətləri ola bilər. İkinci nöqteyi-nəzərə görə əşya və hadisə barədə mühakimələr gerçək və ehtimali anlayışlara bölünürlər.

Yuxarıda göstərilənlərə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, modallıq cümlə məzmununda özünü göstərən obyektiv əlaqələri *(obyektiv modallıq)* və danışanın nöqteyi-nəzərindən təsvir edilən əlaqəni *(subyektiv əlaqələri)* əks etdirən dil kateqoriyasıdır. Obyektiv modallıq fikir predmeti ilə onun əlamətlərinin münasibətlərinin səciyyəsi ilə, cümlədə öz əksini tapmış obyektiv əlaqələrin, mümkün əlaqələrin əks olunması ilə müəyyənləşir.

Cümlə məzmunun bu və ya digər gerçəklik dərəcəsini bildirən mənalar subyektiv modallığın mənalarını bildirir.

Obyektiv və subyektiv modal mənaları müxtəlifcinslidir və öz məzmunlarına görə bir-birinə zidd deyillər. Onların məcmuyu cümlənin modal səciyyəsinin komponentlərini təşkil edirlər.

Obyektiv və subyektiv modallığın növlərini nəzərdən keçirək. Gerçəklik mənalarından fərqli olaraq modallıq kateqoriyasının mümkünlük və zərurilik mənaları eynicinsli deyil. Onların iki əsas mənası xüsusi olaraq fərqləndirilir: 1) aletik *(ontoloci)* mümkünlük və zərurilik – bu zaman təbiət və cəmiyyətin real şəraiti, eləcə də insanın fiziki və psixi vəziyyəti əsas götürülür; 2) deontik *(normativ)* mümkünlük və zərurilik – isə cəmiyyətin normativləri, o cümlədən

müəyyən kollektivdə qəbul edilmiş əxlaq və davranış, hüquqi, texniki və s. normalar baxımından səciyyələndirilir.

Aletik mümkünlük və zərurilik obyektiv gerçəklikdə eləcə də yalnız təfəkkürdə anlayış kimi mövcud olan əşyaları bildirir. Başqa sözlə, modallığın bu növləri obyektiv əlaqələrin səciyyəsini göstərir:

Er Kann diese Arbeit erfüllen (bu cümlədə müəyyən tapşırığın yerinə yetirilməsi işi yerinə yetirən şəxsin fiziki və psixi imkanları)

Die Sonnenfinsternis soll morgen um 3 Uhr kommen (göy cismlərinin hərəkəti ilə şərtlənən günəşin tutulmasının başlanması aletik zərurətdir).

Deontik mümkünlük və zərurətə görə bu və ya digər işin reallaşdırılması hər hansı norma və ya kiminsə tərəfindən verilən icazə ilə tənzimlənir. Deontik modallıq hər hansı bir şəxsin nəyə hüququ olduğunu, nəyi etməli olduğu və etməli olmadığını göstərir:

Sie können diesen Brief morgen schreiben. Alle Kinder in der SU solen die Schule besuchen.

Bəzən eyni cümlədə həm aletik və deontik modallıq öz əksini tapır:

İch Kann es tun, aber ich darf es nicht (d.h. ich bin imstange, es zu tun, aber ich habe keine Erlanbnis, es zu ten). Bu cümlədə aletik və deontik mümkünlük inkarda verilir.

Gerçəklik – fikir subyekti (danışan, fikrləşən, yazan) nöqteyi-nəzərindən cümlə (hökm) məzmununun müvafiqlik dərəcəsini səciyyələndirən bir anlayışdır.

Məlum oluduğu kimi idrak prosesi bir çox ardıcıl mərhələlərdə reallışır. Bunların hər birində bizim obyektiv gerçəklik haqqında biliklərimiz zənginləşir. Başlanğıc mərhələdə obyekt o qədər az öyrənilir ki, onun haqqında problem kimi fikir yürüdülür. Bu mərhələdə obyekt barədə verilən məlumat da müxtəlif dərəcəli problemaik gerçəkliklə səciyyələnir. Nəhayət, obyekt tam öyrənildikdən sonra onun haqqında verilən məlumat tam gerçək hesab olunur.

İdrakın bu mərhələləri, təbiidir ki, dildə də öz əksini tapır. Müxtəlif mərhələlərdə gerçəkliyin əksi də müxtəlif dərəcələrdə olur. Deməli, gerçəklik gah zəif, gah da güclü

formalarda cümlə çərçivəsində reallaşır. Bu güclü və zəif inikas modal sözlər və vasitələrin köməyi ilə olur. Gerçəkliyin cümlə konstruksiyasında əksi müxtəlif dərəcələrdə olur. Əsasən, üç dərəcə göstərilir: sadə, problematik və qəti. Bəzi dillərdə problematik və qəti gerçəklik arasında da bir çox aralıq dərəcələrin mövcudluğu qeyd olunur. Sadə gerçəklik isə bu baxımdan istisna təşkil edir. Əgər təsəvvür etsək ki, problematik gerçəklikdə əks qütbdə böyük şübhə çaları, qəti gerçəkliklə əks qütbdə isə az *(kiçik)* şübhə çaları yerləşir, onda gerçəkliyin modal şəbəkəsi bir xeyli genişlənmiş olar. Həmin şkalada gerçəklik danışanın onun reallığına inamı və şübhənin azalması sırası ilə istiqamətlənmiş olur.

Müxtəlif sistemli dillərdə problematik və qəti modallıq, əsasən, müvafiq modal mənalarını ifadə edən köməkçi sözlərin *(hissəciklərin)* və problematik gerçəkliyi əks etdirən analitik fel konstruksiyalarının köməyi ilə analitik yolla düzəlir. Müxtəlif dərəcəli sintetizmi olan flektiv dillərdə *(rus, alman, ingilis, fransız və s. dillərdə)* bu üsul yeganə hesab olunur. Modal sözlər cümlənin məzmununun danışan üçün nə dərəcədə gerçək olduğunu göstərən köməkçi sözlər kimi səciyyələndirilə bilər. Başqa sözlə, modal sözlər obyektiv əlaqələrin cümlə məzmununda gerçək əksolunma dərəcəsini göstərir.

Dünya dillərinin əksərində modal sözlərin iki semantik dərəcəsi (sinif və ya qrupu) göstərilir: 1) problematik gerçəklik bildirən modal sözlər 2) qəti gerçəklik bildirən modal sözlər. Hər bir dərəcə daxilində cümlənin məzmununun gerçəklik dərəcəsini detallaşdıran xüsusi yarımqruplar ayırmaq mümkündür.

Alman dilində böyük şübhə, maksimal inamsızlıq bildirən problematik gerçəklik məzmunu bildirən modal sözlər aşağıdakılardır: *Kaum, schwerlich, unsicher, ungewib, zweifelhaft, fraglich, wenig, wahrscheinlich.*

Böyük şübhə və inamsızlıq bildirən modal söz birləşmələri isə aşağıdakılardır: *sehr unsicher, sehr ungmib, stark bezweifelt.*

Danışanın verdiyi məlumata qəti inamını bildirən qəti gerçəklik mənası verən modal sözlər eyni tipli olub, çox vaxt

sinonim cərgələr təşkil edirlər. Qətilik, inam və gerçəklik dərəcəsinə görə bu qəbildən olan modal sözləri üç semantik qrupa bölmək olar. Birinci qrupu təşkil edən söz və söz birləşmələri danışanın ilk əvvəllər tam əmin olmadığı, şübhə ilə yanaşdığı və ya əvvəl deyilmiş hər hansı bir fikrin təsdiqini bildirən və hazırda danışanın tam əmin olduğu məlumatı bildirir.

İkinci qrupa daxil olan sözlər danışanın fikrini tam qəti olaraq təsdiq edən modal sözlərdən ibarətdir. Təsdiq olunan fikir heç bir şübhə yeri qoymayan, qanunauyğun, təbii bir prosesin nəticəsi kimi qəbul edilə bilər.

Üçüncü qrup danışanın tam əminlik, qəti olaraq həqiqiliyinə inam ifadə edən modal söz və söz birləşmələrdən ibarətdir.

Alman, ingilis, fransız və bir çox başqa dillərdə problematik gerçəklik ifadə edən modal sözlərin ekvivalentləri analitik modal konstruksiyalar – köməkçi fel birləşmələri təşkil edir. Bunlara alman dilindəki *können, mögen, dürfen, sollen, woller* tipli infinitiv tipli birləşmələri misal göstərmək olar.

Danışıq dilində göstərilən modal birləşmələr çox vaxt sinoinm kimi işlənirlər.

Sintetik və ya polisintetik aqqultinativ tipli *(yapon, türk və s.)* dillərdə problematik və qəti gerçəklik mənaları sintetik yolla, morfoloci yolla əmələ gəlir. Məlum olduğu kimi, türk dillərində, o cümlədən Azərbaycan dilində modallıq fel şəkilləri ilə, morfoloci yolla düzəlir. Sadə gerçəklik mənalı modal sözlər bütün dillərdə sintetik yolla-felin xəbər şəkli ilə düzəlir. Xəbər şəklinin bütün formaları, onun bütün paradiqmaları sadə gerçəklik ifadə edir. Xəbər şəklində baş vermiş və ya gələcəkdə baş verəcək gerçək hadisə barədə danışan qrammatik subyekt *(mübtəda)* və fel-xəbər arasında gerçəklikdə mövcud olan əlaqə təsdiq edilir. Feli xəbərin iştirak etmədiyi cümlədə gerçəklik neqativ-morfoloci göstəricinin olmaması faktı ilə reallaşır.

Bütün dünya dillərində felin xəbər şəkli obyektiv modallığın formalarından biri olan gerçəkliyi ifadə edir.

Rus və ingilis dillərində felin lazım şəkli də obyektiv modallığın ifadəsinə xidmət edir. Lakin, felin lazım şəkli problematik məna, ehtimal, inamsızlıq, şübhə ifadə etmir.

Felin lazım şəkli qrammatik subyekt *(mübtəda)* ilə feli xəbər arasında elə bir əlaqəni göstərir ki, müəyyən şəraitdə həmin əlaqə reallaşa bilər, lakin hələ reallaşmaq imkanı əldə etməmişdir. Başqa sözlə, felin lazım şəkli hələ reallaşmamış imkan kimi başa düşülə bilər. Felin lazım şəkli ilə arzu, məsləhət və ya xahiş bildirən digər qeyri-modal mənalar da yaradıla bilər.

Obyektiv modallığın digər növləri, məsələn, mümkünlük və zərurilik isə leksik vasitələr, sintektik və analitik formalarla yaradıla bilər. Alman, ingilis, rus və digər flektiv Hind-Avropa dillərində aletik və deontik mümkünlük və zərurilik bəzi modal fellərin infinitiv birləşmələri ilə yanaşı işlənməsi yolu ilə yaranır. Həmin ifadələrin leksik mənası modal mənanın növləri ilə müəyyənləşir.

Məsələn, alman dilində sollen və können modal felləri lernen infinitivi ilə birləşmədə müvafiq olaraq deontik zərurilik və aletik mümkünlük bildirir.

Artıq burada modal fellər problematik gerçəklik bildirməklə köməkçi fel, sırf qrammatik funksiyada deyil, cümlənin tərkibində onun komponentlərindən birini təşkil edən müstəqil nitq hissəsi kimi çıxış edir.

Alman dilində əxlaq, etik, mülki normalar ifadə edən formalar sollen felinin məsdəri ilə düzəlir. Sərəncam, tövsiyə, məsləhət və s. ifadə edən deontik zərurilik çaları bildirən birləşmələr isə *sein, sollen, brauchen* fellərinin məsdəri ilə düzəlir.

Subyektin fiziki və psixi vəziyyəti və ya təbiət hadisələri ilə əlaqələnən aletik mümkünlük isə *können, vermögen, haben, sein, lassen, sich* fellərinin məsdəri ilə düzəlir.

Müşahidələr göstərir ki, yalnız subyektiv modallıq əsasında cümlənin formal-qrammatik təsnifini aparmaq mümkündür. Danışanın münasibətinə görə cümlənin məzmununun gerçəklik dərəcəsinin fərqləndirilməsi, cümlənin eyni zamanda forma və məzmununa görə fərqləndirilməsi deməkdir. Bu müddəa roman-german dillərinin materialı əsasında aparılmış təhlil prosesində bir daha təsdiqlənmişdir.

Müasir sintaktik nəzəriyyə belə hesab edir ki, cümlənin əsas xüsusiyyətlərindən biri onun modallığıdır. Lakin, bu

nəzəriyyə çərçivəsində modallığın şərhi, izahı birmənalı deyildir. Modallıq kateqoriyası tərcümə üçün müəyyən çətinlik törədir. Təsadüfi deiyl ki, Y.N.Retsker modallığı ən çətin tərcümə olunan leksik-qrammatik kateqoriya hesab edirdi [141]. Daha çox modal sözlərin tərcüməsi və ya modallıq kateqoriyasının ifadə üsulları ilə əlaqədar qeyri-dəqiqliklər müşahidə olunur. Modal mənaların qeyri-adekvat tərcüməsi lüğətlərdə, bədii və elmi ədəbiyyatın tərcüməsində, tərcüməyə aid vəsaitlərdə və qrammatika kitablarında geniş müşahidə olunur. Səhvlər çox zaman obyektiv və subyektiv modallığın qarışdırılması, onların xüsusi mənalarının düzgün izah olunmamasından irəli gəlir. Modallıq deyəndə obyektiv əlaqələrin cümlə məzmununda əksi (obyektiv modallıq) və həmin cümlənin məzmunun danışanın baxımından qiymətləndirilməsi (subyektiv modallıq) başa düşülür. Obyektiv modallığın özü də bircinsli deyildir. Belə ki, onun çərçivəsində mümkünlük (bəzən, mümkünat adlanır) fərqləndirilir: *O, məsələni həll edə bilər; O, məsələni həll etdi; O, məsələni həll edə biləcək.*

Həqiqiliyin dərəcəsini göstərən subyektiv modallığın bir çox növləri fərqləndirilir. Müxtəlifsistemli dillərdə modallığın minimum üç həqiqilik dərəcəsi fərqləndirilir: problematik, sadə və kateqorial. Məsələn: *o, məsələni həll etdi; o, görünür, məsələni həll etdi; o, əlbəttə, məsələni həll etdi.* Sadə həqiqilikdən fərqli olaraq problematik və kateqorial həqiqiliyin bir çox dillərdə bir neçə dərəcələri göstərilir: həmin dərəcələrdə həqiqiliyin problematik və kateqorial təsdiqi danışanın mövqeyində şərh olunur: **1)** *cüzi ehtimal; az ehtimal olunan; olduqca şübhəli; böyük şübhə doğuran; azehtimallı və ya şübhəli; ehtimal ki və ya ola bilsin ki; çox ehtimal ki və ya çox güman ki;* **2)** *təbii ki və ya əlbəttə; hər şeydən əvvəl və ya əlbəttə ki.*

Bu qayda ilə düzələn aşağıdakı cümlələrdə danışanın baş vermiş hadisənin reallığına əminliyi və ya problematikliyi əks olunur:

Məsələn: aşağıdakı cümlədə problematiklik özünü göstərir: *o, güman ki, məsələni həll etmişdir*. Başqa bir cümlədə isə danışanın hadisənin baş verməsinə əminliyi müşahidə olunur: *o, çox güman ki, məsələni həll etmişdir.*

Cümlədə problematikliyi və qətiliyi ifadə etmək üçün modal sözlərdən istifadə olunur. Bu məsələ ilə əlaqədar iki qrup modal sözlər göstərilir: **1)** *problematik həqiqilik tipli modal sözlər: güman ki, ehtimal ki, aydındır ki, ola bilsin, bəlkə (Azərb. dilində); perhaps, maybe, probably, possibly (ingilis dilində); Vielleicht, fraglich, wohl, offenbar, möglich (alman dilində və s.);* **2)** *kateqorial həqiqilik tipli modal sözlər: əlbəttə, şübhəsiz, sözsüz və s. (Azərb. dilində); certainly, surely, of course, no doubt, really, indeed (ingilis dilində) gewib, naturlich, sicher, fraglos və s. (alman dilində).*

Sadə gerçəkliyin modal mənası felin xəbər şəkli formasında ifadə olunur. Obyektiv modallığın başqa növləri-mümkünlük və zərurilik mənaları əsas felin məsdəri və müvafiq modal fellərin birləşmələri ilə ifadə olunur. Obyektiv modallıqdan fərqli olaraq subyektiv modallıq gerçəkliyin əksini deyil, onun əksinin adekvatlığını göstərir. Obyektiv və subyektiv modallıqlar məzmunlarına görə ziddiyyət təşkil etmir, müvafiq olaraq sintaktik və leksik-qrammatik səviyyələrdə reallaşırlar. Onların daşıdıqları mənalar arasında da kəskin sərhədlər yoxdur. Hər iki modal mənanı eyni üsul və vasitələrlə doğurmaq olar. Aşağıdakı cümlələrə diqqət yetirək: *O, məsələni həll edə bilər* cümləsi iki mənada başa düşülə bilər: **1)** *O məsələni həll etmək iqtidarındadır.* **2)** *O, ola bilsin ki, məsələni həll edər.*

Birinci halda *bilər* feli obyektiv modallığın mümkünlük mənasını, ikinci halda isə subyektiv modallığın problematiklik mənasını bildirir. Alman dilindəki *dürfen, können, sollen və müssen* modal felləri də analoci funksiya daşıyırlar. Əslində, obyektiv modallığın mümkünlük və zərurilik *(mümkünat və zərurət)* mənalarını verən bu modal fellər subyektiv modallıq funksiyasında işlənərək gerçəkliyin problematiklik dərəcəsini bildirirlər.

Tərcümə prosesində cümlənin modal xüsusiyyətləri düzgün anlaşılmadıqda düzgün olmayan tərcümə nümunələri alınır və bu zaman mənanın təhrif olunması və səhv nəticələr alınmasına səbəb olur. Belə ki, bir çox hallarda tərcümə prosesində sadə, problematik və kateqorial modal mənalar səhvən qarışdırılır. Məsələn:

alman dilindəki *“Sir wird glücklich gewesen sein” “O, mən buna əminəm, xoşbəxt idi”* kimi tərcümə olunur. Əslində isə həmin cümlənin tərcüməsi bu şəkildə olmalıdır: *O, xoşbəxt olmalı idi və xoşbəxt idi.*

Germanşünaslıqda mühüm problemlərdən biri də modal ədatların semantik təbiətinin hərtərəfli təhlilidir. Modal ədatların semantik təbiətini tam izah etmək üçün onların qrammatik mahiyyətini aşkarlamaq lazımdır. Alman dilində modal ədatlar cümlənin xəbərinə birləşib, onun strukturuna daxil olur, xəbərlə subyektiv modal mənalı yeni konstruksiya əmələ gətirir. Deməli, modal ədat xəbərin mühüm struktur elementinə çevrilir, beləliklə cümlənin aparıcı komponenti kimi subyektiv-modal mənalı cümlənin sintaktik funksiyasını yerinə yetirir. Beləliklə, modal hissəcik qrammatik formanın bir hissəsinə çevrilir.

Modal hissəcikli cümlənin subyektiv-modal mənası nədən ibarətdir? Məlum olduğu kimi modallığın iki tipi vardır: obyektiv və subyektiv. Emosional-dəyərləndirmə mənası da subyektiv modallığa aid edilir. Bu iki modallıq tipi arasında fərq orasındadır ki, onlarda kommunikativlik mənası müxtəlif dərəcələrdə özünü göstərir. Obyektiv modallıq verilmiş situasiyada mövcud əlaqələri göstərir. Subyektiv modallıq deyilən fikrin gerçəklik dərəcəsini, danışanın qiymətləndirmə-dəyərləndirmə səviyyəsini əks etdirir. Emosional-dəyərləndirmə mənası ilə birlikdə subyektiv modallıq obyektiv modallığa nisbətən ikincidir [120, s.50-58).

Məlum olduğu kimi, bu və ya digər qrammatik formanın obyektiv məna strukturunu müəyyənləşdirmək olduqca mürəkkəbdir. Emosiya tipləri dilin struktur-semantik vahidlərinə ayrılmadığı üçün onların mənasını müəyyən-ləşdirmək daha çətindir. Məsələn, qəzəb, narazılıq, sevinc, dəhşət hissləri həmişə eyni səbəbdən doğmur, onları şərtləndirən səbəblər də müxtəlif situasiyalarda, müxtəlif vasitələrlə ifadə olunur. Təbiidir ki, onların nitq aktında təzahürü də müxtəlif formalarla düzəlmiş olur. Bütün göstərilənlərə baxmayaraq çox çətin müşahidə olunan subyektiv-modallığın semantik mənasını tədqiq etmək mümkündür. Bu zaman cümlənin leksik-qrammatik

parametrlərinə istinad etmək olar. Leksik-qrammatik parametrlər subyektiv interpretasiyanı məhdudlaşdırır. Tədqiqat prosesində ayrıca üzvlə ifadə olunmuş cümlə deyil, onun kommunikativ tipinə, xəbərin leksik qrammatik səciyyələrinə, həmin cümlənin üzvündən əvvəlki və sonrakı cümlələrlə sintaktik əlaqələrinə diqqət yetirmək lazımdır. Qonşu cümlələrlə əlaqə struktur baxımdan və leksik tamlanmaya görə ola bilər.

Subyektiv-modal cümlələr çox vaxt başlanğıc replika olmadan yarana bilərlər. Belə cümlələrin mənası situasiyada məlum olur. Situasiya da belə cümlələrin strukturunu və leksik tərkibini müəyyənləşdirir. Bu qəbildən olan cümlələri üç obyektiv-modal tipə ayırmaq olar: *1) təsdiq; 2) əmr; 3) sual.*

Təsdiq formada olan obyektiv modal cümlə çərçivəsində subyektiv-modal məna tipi cümlənin strukturundan və feli xəbərin semantikasından asılı olur. Alman dilində sein+predikative, havon felləri ilə ifadə olunmuş xəbərlərdə danışanın real hadisənin baş verməsinə əminliyi, eləcə də müxtəlif emosiyalar *(qəzəb, təlaş, narazılıq, təəccüb və s.)* ifadə olunur. Modal felli xəbərlərdən ibarət cümlələrdə danışan *əminlik və mümkünlük (können), arzu (wollen), zərurilik (sollen, müssen), icazə (dürfen, mögen, lassen)* bildirir. Bu cümlələrdə xəbər infinitivlə ifadə olunur. Göstərilən cümlə tiplərində arzu mənası hiss olunur. Dəyərləndirmə və hissləri ifadə edən fellərlə düzələn cümlələrdə *(Glauben, Wissen, Kennen, Denken, Ahnen, Sehen, Hören)* danışan xəbərdə ifadə olunmuş hadisənin realığına əminlik bildirir.

Əmr şəklində obyektiv modal cümlələrdə baş verəcək və baş verməyəcək hadisəyə görə tələb, xahiş, əmr, xəbərdaretmə, yalvarış, çağırış hiss olunur. Rus dilində bu qəbildən olan cümlələrdə *da, nu a nu, tolğko, uce, vse-taki* kimi ədatlar işlənir.

Sual cümlələri modal hissəciklərlə daha zəngindirlər. Onların subyektiv-modal mənaları əsasən aşağıda göstərilənlərlə müəyyənləşir:

a) sual cümlələrinin tipi ilə (xüsusi və ümumi sual cümlələr);

b) feli xəbərin semantikası ilə.

Xüsusi sual cümlələrində xəbər çox vaxt emosional reaksiyaya səbəb olan fellə, subyektiv dəyərləndirmə felləri *machen, tun, haben, sein* eləcə də modal fellərlə düzəlir.

Rus dilində xüsusi sual cümlələri *da, ce, kto* ilə düzəlir. Müəllif nitqində danışanın emosiyalarının istiqamətləri göstərilir. Emosional reaksiya doğuran hərəkətlərin miqdarı məhdud olduğu üçün belə sual cümlələrində xəbər funksiyasında çıxış edən fellərin də miqdarı az olur. Çünki, belə hadisələr insanın görmə, eşitmə və duyğu orqanları tərəfindən qəbul edilə bilməlidir.

Xüsusi sual cümlələri, öndə gələn replikasız işləndiyi və danışanın həmsöhbətinin hərəkətinə və ya baş vermiş situasiyaya münasibətini ifadə etdiyi üçün öz strukturuna və leksik tamlığına görə eynidir:

a) xəbər həmişə indiki zamanda olur, çünki danışan gördüyü, eşitdiyi və ya hiss etdiyi emosiyalarını ifadə edir;

b) xəbər danışanın emosional reaksiyasını ifadə edən fellərlə və ya ən ümumi, fərqləndirilməyən hərəkət və ya hadisələri bildirən (haben, sein, tun machen) modal fellərlə ifadə olunur;

c) cümlələr geniş, həmcins cümlələrlə mürəkkəbləşdirilmiş, mürəkkəb olmamalıdırlar;

ç) cümlənin ikinci dərəcəli üzvləri zərf, zərf-ədat, zərf-isim, isim-sözönü birləşmələri ilə ifadə olunurlar.

Bu prinsiplə modal hissəciklərlə əmələ gələn çoxlu cümlə tipləri yaranmış olur. Bu subyektiv-modal mənaların onların sintaktik-strukturundan və leksik tamlığından ayrılmaz olduğu xüsusi cümlə tipləridir. Dialoq nitqində başqa mətnlərə nisbətən daha çox qrammatika ilə leksikanın qarşılıqlı əlaqələri hiss olunur: müəyyən qrammatik formalar yalnız müəyyən leksik vahidlərdə mövcud olur.

Alman dilində ümumi sual cümlələrində xəbər funksiyasında aşağıdakı fellər çıxış edir: *1) subyektiv dəyərləndirmə (glauben, denken, meinen və s.) 2) hiss, təsəvvür (sehen, hören, merken və s.), 3) modal fellər, 4) digər fellər.*

Subyektiv dəyərləndirmə felləri *(glauben, denken, meinen)* yalnız baş cümlələrdə xəbər funksiyasında çıxış edir.

Ümumi sual cümlələrində hissi təsəvvür bildirən fellər *(sehen, hören, meren)* bir qayda olaraq *nicht, nichts, kein* inkar hissəcikləri ilə işlənir və çox vaxt sadə cümələrlə işlənir.

Ümumi sual cümlələrinin əsasında çox vaxt ritorik suallar durur. Bu suallarda danışanın təəccübünü, qəzəbini, narazılığını, barışmazlığını bildirən subyektiv modal mənalar ifadə olunur. Ritorik suallar üç istiqamətli informasiyanı ifadə edirlər: *1) rasional sual (bu və ya digər informasiyanı almaq üçün verilən süal); 2) subyektiv-modal mənalar (şübhə, qıcıq, narazılıq və s.); 3) müəyyən problemlə bağlı məntiqi mühakimə.*

Alman və rus dillərində olan mətnlərin üzərində müşahidələr göstərir ki, cümlələrdə müşahidə olunan subyektiv-modal mənalar onları ifadə edən hissəciklərdə olmur. Subyektiv-modal mənaların xarakteri cümlənin kommunikativ tipindən çox asılı olur. Təsdiq cümlələrində subyektiv-modal mahiyyətli məna danışanın müxtəlif emosiyalarını-əminliyini, hərəkətin gerçəkliyinə inamını və s. ifadə edir. Xüsusi sual cümlələrində subyektiv –modal mənalar danışanın emosional vəziyyətini real əks etdirən bütöv bir şkalanı əks etdirir. Əsasən, bu təəccüb, qəzəb, narazılıq və s. kimi hisslərin xəbərdə ifadəsidir. Modal ədatların iştirak etdiyi cümlələrdə danışanın intellektual, volyuntativ və emosional hissləri mürəkkəb qarşılıqlı əlaqə və qarşılıqlı qovuşma prosesində olur. Bunun nəticəsində cümlə daxilində sözlər digər kontekstlərdəki mənalarını itirir və volyuntativ-emosional məzmun kəsb edirlər. Bəzən müxtəlif subyektiv-modal ədatların iştirakı ilə düzgün cümlələr eyni mənada, eyni subyektiv-modal ədatlarla düzələnlər isə müxtəlif mənalar ifadə edə bilərlər. Buradan belə nəticə çıxarmaq olar ki, cümlə daxilində subyektiv-modal məna modal ədatlarla deyil, daha çox cümlənin struktur-semantik tipi ilə düzəlir. Modal ədatlar isə bəzən uyğun sinonim ilə əvəz oluna bilər. Ayrı-ayrı modal hissəciklər konkret situasiyalarda müxtəlif semantik

çalarlarda reallaşırlar. Modal ədatların dəqiq subyektiv-modal mənaları statistik-psixolinqvistik təhlil nəticəsində aydınlaşdırıla bilər.

Subyektiv-modal cümlələr danışıq dilində real situasiyalarda mövcud olur və bu zaman kontekstlər mühüm rol oynayır. Mətndə əvvəl gələn cümlə sonrakı cümlə ilə formal və məna əlaqəsində olur. Əvvəlki cümlə sonrakı cümlə üçün müəyyən məna hazırlığı rolu oynayır. Replika kimi çıxış edən birinci cümlə cavab replikası ilə dialoq recimi əmələ gətirir. Belə ki, alman, rus və digər dillərdə kommunikativ cümlənin dörd tipini ayırmaq mümkündür: təsdiq, əmr, xüsusi sual, ümumi sual cümlələri. Dialoq-replika recimlərində onların 16 modal tipini göstərmək olar: - təsdiq - təsdiq, təsdiq-əmr, təsdiq-xüsusi-sual, əmr-ümumi-sual və s. cavab replikası hər bir modeldə cümlənin kommunikativ tipi, strukturu modal ədatların tipi və leksik tamlığından asılı olaraq müxtəlif subyektiv-modal mənalar verə bilərlər. İlkin və cavab replikalar arasında təkcə məna deyil, həm də formal əlaqələr olur. Bu əlaqələr müxtəlif leksik-qrammatik-semantik zəminində yaranır və formalaşır.

Dialoq-replika strukturlu cümlələrdə əqli nəticə çıxarmaq məqsədilə məntiqi sillogizmlərdən istifadə olunur. Belə strukturlu cümlə tiplərində bir və ya bir neçə replika səciyyəli cümlədən istifadə olunur. Modal hissəciklərin semantik-təbiəti problemi olduqca mürəkkəb və çoxcəhətlidir. Bunun üçün hər şeydən əvvəl modal hissəciklərin məntiqi modallıqla sərhədini dəqiq müəyyənləşdirmək lazımdır. Eləcə də, modal hissəciklərin məntiqi modallıqla kəsişən nöqtələrini oxşar və fərqli cəhətlərini dəqiq təyin etmək olduqca vacibdir. Modal hissəciklərin digər söz qrupları ilə müqayisəsi, yalnız modal mənada işlənən söz qruplarının aşkarlanması modallığı bir universal kateqoriya kimi səciyyələndirməyə imkan verir.

Germanşünaslıqda modallığın cümlədən daha böyük sahələrdə- mətn çərçivəsində tədqiqi modallığın funksional-semantik sahə aspektinin mahiyyətini açıqlamağa imkan verir.

Modallıq funksional-semantik sahə nəzəriyyəsi çərçivəsində də araşdırıla bilər. Məlum olduğu kimi,

semantik sahə əhatə dairəsi və semantik tutumuna görə mikro və makro sahələrə ayrılır. Mətn çərçivəsində modallığın düzgün izahı üçün mikrosahələrin araşdırılmasının əhəmiyyəti böyükdür. Məlum olduğu kimi, subyektiv modallığın gerçəklik/yalan və niyyət bildirən növləri vardır. Bütün cümlələrdə gerçəklik və ya yalan mənalarından birini verən modallıq mövcuddur. Ona görə də, daha çox bu məsələ araşdırılır. Baş vermiş hadisənin gerçəkliyi və ya qeyri-gerçəkliyi danışanın, yazanın münasibəti, subyektiv fikri ilə müəyyənləşir. Gerçəkliyə və ya yalana danışanın/yazanın münasibətini aşağıdakı semantik sahə kimi ifadə etmək olar:

1. Obyektiv gerçəkliyə müvafiqlik.
2. Doğruluq sübut oluna bilər.
3. Danışanın/yazanın adının verilməsi.
4. Danışanın adının verilməməsi.
5. Doğruluq sübut oluna bilməz *(çətin ki, sübut oluna bilər)* [106, s.10-15]. Bu halda modal komponentli fel/isim danışanın nöqteyi-nəzərini əks etdirir və felin xəbər şəkli ilə ifadə olunur.
6. Söyləmin doğruluğunun təminatı. Modal semantikalı fel/isim, sözbirləşməsi felin xəbər şəklində işlənməklə söyləmin doğruluğu təmin olunur.
7. Obyektiv gerçəkliyin ehtimali müvafiqliyi. Bu halda danışan/yazan göstərilməyə də bilər. Bu halda danışanın münasibəti modal komponentli fel/isimlə xəbər budaq cümləsi ilə ifadə olunur.
8. Gerçəkliyin ehtimali qeyri-müvafiqliyi. Danışan/yazan adlandırıla və ya adlandırılmaya bilər. Ehtimali qeyri müvafiqlik modal komponentli fel/isimlə ifadə olunmuş budaq cümlə şəkilində gələcək zamanda olur. Həmin cümlədə leksik vasitələrdən (modal hissəciklərdən) istifadə edilir.
9. Obyektiv gerçəkliyin qeyri-müvafiqliyi. Danışan/yazan adlandırıla və ya adlandırılmaya bilər. Modal komponentli fel/isim xəbər şəklində işlənir. Bu cümlədə inkar vasitələrdən də geniş istifadə olunur.

Modallıq kateqoriyasının arqumentləşdirilməsi dərəcəsinə görə mətnlər ayrı-ayrı növlərə ayrılır. Həmin araşdırılan

mətnlərdə modallığın funksional-semantik sahələrinin *(gerçəklik/qeyri-gerçəklik)* hansının arqumentləşdirmə vasitəsi kimi daha çox istifadə olunması aydınlaşdırıla bilər. Bununla dilin funksional-semantik və funksional-kommunikativ təsviri arasında əlaqə yaradılmış olur. Arqumentləşmə müstəqil bir proses olub mürəkkəb və müxtəlifnövlüdür. Onun məzmunu bir çox kompozisiyalı nitq formalarından ibarətdir. Həmin nitq formalarında danışanın/yazanın bu və ya digər hadisəyə subyektiv münasibəti öz əksini tapır.

K.E.Zommerfeldt müxtəlifnövlü mətnlərlə formalaşan 4 arqumentasiya növünü göstərir [106, s.10-15]:

1. İnkişafda götürülən izahedici arqumentləşdirmə *(das entwickelnd-erklarende Argumentieren)*. Onun funksiyası müşahidələr nəticəsində təcrübə toplanması, şeylər və hadisələr arasında əlaqələrin öyrənilməsi və beləliklə hərəkətə təhriketmədən ibarətdir. Belə arqumentləşdirmə ictimai praktikada özünü doğrultmuşdur. Bu halda kollektiv və ya ayrı-ayrı şəxslər mürəkkəb bir vəzifənin icrasında səfərbər edilir.

2. İzahedici-diskussiya səciyyəli arqumentləşdirmə *(das erklarend-auseinandersetzen de Argumentieren)*. Burada əsas diqqət düzgün olmayan fikirlərin təkzib edilməsi və düzgün qərarların əsaslandırılması və sübutudur. Daha çox köhnəlmiş fikirlər, düşünülməmiş düşmən hərəkətlərin pislənilməsi, konstruktiv yollar göstərilməsi məqsədi ilə bu formadan istifadə olunur. Belə ictimai əhəmiyyət kəsb edən mövzulara əmək intizamına və tədris proqramına riayət olunması, ətraf mühitin qorunması, sağlam tərbiyə və s. daxildir.

3. Diskussiya-izahedici *(polemik)* arqumentasiya. Bu prosesdə bu və ya digər nöqteyi-nəzərin zəruriliyi və doğruluğu sübut olunur, başqa bir nöqteyi nəzərin isə düzgün olmadığı, ziyanlılığı faktlarla izah edilir.

Bir qayda olaraq, inkişafda götürülən izahedici arqument-ləşdirmədə arqumentləşmə dinləyənin/oxuyanın informasiya ilə təmini ilə başlayır. Bu mərhələ başlanğıc mərhələ hesab olunur. Sonra problemin dəqiq və hərtərəfli ifadəsi, izahı və nəticələrin formullaşdırılması mərhələsi başlanır.

Məsələn, tutaq ki, hər hansı bir mənzildə yanğın baş vermişdir. İlk mərhələdə baş vermiş bədbəxt hadisədən sonrakı vəziyyət təsvir olunur. Evdə yanğının əhatə etdiyi sahə, yanmış əşyalar, ev sakinlərinin xəsarət alıb-almaması,yanğının söndürülmə müddəti və s. Sonra yanğının baş vermə səbəbləri *(ehtiyatsızlıq, elektrik və ya qaz xəttində texniki nasazlıq və s.)* göstərilir. Son mərhələdə baş vermiş hadisənin nəticələri təhlil edilir, tövsiyə səciyyəli məsləhətlər verilir *(ehtiyatlı olmaq, elektrik və qaz xətlərinin dəqiq yoxlanması və texniki nasazlıqların aradan qaldırılması və s.)*.

Yuxarıda göstərilənlərdən fərqli olaraq şərhedici *(izahedici)* diskussiya səciyyəli arqumentləşdirmədə bir-birinə zidd olan fikirlər və nöqteyi-nəzərlər şərh və müzakirə olunur. Bütün bu müxtəlif fikirlər şərh olunduqdan sonra müəllifin gəldiyi qənaət təklif olunur.

Yanğınla bağlı yuxarıda izah etdiyimiz situasiyada müxtəlif zidd fikirlərin, kontrarqumentlərin təhlili tələb olunmur. Burada hadisəni danışan şəxsin şəxsi fikirləri qəbul edilir. Müəllif hadisənin şahidi olmuş adamların əksəriyyətinin qəbul etdiyi müddəanın, çoxlarının düzgün hesab etdiyi versiyanın tərəfdarı kimi çıxış edir.

Nəticə olaraq göstərmək olar ki, arqumentləşdirici mətnlərdə həqiqilik/yalan modal sahəsində dil vasitələrindən aşağıdakı kimi istifadə olunur:

- Arqementləşdirmənin bütün variantlarında həqiqilik yalan sahəsinin dil vasitələri mühüm rol oynayır;
- İnkişafda götürülən izahedici arqumentləşdirmədə müəllif öz şəxsi rəyini ifadə etmiş olur. Çünki, bu zaman zidd fikirlər müzakirə olunmur. Bu prosesdə *"əminlik"* və *"qeyri-əminlik"* mikrosahələrinə məxsus dil vasitələrindən istifadə olunur;
- Arqumentləşdirmənin polemik variantlarında zidd, zərərli nöqteyi-nəzərlər müzakirə olunur və qiymətləndirilir. Bu zaman müəllifin şəxsi rəyi əsaslandırılır. Burada bütün mikrosahələrin vasitələrindən istifadə nəzərdə tutulur.

Xarici dil kimi tədris olunan alman dilinin tədrisində yuxarıda göstərilən metodlardan iki istiqamətdə istifadə oluna bilər:

- Arqumentləşdirmə aktlarında həqiqilik/yalan makrosahəsinin dil vasitələri geniş mənimsədilir.

- Nəzərdə tutulur ki, mikrosahənin ayrı-ayrı elementləri arqumentləşdirmədə, müxtəlif mətn növlərində müxtəlif işləklik dərəcəsinə malik olur.

1.3. Türkoloci ədəbiyyatda modallıq kateqoriyasının tədqiqi.

Birinci fəslin ümumi qeydlər hissəsində türkologiyada modallıq kateqoriyası ilə bağlı araşdırmaların əsas istiqamətləri barədə məlumat verilmişdi. Qeyd etmək lazımdır ki, türkoloci ədəbiyyatda bu problemin tədqiqi ilə əlaqədar A.N.Kononovun, N.A.Baskakovun, K.V.Musayevin, F.R.Zeynalovun, Z.Əlizadənin, M.Hüseynzadənin, A.Aslanovun, M.Rəhimovun, Ə.Cavadovun, N.Dırenkovanın və b. böyük xidmətləri olmuşdur [116; 117; 65; 66; 131; 44; 23; 28; 8; 9; 139; 18; 19; 96].

A.N.Kononov ədatları və modal sözləri köməkçi sözlər qrupuna aid edir və onları *"ədat"* termini altında birləşdirməyi təklif edir [116, 345-346]. Ədatlar isə öz növbəsində əsil ədatlar və ad-ədatlara bölünür. Müəllifin fikrincə, əsl ədatların sabit səs quruluşu olmur, qrammatik semantikadan başqa mənaya malik olmadıqları üçün daha çox şəkilçi səciyyəli olur. Digər tərəfdən ədatlar yalnız semantik məqsədlər daşıdıqları üçün bağlayıcılarla yaxın funksiyalar daşıyırlar.

Modal sözlər isə fünksional baxımdan ədatlara müvafiq gəlsələr də, əsasən danışanın deyilən fikrə və ya baş verən hadisələrə münasibətini bildirir. Müəllifin fikrincə, ədatlar və modal sözlər müxtəlif nitq hissələri ilə sıx əlaqəlidir. Belə nitq hissələrinə bağlayıcı, zərf və əvəzliklər misal ola bilər.

A.N.Kononov müasir türk dilində işlənən modal sözləri üç qrupa ayırır: nitq prosesində sözlərin müxtəlif məna çalarlarını ifadə edənlər: ***işdə*** - *bax, belə.* Xalq - danışıq dilində bu modal sözün ***na, nah*** variantları da işlənir. Bəzən bu variantlar bir yerdə də müşahidə olunur: ***Nah*** *işdə* ***bak***! - *Bax belə.*

Türk dilində işarə mənasında ***de*** modal sözü də işlənir: ***de*** *- bax orada.* Türk dilində ***hətta*** modal sözü də geniş işlənmə dairəsinə malikdir. Qeyd etmək lazımdır ki, A.N.Kononovun modal söz qrupuna daxil etdiyi sözlərin bəziləri Azərbaycan dilində ədat hesab olunur.

Onu gördüm, ***hatta*** *konuştum da* [155, s.392].

Bilə *modal sözü vurğusuz tələffüz olunur: Benden bilə.*

Türk dilində ***ta*** ədatı modal mənada hadisənin baş verdiyini dəqiqləşdirmək üçün istifadə olunur. Zamanın daha dəqiq ifadəsi məqsədi ilə də işlənir:

-ta akşama qədər, ta baştan və s.

-ta sabaha kadar bekledim.

-dağın ta tepesinə kadar [155, s.814].

Ta ədatının başqa məna çalarları da vardır: *hakikatın ta kəndisi - əsl həqiqət.*

A.N.Kononov müasir türk ədəbi dilində ədatların modal mənada işlənməsini qeyd edərək bəzən onları eyniləşdirir. Ədatla modal sözlərin, modal vasitələrin sərhədi qeyri-müəyyən qalır.

Məhz bunun nəticəsidir ki, bir çox türk dillərində modallıq kateqoriyası ayrıca qeyd olunmur və modal sözlər qoşma, bağlayıcı və ədatlara aid edilir [65; 66; 46; 43].

A.N.Kononov ***hər*** hissəciyinin iki mənası olduğunu göstərir: ümumiləşdirici əvəzlik və gücləndirici - ümumiləşdirici ədat.

Türkcə-rusca lüğətdə ***hər*** sözünün bir çox mənaları qeyd olunmuşdur: *her, her biri, her desa, her gün, her günkü, her iki taraf, her insan, herdıkça, her an, her bakımdan, her çeşit, her daim, her gördüğün sakallının baba diye kucağına varma; her halda, her hali, her hangi, her işin hakkından gelmek, her kafadan bir ses çıkıyor, her kes, her kim, her kimsə, her kim ise, her nasıl, her ne hal, her ne kadar, her ne vakit, her nedense, her nerede, her neyse, her ne ise, her nice, her şeydən evvel (önce), her şeyin bir zamanı var, her tarafi ateş kesilmek, her tarafta / yerde, her tarafta bezi olmaq, her telden çalmak, her havadan çalmak, her vakit / zaman, her yerde, her yerde və her bucakta, her zaman, her zamanki gibi, her ağac kökündən çürür, her ağacın meyvası olmaz, her arı bal vermez, her aşın kaşığı, her çiçekin bir*

kokusu var, her çiçek koklanmaz, her çok azdan olur, her derde deva, her firavunun bir Musası çıkar, her gün kedi / papaz pilav yemez; her horoz kendi çöplügünde oter; her kaşığın kismeti bir olmaz, her koyun kendi bacağından asılır; her kuşun eti yenmez, her şeyi bilen bir şeyi bilmez, her şeyin çokluğu azından / her çok azdan olur, her şey incelikten, insan kalınlıktan kırılır, her şeyin yenisi, dostun eskisi; her taş baş yarmaz; her yigidin bir yoğurt yiyişi var; her yokuşun bir inişi / her inişin bir yokuşu var; her ziyan bir oğüttür [155, s.401].

Lüğətdə verilmiş mənaların bir çoxu ədat funkiyasındadır. Ona görə də, her sözünün modal söz kimi səciyyələndirilməsi düzgün olmazdı.

A.N.Kononov *barı, hiç olmazsa, hiç degilsə* ifadələrini sinonim modal sözlər hesab edir. Bu fikir özü də mübahisə doğurur. Məsələn, əgər aşağıdakı cümlədə ***ki*** bağlayıcısını modal söz hesab edirsə, onda ədatla modal sözlər tamamilə eyniləşdirilir və onları ayrı-ayrılıqda izah etməyə ehtiyac qalmır: *Onları öyle gözledim ki!*

Fikrimizcə, bu cümlədə ***ki*** ədat funksiyasındadır. *"Müasir türk ədəbi dilinin qrammatikası"* kitabında ədat və modal sözlərin eyni yerdə verilməsi və izahı da müəllifin əvvəlcədən yazdığı müddəa ilə bağlıdır. Lakin, məlum olduğu kimi, Azərbaycan dilçiliyində ədat və modal sözlər müxtəlif nitq hissələri kimi araşdırılır.

A.N.Kononov nitqə modal çalar verən sözləri aşağıdakı kimi qruplaşdırır:

-modal-iradi çalar ifadə edən sözlər;

-həqiqət (reallığa) münasibət ifadə edən modal sözlər;

-ehtimal, güman ifadə edən modal sözlər;

-yaxın, oxşar və ya ehtimal edilən hadisə və hərəkətlərin müqayisəsi və qarşılaşdırılması zamanı istifadə olunan modal sözlər.

Modal-iradi çalar ifadə edən modal sözlər daha çox feli xəbərlərlə işlənir və onlara əmr çaları verir. Bu qəbildən olan modal sözlər xüsusi intonasiya ilə deyilir. Müasir türk ədəbi dilində ***ha*** modal sözü intonasiyadan asılı olaraq üç mənada işlənir:

-nida intonasiyası ilə deyildikdə xəbərdə xəbərdaretmə, qadağan mənasını yaradır və ya həmin mənaları gücləndirir;

-sual intonasiyasında xəbərin mənasında ehtimal, təəssüf, təəccüb mənaları yaranmış olur;

-adi, sakit nəqli intonasiyada eyni əsasdan yaranmış fel əsasları arasında xəbərin mənasını gücləndirir.

Analoci olaraq ***be*** - modal sözü də intonasiyadan asılı olaraq müxtəlif məna çalarları əmələ gətirir:

-nida intonasiyası ilə qeyd-şərtsiz əmr tonu yaradır;

-sual intonasiyası ilə kəskin sual situasiyası əmələ gətirir.

Bu qəbildən olan sözlərə aşağıdakılar da aid edilir: *haydi / hadi, hele, bakalım, bakayım, gitti* [116, s.351].

Müasir türk ədəbi dilində obyektiv reallığa münasibət ifadə edən modal sözlər də üç qrupa bölünür:

-təsdiq modal sözləri (evet, hay-hay və s.);

-inkar modal sözləri (hayır, yok, yo, degil və s.);

-sual modal sözləri (mi, sual əvəzlikləri, intonasiya).

Sual modal sözləri kimi ***hani, ha, degil mi, acep, acaba*** daha çox işləkdir.

Təsdiq modal sözü kimi ***"evet"*** həm mənasına, həm də sintaktik funksiyasına görə sual cümləsinin istənilən üzvünü - xəbəri, tamamlığı, zərfi əvəz edə bilər. ***"Evet"*** eyni zamanda sual cümlələri, onun ayrı-ayrı hissələri və ya sinonimləri ilə işlənə bilər: *Hasta misin? Evet, hastayim.*

Adi situasiyada ***"evet" bəli, hə*** mənalarında işlənir: *evet efendim - bəli (hə) əfəndim. Evet makamında başını salladı* [155, s.283].

Evet modal sözü cümlədə ara söz funksiyasında da müşahidə olunur. Türk ədəbi dilində ***evet*** sözünün bir çox sinonimləri vardır: *hay hay, peki / pek iyi, pekala, elbette, elbet, baş üstə, tamam, güzel, doğru, olur, mühakkak, tabii, gerçək və s.*

İnkar modal sözlər ***hayır, yok,*** eləcə də onun antonimi ***evet*** türk ədəbi dilində və canlı danışıq dilində işlək ifadələr hesab olunur. ***Hayır*** həmçinin sual cümləsinin, onun bir hissəsinin təkrarı və ya sinonimi kimi də işlənir. Bu söz ara söz kimi də müşahidə olunur. Bəzən ***hayır yok*** sözü ilə yanaşı işlənərək kimdə isə nəyin isə olmadığını bildirməyə

xidmət edir. ***Hayır*** sözü ***yok*** sözünün sinonimi kimi də geniş istifadə dairəsinə malikdir.

Türk dilində ehtimal, şübhə bildirən modal sözlər aşağıdakılardır: *bəlki, ihtimal ki, qaliba və s.*

-Bəlki de hiç gelmez.

-İhtimali azdır / yoxdur.

Türk dilində yaxın, oxşar və ehtimal olunan hadisə, hərəkətlərin müqayisəsi və qarşılaşdırılması prosesində işlənən modal sözlərə aşağıdakıları misal göstərmək olar: ***tipki, sanki, güya.***

*Bu sözlər **gibi** qoşması ilə uzlaşırlar.*

Sanki kabahat benimmiş [155, s.751].

-tipki onun kibi söyledi [155, s.861].

-guya buraya beni görmek için gelmiş [155, s.370].

Türk dilində formaəmələgətirən modal sözlər qrupu da geniş yayılmışdır. Bu qəbildən olan sözlər hərəkətin obyektiv olaraq mümkünlüyünü və qeyri-mümkünlüyünü, zəruriliyini və ya vacibliyini ifadə edir. Həmin sözlərə aşağıdakıları misal göstərmək olar: ***mümkün, imkan, olur, mümkün deyil, imkansız, imkan yok, gerek, olmaz, lazım, lüzumsuz, demek*** və s. [116, s.355).

Qeyd etmək lazımdır ki, türk dillərində formaəmələgətirən modal sözlər Azərbaycan dilində felin şəkilləri ilə uzlaşır. Məlum olduğu kimi fel şəkillərinin modal səciyyəli olması Azərbaycan dilçiliyində bir çox tədqiqatçılar tərəfindən qəbul olunmuş fikirdir və bu istiqamətdə bir çox araşdırmalar aparılmışdır.

Özbək dilçiliyində modal sözlərin qrammatik mənası və funksiyası digər türk dillərindən qismən fərqlənir. Əsasən bütün türk dillərində modal sözlər eyni qrammatik səciyyələrə malikdirlər. Fərq orasındadır ki, türk dillərinin bəzilərində modal sözlər ayrıca bir nitq hissəsi kimi diferensiallaşmamışdır. Özbək dilində modal sözlər danışanın obyektiv reallığa, gerçəkliyə, verilmiş məlumatlara, müəyyən faktlara olan münasibətini əks etdirir. Modal sözlər müxtəlif nitq hissələrindən əmələ gəlirlər.

A.N.Kononov özbək dilində modal sözləri üç dərəcəyə bölür:

-nitq prosesində sözlərin müxtəlif məna çalarlarını ifadə edən sözlər;

-nitqə müxtəlif modal çalarlar yaradan sözlər;

-formaəmələgətirmə funksiyasını yerinə yetirən sözlər [117, s.336].

Özbək dilində müxtəlif məna çalarları yaradan sözlərə aşağıdakıları misal göstərmək olar:

Mana, ana, xatta, xattoki, xamişa, bari və s.

Mana bu kitobni yku - Mənə bu kitabı oxu.

Ana kyrdinqti, nima byldi? - Bax gördün nə oldu?

Xatto men xam vulmau kolibman - Hətta mən bilmədim.

Yxamişa ykiş bilan band-O həmişə dərs öyrənməklə məşğuldur [156, s.652).

Müasir özbək dilində nitqə modal çalarlar gətirən sözlərə aşağıdakıları misal göstərmək olar: *-kani; -xa, xa şunday, balli; -üyk; -labbaü; -çunonçi; -fakat; -naxot; -xolbuki; -şekilli.*

Özbek dilində formaəmələgətirici funksiyası daşıyan modal sözlər türk dillərində fel şəkillərinin yaratdıqları mənalara yaxın anlayışları əmələ gətirirlər: *kepak, mumkin, mumkin emac, lozim* [103; 162].

Qeyd etmək lazımdır ki, türk dillərində modal sözlər bəzən morfologiya bəhsində, bəzən isə sintaksisdə öyrənilir. F.Zeynalov *"Türk dillərinin müqayisəli qrammatikası"* kitabında nitq hissələrinin ayrı-ayrı türk dillərində müxtəlifliyindən bəhs edərək yazır: *"Müasir türk dillərində nitq hissələrinin miqdarı çox müxtəlifdir. Təkcə oğuz qrupu dillərində onların miqdarı doqquzdan on ikiyə qədər qeyd edilir. Hətta eyni bir dilə həsr olunmuş əsərlərdə də bu müxtəliflik özünü göstərir"* [46].

Azərbaycan dilində nitq hissələrinin miqdarı on ikiyə çatdırılıb: *isim, sifət, say, əvəzlik, zərf, fel, qoşma, bağlayıcı, ədat, modal söz, nida və bağlamalar.*

Türkmən dilində isə nitq hissələrinin *(söz toparları)* miqdarı on birdir: *at (isim), sıpat (sifət), san (say), çalışma (əvəzlik), işlik (fel), xal (zərf), ümlük (nida), ses və şəkil anladan sözler (nimemlər), posleloqlar (qoşmalar), sayuzlar (bağlayıcılar), övnük boleklər (ədatlar).*

Müasir qaqauz dilində nitq hissələrinə *(söz payları)* aşağıdakılar daxildir: *adlıq (isim), nişannik (sifət), sayılık*

(say), aderlik (əvəzlik), işlik (fel), işxallıq (zərf), ardlaflar (qoşma), baalayıcılar (bağlayıcılar), payciklar (ədatlar).

Müasir türk dilində isə nitq hissələri aşağıdakı kimi qeyd olunur: *isim, ad (isim), sifat (sifət), sayı (say), zamir (əvəzlik), adıl (zərf), fiil, eylem (fel), ilgeç, edat (qoşma), bağlaç, rabit (bağlayıcı), ünlem, nida (nida).*

"Digər müasir türk dillərində də vəziyyət təqribən belədir" [46, s.12-13]. F.Zeynalovun bu fikri ilə qismən razılaşmaq olar. Əslində, türk dillərinin normativ qrammatikalarında təsbit olunmasa da, ayrı-ayrı müəlliflər *türk, özbək, qaqauz, Azərbaycan, türkmən* və b. dillərdə modal sözlər və modallıq kateqoriyası ilə bağlı araşdırmalar aparmışlar [116; 117; 28; 8; 19; 44; 23; 16]

F.Zeynalov türk dillərində cümlələrdən bəhs edərkən qeyd edir ki, bu dillərdə işlənən cümlələr üçün hər şeydən əvvəl predikativlik *(əlbəttə, intonasiya və modallıq da nəzərə alınmalıdır)* mühüm rol oynayır [47, s.54]. Sonralar türk dillərində modallıq kateqoriyası və modal sözlər daha geniş və əsaslı şəkildə F.Zeynalov tərəfindən tədqiqat obyekti seçilmişdir [44].

Türk dillərində modallıq kateqoriyasının tədqiqinə həsr olunmuş əsərlərdən biri də A.N.Baskakovun türk dilində cümlə probleminə həsr olunmuş monoqrafiyasıdır [64]. Məlum olduğu kimi modallıq leksik, qrammatik və intonasiya ilə yaranan qrammatik kateqoriya olub cümlədə predikativliyin ayrılmaz komponenti kimi çıxış edir. A.N.Baskakov modallığı cümlə kontekstində götürür və sintaktik funksiyasına görə araşdırır. Modallıq qrammatik kateqoriya kimi obyektiv və subyektiv modallığa ayrılır. Bu iki modallıq öz növbəsində cümlənin məzmununu obyektiv gerçəkliklə və danışanın subyektiv münasibəti ilə bağlayır.

Cümlədə obyektiv modallıq çox vaxt felin şəkilləri ilə ifadə olunur. Məsələn, felin xəbər şəkli bütün zamanlarda modal planda reallığı əks etdirir. Felin xəbər şəkli ilə əmələ gələn cümlələrdə sadə hərəkət və ya vəziyyətlər obyektiv olaraq öz əksini tapmış olur. Felin digər şəkilləri *(əmr, arzu, şərt, vacib, davam)* qeyri-müəyyən zaman münasibətləri ifadə etməklə bərabər aşağıdakı modal mənaları bildirirlər: ehtimal, problematiklik, zərurət, hərəkətin bitməsi və s.

Müasir türk dilində modallıq müxtəlif leksik, morfoloci, sintaktik, eləcə də intonasiya vasitələri ilə ifadə olunur. Bu nitq prosesində daha çox sual, təsdiq və ya inkar, ekspressiv qiymətləndirmə, eləcə də söyləmə müəyyən aksent, yaxud zəifləmiş subyektiv münasibətlər müşahidə olunur.

Cümlədə obyektiv və subyektiv modallıq uzlaşa da bilər. Cümlənin predikatı felin bu və ya digər forması ilə ifadə olunur və obyektiv modal məzmunda olur. Belə situasiyalarda deyilənə *(söyləmə)* subyektiv münasibət obyektiv modal mənada olan predikatla üst-üstə düşə və ya düşməyə bilər. Subyektiv modallıq bu və ya digər şəkildə istənilən cümlədə özünü biruzə verir və bu baxımdan sintaktik kateqoriya kimi cümlənin mühüm əlamətlərindən biri olur. Bu tipli modallığın universallığı orasındadır ki, onlar bir tərəfdən obyektiv reallığın bütün tipləri *(real və irreal)*, digər tərəfdən bir-birləri ilə uzlaşa bilirlər. Bəzi istisnalar nəzərə alınmaqla, göstərmək olar ki, istənilən modal məna təsdiq və ya inkar məzmunda olur.

Sual modallığı, istənilən digər modallıqlarla, o cümlədən təsdiq və ya inkar modallıqla uzlaşdırıla bilər. A.N.Baskakovun qeyd etdiyi kimi, real obyektiv reallıq söyləmin gerçəkliyə münasibətdə etibarlılıq dərəcəsini əks etdirir. Real obyektiv reallığın xüsusi qrammatik əlamətləri yoxdur və bu funksiyanı felin xəbər şəklinin əlamətləri yerinə yetirir. Bu kontekstlə modallıq və zaman kateqoriyaları bir-biri ilə qarışdırılmamalıdır. Modallıq söyləmin məzmununun reallıqla nisbət dərəcəsini əks etdirir və yalnız qrammatik deyil, həm də leksik vasitələrlə ifadə olunur. Zaman kateqoriyası isə hərəkətin nitq momentinə nisbətini əks etdirir və fel formalarında ifadəsini tapır.

Qeyd etdiyimiz kimi, real planlı obyektiv modallığın əsas mənası söyləmin etibarlılıq dərəcəsidir. Qəti zaman formalarında etibarlılıq dərəcəsi daha yüksək, qeyri-qəti-subyektiv zamanlarda isə aşağı olur. Xəbər şəkli bu göstərilənlərdən əlavə digər modal çalarları da ifadə edə bilər.

Müasir türk dilində ***-yor*** nitq aktı ilə eyni vaxtda baş verən hərəkətin gerçəkliklə maksimal uyğunluğunu bildirilir.

İndiki zamanın ***-makta*** şəkilçisi ilə düzələn forması isə ***-yor*** formasından fərqli olaraq artıq gerçək olaraq baş verən və baş verməklə davam edən hadisənin reallığını təsdiq edir.

İndiki zamanın ***-ar*** forması isə *(indiki gələcək zaman)* baş verəcək hadisənin ehtimal olunduğunu bildirir.

Keçmiş zaman bildirən *-dı* və *-mış* hərəkətin real olaraq baş verdiyni və ya ehtimal olunduğunu bildirməklə ziddiyyət təşkil edirlər:

Suleymaniye camii'ni mimar Sinan yaptı (Süleymaniyyə məscidini memar Sinan tikdi).

Suleymaniye camii'ni mimar Sinan yapmış (Süleymaniyyə məscidini memar Sinan tikmiş). İkinci cümlədə baş verən hadisəyə şübhə çaları hiss olunur: *Deyilənə görə, Süleymaniyyə məscidini (çox güman ki, deyəsən) memar Sinan tikmiş.*

Gələcək zamanı bildirən *-acak* şəkilçisi də gələcəkdə baş verən hadisəyə şübhə, ehtimal bildirir.

A.N.Baskakovun fikrincə, xəbər şəklinin zaman formalarında modallıq kifayət qədər qabarıq və dəqiq ifadəsini tapmır. Xəbər şəklinin mürəkkəb zaman formalarında ***-dır*** şəkilçisinin köməyi ilə modallıq daha qabarıq və birmənalı qəti ifadəsini tapır. Hadisənin qeyri-qətiliyi və ehtimali olması isə ***-mış*** vasitəsi ilə əldə edilir. Lakin, ***-mış*** şəkilçisindən sonra ***-dır*** işlənə bilər ki, bu da baş vermiş hadisənin təsdiq mənasını artırmış olur.

İrreal planlı obyektiv modallıq isə xəbər formasından başqa, felin digər formaları ilə yaranır və iki yerə - təhrikedici və şərti modallığa bölünür.

İcbar *(təhrikedici)* modallıq öz növbəsində əmr, arzı, vacib və bəzi hallarda şərt şəkilləri ilə yaranmış olur. İcbar modallıq aşağıdakı mənaları ifadə edə bilər:

1) Əmr: *Pencereyi aç, oda havalansin*

2) Xahiş: *Kahvenizi buyurun, için*

3) Yalvarış: *Tanrım, sen bizi qoru*

4) Təhrik: *Hele hele, söyle bakalım*

5) Çəkindirmə: *Sakın oraya gitmeyin*

6) Arzu: *Allah belasını versin (felin əmr şəkli ilə ifadə olunmuşdur)*

7) Vacib və ya lazım: *A kardeşim bu işi yapmalıydınız* [64, s.15-16].

Şərt modallığı türk dilində daha çox şərt şəkli və şərt modallığı şəkilçiləri ilə düzəlir və real olmayan, ehtimal olunan hadisələri bildirir. Şərt modallığı şərt və güzəşt budaq cümlələrində, bəzən isə sadə cümlə konstruksiyalarında müşahidə olunur.

Təsdiq modallı sadə cümlələrdə modallıq leksik, qrammatik, sintaktik vasitələrlə, eləcə də intonasiya yolu ilə ifadə olunur. Burada reallıq danışanın subyektiv rəyi əsasında formalaşdırılır. Təsdiq modal cümlələr iki yerə ayrılır: *1) Suala təsdiq formasında cavab; 2) cavabla əlaqəsi olmayan təsdiq.*

Suala təsdiq formasında cavabdan ibarət təsdiq cümlələr təsdiq sözləri və söz birləşmələri ilə düzəlir: *evet, gerçekten, süphesiz, hakikaten, peki, hay-hay, tabii, mutlaka, muhakkak, elbette, behemehal, vallahi, tamamiyla, iyi, tamam, baş üstüne, nə olursa olsun.* Cavabın bir sözlə və ya söz birləşməsi ilə ifadə olunduğu modal cümlələrdə cümlənin əsas hissəsi ellipsisə uğrayır.

Təsdiq cümlələr xəbəri xəbər, vacib, arzu şəkilləri ilə ifadə olunan cümlələrə ***-dır*** şəkilçisinin əlavə edilməsi yolu ilə düzəlir. *-Dır* şəkilçisi modal cümləyə təsdiq və baş vermiş hadisənin reallığına əminlik mənaları verir.

Modallıq ***-dır*** şəkilçisinin köməyi ilə aşağıdakı hallarda əmələ gəlir:

1) -yor indiki zaman şəkilçisinin təsriflənən formalarına əlavə olunmaqla: -istiyor (dur);

2) -ar indiki-gələcək zaman şəkilçisindən sonra: istiyirim(dir);

3) -mış subyektiv keçmiş zaman şəkilçisindən sonra: -istemiş(dir);

4) -acak qeyri-qəti gələcək zaman şəkilçisindən sonra: -bakacak(dır);

5) -makta indiki davamedici zaman şəkilçisindən sonra: -bakmakta(dır);

6) -malı vacib formasından sonra: bakmalı(dır).

Modallıq həmçinin *-dır* şəkilçisinin ad nitq hissələri ilə ifadə olunmuş xəbərlərə əlavə olunması yolu ilə düzəlir: - *yeşil(dir).*

Müasir türk dilində təsdiq modallığı sintaktik yolla da əmələ gəlir. Belə təsdiq modallığı bildirən cümlələr daha çox indiki-gələcək *(-ar)* və keçmiş qəti zaman *(-dı)* şəkilçilərinin sual və ya inkar-sual formalarından yaranır.

Təsdiq cümlələr müasir türk dilində bəzən ikiqat inkar yolu ilə də əldə edilir. Təsdiq modallıq inkar sözləri olan ***yok*** və ya ***hayır*** ifadələrinin cümlə əvvəlində işlənməsi ilə geniş müşahidə olunur: *yok, Ali iyi adamdır.*

İnkar modal cümlələrdə danışanın fikrinə görə real olmayan, mövcud olmayan hadisə və ya vəziyyətlər ifadə olunur.

İnkar modal cümlələr leksik, qrammatik və sintaktik vasitələrlə, xüsusi inkar intonasiya ilə ifadə olunur. İntonasiya burada əsasən inkar olunan sözün üzərinə düşür.

İnkar modallıq ifadə edən leksik vasitələri iki qrupa ayırmaq olar: **1)** cümlədə müstəqil olaraq inkar modallıq yarada bilən sözlər; **2)** müstəqil olaraq cümlədə modallıq yarada bilməyən sözlər. Belə sözlər yalnız digər qrammatik vasitələrin köməyi ilə modallıq yarada bilirlər. Birinci qrupa aşağıdakı inkar mənalı sözlər aiddir: - *degil, yok, ne, ne (de)*. İkinci qrupa inkar ədatı ***hayır,*** inkar zərfi ***hiç, asla,*** eləcə də inkar mənalı söz birləşmələri ***hiçbir, hiç kimsə, hiç bir zaman*** daxildir.

Müstəqil inkar modallığı yaradan ***degil*** sözü felin bütün zaman və növ şəkilçiləri ilə işlənmək potensialına malikdir. Qeyd etmək lazımdır ki, Azərbaycan dilində də *"deyil"* inkar sözü geniş işlənmə dairəsinə malikdir və zaman, şəxs və növ şəkilçilərini sərbəst olaraq qəbul edə bilər:

Müstəqil olaraq inkar modallıq yarada bilməyən sözlər xəbərin yanında inkarlıq yarada bilmir. *Siz bakıyormusunuz? - Hayır, ben bakmıyorum.* Əslində, türk dillərində iki inkarlıq *(ikiqat inkarlıq)* təsdiq mənası doğurmalıdır. *"Hayır"* sözü isə, ondan sonra gələn inkar mənalı xəbərlə təsdiq deyil, inkarlıq *(inkar modıllıq)* yaradır. Qeyd etmək lazımdır ki,

“hayır” sözünün köməyi ilə yaranan cümlələr ellipsisə uğraya bilər.

Müasir türk dilində inkar modallıq morfoloci üsulla da yaradılır. İnkarlıq şəkilçisi felin zaman, şəkil, şəxs, kəmiyyət əmələ gətirən şəkilçilərindən, eləcə də feli sifət, feli bağlama və məsdər şəkilçilərindən əvvəl gəlir. İnkari modallıq tam və ya natamam ola bilər. Tam inkar modallığında inkar şəkilçisi xəbər funksiyasında çıxış edən fel əsasına birləşdirilir.

Elbisemi giymeye bile vakit bulamadım. Natamam inkarı modallıqda cümlənin həmcins xəbərlərinin bir hissəsi təsdiqdə, bir hissəsi isə inkarda olur:

Eşegin sözüne inanıyorsun, benim sözüme inanmiyorsun. Natamam inkar modallıq feli xəbərin inkar, felin şəxssiz formalarının feli sifət, məsdər və ya feli sifətin təsdiqdə olduğu hallarda da müşahidə olunur.

Türk dilində inkari modallığın morfoloci göstəricisi Azərbaycan dilində və əksər türk dillərində olduğu kimi - *ma/ - me - dir.*

İnkar modallığı sintaktik vasitələrlə də düzələ bilər. Bu halda inkar modallığı daha çox ritorik sualla əmələ gəlir. Sual modallığında danışanın deyilən fikrə münasibətində inamsızlıq, şübhə, digər əks fikrin doğruluğuna isə inam motivi olur.

Sual modallığı cümlədə sual sözləri funksiyasında çıxış edən leksik vahidlərlə düzəlir. Onlar sual cümləsinin tamhüquqlu üzvü kimi xəbərdən başqa bütün cümlə üzvlərini əvəz edə bilirlər.

Sual cümləsinin mübtədası kimi *kim?, nə?* sual əvəzlikləri çıxış edirlər: *kim geldi?* Göstərilən sual əvəzlikləri cəm şəkilçisi də qəbul edirlər: *kimler geldilər?*

Sual cümləsinin mübtədası kimi *kaç?* və *hangı?* sual əvəzlikləri mənsubiyyət şəkilçiləri qəbul etməklə işlənə bilər.

Kim?, nə? sual əvəzlikləri hal şəkilçilərini qəbul edərək tamamlıq funksiyasında da ola bilərlər: *kimi?, neyi?, kimden?, neden?, kime?, neye?* Tamamlıq rolunda sual əvəzlikləri qoşma ilə də işlənə bilərlər. *Kimi (neyi) bekliyordunuz?*

Zərf funksiyasında çıxış edən və inkar modallığı əmələ gətirən sual əvəzliklərini bir neçə qrupa bölmək olar:

a) ***Ne*** *əsasında yaranmış leksikləşmiş birləşmələr: nasıl (ne asıl?), niçin (ne için?)*

b) ***Ne?*** *Sual əvəzliyinin hal formaları: ne-nere? (neye?), neden?, nerede?, nereye?, nereden.*

c) ***Ne?*** *- sual əvəzliyinin əsas nitq hissələrinə aid sözlərlə və qoşmalarla birləşmələri: - ne zaman?, ne vakit?, ne surette?*

İnkar modallığı yaradan sual əvəzlikləri təyin funksiyasında da çıxış edirlər: *hangi?, nasıl?, ne kibi?*

Bir çox şübhə, güman, təəccüb yaradan modal sözlər sual modallığının yaranmasında iştirak edə bilərlər: *belki, ha, hani və s.* [64, s.26-27].

Sual modallığının yaranmasında bir çox leksik-sintaktik vasitələr də fəal rol oynayırlar. Məsələn, türk dilində ***mi*** ədatı istənilən cümlə üzvünün yanında işlənərək sual modallığı yarada bilər. Göstərilən ədat feli sifət və felin təsriflənən formalarından sonra işlənərək, sonradan özünə mürəkkəb zaman şəkilçilərini, eləcə də şəxs və kəmiyyət şəkilçilərini birləşdirə bilər: *Geliyor musunuz?*

Bəzən sual ədatı felin tam formasından sonra gəlir: *Geliyorsunuz mu?* Bu halda sual baş verən hadisəyə aid olmur. Belə sual formasından məqsəd baş verən hadisənin dəqiqləşdirilməsidir. Ona görə də bu tipli suallar təkrar suallar adlanır.

Türk dilində sual modallığının əmələ gəlməsində aşağıdakı leksik vahidlərin iştirakı da müşahidə olunur: - *aceba, sanki, yani, ya (mi), degil (mi) və s.*

Göstərilən leksik vahidlər müxtəlif leksik-sintaktik konstruksiyalarda inkar modallığının rəngarəng formalarını yaratmış olurlar. Qeyd etmək lazımdır ki, A.N.Baskakovun monoqrafik tədqiqatında türk dili materialında izahını tapmış modallıq bir çox türk dillərinə də aid edilə bilər. [64, s.12-29].

Türkologiyada modallıq kateqoriyasının tədqiqinə həsr olunmuş ən sanballı araşdırmalardan biri F.A.Aqaevanın *“Modalğnostğ kak linqvistiçeskaə kateqoriə”* adlı monoqrafiyasıdır [48]. Monoqrafiyada türkmən və ingilis dillərinin materialı əsasında modallıq linqvistik kateqoriya kimi tədqiq olunur. Qeyd etmək lazımdır ki, əsərdə müəllif modallıq kateqoriyasının linqvistik mahiyyətini açmış, onun məntiqlə,

fəlsəfə ilə kəsişən cəhətlərini təhlil etmişdir. Əsərdə modallığın predikativliklə, felin şəkilləri ilə əlaqəsi nəzərdən keçirilmiş, semantik diapazonu müəyyənləşdirilmişdir. İki müxtəlif sistemli dilin-ingilis və türkmən dillərinin materialı əsasında modallığın ifadə vasitələri qarşılaşdırma yolu ilə şərh olunmuşdur.

F.Aqaeva modallığı əsasən linqvistik kateqoriya kimi səciyyələndirmiş, onun struktur və semantik səciyyələrini açıqlamağa cəhd göstərmişdir.

Nəzəri olaraq modallığın predikativlik və fel şəkilləri ilə nisbəti, modallıq və cümlə problemi, real və irreal modallıq, onun semantik diapazonu, modallığın dildə ifadəsi və ümumi səciyyəsi kimi məsələlər təhlil olunmuş, bir sıra oricinal nəticələr əldə olunmışdur. Monoqrafiyanın sonrakı hissəsində ingilis və türkmən dillərində modallığın ifadə vasitələri araşdırılır. İlk növbədə hər iki dildə modallığın ifadəsinin morfoloci vasitələri öyrənilir, ingilis və türkmən dillərində felin şəkillərinin və kəmiyyət kateqoriyasının modallıqla əlaqəsi müəyyənləşdirilir. Müəllif belə hesab edir ki, felin xəbər şəklinin guya modallığa nisbətdə neytrallığı qeyri-elmi fikirdir. Əslində, felin xəbər şəklində də danışanın subyektiv münasibəti öz əksini tapır.

F.Aqaevanın tədqiqatında felin əmr şəkli ingilis və türkmən dillərində təhrikedici modallığın yaranmasının əsas ifadə vasitəsi hesab olunur. Müəllif statistik hesablamalar aparmış və belə nəticəyə gəlmişdir ki, 10 min nümunədən ibarət seçmədə hər iki dildə təhrikedici modalıq əsasən felin əmr forması ilə ifadə olunmuşdur. İngilis dilində 82%, türkmən dilində isə 93%-dən artıq hallarda felin əmr forması göstərilən funksiyada olmuşdur [48, s.73].

Araşdırmalar nəticəsində müəllif belə bir nəticəyə gəlmişdir ki, türkmən və ingilis dillərində imperativ fərqli cəhətlərə malikdirlər. İngilis dilində imperativ fel əsasından ibarət olub II şəxsin təkinə və cəminə aid olur. Türkmən dilində imperativ bir neçə formada müşahidə olunur:

1) II şəxsin təki - fel əsası, fel əsası + -sana/sənə şəkilçisi, fel əsası + -qin (-qin, -qun) -qün; fel əsası + -ı/i, u/ü;

2) II şəxsin cəmi - fel əsası + şəxs şəkilçiləri (-ın, -in, -un, -ün);

3) III şəxsin təki - fel əsası + sın/-sin, -sun/-sün;

4) III şəxsin cəmi - fel əsası + sınlar/sinlər, sunlar/-sünlər [48, s.107].

Əsərin ən çox diqqəti cəlb edən hissələrindən biri ingilis və türkmən dillərində modallığın leksik ifadə vasitələrindən bəhs edir.

Modallıq hər iki dildə daha çox modal sözlərlə ifadə olunur. Türkmən dilçiliyində tədqiqatçıların əksəriyyəti modal sözləri köməkçi nitq hissələrinə aid edir və *"evnuk sözlər"* adlandırır *(hərfi tərcüməsi xırda sözlər)* Bir qrup tədqiqatçılar isə onları müstəqil nitq hissəsi hesab edirlər. [48, s.118].

F.Aqaeva ingilis və türkmən dillərində modal sözləri üç əsas qrupa ayırır:

1) əminlik ifadə edən modal söz və söz birləşmələri;

2) şübhə, inamsızlıq ifadə edən modal söz və söz birləşmələri;

3) danışanın söylədiyi fikrin arzu olunan və olunmayan olmasını göstərən modal söz və söz birləşmələri [48, s.138].

Monoqrafiyada ingilis dilində semantik sıra təşkil edən təfəkkür və biliklə bağlı fellərin modal funksiyaları da hərtərəfli araşdırılır. Sonrakı fəsillərdə ingilis və türkmən dillərində modallığın leksik-sintaktik ifadə vasitələri qarşılaşdırılır və nəzəri dilçilik üçün elmi əhəmiyyət kəsb edən nəticələr əldə edilir. Modallığın yaranmasında intonasiya və s. prosodik vasitələrin rolu da monoqrafiyada geniş əks olunmuşdur.

1.4. Azərbaycan dilçiliyində modallıq kateqoriyasının tədqiqi.

Türkoloci ədəbiyyatda A.N.Kononovun müasir türk və özbək dillərinin qrammatikalarında ilk dəfə olaraq modallıq ayrıca bir kateqoriya kimi öyrənilməyə başlandı [116; 117]. Həmin vaxtdan etibarən Azərbaycan dilçiliyində də modallıq kateqoriyası, modal sözlər, modallığın müxtəlif sistemli dillərdə ifadə vasitələri araşdırma obyektinə çevrildi. Modallığın müxtəlif aspektlərdən tədqiqinə dair bir çox məqalə, dissertasiya, dərslik və monoqrafiyalarda modallığın linqvistik mahiyyəti açıqlanır, onun leksik, morfoloci, sintaktik-semantik ifadə vasitələri təhlil olunurdu. Azərbaycan dilçiləri

A.Ə.Aslanov, Ə.M.Cavadov, F.R.Zeynalov, N.A.Ağazadə, S.Cəfərov, M.Hüseynzadə, Z.Əlizadə, M.Rəhimov, Z.İ.Budaqova və b. modallığın bir linqvistik kateqoriya kimi hərtərəfli tədqiqi və izahı sahəsində böyük xidmətlər göstərmişlər [8; 9; 18; 19; 44; 45; 46; 47; 49; 50; 20; 28; 23; 24; 139; 16].

Azərbaycan dilçiliyində modallıq kateqoriyası, xüsusilə modal sözləri ilk dəfə araşdıran A.Ə.Aslanov olmuşdur [8; 9]. O, modallığı fəlsəfi-məntiqi, eyni zamanda qrammatik kateqoriya hesab edir. Müəlifə görə, fəlsəfi modallıq ümumi, məntiqi modallıq konkret və birmənalıdır. Burada hökm ya təsdiq, ya inkar edilir. Qrammatik modallıq isə bu mənada daha geniş və çoxcəhətlidir. Məntiqi və fəsləfi modallıqdan fərqli olaraq burada hökmün gercəkliyi, həqiqiliyi, doğruluğu danışanın həqiqətə olan münasibəti ilə ifadə olunur. Bəzən həyatda, ətrafımızda baş verən hadisə barəsində məlumat ya tam qəti şəkildə təsdiq olunur, bəzi hallarda isə ona şübhə ilə, fərziyyə kimi yanaşılır. Hər hansı bir məlumat ya obyektiv, ya da subyektiv planda öz real və ya qeyri-real əksini tapır. Beləliklə, Azərbaycan dilçiliyində ilk dəfə olaraq A.Ə.Aslanov fəlsəfi, məntiqi və linqvistik modallığı bir-birindən ayırmağa, onları ayrı-ayrılıqda şərh etməyə çalışır, onun linqvistik mahiyyətini açıqlamaq üçün geniş təhlil aparır [8].

Qeyd etmək lazımdır ki, A.Ə.Aslanovun elmi araşdırmalarının mərkəzində modal sözlər durur. Müəllif Azərbaycan dilində modallığın əsas ifadə vasitəsi kimi modal sözləri götürür, onların leksik, morfoloci, sintaktik funksiyalarını araşdırır, lüğət fondunda onların yerini və çəkisini müəyyənləşdirməyə cəhd göstərir. Ədat, bağlayıcı və qoşma köməkçi nitq hissələrindən fərqli olaraq modal sözlər özünəməxsus cəhətlərə malikdirlər. Bu baxımdan onları digər nitq hissələri ilə qarışdırmaq olmaz. Modal sözlər deyilən fikrin yəqinliyini, gerçəkliyini, doğruluğunu, şübhə edilən, təxmin olunan, fərz edilən şəkildə təsdiq və ya inkarını, təsdiq və ya inkar edilmiş fikrin davamını, izahını, ümumi nəticəsini bildirməyə xidmət edir [8, s.173-175].

Müəllif modal sözlərə və ifadələrə aşağıdakıları aid edir: *əlbəttə, zənnimizcə, həqiqətən, şübhəsiz, yəqin, bəlkə,*

təxminən, guya, deyəsən, deməli, demək, ümumiyyətlə, əvvələn, birincisi, ikincisi, məncə, səncə, sizcə, bizcə, yəqin ki, gərək ki, ehtimal ki, əlbəttə ki, ümumiyyətlə desək, qısa desək, bundan əlavə və s. [8, s.172-173]

Z.Ə.Əlizadə öz tədqiqatlarında modallığın ifadə dairəsini daha da genişləndirir. Əgər A.Ə.Aslanov modallığın ifadə vasitəsi kimi modal sözləri göstərirdisə, Z.Ə.Əlizadə felin zaman şəkilçiləri, intonasiya, ədat və s. də bu siyahıya əlavə edir [24, s.4]. Z.Ə.Əlizadə öz tədqiqatlarında modallığın qrammatik səciyyələrinə daha çox yer ayırmışdır. O, belə hesab edir ki, istənilən cümlə konstruksiyasında modallıq mövcuddur. Burada modal sözlər aparıcı rol oynamır. Onlar cümləyə əlavə modal çaları gətirirlər.

Türkologiyada, o cümlədən Azərbaycan dilçiliyində köməkçi nitq hissələrinin, modal söz və ədatların tədqiqi sahəsində F.R.Zeynolovun xidmətləri böyükdür [44; 45; 46; 47].

F.R.Zeynolov belə hesab edir ki, modallıq ilk növbədə məntiqi kateqoriyadır, dilçiliyə sonralar keçmişdir. Hər bir cümlədə modallıq bu və ya digər şəkildə mövcuddur. Fərq orasındadır ki, modallığın ifadə vasitələri ayrı-ayrı dillərdə müxtəlifdir [45].

Müəllifin araşdırmalarına görə türk dillərində ayrı-ayrı sözlərin cümlədə təkrarı ilə də modal məna yaranır. Türk dillərində sintaktik təkrarların modallığın ifadə vasitələrindən biri hesab olunması F.R.Zeynalovun tədqiqatlarında geniş şərhini tapmışdır.

Felin şəkilləri, feli sifət və məsdərin modallığı N.H.Ağazadənin tədqiqatlarında alman və Azərbaycan dillərinin materialı əsasında təhlilə cəlb edilmişdir. Müəllif felin lazım, vacib, arzu, şərt şəkilçilərinin modal çalarlarını izah edir, onların alman dilində uyğun variantlarını açıb göstərməyə cəhd edir.

N.H.Ağazadə Azərbaycan, alman və rus dillərinin materialları əsasında felin xəbər formasının modal xüsusiyyətlərini də geniş araşdırmaya cəlb etmişdir.

Modallığın əsas səciyyəvi cəhətləri, universal xüsusiyyətləri Ə.M.Cavadov və Z.İ.Budaqovanın tədqiqatlarında ətraflı şərh olunmuşdur. Ə.M.Cavadov modallığı məntiqi kateqoriya hesab edir və onun dildə

ifadəsində fel şəkillərinin, xüsusilə xəbər, əmr və vacib şəkillərinin rolunu səciyyələndirir. Müəllif həqiqi modallıq, zəruriyyət modallığı və ehtimal modallığını məntiqi modallıq kateqoriyasının komponentləri hesab edir [19].

Z.İ.Budaqova öz tədqiqatlarında modallığın sintaktik aspektdən izahını ön plana çəkmiş, onun sintaksisdə rolunu və funksiyasını, sintaktik mahiyyətini açıqlamağa cəhd göstərmişdir [16].

İndiki keçmiş və gələcək zamanda icra olunan hərəkətin təsdiqi, inkarını bildirərək modal çalarlar ifadə edən felin xəbər şəkli bu baxımdan maraqlı cəhətlərinə görə seçilir.

İstənilən nitq situasiyasında cümlənin modallığı bu və ya digər dərəcədə əks etdirməsi real faktdır. Modallıq hər bir konkret dildə konkret təzahür və ifadə formalarına malikdir. Fel şəkilləri müxtəlif sistemli dillərdə modallığın qrammatik ifadə vasitələrindən hesab olunur. Qeyd etmək lazımdır ki, fel şəkilləri morfoloci kateqoriya hesab olunsa da sintaktik səviyyədə reallaşır və cümlə səviyyəsində onun əsil mahiyyəti açıqlanır. Buradan belə bir nəticəyə gəlmək olar ki, reallığı dilin bir səviyyəsinə aid kateqoriya hesab etmək düzgün olmazdı. cümlə konstruksiyasından kənarda modallığın linqvistik mahiyyəti açıqlanmamış qalır. Felin ən geniş yayılmış və çox istifadə olunan şəkillərindən biri xəbər şəklidir. Modallığın xəbər şəkli ilə ifadəsi heç də bütün dilçilər tərəfindən eynimənalı izah olunmur. Bir çoxları felin xəbər şəkli ilə modallığın müxtəlif kateqoriyalar olduğunu, onların heç bir kəsişmə nöqtəsinə malik olmadığını göstərirlər.

M.Hüseynzadə fellərdə zaman və şəxs şəkilçilərinin iştirakı ilə əlaqədar olaraq, onların xüsusi şəkillərini əmələ gətirən şəkilçilərin nə zaman və nə münasibətlə işləndiyini əsas götürərək şəkil, zaman və şəxs şəkilçilərinə görə felləri dörd qrupa ayırır:

1. Zaman və xüsusi şəkil əlaməti olmayan, yalnız şəxs şəkilçiləri qəbul edən fellər;

2. Zaman və şəxs şəkilçilərini qəbul edib, xüsusi şəkil əlaməti olmayan fellər;

3. Xüsusi şəkil əlaməti olan və şəxs şəkilçisi qəbul edib, zaman şəkilçisi qəbul etməyən fellər;

4. Zaman və şəxs şəkilçiləri qəbul etməyən, yalnız xüsusi şəkil əlaməti olan fellər.

M.Hüseynzadə birinci qrupa felin əmr şəklini, ikinci qrupa felin xəbər şəklini, üçüncü qrupa felin lazım, arzu, vacib, şərt və davam şəkilləri, dördüncü qrupa məsdər, feli isim, feli sifət və feli bağlamalari aid edir [28, s.207]. Bu sadalanan fel şəkillərinin hamısı modallığın yaranmasında və formalaşmasında iştirak edirlər.

Çox vaxt modallıq predikativlikdən daha geniş kateqoriya kimi araşdırılır. Yəni, predikativliyi olmayan, cümlə kimi formalaşmamış söz və söz birləşmələrində də modallıq çalarları özünü büruzə verir. Məsələn: *"xoşagəlimli insan"* ifadəsində predikativlik yoxdur, lakin bu söz birləşməsində artıq danışanın münasibəti açıq-aydın hiss olunur. Danışanın münasibəti bir sözlə də verilə bilər. Məsələn, *"gözəlçə"* sözündə *"çə"* şəkilçisi *"gözəli"* müəyyən baxış bucağı altında səciyyələndirməyə imkan verir. Yuxarıda deyilənlərdən belə nəticə çıxır ki, hətta predikativ olmayan sintaktik vahidlər *(leksemlər)* modal münasibəti əks edə bilərlər. Bu baxımdan modallığın predikativlikdən daha geniş anlayış olması fikrinə haqq qazandırmaq olar. Lakin, modallıq hər şeydən əvvəl cümlə strukturunda təzahür edən predikativlə əlaqələndirilməlidir. Həmin əlaqə subyekt-predikat tipli əlaqə hesab oluna bilər. Burada cümlənin aktual üzvlənməsi də mühüm rol oynayır. Aktual üzvlənmədə həm predikativlik, həm də modallıq cəhətləri cəmləşmiş olur. Ona görə də, çox vaxt aktual üzvlənməni şərti olaraq subyektiv modallığa aid edirlər. Predikativlik təkcə modallıqla deyil, başqa vasitələrlə də ifadə oluna bilər *(şəxs, kəmiyyət, zaman, felin növləri və s.)*. Modallığın intonasiya ilə ifadə olunduğu hallarda predikativlik modal hesab olunur. Bu adlıq cümlələrdə və bir sözdən ibarət şəxssiz cümlələrdə geniş müşahidə olunur.

Müasir ingilis dilində də gələcək zaman formasının modal xüsusiyyətləri mübahisə doğurur. Məlum olduğu kimi ingilis dilində modal fellərin qrammatik birləşmələri *(shall, will+felin məsdər şəkli)* gələcək zamana aid edilə biləcək forma əmələ gətirir. Burada gələcək zaman forması sırf subyektiv modal səciyyə daşıyır. Baş verəcək hadisə mümkün, arzu

olunan, vacib hesab olunur, onun başvermə momenti isə gələcək zamana aid edilir. Məhz bu xüsusiyyətinə görə ingilis dilinin qrammatikası ilə məşğul olan mütəxəssislər köməkçi ***shall, will*** felləri ilə əmələ gələn gələcək zaman formasını gələcək modal forması və ya xüsusi gələcək zaman hesab edirlər [108, s.47-48]. Digər tədqiqatçılar ingilis dilində gələcək zamanın olduğunu qəbul etsələr də, onun əlavə modal mənalardan azad olmadığını göstərirlər. Türkologiya və Azərbaycan dilçiliyində də bu məsələ mübahisəli olaraq qalır. Hələ vaxtı ilə M.Kazımbəy gələcək zamanın üç formasını göstərmiş və *"malı", "məli"* ilə düzələn vacib şəklinin gələcək zaman bildirdiyini qeyd etmişdir [113, s.255). Lakin, diqqətlə nəzər yetirdikdə müşahidə etmək olar ki, təkcə ***malı, məli*** şəkilçisi ilə düzələn vacib şəkli deyil, felin digər şəkilləri də *(arzu, lazım, şərt)* hərəkətin gələcək zamana aidliyini bildirir. Bu məsələyə daha geniş yanaşaraq, gələcək zamanın digər formalarının da modallıq ifadə etməsi faktını qəbul etməli oluruq. Prof. S.Cəfərov bu məsələ ilə bağlı qeyd edir ki, Azərbaycan dilində başqa türk dillərində olduğu kimi hər bir şəkilçi və ya qrammatik element bir qrammatik məna ifadə edə bilər. Əgər hər hansı bir şəkilçi və ya qrammatik element başqa qrammatik məna da ifadə edirsə, qalan mənalar ikinci dərəcəli hesab olunur. Beləliklə, S.Cəfərov belə bir nəticəyə gəlir ki, gələcək zaman mənası ifadə edən bütün fel şəkillərini xəbər şəklinin gələcək zaman forması sisteminə daxil etmək lazımdır. Onun fikrincə, gələcək zaman şəkilçiləri *-acaq, -əcək və -ar, -ər* bir-birlərindən qətilik və qeyri-qətilik cəhətindən fərqləndikləri kimi, *-ası/-əsi, a/ə, -malı/-məli, sa/sə* şəkilçiləri də gələcək zamanı bildirməklə vaciblik, arzu, lazımlıq çalarları ifadə edir. S.Cəfərovun gəldiyi nəticə bundan ibarətdir ki, gələcək zamanın iki yox, altı forması vardır. Həmin gələcək zaman formaları fərqli semantik çalarlara malikdirlər və *acaq/əcək, ar/ər,ası/əsi, a/ə, malı/məli* şəkilçiləri ilə əmələ gəlib qətilik, qeyri-qətilik, arzu, vaciblik, lazımlıq, şərt mənaları ifadə edirlər. Lakin bu mənalar ikinci dərəcəli olub gələcək zaman formasına əlavə semantik çalar vermiş olurlar [20, s.28].

Lakin modallıq zaman kateqoriyasından daha geniş məfhumdur. Modallıq bütün zaman kateqoriyaları çərçivəsində təzahür edə bilər. İndiki, keçmiş və gələcək zamanlara aid edilə biləcək hadisələrə danışanın modal münasibəti heç bir qrammatik ziddiyyət və anlaşılmazlıq doğurmur.

S.Cəfərovun qeyd etdiyi fel şəkillərinin gələcək zamana aidliyi onların ümumi qrammatik mənasıdır. Vaciblik, arzu, lazımlıq və şərt mənaları isə ümumi qrammatik məna hesab oluna bilməz. Bunlar semantik çalar da deyil, əsas, aparıcı modal mənalardır. Bu modal mənaların hər birinin xüsusi morfoloci əlamətləri və bir-biri ilə qarşılaşdırıla bilən diferensial modal mənaları vardır:

Gələcəyəm (mütləq, qəti olaraq gələcəyəm)

Gələrəm (hərəkətin gələcəkdə baş verəcəyi barədə qeyri-qəti məlumat)

Gəlməliyəm (vacib gəlməliyəm, gəlməyim zəruridir)

Gələsiyəm (gəlmək lazımdır)

Gələm (gəlmək istəyirəm, gəlmək arzusundayam)

Gəlsəm (əgər gəlsəm, müəyyən şərtlə (gəlmək)

Misallardan göründüyü kimi, burada modallıq müəyyən zamana *(konkret olaraq gələcək zaman)* çərçivəsinə aid edilir. Qəti və qeyri-qəti gələcək zaman formalarının bölgüsünün özü də şərtidir. Belə ki, hələ baş verməmiş, baş verəcəyi gələcəkdə gözlənilən hadisə haqqında indi verilən məlumat danışanın subyektiv rəyindən də çox asılıdır, yəni hərəkətin gələcəkdə qəti və ya qeyri-qəti baş verəcəyi fikri danışana məxsusdur. Bunun nə dərəcədə obyektiv və real olmasına isə heç kəs qabaqcadan zəmanət verə bilməz. Felin gələcək zamanının qəti və qeyri-qəti formaları Azərbaycan dilində artıq sabitləşmiş morfoloci göstərici-şəkilçi vasitəsi ilə verilirsə, rus və alman dillərində xüsusi leksik vasitə bu fuknsiyanı yerinə yetirir. Tarixən bu şəkilçinin feli bağlama şəkilçisi *a/ə* və gələcək zaman şəkilçisi *caq/cək*-in birləşməsində yarandığı və XVI əsrə qədər Azərbaycan dilində feli sifətin gələcək zamanını ifadə etdiyi məlumdur.

Prof. M.Rəhimov felin şəkillərinin zamanla münsibətindən bəhs edərək yazır ki, onların oxşar cəhətləri odur ki, hər iki

kateqoriya fellə əlaqəlidir. Hər ikisi prosesin baş verdiyi və məlumatın verildiyi zamanla bağlıdırlar. Azərbaycan ədəbi dilinin hələ formalaşmadığı vaxtlarda felin şəkillərinin indiki diferensiasiyası yox idi. Yazılı abidələrdə arzu şəklinin *(a/ə)* indiki zaman *(-ır/-ir-/ur-/ür)*, qeyri qəti gələcək *(ar/ər)* və qəti zaman *(acaq/əcək)* formalarında işlənməsi müşahidə olunur. Eləcə də şərt şəkli *(sa/sə)* şühudi keçmiş zamanda *(dı/di/du/dü)*, qəti gələcək zamanda *(acaq/əcək)*, felin əmr şəkli indiki zaman mənasında *(ır/ir/ur/ür)*, lazım şəkli *(ası/əsi)*, indiki *(ır/ir/ur/ür)* və gələcək zaman *(acaq/əcək)* zaman funksiyasında işlənir [139, s.11-12].

Qəti gələcək zamanın şühudi keçmiş zamanla birləşməsi baş verəcək hadisənin qətiliyini, hökmən baş tutacağı fikrini daha da gücləndirir:

Gələcəkdir (mütləq, hökmən, dəqiq olaraq)

Gələr (güman var ki, ehtimal var ki)

Qeyd etmək lazımdır ki, qeyri-qəti gələcək zamanın morfoloci göstəricisi olan *ar/ər* həm də hadisənin təkrar-təkrar baş verəcəyini, sürəkliliyini bildirir. Həmin məna bütün türk dilləri üçün səciyyəvi olub ilkin məna daşıyır. Müasir türk dillərində göstərilən məna qismən arxaikləşmiş, ikinci plana keçmişdir.

Deyilənləri yekunlaşdıraraq qeyd etmək olar ki, felin xəbər şəkli modallığın qrammatik ifadəsinə xidmət edir. Azərbaycan dilində xəbər şəklinin forma zənginliyi modallığın müxtəlif çalarlarının yaranması ilə nəticələnir. Burada danışanın baş vermiş, verən və verəcək hadisəyə münasibəti həm obyektiv reallığı gerçək əks etdirə bilər, həm də bu münasibətdə modallığın subyektiv səciyyəsi əks oluna bilər.

1.5. Nəticələr.

1. Modallıq fəlsəfi, məntiqi və linqvistik bir kateqoriya olub danışanın söyləmin məzmununa və gerçəkliyə münasibətini əks etdirir. Bu münasibət obyektiv və subyektiv ola bilər. Bu iki münasibət tipindən asılı olaraq modallıq iki qrupa - obyektiv və subyektiv modallığa ayrılır. Bu baxımdan modallıq kateqoriyası obyektiv və subyektiv münasibətin

insan təfəkküründə öz əksini tapmış dialektik vəhdətindən ibarətdir.

2. Fəlsəfi modallıqda obyektiv reallıq, təfəkkür və dilin qarşılıqlı əlaqə və münasibətləri araşdırılır.

3. Linqvistik modallıqda dilin bütün səviyyələrinə xas əlamət və xüsusiyyətlər - qrammatik, sintaktik, semantik əlaqələr toplusu cəmləşmişdir.

4. Məntiqi modallıq hökmün ən mühüm əlaməti hesab olunur. Obyektiv əlaqələr məntiqi hökmün məzmununda müxtəlif forma və dərəcələrdə əks olunur. Linqvistik reallıq, yaxud qeyri-reallıq məntiqi həqiqilik və yalanla üst-üstə düşür.

5. Deyilmiş fikrə münasibət *(onun reallığı / qeyri-reallığı, həqiqiliyi, yalan olması, vacibliyi, zəruriliyi, mühümlüyü, ehtimalı olması)* danışan tərəfindən bildirilir və bu münasibət subyektiv və ya obyektiv səciyyə daşıya bilər.

6. Modallıtğın iki aspekti - obyektiv və subyektiv modallıq - bir-birini tamamlayaraq bütövlükdə cümlənin ümumi modallıq məzmununu yaradırlar. Hər iki aspekt məna yüklərinə görə eyni qiymətlidirlər.

7. Modallığı çox vaxt cümlə səviyyəsinə aid edirlər. Lakin, cümlənin özü də izahını kontekstdə tapır. Beləliklə, modallıq kateqoriyası getdikcə genişlənərək söz səviyyəsindən cümləyə, cümlədən isə kontekstə keçmişdir.

8. Modallıq kateqoriyası real və irreal kimi iki növə ayrılır. Belə hesab olunur ki, reallıq həqiqətə uyğunluq, irreallıq qeyri müvafiqlikdir.

9. Modallığın məntiqi-linqvistik mahiyyəti mürəkkəb olduğu kimi onun ifadə vasitələri də rəngarəndir. Bəzən modallığın ifadə vasitələrini leksik-qrammatik sahə fonunda izah edirlər.

10. İngilis dilində modallıq felin şəkilləri, ara cümlələr, modal fel+infinitiv konstruksiyaları, modal sözlər və s. ilə ifadə olunur. Modallığın yaranmasında intonasiya, vurğu, müxtəlif cestlər və s. də mühüm rol oynayır.

11. Azərbaycan dilində də modallıq əsasən morfoloci, leksik, leksik-sintaktik, leksik frazeoloci, prosodik vasitələrlə əmələ gəlir. Fərq bu vasitələrin məzmununda və struktur tiplərinin müxtəlifliyindədir.

12. Modallığın müxtəlifsistemli german və türk dillərində tədqiqi eyni sxem üzrə aparılmamışdır. Konkret dil materialından, modallığın ayrı-ayrı dillərdə funksiyaları və ifadə vasitələrindən asılı olaraq bu araşdırmaların da istiqaməti müxtəlif olmuşdur.

13. German dillərində daha çox modallığın funksional-semantik sahə anlayışı, modal sözlərin mətnəməlegətirmədə rolu, modallığın ifadəsinin analitik və sintetik üsulları, modal ədatların semantik təbiəti, modal aktuallaşma məsələləri tədqiqat obyekti olmuşdur.

14. Türkoloci ədəbiyyatda fel formalarının və şəkillərinin, modal sözlərin, sintaktik təkrarların və intonasiya növlərinin modallıq anlayışının yaranmasında və ifadəsindəki rolu geniş təhlil olunmuşdur.

15. Germanşünaslıqda modallıq kateqoriyası V.Admoni, Ş.Balli, V.Qak, M.Qrepa, E.Qulıqa, E.Şendels, L.Yermolaeva, E.Zveryeva, K.Kruşelntiskaya, O.Moskolskaya, V.Panfilov, N.Petrov, A.Smirnitski, M.Blox, H.Zandvoorf, C.Kats, C.Fodor, K.Zommerfeldt, İ.Brinkmann, V.Bondarenko, V.Qureviç, D.Ştellinq, Y.Erben, S.Borkaçev, R.Qrobe, C.Lyons, L.Kanner və b. tərəfindən müxtəlif aspektlərdən tədqiq olunmuşdur.

16. Türkologiyada modallıq bir məntiqi,fəlsəfi və qrammatik kateqoriya kimi hərtərəfli şəkildə öyrənilmiş və bu sahədə A.N.Kononovun, N.A.Baskakovun, A.N.Baskakovun, K.V.Musayevin, F.R.Zeynalovun, Z.Əlizadənin, A.Aslanovun, M.Rəhimovun, N.Dırenkovanın, F.A.Aqaevanın və başqalarının böyük xidmətləri olmuşdur.

17. Türkologiyanın aparıcı qollarından olan Azərbaycan dilçiliyində modallıq XX əsrin 50-ci illərindən tədqiq olunmağa başlanmışdır. A.N.Kononovun türk və özbək dillərinin qrammatikalarına həsr olunmuş kitablarında modallıq kateqoriyasının tədqiqi ilə əlaqədar Azərbaycan dilçilərinin əsərlərinə istinadlar edilmişdir. Azərbaycan dilçilərindən A.Ə.Aslanov, Ə.M.Cavadov, F.R.Zeynalov, N.H.Ağazadə, S.Cəfərov, M.Hüseynzadə, Z.Əlizadə, M.Rəhimov, Z.Budaqova və b. öz əsərlərində modallıq kateqoriyasını hərtərəfli tədqiq etmişlər.

FƏSİL 2.

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MODALLIĞIN STRUKTUR TƏHLİLİ

2.1. İngilis və Azərbaycan dillərində modallığın fonetik (prosodik) ifadə vasitələri.

2.1.1. Ümumi qeydlər.

Dilçilik ədəbiyyatında prosodiya termini çox vaxt intonasiyanın tərkib hissələrindən biri kimi izah olunur. Ağamusa Axundov "Azərbaycan dilinin fonetikası" kitabında intonasiyanın tərkib hissələrini aövqəlxətti fonetik vahidlərin, başqa sözlə, prosodik ünsürlərin (melodika, ritm, intensivlik, vurğu, temp, tembr, fasilə və s.) kompleksindən ibarət olub, müxtəlif sintaktik məna və kateqoriyalar, ekspressiv və emosional münasibətlər ifadə etməyə xidmət göstərən fono-qrammatik vasitə kimi səciyyələndirir [5, s.292].

"İzahlı dilçilik terminləri" sorğu lüğətində prosodiyanın iki mənası göstərilir: 1. Nitqin seqmentüstü (superseqment) xüsusiyyətlərinin - tonun ucalığı, uzunluq, yüksəklik və vurğu kimi xüsusiyyətlərinin ümumi adı. 2. Nitqin üzvlənməsi (üzvlərə bölünməsi) və üzvlənmiş hissələrin birləşməsinin üsul və vasitələri. Bura a) ahəng-əsas tonun yüksəlməsi və alçalması; b) dinamika - az, ya çox güclü vurğunun düzümü, sıralanması; c) temp - nitqin nisbətən sürətli və ya yavaş tələffüzü; ç) fasilə - tələffüzün arada kəsilməsi kimi fonetik vahidlər daxil edildir. Prosodik ifadə vasitələri dedikdə isə, vurğu, ton, uzunluq və s. hadisələrlə əlaqədar olan, onlara aid olan ifadə vasitələri başa düşülür [7, s.221].

İndiyə qədər dilçilik ədəbiyyatında modallıq leksik-qrammatik kateqoriya kimi şərh olunmuş, onun intonasiya cəhətinə, prosodik ifadə vasitələrinə diqqət yetirilməmişdir.

1980-cı ildə çap olunmuş "Müasir Azərbaycan dili" kitabında modallıq kateqoriyası dar çərçivədə götürülür və yalnız felin şəkilləri ilə əlaqələndirilir. Modallığı sırf morfoloci kateqoriya hesab edən müəllif (həmin kitabda "Modal sözlər" bəhsinin müəllifi Ə.M.Cavadov olmuşdur) yazır: "Hər bir morfoloci kateqoriyanın dildə müəyyən vəzifəsi vardır. Felin zaman formaları geniş mənada zaman kateqoriyasının ifadə vasitəsidir. Növ subyekt və obyekt münasibətini, hal

kateqoriyası əşya və məkan münasibətlərini, felin şəkilləri isə modallıq kateqoriyasını ifadə edir" [38, s.461]. Daha sonra Ə.M.Cavadov Avropa dillərində (yəqin ki, german və roman dilləri nəzərdə tutulur - F.C.) mövcud olan modal fellərin Azərbaycan dilində olmadığını göstərərək belə bir nəticəyə gəlir ki, Azərbaycan dilində, o cümlədən türk dillərində felin şəkilləri feli xəbərli cümlələrdə modallıq kateqoriyasını ifadə etmək üçün tamamilə kifayətdir və beləliklə, Avropa dillərində olan modal fellərə dilimizdə ehtiyac yoxdur [38, s.462]. Doğrudur, müəllif özü də etiraf edir ki, modal sözlərin tam öyrənildiyini söyləmək olmaz, modal sözlərin əhatə dairəsi haqqında hələ də fikir birliyi yoxdur və s. Sonra Ə.M.Cavadov həmin deyilənlərin davamı olaraq yazır: "*Demək, deməli, demək ki, ümumiyyətlə, bir sözlə, açıq sözlə desək, qısa desək, ümumiyyətlə desək, müxtəsər, beləliklə, nəhayət, deməli ki, açıq deyilsə, qərəz, xülasə, əlqıssa, ümumən, demə, sən demə, məsələn, məncə, səncə, bizcə, deyilənə görə, onun fikrincə, rəyincə, sizin rəyinizə görə, bəli, yox, xeyr* kimi sözlərin və birləşmələrin modal söz olub-olmaması mübahisəlidir" [38, s.463].

Elə bu sitatın özü belə müəllifin Azərbaycan dilində modal fellərin olmaması fikrini təkzib edir və burada mübahisəli olan məqamlar çoxdur. Ən çox etiraz doğuran isə modallığın sırf morfoloci kateqoriya kimi səciyyələndirilməsi fikri hesab oluna bilər.

2.1.2. Modallıq linqvistik kateqoriya kimi.

Əvvəlcə qrammatik kateqoriya anlayışının izahı ilə əlaqədar mövcud fikirlərə münasibətimizi bildirək. "Müasir Azərbaycan dili" kitabında qrammatik kateqoriya dedikdə müəyyən qrammatik mənanın paradiqmatik planda xüsusi sözdəyişdirici şəkilçilərlə sistem şəklində ifadəsi başa düşülür. Qrammatik kateqoriyanın əsasında qrammatik formanın durduğu göstərilir və elə hesab edilir ki, qrammatik formasız qrammatik kateqoriya yoxdur. Həmin prinsip əsasında Azərbaycan dilində qrammatik kateqoriyalar iki yerə bölünür: 1) xüsusi qrammatik kateqoriyalar; 2) ümumi qrammatik kateqoriyalar. Bu anlayışları müəyyənləşdirərkən

ad və fel qütblərinə əsaslanırlar. Hər iki söz qrupunu, yəni həm adları, həm də felləri əhatə edən qrammatik kateqoriyalar ümumi, bunlardan yalnız birinə aid olanlar isə xüsusi adlanır. Beləliklə, Azərbaycan dilində inkarlıq, sual, intonasiya ümumi kateqoriyalar, zaman, şəkil, təsirlilik, şəxs kateqoriyaları fellərə, hal, mənsubiyyət, xəbərlik adlara aid olmaqla xüsusi hesab olunur [38, s.9-10].

Yuxarıdakı izahdan göründüyü kimi, modallıq ümumiyyətlə kateqoriya hesab olunmur. Fikrimizcə, modallıq nəinki ümumi qrammatik, hətta daha geniş mənada linqvistik kateqoriya hesab oluna bilər (fəlsəfi, məntiqi kateqoriyalar anlamında). Çünki, modallığı təkcə qrammatika ilə məhdudlaşdırmaq düzgün olmazdı. Bu mənada "İzahlı dilçilik terminləri" lüğətində qrammatik kateqoriya termininin ikinci mənası daha məqbul hesab oluna bilər: "Ümumi semantik və morfoloci-sintaktik əlamətlər əsasında birləşən ən böyük leksik-qrammatik söz qrupları. Fel kateqoriyası. İsim kateqoriyası" [7, s.57]. Bu baxımdan modallığı da "semantik və morfoloci-sintaktik əlamətlər əsasında" formalaşan leksik-qrammatik söz qrupunu birləşdirən ümumi linqvistik kateqoriya hesab etmək olar.

Fikrimizi əsaslandırmaq üçün Ferdinand de Sössürün dilə verdiyi tərifi bir daha nəzərdən keçirək: "Bizim fikrimizcə, dil anlayışı nitq fəaliyyəti anlayışı ilə ümumiyyətlə uyğun gəlmir; dil nitq fəaliyyətinin yalnız müəyyən hissəsi, lakin doğrudur ki, ən əsas hissəsidir. Kollektiv tərəfindən qəbul edilmiş zəruri şərtiliklərin məcmusu olan dil elə bir sosial məhsuldur ki, hər bir dil daşıyıcısında mövcud olmaqla, nitq fəaliyyətinin reallaşmasını, funksiyadaşıma qabiliyyətini təmin edir. Bütövlükdə, nitq fəaliyyəti müxtəlif tərəfli və rəngarəngdir; ayrı-ayrı sahələrə yayılaraq eyni zamanda fiziki, fizioloci və psixoloci olmaqla, həm fərdi, həm də sosial sferaya aiddir" [157, s.65-66). Sössürə görə dil hər bir kəsin beynindəki izlər məcmusu olaraq bütövlükdə kollektivdə mövcuddur; lüğət kimi: tamamilə eyni olan nüsxələri müxtəlif şəxslərin istifadəsində ola bilər. Dil, hamının malik olduğu, eyni zamanda hamı üçün ümumi olan, kimlərə mənsubdursa onların iradəsindən kənar bir şeydir. Nitqdə

kollektiv olan heç nə yoxdur: onun təzahürü fərdi və anidir [157, s.80]. Bütün bu istinadlardan məqsəd ümumi və kollektiv olan dilin təzahür forması nitqin aparıcı rolunu bir daha nəzərə çarpdırmaq və onun fonunda modallığı səciyyələndirməkdir.

Nitq şifahi danışıq əsasında formalaşır. Şifahi danışıq isə intonasiya, digər prosodik vasitələr olmadan mövcud ola bilməz. Bu baxımdan modallıq kateqoriyasının formalaşmasında mühüm rol oynayan prosodik vasitələrin geniş tədqiqata cəlb edilməsi və hərtərəfli təhlili olduqca vacibdir. Həmin vasitələrin funksiya və rolunun müəyyənləşdirilməsi modallığı bir linqvistik kateqoriya kimi səciyyələndirməyə imkan verir.

2.1.3. Modallığın formalaşmasında intonasiya və digər prosodik vasitələrin rolu.

Nitqin anlaşıqlı olması və mənanın qavranılmasında intonasiyanın rolu olduqca böyükdür. Təəssüf ki, intonasiyanın sintaktik xüsusiyyətlərinə lazımi dərəcədə əhəmiyyət verilməmtş, onun linqvistik mahiyyəti açıqlanmamışdır. Müasir sintaktik nəzəriyyənin və mətn sintaksisinin ən mühüm vəzifələrindən biri dil sistemində və nitqin formalaşmasında prosodik vasitələrin rolunun hərtərəfli araşdırılması hesab olunmalıdır. Modallığın formalaşmasında intonasiya və digər prosodik vasitələrin rolunu aydınlaşdırmazdan əvvəl bəzi terminlərin izahını vermək məqsədəuyğun olardı. Məsələ orasındadır ki, bir çox ədəbiyyatlarda eyni terminin müxtəlif izahlarına rast gəlmək mümkündür. Şərti işarələr də bir-birindən fərqlidir. Göstərilənləri nəzərə alaraq dissertasiya işində terminlər birmənalı izah olunur və vahid şərti işarələr istifadə edilir. Dissertasiyada müxtəlif mənbələrdə verilmiş termin və şərti işarələrin aşağıdakı variantları əsas götürülmüşdür:

Ton – səs tellərinin gərilməsi nəticəsində səsin ahənginin yüksəlməsi və alçalması. Yüksələn tonun qeyri-müəyyənlik, natamamlıq, enən tonun isə qətilik və müəyyənlik bildirdiyi göstərilir. Yüksələn tonu (<), enən tonu (>), neytral tonu isə (–) kimi işarə etmək olar.

Ritm – mühüm prosodik vasitə olub sürətlənmə, yavaşıma, gərginlik və zəiflik, uzunluq və qısalıq və s. nitq prosesində bir-birini müntəzəm olaraq izləməsi;

İntensivlik – səslərin güclü və zəif tələffüzü, səsin gücü;

Vurğu – nitq prosesində sözdəki hecaların və cümlələrdəki sözlərdən birinin daha güclü və ucadan tələffüzü. Bizim tədqiqatda müəyyən fikrin daha qabarıq ifadəsi üçün modal söz və ifadələrin fərqli tələffüzü kimi başa düşülür;

Temp – nitqin sürətli və ya ləng ifadəsi. Bu prosodik vasitə modal ifadələrə müəyyən məna çalarlığı əlavə edə bilər;

Tembr – bu terminin müxtəlif izahlarından biri əsas tona digər tonların (harmonik oberton və rezonator ton) əlavə olunması ilə ekspressiv-emosionallıq çaların əldə olunmasıdır. Kədər, sevinc, qəzəb, nifrət və s. hisslər nitq prosesində tembrlə ifadə olunur [57; 5; 7; 6]. Tədqiqatda göstərilən terminlər izahı verilmiş mənalarda işlənəcəkdir.

Məlum olduğu kimi, modallıq danışanın ifadə olunan fikrə, ifadə olunan fikrin obyektiv varlığa münasibətlərini əks etdirən qrammatik-semantik kateqoriya kimi səciyyələndirilir. Danışanın deyilən fikrə münasibəti müxtəlifmənalı ola bilər. Bu müxtəliflik reallıq, qeyri-reallıq, mümkünlük, qeyri-mümkünlük, zərurilik, ehtimallıq və s. məna çalarları ilə ifadə oluna bilər. Bu göstərilən mənaların əmələ gəlməsində prosodik vasitələr də aparıcı funksiya daşıyırlar. Təsadüfi deyil ki, istər obyektiv, istərsə də subyektiv modallığın ifadə vasitələrindən ən mühümü kimi intonasiyanın müxtəlif növləri (məlumatverici intonasiya, sual intonasiyası, nida intonasiyası, şadlıq, təəssüf, şübhə, təəccüb, qətiyyət, inamsızlıq, tərəddüd, kinayə və s. bildirən intonasiya) geniş müşahidə olunur. Qeyd etmək lazımdır ki, intonasiya təkcə bu göstərilən məna çalarlarını yaratmağa xidmət etmir. Prosodik vasitələrin ümumiləşdiricisi kimi intonasiya bəzən bu və ya digər modal mənanın daha da qüvvətli və ya əksinə zəif ifadəsini də doğura bilər. Bütün bunlar səsin tonu, ritmi, temp və tembrinin tənzimlənməsi yolu ilə reallaşdırılır. Bir çox tədqiqatçıların qeyd etdiyi kimi, intonasiya ayrılıqda deyil, aid olduğu söz, ifadə, cümlə ilə

birlikdə mövcud olur. Söz materialı olmadan, ayrılıqda, ideal intonasiyadan danışmaq əsassızdır. F.Veysəlovun "Alman dilinin fonetikası" kitabında yazdığı kimi "İntonasiyasız cümlə olmadığı kimi, cümləsiz də intonasiya mövcud deyildir" [42, s.162]. Əslində, ayrılıqda götürülmüş söz və ya modal ifadə intonasiyasız olur. Ayrılıqda götürülmüş modal söz o vaxt intonasiya ilə deyilir ki, cümlə funksiyası yerinə yetirmiş olsun. Məsələn,

-Sabah bizə gələcəksənmi?

-Hök(<)mən.

Burada yüksələn tonla deyilən "hök(<)mən" modal sözü əslində cümləni əvəz edir. Əslində, həmin modal söz aşağıdakı cümlə şəklində təsəvvür olunur. Məsələn,

-Mən sabah (hökmən, mütləq, şübhəsiz) gələcəyəm.

"Hök(<)mən" sözünün yüksələn tonla deyilişi işin zəruri olaraq yerinə yetiriləcəyinə inamı, qətiyyəti bir qədər də artırır. Həmin cümləyə cavabı digər modal sözlə əvəz edək. Məsələn,

-Sabah bizə gələcəksənmi?

-Ola bil(>)sin / bəl(>)kə.

Burada hər iki modal sözün alçalan tonla deyilişi ehtimalı bir qədər də azaldır. Beləliklə, yüksələn və alçalan intonasiya tonu baş verəcək hadisənin zəruriliyini, mütləqliyini və ya əksinə başvermə ehtimalının azlığını gücləndirir. Belə situasiyalarda modal ifadənin təsir gücü daha çox olur və effekt daha böyük olur. Eyni qayda ilə hər iki dilin - ingilis və Azərbaycan dilinin materialları əsasında nitq situasiyasından asılı olaraq cümlə funksiyasında çıxış edən modal söz və ifadələrin intonasiya xüsusiyyətlərini təhlil etməklə ümumiləşdirici nəticələr əldə etmək mümkündür.

2.1.4. İngilis və Azərbaycan dillərində modallığın prosodik ifadə vasitələrinin tipoloci səciyyəsi.

Qeyd olunduğu kimi, modal söz və ifadələrin prosodik səciyyəsi cümlə və mətn səviyyəsində özünü qabarıq əks etdirir. Başqa sözlə desək, müəyyən bir sözün yüksək və alçalan tonla deyilişini müəyyənləşdirmək üçün onun ətrafında neytral tonda deyilən sözlər olmalıdır. Yalnız netyral

tonlu sözlər olan cümlədə fərqli (yüksələn və alçalan) ton seçilə bilər.

Modallığın prosodik ifadə vasitələrinin hər iki dildə tipoloci-müqayisəli təhlili ayrıca tədqiqat mövzusu ola bilər. Bizim dissertasiya işimizdə bu problemlə bağlı bəzi mühüm məqamlara toxunulacaq və gələcəkdə bu məsələnin geniş tədqiqinin ümumi konturları müəyyənləşdiriləcəkdir.

Araşdırmalar göstərir ki, modallığın leksik, qrammatik, semantik ifadə vasitələrinin geniş araşdırılmasına baxmayaraq, indiyə qədər ingilis və Azərbaycan dillərində prosodiya aspekti öyrənilməmişdir. Müxtəlifsistemli dillərdə müxtəlif modal mənalar ifadə edən söz və söz birləşmələrinin prosodik strukturlarının oxşar və fərqli cəhətlərinin aşkar edilməsi böyük elmi-nəzəri əhəmiyyətə malikdir.

Modal mənaların ifadəsində prosodik vasitələr digər dil səviyyəsinə məxsus vahidlərlə qarşılıqlı əlaqəyə girir və onlarla həm eyni, həm də müxtəlif məna əlaqələri yarada bilirlər. Burada onların funksiyası müxtəlif çeşidli olur. Onlar digər dil səviyyələrinə aid olan vahidlərin ifadə etdikləri mənanı dəqiqləşdirməyə, gücləndirməyə, zəiflətməyə, müxtəlif "düzəlişlər" aparmağa xidmət göstərməklə fikri tamamlamış olurlar. Belə "xidmət növünü" yardımçı, dəqiqləşdirici, tamamlayıcı hesab etmək olar. Bəzən isə prosodik vasitələr fikrin modal mənasının formalaşmasında aparıcı rol oynayırlar.

İngilis və Azərbaycan dillərində modallığın implisit ifadə olunması zamanı prosodik əlamətlər fonoloci funksiyanı tamamlayaraq modal mənaların yeganə fərqləndirmə vasitəsi ola bilərlər.

Leksik vahidlərin bu və ya digər modal mənasının reallaşdırılması kontekstdən, daha dəqiq desək, oxuyanın mətni anlama dərəcəsindən asılı olur (söhbət bədii söz yaradıcılığı mətnindən, yazılı mətndən gedir). Mətnin başa düşülməsi isə prosodiyada əks olunur, yəni prosodiya oxuyanın qəbul etdiyi məzmunu müşaiyət edir. Əksinə, oxunan mətnin başa düşülməməsi, qavranmaması, onun prosodik baxımdan düzgün tərtib olunmasından çox asılıdır. Nitq prosesində əsərin forma və məzmununun dialektik vəhdəti özünü açıq-

aydın büruzə verir. Məhz buna görə də bədii mətnin adekvat qavranılması üçün modallıq kateqoriyasının vacibliyinin təhlili prosesində prosodiyanın aparıcı rolu nəzərə alınmalıdır. Elmi mətnlərdə prosodiya, səslənmə prosesində intonasiya olmadan da keçinmək olar. Belə mətnlərin başa düşülməsi üçün minimal prosodiya sabit sintaktik quruluş və minimal işarələrin köməyi ilə adekvat verilə bilər. Bədii ifadə üslubu isə elmi üslubdan bu cəhətə görə kəskin surətdə fərqlənir. Bədii yazılı mətn səslənən nitqə istiqamətlənir. Burada prosodik vasitələr, intonasiyanın müxtəlif məna variantları olmadan keçinmək qeyri-mümkündür.

Qeyd etmək lazımdır ki, çox vaxt prosodiya və tələffüz (intonasiya) terminləri sinonim kimi işlədilir. Termin dolaşıqlığına yol verməmək üçün tədqiqat işində "prosodiya" termini həm sintaktik təzahürlərin, həm də modal məna çalarlarının ifadə olunmasına xidmət edən bütün prosodik vasitələr kompleksinin - melodika, dinamika, temp, pauza, ritm, səsin gücü, tembrin ifadəsi üçün istifadə olunur. İntonasiya isə yalnız sitatlarda, başqa müəlliflərin fikirlərinin izahında verilir.

Hər iki dildə subyektiv modallığın ifadə edilməsində prosodik vasitələr daha fəal iştirak edir. Aparılmış fonetik eksperimentlər göstərir ki, cümlədə modallıq mənalarının digər ifadə vasitələri olmadıqda prosodiyanın rolu xüsusilə qabarıq nəzərə çarpır.

Tədqiqatlar göstərir ki, prosodik vasitələrin köməyi ilə eyni bir modal ifadədə müxtəlif mənalar ifadə etmək olar.

Danışanın fikrin məzmununa münasibətini bildirən vasitə olmaqla prosodiya struktur-sintaktik və leksik əlamətlər olmadıqda, yəni modal mənanın implisit ifadəsi zamanı əvəzedici vasitə kimi çıxış edir. Bu zaman prosodiya eyni vaxtda struktur və ya leksik əlamətləri tamamlayır və bununla modal mənanın eksplisit ifadəsində müşaiyətedici vasitə funksiyasını yerinə yetirir. Artıq qeyd olunduğu kimi prosodiya istənilən cümləni emosional rəyə çevirə və ya ifadənin eksplisit xarakterini əks istiqamətdə dəyişə bilər.

Yazılı mətndə prosodiyanın verdiyi mənanın müəyyən olunmasında kontekstin rolu artır. Prosodiya kontekstdə

möhkəmlənir və onun köməyi ilə cümlənin obyektiv struktur elementi kimi çıxış edir.

Prosodiyanı araşdırmış bütün tədqiqatçılar dil kollektivi təfəkküründə müəyyən semantika ilə müntəzəm uyğunluğu olan intonasiya vahidlərini fərqləndirirlər. Bu vahidlər hər bir dil üçün spesifikdir və ünsiyyət prosesində hər dəfə yenidən kəşf olunmur, dil öyrənilməsi prosesində mənimsənilir.

Danışanın fikrin məzmununa münasibətini bildirən mühüm vasitə olmaqla prosodiya ən xırda modal çalarlar və insani hissləri ifadə etməyə qadirdir. Ünsiyyət prosesində prosodik vasitələr leksik və qrammatik vasitələrlə müxtəlif üsullarla qarşılıqlı əlaqədə olur və bununla da istənilən fikir modal çalarla əhəmiyyətli dərəcədə zənginləşir. Bu zaman modallığın leksik-qrammatik ifadə vasitələri - bir tərəfdən prosodik vasitələr, digər tərəfdən öz aralarında tərs mütənasib asılılıqda olurlar, yəni biri çox olduqda, digəri az olur və əksinə. Araşdırmalar göstərir ki, leksik-qrammatik cəhətdən ikimənalı olmayan mənaların xüsusi prosodik vasitələr kompleksi ilə tərtib olunmağa ehtiyacı yoxdur, lakin fikirdə müəyyən modal münasibət olduqda və o, leksik-qrammatik vasitələrlə ifadə olunmadıqda prosodik vasitələr zəruri olur.

Frazaların prosodik quruluşu üzrə hər bir eksperimental-fonetik tədqiqatın son məqsədi bu və ya digər mənanın ifadə olunmasına şərait yaradan relevant əlamətlərin müəyyən edilməsi olmalıdır. Bir sıra hallarda frazaların leksik-qrammatik tərkibinin və prosodik quruluşunun uyğunsuzluğu müşahidə olunur, yəni frazanın prosodik quruluşu fikrin leksik-qrammatik məzmunu ilə ziddiyyət təşkil edir.

Modal mənaların ifadə olunması fikrin mənaca hissələrə bölünməsi vasitəsi ilə verilə bilər: gizli məna yarandığı hallarda bunu daha aydın görmək olar. Bölünmənin əsası kimi məna vacibliyinə fikrin “verilmişdən” “yeniyə” doğru hərəkəti daxildir. Məlumatda “yeni” həmişə ən vacib olmur. Frazanın yeni heç nə bildirməyən hissəsi daha vacib ola bilər. Fikirdə vaciblik dərəcəsinin ifadə olunması zamanı yalnız prosodik göstəricilər deyil, modal mənalar ifadə olunmasında geniş tətbiq olunan leksik-əlamətlər də

əhəmiyyət kəsb edir. Məna bölünməsi prosodik göstəricilərin digər dil səviyyələri göstəriciləri ilə necə əlaqədə olduğunu göstərə bilər. Rəvan və ritmik baxımdan kamil nitq üçün onun təbii olaraq parçalandığı sintaqmların xarakteri (sintaqmda vurğulu və vurğusuz hecaların növbələnməsi) böyük əhəmiyyət daşıyır. Bədii mətn üçün müxtəlif uzunluqlu sintaqmların heç bir ardıcıllıq gözlənilmədən növbələnməsi çox səciyyəvidir.

Modal mənaların ifadəsində pauzalar (fasilə) də fəal iştirak edir. Bədii üslubda bu prosodik vasitədən çox geniş istifadə olunur. İngilis və Azərbaycan dillərində əvəzlik və önlüklər pauza ilə ayrılır.

Azərbaycan dilində sual cümlələrinin intonasiya xüsusiyyətlərinin eksperimental-fonetik üsulla tədqiqi sahəsində müəyyən işlər görülmüş və bir sıra mühüm elmi nəticələr əldə edilmişdir. S.Babayevin "Müasir Azərbaycan dilində feli bağlama tərkibli sadə nəqli cümlələrin intonasiya xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası və A.Axundovun "Azərbaycan dilinin fonemlər sistemi" adlı monoqrafiyasında əldə olunmuş nəticələrə əsaslanmaqla C.Axundov M.Torez adına Moskva Pedaqoci Xarici Dillər İnstitutunun Eksperimental Fonetika və Nitqin Psixologiyası laboratoriyasında geniş təcrübələr aparmış, sual cümlələrinin eksperimental-fonetik səciyyəsini verməyə müvəffəq olmuşdur [4; 15; 6].

Osilloqraf yazılarının təhlili zamanı C.Axundov aşağıdakıları müəyyənləşdirmişdir: kompleks səs yazısı əsasında periodlar şəklində bir-birindən fərqlənən ayrı-ayrı səslər və onların sərhədləri; xüsusi vaxt göstəricisinin köməyi ilə hər bir səsin millisaniyələrlə tələffüz müddəti; rəqs tezliyinin herslərlə hesablanması, bununla bir saitin səs tonunun səviyyəsi; rəqs amplitudalarının həcmi əsasında hecaların şərti intensivliyi; əsas tonun istiqaməti; sintaqmlararası fasilələr.

Beləliklə, ilk dəfə olaraq sual cümləsinin bir kommunikativ tipinin başqa bir kommunikativ tipindən nə ilə fərqləndiyini, nəqli və əmr cümlələrindən hansı intonasiya xüsusiyyəti ilə xarakterizə edildiyini müəyyənləşdirmək mümkün olmuşdur [6, s.169].

Göstərilən araşdırmanın modallığın intonasiya xüsusiyyətlərinin eksperimental-fonetik aspektdən öyrənilməsi üçün də böyük faydası ola bilər.

Müşahidələr göstərir ki, nitq prosesində pauza frazalara modal çalarlıq verir, danışanın tərəddüdünü, şübhəsini göstərir.

İngilis dilində frazada səsin gücü aşağı, tələffüz tempi zəif olur. Azərbaycan dilində isə frazada orta səs gücü və aşağı tələffüz tempi müşahidə olunur. Hər iki dildə qeyri-əminlik, şübhə çalarının azalması bütün frazanın tezlik diapozonunun artmasına və tamamlanmasına aparır.

Azərbaycan və ingilis dillərində əsas funksional cümlələrdə intonasiya növləri, demək olar ki, eyni olsa da, səs səviyyəsi və diapozonu, intonasiya gücü, nitq tempi və səslənmə davamlılığına görə fərqlər vardır.

İngilis dilində cümlənin sonunda azalan tonla yanaşı, yüksələn və azalan-yüksələn tonlardan geniş istifadə olunur, Azərbaycan dilində isə əksər hallarda azalan tondan istifadə olunur.

İngilis dilində emfatik nitqdə əsasən yüksələn, qeyri-emfatik nitqdə isə azalan şkaladan istifadə edilir.

Azərbaycan dilində nəqli cümlələrdə yüksələn-azalan ton özünü göstərir, sintaqm və ya cümlənin kommunikativ mərkəzinədək ton yüksəlir, növbəti hecalar isə əsasən azalan tonla tələffüz edilir. Xüsusi sual cümlələrində hər iki dildə azalan ton müşahidə olunur [15].

Azərbaycan dilində sual cümləsi kimi çıxış edən nəqli cümlələrdə yüksələn xətlə, adlarla düzələn cümlələrdə isə düz xətlə (hər bir növbəti heca əvvəlkindən yüksək olur) artım hiss olunur.

İngilis və Azərbaycan dillərində söz və söz birləşmələrinin melodik tərtibində də fərq özünü büruzə verir. Azərbaycan dilində sintaqm və cümlələrdə yüksələn tondan az, ingilis dilində isə daha çox istifadə olunma halları müşahidə olunur. Azərbaycan dilində yüksələn tondan istifadə kommunikativ mərkəzdən asılı olur. Ümumi sual cümləsində *-mı (-mi, -mu, -mü)* şəkilçisi ilə işlənən söz kommunikativ mərkəz rolunda çıxış edirsə yüksələn tonla, əks halda azalan tonla tələffüz olunur. C.Axundov “Bu sözü deyirmi?”, “Maşını silirmi?”,

“Qutunu düzəldirmi?” cümlələrinin elektro-akustik təhlilini apararaq aşağıdakı nəticəyə gəlir: *“-mı (-mi, -mu, -mü)”* ədatları ilə işlənən sual cümlələrində sualın intonasiya ilə yanaşı morfoloci yol ilə ifadə vasitəsi olduğu üçün cümlədə sual intonasiyasının rolunun zəiflədiyi müşahidə edilir. Eksperiment aydın sübut edir ki, belə sual cümlələrində onların özlərinə məxsus sual intonasiyası vardır.

Haqqında danışdığımız cümlələrin *“mı”* ədatına qədər olan hissəsində əsas ton yüksəlmək mövqeyindədir. Lakin burada həmin heca son nöqtəsinə qədər yüksələ bilmir. Çünki belə cümlələrdə sual məzmunu yalnız intonasiya ilə deyil, eyni zamanda *-mı (-mi, -mu, -mü)* ədatlarından biri ilə verilir” [6, s.187].

Müəllif son olaraq belə nəticəyə gəlir ki, *-mı (-mi, -mu, -mü)* ədatlarından biri ilə işlədilən suallarda xüsusi sual intonasiyası olur, lakin bu intonasiya öz səciyyəvi xüsusiyyətinə görə müəyyən qədər zəif təsir bağışlayır. Belə cümlələrdə sual intonasiyasının mövcud olduğu birinci növbədə sual ədatına qədər son hecada əsas tonun yüksəlmək mövqeyində olması və cümlənin son hecasının uzadılaraq tələffüz edilməsi ilə izah olunur.

Modallığın prosodik vasitələrinin eksperimental parametrlərini əks etdirən cədvəllərdə sual intonasiyası özünün əyani təzahürünü tapmışdır [6, s.171-182).

2.1.5. İngilis və Azərbaycan dillərində tərkibində modal sözlər və birləşmələr olan frazaların prosodik səciyyəsi.

İngilis və Azərbaycan dillərində tərkibində modal sözlər və birləşmələr olan frazaları üç qrupda təhlil etmək olar.

Danışanın deyilən fikrə əminliyini ifadə edən, tərkibində modal sözlər və söz birləşmələri olan frazaların prosodik quruluşu ingilis dilində azalan, yüksələn, azalan-yüksələn tonla, Azərbaycan dilində azalan tonla səciyyələnir. Ön mövqedə modal sözlər azalan tonla tələffüz edilirsə, frazanın növbəti hissəsində prosodik əlamətlərin zəifləməsi hiss olunur. Modal sözlərin ön mövqedə yüksələn və ya azalan-yüksələn tonla tələffüz edilməsi zamanı frazanın növbəti hissələrində prosodik əlamətlərin güclənməsi müşahidə olunur.

Fikrin qətiliyinə daha yüksək ton səviyyəsi, geniş ton diapozonu, güclü səs uyğun gəlir. Eləcə də, əminlik ifadə edən fikirlərdə olduğundan azdır.

Birinci qrup modal sözlər və birləşmələr üçün ingilis dilində aşağıdakılar səciyyəvidir: ilk vurğusuz hecalar - rəvan ton, ilk vurğulu heca - yüksək səviyyə və tonun azalan hərəkəti, terminalqabağı hissənin növbəti hecaları - əsas tonun azalan hərəkəti.

Azərbaycan dilində bu qrup modal sözlər və birləşmələr üçün sintaqm və ya cümlənin kommunikativ mərkəzinədək yüksələn ton və sonrakı hecalarda azalan ton, özü də bir qədər sürətli temp səciyyəvidir.

Əminlik - modal mənası bildirən sözlərdə tonun hərəkəti ingilis dilində azalan və ya yüksələn-azalan, Azərbaycan dilində azalandır.

Really, it isn't much pay for all that protection, is it? (Arthur Hailey, "Airport", 240)

Şübhəsiz mən də gələcəyəm.

Şübhəsiz baş əyər hər əmrimizə (A.Şaiq). [11, s.538]

Hər iki dildə danışanın fikrin məzmununa əmin olmadığını göstərən, tərkibində modal sözlər və söz birləşmələri olan frazaların quruluşu üçün ilk vurğusuz hecalarda orta tonal səviyyələrdə rəvan və ya yüksələn ton hərəkəti səciyyəvidir. İlk vurğulu heca, bir qayda olaraq, modal sözlərə düşür və ən yüksək tonal səviyyədə tələffüz olunur. Terminalqabağı hissənin qalan hecalarında - əsas tonun rəvan və ya azalan hərəkəti səciyyəvidir. Sonda ingilis dilində azalan, eləcə də yüksələn ton, Azərbaycan dilində yalnız azalan ton müşahidə olunur. Bu qəbildən olan frazalar üçün orta tələffüz ton səviyyəsi, orta səs gücü xarakterikdir. Temp ingilis dilində orta və zəif, Azərbaycan dilində tez və bir qədər sürətli ola bilər:

Perhaps you'd better tell me exactly what you mean (Arthur Hailey, "Airport", 71)

Bəlkə, bu gün axşam yağış ara verdi.

Bəlkə mən tez qayıtdım (M.S.Ordubadi).

Cuma düşündü ki, bəlkə… Marala onun haqqında bəzi şübhəli şeylər demişlər (Əbülhəsən). [11, s.245]

Danışanın ifadə etdiyi fikrin arzu olunan və ya olunmayan olduğunu göstərən, tərkibində modal sözlər və birləşmələr olan frazaların prosodik quruluşu əminlik, qətiyyət bildirən modal sözlərdə olduğu kimidir:

Fortunately, the ground being obscured by cloud meant that no one could see and identify cities (Arthur Hailey, “Airport”, 346)

Gərək hamıya yaxşılıq eləyəsən ki, öləndə hamı rəhmət desin (B.Bayramov)

Gərək sinə gərək düşmənə əlbir (S.Rüstəm). [13, s.158]

2.1.6. İngilis və Azərbaycan dillərində tərkibində əminlik / şübhə fel semantik cərgəsi və modal hərəkət felləri olan frazaların prosodik quruluşu.

Tərkibində modal hərəkət olan frazaların prosodik quruluşunu tərkibində əminlik/şübhə fel semantik cərgəsi olan frazaların prosodik quruluşu ilə müqayisə etmək məqsədəuyğun olardı.

Tərkibində əminlik fel semantik cərgəsi olan frazaların prosodik quruluşu üçün əminlik modal mənası olan leksik vahidlərdəki orta və ya geniş ton diapazonunun azalan hərəkəti səciyyəvidir. Bir qayda olaraq, ilk vurğulu heca əminlik bildirən leksik vahidlə üst-üstə düşür və ən yüksək tonal səviyyədə tələffüz edilir. O, həm də əsas tonun yüksələn-azalan hərəkəti ilə tələffüz edilə bilər. Terminalqabağı hissənin qalan hecaları - orta və ya dar diapozon əsas tonun rəvan və ya azalan hərəkəti ilə tələffüz edilir. Terminal hissədə geniş diapozon əsas tonun orta və ya yüksək azalan hərəkəti müşahidə olunur. Bəzi hallarda mərkəzi hecada yüksələn-azalan ton hərəkəti mümkündür.

Həmin frazalarda əminlik modal mənasının ifadə olunmasında əsas funksional yükü danışanın fikrin məzmununa əmin olduğunu göstərən fel və söz birləşmələri daşıyır. Buna melodik zirvə ilə, geniş diapozon yüksək azalan tonla, güclü səslə nail olunur və prosodik fərqlənmə ilə xarakterizə edilir.

I *am sure* if he'll wish to see me (S.Maugham, "The Moon and Sixpence", p.84).

You *know*, I am not sure that your husband is quite responsible for his actions (S.Maugham, "The Moon and Sixpence", p.37).

Mən ingilis dilində səhvsiz yaza bilirəm. Mən səhərlər tez dura bilmirəm *(dan.)*.

Bu qrupun bəzi frazaları qeyri-əminliklə (inamsız) səslənə bilər, onların prosodik tərtibi üçün dar diapozonda alçaq yüksələn ton və səslənmə gücünün azalması səciyyəvidir.

You *are sure* to fail if you do it that way [200, p.1201].

Mən bu sözü ona deyə bilmərəm.

Bu frazalarda danışanın fikrin məzmununa tam əmin olduğunu göstərən fel və söz birləşmələrinin tam

mənasızlaşdırılması (desemantizasiyası) baş verir. Müxtəlif dil səviyyələri vasitələrinin müxtəlifyönümlü hərəkətləri buna misal ola bilər. Belə qarşılıqlı əlaqədə prosodik vasitələr frazanın modal mənasının müəyyən olunmasında əsas rol oynayır. Lakin belə halların sayı çox azdır.

Tərkibində şübhə semantik cərgəli fel və söz birləşmələri olan frazalarda ilk vurğusuz hecalar əsas tonun yüksələn hərəkəti və ilk vurğulu hecada tonun rəvan hərəkəti ilə səciyyələnir. Terminalqabağı hissənin sonrakı hecalarında əsas tonun həm yüksələn, həm də azalan hərəkəti müşahidə olunur. Mərkəzi hecada əsas tonun orta azalan və azalan-yüksələn hərəkəti özünü göstərir. Fikir tələffüzünün orta tempi və orta səs gücü müşahidə olunur.

We have no reason, *to doubt* her story [200, p.348].

Qeyd etdiyimiz kimi, modal hərəkət felləri əminlik və şübhə modal mənaları arasında orta mövqedə dururlar.

Bu qrupda *“to think”* feli ən çox işlənən sözdür və aparıcı yer tutur. Danışanın fikrin məzmununa münasibətindən asılı olaraq tərkibində bu fel olan frazalar müxtəlif prosodik quruluşa malik ola bilərlər.

Danışanın ifadə olunan fikrə əminliyini bildirən frazalar üçün - ilk vurğulu hecada orta diapozonda azalan tonun yüksək səviyyəsi səciyyəvidir. Terminalqabağı hissənin qalan hecalarında da həmçinin orta diapozonda tonun azalan hərəkəti müşahidə olunur. Mərkəzi heca üçün əsas tonun orta azalan və ya yüksələn-azalan hərəkəti xarakterikdir. Özü də azalma sürəti çox böyükdür. Frazaların tələffüz gücü yüksəkdir, temp ortadır.

I *think* that Mrs. Strickland was the most harmless of all the lion-hunters… (S.Maugham, “The Moon and Sixpence”, p.33).

Düşünürəm ki, onun iradları yersizdir. Sonanın fikrincə, Bahar hər incə mətləbi gözdən oxuyan bir qızdı (B.Bayramov). [14, s.279]

Danışanın ifadə olunan fikrin məzmununa qeyri-əminliyini bildirən, tərkibində *“think”* feli olan frazalar orta ton səviyyəsi, dar diapozon, yavaş tələffüz tempi və aşağı səs

gücü ilə səciyyələnir. Mərkəzi hecada əsas tonun ümumi istiqamətində əhəmiyyətli fərqlər müşahidə olunmur.

I think he ought to resign (Oxford Advanced Learner's Dictionary, 1995, p.1241).

Əsərdə, fikrimizcə, bəzi nöqsanlara, mübahisəli məsələlərə də yol verilmişdir [14, s.279].

İntonasiya qrafiki təhlili - felin səslənmə müddətinin danışanın ifadə olunan fikrin məzmununa əminliyindən bilavasitə asılılığını müəyyən etmişdir. Məsələn, danışanın əminliyi azaldıqca bu felin səslənmə müddəti artıq olur.

Tərkibində *fancy, guess, suppose* olan frazalar çox vaxt danışanın ifadə olunan fikrə qeyri-əminliyini göstərir. Tərkibində bu fellər olan frazaların 60%-də nazik diapozon tonunun yüksələn hərəkəti (mərkəzi hecada aşağı yüksəlmə sürəti ilə), aşağı səs gücü müşahidə olunur.

Tərkibində qeyd olunan fellər olan frazalar terminal hissədə əsəs tonun aşağı yüksələn və ya aşağı azalan hərəkəti ilə tələffüz oluna bilər.

I *suppose* now that the lack of cigarettes brought as a rule by her husband… (S.Maugham, "The Moon and Sixpence", p.44).

Tərkibində *believe, expect* olan fellər üçün tələffüzün yüksək ton səviyyəsi, bütün frazanın və yekun hissənin geniş diapozonu, sürətli tələffüz tempi xarakterikdir.

I *believe* he is a stockbroker! (Somerset Maugham, "The Moon and Sixpence", p.34).

Modal hərəkət bildirən frazaların prosodik quruluşu sintaktik strukturun ara vahidinin müxtəlif mövqelərində eyni deyildir. Tərkibində modal hərəkət olan ifadələrin əksəriyyətində ara vahidindən sonra pauza qeyd olunur ki, bu da danışanın qeyri-əminliyini göstərir.

İnterpozisiyada ara elementlər də pauzalarla fərqləndirilə bilər. Ara vahidlərin melodik tərtibi azalan və yüksələn ola bilər. Frazanın bu hissəsində azalan melodik tərtib danışanın ifadə olunan fikrə daha yüksək əminliyi səviyyəsini göstərir.

Danışanın əminliklə söylədiyi ifadələrdə pozisiyadan sonrakı (mövqe arxası) hissədə ara elementləri az vurğulu

olur və sürətli templə, qeyri-əminliklə söylənilən fikirlərdə isə - əsas tonun aşağı yüksələn hərəkəti ilə tələffüz edilir.

2.1.7. İngilis və Azərbaycan dillərində tərkibində ara söz və söz birləşmələri olan frazaların prosodik quruluşu.

Ara söz və söz birləşmələrinin əsas rolu fikrin aktuallaşdırılması, temp və ritmin fərqləndirilməsi, eləcə də kommunikativ əhəmiyyətli hissələr arasında əlaqənin təmin olunmasından ibarətdir.

Ara elementlər arasında fikrin funksional perspektivinə əhəmiyyətli təsir göstərən bir sıra söz və söz birləşmələri vardır. Bu, onunla bağlıdır ki, onların leksik mənasının özü motivizasiya xassəli - yəni məlumatlılıq baxımından əhəmiyyətli hissələri qeyd etmək xüsusiyyətli olur ki, bu da prosodiyada əks olunur: ara element də, rema da azaldılmış templə tələffüz olunur, ara elementin yekun hissəsində yüksək azalan ton olur.

Ara elementlərdən istifadə edərkən danışan pauza edir.

Yazılı nitqdə prosodik vasitə rolunu müəyyən mənada durğu işarələri yerinə yetirir.

Tədqiqatlar göstərir ki, ingilis və Azərbaycan dillərində yazıda əlavələr ya vergüllə fərqləndirilir, ya da qrafik baxımdan qeyd olunmur. Yazılı mətnlərin şifahi formada verilməsi zamanı əlavələri fərqləndirən vergüllər heç də həmişə pauza şəklində prosodik ifadə olunmur.

Müasir ingilis dilində yazıda əlavə olunan hissədəki məlumatın ikinci dərəcəli olmasını, onun əhəmiyyətsiz, az əhəmiyyətli olduğunu bildirmək üçün mötərizə ilə qeyd edirlər. Şifahi nitqdə belə əlavələr aşağı diapozonla, aşağı səs gücü ilə, oxucunun diqqətini cəlb etmək üçün xüsusi fərqləndirilməli olan əlavələr isə sürətli templə tələffüz edilir. Tire arasında verilən əlavələr şifahi nitqdə “ritorik” tonla tələffüz edilir.

Azərbaycan dilində əlavələr yazıda vergüllə fərqləndirilir. Şifahi nitqdə bu əlavələr dar diapozonda, aşağı səs gücü ilə və zəiflədilmiş templə tələffüz edilir.

Hər iki dildə əlavələr, bir qayda olaraq, əsas mətndən prosodik cəhətdən fərqləndirilir.

Əlavələr, bir qayda olaraq, bütün fikirlə müqayisədə dar diapozonda, aşağı səslə və zəiflədilmiş templə tələffüz edilərək ayrıca bir sintaqm təşkil edirlər.

Belə prosodik vasitələr kompleksi fikrin, ifadənin tərkibində, deməli daha ümumi şəkildə hər hansı bir modal mənanın olduğunu göstərir, lakin ümumilikdə bu prosodiya ara söz və söz birləşmələri ilə ifadə olunan modal mənaların verilməsinə nəinki şərait yaradır, əksinə imkan vermir. Burada prosodiya yalnız ifadədə ara element olması faktının özünü göstərməklə qrammatik funksiya yerinə yetirir və beləliklə, əlavənin modal mənasını ön plana çəkərək prosodiya həmin modal məna ifadə olunmasına münasibətdə neytral qalır. Həmin fikirlərdə prosodiya ifadənin müvafiq hissələrinin əlavə olunma xassəsini göstərir, yəni sintaktik funksiya yerinə yetirir.

Sintaktik prosodiya, beləliklə, əlavənin əsas leksik mənasının realizasiyasına şərait yaradır.

Çox vaxt sintaktik prosodiya modal mənaların digər ifadə vasitələri ilə qarşılıqlı əlaqəli olur. Prosodiya onu gücləndirərək, ya bu və ya digər dərəcədə dəyişdirərək istənilən modal mənanın ifadə olunmasını təmin edir.

Bu situasiyada prosodiya yardımçı rol oynayır, yaxud qətiyyətsizlik, təhkiyəyə müəllifin cəlb olunması və s. kimi digər modal mənaların ifadə vasitəsi olur. Bu kateqoriya üzrə fikrin müxalifliyinə tərkibində cümlə mənalı ara elementlər olan fikirlərin, ifadələrin xüsusi prosodik quruluşundan istifadə edilməklə nail olunur.

I think *perhaps* I should have made a show of the indignation I really feet… (S.Maugham, “The Moon and Sixpence”, p.63).

Məsələ sən deyən kimi deyil, *bəlkə* mən deyən kimidir [11, s.245].

“Perhaps”, “bəlkə” ara sözlərinin leksik mənası ilə ifadə olunan cümlələrin mənası bu sözlərin prosodik fərqləndirilməsi ilə güclənmiş olur. Ara sözlər və söz birləşmələri fikirdə başlanğıc mövqedə dururlarsa azalan tonla tələffüz edilir və əsas tərkibdən pauza ilə (yazıda vergüllə) ayrılırlar.

Əminlik/qətiyyət modal mənaları hər iki dildə, bir qayda olaraq, orta diapozon, orta və ya yüksək ton səviyyəsi, azalan ton hərəkəti, orta və ya güclənmiş səs, orta və ya sürətli tələffüz tempinin vəhdəti ilə ifadə olunur.

"*Certainly*, are you alone?" (S.Maugham, "The Moon and Sixpence", p.56).

Əlbəttə bədnəzər var oynamasın (Q.Zakir) [12, s.263].

Qeyri-əminlik və ya qətiyyətsizlik orta diapozon, orta və ya aşağı ton səviyyəsi, aşağı yüksələn və ya azalan-yüksələn ton, aşağı salınmış səs və zəiflədilmiş temp kompleksi ilə ifadə olunur.

But if the difference in tallies turned out to be a clerical error – *as it might* - the D.T.M. would roast him alive (Arthur Hailey, "Airport", 257).

Mən biləsi (mən bilən) dünyada şəxs gərək elə bir iş tutsun ki, onu bacarıb yerinə yetirməyə qabiliyyəti olsun (C.Məmmədquluzadə) [11, s.271].

Bu misallarda əlavələr üçün prosodik quruluşun yüksələn tonundan istifadə olunması müəllifin fikrə qətiyyətsizlik vermək səyini göstərir.

Beləliklə, kommunikativ-dinamik sintaksis baxımından ara elementləri hər iki dildə fikrin kommunikativ əhəmiyyətli hissələr ardıcıllığının müəyyən edilməsində, tema və remanın fərqləndirilməsində mühüm rol oynayır.

Əlavəni fərqləndirmək, dinləyicinin diqqətini ona yönəltmək üçün danışan şifahi nitqdə tembr sintaktikasından istifadə edir.

2.1.8. İngilis və Azərbaycan dillərində tərkibində modal fellər olan frazaların prosodik quruluşu.

Tərkibində ingilis dilində *"must, ought to, should"* modal fellərin məsdərlə birləşməsi, Azərbaycan dilində *-dır/-dir* modal suffiksinin indiki, keçmiş və ya gələcək zaman feli sifəti və əsas felin şərt formasının *"gərək"* modal feli ilə birləşməsi olan və əsaslılığına danışanın kifayət qədər əmin olduğu güman mənasını bildirən frazaların prosodik quruluşu üçün bunlar səciyyəvidir: ingilis dilində - ilk vurğusuz heca - rəvan və ya azalan ton, ilk vurğulu heca - yüksələn və ya yüksələn-azalan ton, Azərbaycan dilində -

yüksək rəvan ton; terminalqabağı hissənin qalan hecalarında - orta diapozon tonun azalan hərəkəti; sonda orta səs səviyyəsi, azalan və ya yüksələn-azalan ton.

She *must* be having a lot of problems with the language (Oxford Advanced Learner's Dictionary, 1995, s.766).

Gərək o sözü deməyəydim [12, s.158].

Modal məna müəyyən edilərkən, əsasən, leksik-semantik vasitələrə diqqət yetirilir, deməli, əminlik modal mənasının ifadəsi zamanı prosodik vasitələr müşayiətedici rol oynayır. Beləliklə, müxtəlif dil səviyyəsi vasitələrinin eyni zamanda istifadəsi zamanı onlardan biri daha əhəmiyyətli olur. Təhlil olunan qrupda leksik-semantik vasitələr daha əhəmiyyətli hesab edilir.

Əminlik modal mənalı leksik-sintaktik ifadələrdə prosodik vasitələr frazanın ümumilikdə modallığını müəyyən edir, yəni yüksələn sonluq, terminalqabağı hissədə nazik ton səviyyəsi modal mənanı örtür. Belə hallarda prosodik vasitələr aparıcı olur və fiziki modal çalarını müəyyən edir.

"It *must* have been very difficult to explain to Robert", I said (S.Maugham, "The Moon and Sixpence", p.51).

Onu bilirsənmi ki, mən sabah gərək Tovuzda olam? (S.Hüseyn) [12, s.158].

"May, might, can, could" modal felləri öz ikinci dərəcəli funksiyasında danışanın ifadə olunan fikrin məzmununa qeyri-əminliyini göstərir.

Prosodiya: ingilis dilində - ilk vurğusuz heca - əsas tonun yüksələn hərəkəti, ilk vurğulu heca - azalan və ya yüksələn-azalan ton və Azərbaycan dilində yüksək rəvan ton, qalan hecalar – əsas tonun azalan hərəkəti; sonda – geniş diapozon yüksək azalan ton özünü göstərir.

My wife *could not have sent* such a letter.

Mənim arvadım belə bir məktubu *göndərə bilməz!*

Prosodiya modal mənanın müşayiətedici vasitəsi olan yerdə fikrin mənasında müəyyənedici rolu leksik-semantik vahidlər oynayır.

2.1.9. Nəticələr.

Beləliklə, prosodiya ingilis və Azərbaycan dillərində modallığın əsas ifadə vasitələrindəndir.

Prosodiya ilə danışanın ifadə olunan fikrə münasibət bildirməsinin müxtəlif çalarlarını ifadə etmək mümkün olur. Prosodiyanın bu funksiyası çox vaxt modal-fərqləndirici adlanır. Prosodiyanın modal-fərqləndirici rolu həm mərkəzi, həm də mərkəzdən əvvəlki hissələrdə reallaşa bilər.

Frazaların prosodik quruluşu onların leksik-qrammatik tamamlanmasından kənarda tədqiq oluna bilməz, belə ki, prosodiya bütün dil elementləri ilə sıx bağlıdır. Fikrin prosodiyasının və müxtəlif vahidlər vasitəsilə rəvan nitqə çevrilən modal mənaların qarşılıqlı əlaqəsini araşdırmaq vacibdir.

Prosodiya - nitqdə təsadüfən istifadə olunmayan əlamətlər məcmuyudur. Bu əlamətlərə - intonasiya, vurğu, pauza, nitq ritmi, tembri və tempi aiddir. Modal mənaların ifadə olunması fikrin mənaca hissələrə bölünməsi vasitəsilə verilə bilər. Bədii mətn üçün yığcam olmayan ritm, yəni müxtəlif uzunluqlu sintaqmların heç bir ardıcıllıq gözlənilmədən növbələnməsi çox səciyyəvidir.

Frazalara modal çalarlıq verən, danışanın tərəddüdünü, qətiyyətsizliyini (şübhəsini) göstərən pauzalar da modal mənaların ifadə olunmasına xidmət edir. Pauzalar üçün tərkibində pauza olan frazaların bərkdən səslənməsi, tələffüz tempinin aşağı və zəif olması xarakterikdir.

İngilis və Azərbaycan dillərində əsas funksional cümlələrdə intonasiya növləri, demək olar ki, eyni olsa da, səs səviyyəsi və diapozonu, tələffüz gücü, nitq tempi və səslənmə davamlılığına görə fərqlər vardır. İngilis dilində cümlənin sonunda azalan tonla yanaşı, yüksələn və azalan-yüksələn tonlardan geniş istifadə olunur; Azərbaycan dilində isə əksər hallarda azalan tondan istifadə olunur.

Azərbaycan dilində sintaqm və ya cümlələrdə azalan tondan daha az istifadə olunur. Alternativ sualların birinci hissəsi, sadalama, müraciət, həmcins cümlə üzvləri azalan tonla tələffüz edilir, ingilis dilində isə bütün bu hallarda yüksələn tondan istifadə olunur.

Eksplisit ifadəli modallığı olan frazaların prosodik quruluşu üzrə fonetik tədqiqin nəticələri aşağıdakı qənaətə gəlməyə imkan verir:

1. Modal mənalar leksik, leksik-semantik və prosodik vasitələrlə ifadə oluna bilər. Eksplisit ifadəli modallığı olan frazaların prosodik quruluşunun fonetik tədqiqinin nəticələri prosodik vasitələrin nitqdə digər dil səviyyəsi vasitələri ilə qarşılıqlı fəaliyyətdə olduğunu göstərir.

2. Prosodik vasitələrin digər dil səviyyəsi vasitələri ilə qarşılıqlı fəaliyyətinin təhlilindən prosodik vasitələrin modal mənaların ifadə olunması zamanı nitqdə həm müşayiətedici, həm də həlledici amil kimi çıxış etdiyini görmək olar. Prosodik vasitələrin leksik və leksik-semantik vasitələrlə qarşılıqlı fəaliyyəti zamanı həm eyniyönümlü, həm müxtəlifyönümlü fəaliyyət mümkündür. Prosodik vasitələrin digər dil səviyyəsi vasitələri ilə eyniyönümlü fəaliyyəti zamanı onların müsbət qarşılıqlı fəaliyyəti müşahidə olunur. Bu halda modal mənaların ifadə olunmasında əsas rol leksik və leksik-sintaktik vasitələrə mənsub olur.

3. İngilis və Azərbaycan dillərində cümlənin sintaktik quruluşunda modal sözlər və söz birləşmələrinin müxtəlif vəziyyətlərində prosodik vasitələrin rolu eyni deyildir. Frazanın əvvəlində modal sözlər və söz birləşmələri istifadə edilərkən danışanın subyektiv münasibəti leksik vasitələrin köməyilə vurğulanır. Prosodik vasitələrin rolu frazanın sonunda modal sözlər və söz birləşmələri istifadə edərkən artır.

Tərkibində modal sözlər və söz birləşmələri olan frazaların prosodik quruluşunda əsas fərqlər bunlardır: ingilis dilində - azalan, yüksələn və azalan-yüksələn ton və Azərbaycan dilində - azalan, çox kəskin yüksələn və ya azalan ton.

4. Tərkibində əminlik/şübhə semantik cərgəli fellər olan frazalarla müqayisədə tərkibində modal hərəkət felləri olan frazaların tədqiqi danışanın bu və ya digər fel işlətməsinə görə əminlik dərəcəsini müəyyən etməyə imkan verir. Tərkibində modal hərəkət olan frazalarda prosodik quruluş fikrin modal xarakteristikasının müəyyən olunmasında əsas funksiyanı yerinə yetirir.

5. Aparılmış təhlil ingilis və Azərbaycan dillərində tərkibində ara söz və söz birləşmələri olan frazaların prosodik quruluşunda fərqlər olduğunu göstərir: ingilis

dilində bir qədər dar diapozon və sürətli tələffüz tempi, Azərbaycan dilində yavaş tələffüz tempi səciyyəvidir.

6. Modal fellər vasitəsilə modal mənaların ifadə olunması zamanı əsas prosodik əlamətlərin reallaşma üsulları prosodik vasitələrin leksik-semantik vasitələrlə, eləcə də prosodik əlamətlərin özlərinin qarşılıqlı təsiri ilə şərtlənir. İngilis dilində ilk vurğulu heca yüksələn, azalan və ya yüksələn-azalan tonla, Azərbaycan dilində yüksək rəvan tonla tələffüz edilir.

7. Tədqiqat nəticələri prosodik vasitələrin digər dil səviyyəsi vasitələri ilə qarşılıqlı fəaliyyətdə müxtəlif modal məna çalarlarını fərqləndirə bilməsini göstərir.

8. İmplisit ifadəli modallığı olan frazaların prosodik quruluşunun təhlilindən subyektiv modal mənaların ifadə olunması zamanı prosodik vasitələrin əhəmiyyətli funksional yük daşıdığını, subyektiv modallıq əlaməti üzrə fikrin fərqləndirilməsi üsulu kimi çıxış etdiyini müşahidə etmək olar.

2.2. İngilis və Azərbaycan dillərində modallığın leksik ifadə vasitələri.

İndi isə ingilis və Azərbaycan dillərində modallığın leksik ifadə vasitələrini ətraflı şəkildə nəzərdən keçirək. Müqayisə edilən dillərdə modallıq kateqoriyasının əsası, nüvəsi morfoloci ifadə vasitələri olsa da, cümlədə modallıq bəzən xüsusi sözlərlə, leksik vasitələrlə yaranır. Hər iki dildə modallığın yaranmasında və qüvvətlənməsində iştirak edən leksik vasitələrin əsasını modal sözlər təşkil edir.

Rus dilçiliyində modal sözləri ilk dəfə olaraq V.V.Vinoqradov təsnif etmişdir. İngilis dilində modal sözləri bir çox tədqiqatçılar, məsələn, İ.Q.Rikman, V.V.Şuvalov, N.V.Yefimova, S.Y.Kaqan, V.V.Belıy, Y.M.Qordon, İ.P.Krılova, Y.S.Smuşkeviç, İ.Q.Lixareva, Y.B.Dyomina və b. təhlil etmişlər [142; 165; 102; 112; 68; 83; 150; 124; 92].

İngilis dilində, eləcə də bəzi başqa Avropa dillərində modallıq kateqoriyası türk dillərindən bəziləri ilə müqayisəli şəkildə öyrənilmişdir.

Bundan başqa, türk dillərində modallıq kateqoriyası ya müqayisəli şəkildə, ya da ayrı-ayrı türk dillərinin materialları

əsasında öyrənilmişdir [107; 48; 53; 8; 24; 18; 31; 136; 137; 94].

Azərbaycan dilində modallınq kateqoriyası daha çox modal sözlər və ara sözlərin timsalında örənilmişdir [8; 9; 18].

Onların hər birinin cümlədə modallığın yaranmasına və qüvvətlənməsinə hansı formada xidmət etdiyini nəzərdən keçirək.

Really – həqiqətən, doğrudan (da), əslində; yəni

Ada Quonsett thought breathlessly: was this *really* happening to her? (Arthur Hailey, "Airport", 354)

"Ada Kvonset nəfəsi kəsilə-kəsilə düşündü: doğrudanmı bütün bu əhvalatlar mənim başıma gəlir? (Artur Heyli, "Aeroport", 324). [A.K.töyşüyə-töyşüyə düşündü: Doğrudanmı, bu onun başına gəlib].

Gördüyümüz kimi, həmin cümlənin mətni tərcüməsində oricinalla tutmayan cəhətlər var, amma bunlar *really* sözü və onun işlənməsi ilə əlaqədar deyil.

Is she *really* a stowaway, Captain? (Arthur Hailey, "Airport", 289)

"O, doğrudanmı, biletsiz uçur, kapitan?" (Artur Heyli, "Aeroport", 264).

Burada *really* sözü be *stowaway* (biletsiz olmaq) birləşməsinə aiddir. Mətbu cümlədə o, *biletsiz uçmaq* birləşməsinə aid edilmişdir. İngiliscə mətndə *uçmaq* felinin müqabili yoxdur. Azərbaycanca mətnə o, ümumi kontekstə uyğun olaraq əlavə edilmişdir.

I *really* didn't think you'd come (Arthur Hailey, "Airport", 282)

"Heç ağlıma gəlməzdi ki, *doğrudan da* durub-gələcəksən" (Artur Heyli, "Aeroport", 258) [Mən, doğrusu (düzü), düşünmürdüm ki, sən gələcəksən"].

Burada oricinalla tərcümə arasındakı fərq daha artıqdır. İngiliscə mətndə *really* sözü *didn't think* feli birləşməsinə aiddir. Azərbaycanca mətbu tərcümədə isə *doğrudan da* modal sözü *durub-gələrsən* feli tərkibinə aid edilmişdir.

Really modal sözünün feli inkar forması ilə işlənməsinə dair daha bir neçə misal:

This gentleman *really* does not have much time (Arthur Hailey, “Airport”, 238)

“Bu centlmenin *həqiqətən də* vaxtı azdır (Artur Heyli, “Aeroport”, 220).

Həmin tərcümə bir neçə cəhətdən maraq doğurur. İngiliscədəki felin inkar forması əvəzinə burada felin təsdiq forması işlənmişdir. İkincisi, bunun müqabilində ingiliscə *much* “çox” sözü azərbaycan dilində *“az”* sözü ilə əvəz edilmişdir. Nəticədə adekvat tərcümə alınmışdır. Amma bu, başqa üsulları istisna etmir: “Bu centlemenin, doğrudan da (həqiqətən) vaxtı çox deyil” və s.

Gördüyümüz kimi, ingilis dilində *really* sözünün azərbaycanca müxtəlif müqabilləri vardır. Amma onların işlənməsi daha artıq fərqlər nümayiş etdirir. İngiliscə mətndə *really* sözü *does not have* feli tərkibinə aiddir. Azərbaycan dilində həmin tərkibin müqabili bütün variantlarda qeyri-felidir.

I really shouldn’t do this, Mrs .Guerrero (Arthur Hailey, “Airport”, 208)

“Mən, həqiqətən xahişinizə əməl edə bilmərəm, missis Qyurrero” (Artur Heyli, “Aeroport”, 193) (Mən, doğrudan (düzü, həqiqətən) bunu edə bilməzdim, missis Qyurrero).

Verilmiş bu tərcümənin oricinaldan fərqi əsasən kontekstlə müəyyənləşir. *Really* modal sözünün azərbaycancadakı sinonim ifadələrdən hansı ilə verilməsi isə həmin kontekstdə elə bir prinsipial əhəmiyyət daşımır.

Will you *really*, Mrs. Quonsett? Gwen saw the old woman start at the use of her name (Arthur Hailey, “Airport”, 351)

“Doğrudanmı, missis Kvonsett? – öz adını eşidəndə qarının diksinməsi Qvenin gözündən qaçmadı” (Artur Heyli, “Aeroport”, 321) [Doğrudanmı sizsiniz, missis Kvonsett?! – Qven gördü ki, qarı adı çəkiləndə diksindi].

Misaldan göründüyü kimi, azərbaycanca mətbu tərcümədə *doğrudanmı* modal sözünün sintaktik vəzifəsi, statusu aydın deyil. Halbuki, oricinalda *will* köməkçi felindən əlavə, *really* modal sözü də bütöv bir modallıq ifadəsinin tərkib hissələridir. Qven missis Kvonsetti tanıyır və özünün yanılıb-yanılmadığını müəyyən etmək üçün ona müraciət

edir. Bu cəhət azərbaycanca mətbu mərcümədə öz əksini birmənalı şəkildə tapmışdır.

Really modal sözü emotiv məqamda da işlənə bilir. Bu halda o, ya cümlənin başında, ya da nida sözündən sonra işlənir. Məsələn:

Really! - you people are so offcious, so disbelieving! (Arthur Hailey, "Airport", 244)

"Doğrudan da, burada hamınız inamsız və hər şeydən şübhələnənsiniz!" (Artur Heyli, "Aeroport", 225).

Bizcə, azərbaycanca mətbu tərcümədə durğu işarəsi düzgün seçilməmişdir. Vergül işarəsi modal sözlə əsas mətn arasında daha sıx əlaqənin olduğu halda işə yarayardı. Burada isə oricinaldakı nida işarəsini saxlamaq yerinə düşərdi. Danışan *really* sözünü təəccüb, heyrət məqamında işlədir, bu isə ritorik sual kimi bir şeydir. Deyilənləri nəzərə alaraq, həmin cümləni belə təqdim etmək olar: *Doğrudan da!* Siz adamlar nə qədər quru (rəsmiyyətçi), nə qədər də vasvasısınız.

Oh, *really!* What kind of advice? Was it fussiness, personal?.. Or, perhaps, you've forgotten? (Arthur Hailey, "Airport", 331).

"Oh, doğrudan? O nə məsləhətdir elə? Xidmət işidir, ya şəxsi? Bəlkə də, artıq unutmusunuz? (Artur Heyli, "Aeroport", 284).[Aha, doğrudan(mı)? İşə aiddir [yoxsa] şəxsi məsələdir?.. Bəlkə də, artıq yadınızdan çıxıb].

Burada *really* modal sözü müsahibin özünə aiddir və nə əsas cümlə ilə, nə də onun ayrı-ayrı tərkib hissəlri ilə əlaqədar deyil. Əksinə, onun özü sonrakı cümlənin işlənməsini vacib edir.

Really, it isn't much pay for all that protection, is it? (Arthur Hailey, "Airport", 240)

"*Doğrudan da*, o cür sığorta üçün çox azdır, elə deyilmi?" [*Doğrudan (da)*, bütün bu himayənin haqqını ödəmək üçün bu çox azdır, elə deyilmi?].

Təqdim edilən tərcümələr arasındakı bütün fərqlərə baxmayaraq, həmin kontekstdə *really* modal sözü bütün cümlənin məzmununa aiddir.

Əlimizdə olan materiallarda *really* modal sözünün birbaşa feli xəbərə aid olmasına da təsadüf edirik. Ancaq nəzərə

almaq lazımdır ki, həmin cümlə yalnız modal söz və feli xəbərdən ibarətdir: Do you understand Vernon? *Really* understand? (Arthur Hailey, "Airport", 205) [Sən başa düşürsən, Vernon? Doğrudan (düzü) başa düşürsən?].

Surely – Əlbəttə, şəksiz, şübhəsiz, mütləq, yəqin ki,

Surely, captain, sir, you're not going to report me for possession of left – overs (Arthur Hailey, "Airport", 114)

"*Əminəm ki,* kapitan, ser, buna görə məni heç kimə satmazsınız" (Artur Heyli, "Aeroport", 106) [Əlbəttə ki, (şübhəsiz, yəqin ki), kapitan, ser, olduğuna görə siz gedib mənim barəmdə xəbər verməzsiniz].

Misaldan göründüyü kimi, azərbaycanca mətbu tərcümədə *surely* modal sözü tamamilə başqa (leksik-qrammatik) vasitə ilə verilmişdir. Bu, *əmin* [olmaq] sözünün birinci şəxsin təkinə məxsus şəkilçi ilə işlənməsi hesabına əldə edilmişdir. Qeyd etmək lazımdır ki, belə bir üsul kontekstual cəhətdən heç bir irad doğurmur. Amma o, başqa üsulları da istisna etmir.

Daha bir misal:

But *surely*, purses are never inspected (Arthur Hailey, "Airport", 246)

"Ancaq, *mən biləni*, qadın çantasına heç vaxt baxılmır" (Artur Heyli, "Aeroport", 228).[Amma çantanı (çantaları) heç vaxt yoxlamırlar].

Misaldan göründüyü kimi, azərbaycanca mətbu tərcümədə *surely* modal sözü istər leksik tərkib, istərsə də qrammatik funksiya baxımından tamamilə yeni bir vasitə ilə *(mən biləni)* verilmişdir. Bunu leksik-sintaktik vasitə (üsul) da adlandırmaq olar.

Ancaq bu, həmin cümlənin tərcüməsində özünü doğruldan yeganə üsul deyil. Bizim təklif etdiyimiz tərcümədə *"heç vaxt", "never"* zaman zərfinin müqabili olmaqla yanaşı, hər cür modal sözün işlədilməsi lüzumunu da aradan qaldırır. O, feli xəbərlə birlikdə oricinalda ifadə olunmuş fikri, real vəziyyəti adekvat şəkildə ifadə edir. Burada gerçəkliyə münasibət obyektiv səciyyə daşıyır. *Mən biləni* ifadəsi həmin münasibətə subyektiv çalar verir. Mətndən bilmək olur ki, danışanın bunu bilib-bilməməyindən asılı olmayaraq, ümumiyyətlə çantaları yoxlamırmışlar.

Certainly – Əlbəttə, şəksiz, şübhəsiz; yəqin

İngilis dilində *certainly* modal sözü daha çox cümlənin başında gəlir. Məsələn:

Certainly, it's all, Did you expect us to fire you? (Arthur Hailey, "Airport", 22)

"Əlbəttə! Elə bilirdin səni güllələyəcəyik?" (Artur Heyli, "Aeroport", 22) [Əlbəttə, tamamilə belədir. Sən elə bilirdin, səni güllələyəcəyik?]. Bizim təklif etdiyimiz tərcümədə əsas fərqlər modal sözlə bağlı deyil. Bundan başqa, həmin cümlədə qeyri dəyişikliklər də etmək olar: a) ikinci cümləni yoxsa sözü ilə başlamaq olar; b) ikinci cümlədə sən sözünü bir dəfə işlətmək olar. Həmin imkanlardan biri mətbu tərcümədə verilmişdir. İkinci variant belə ola bilər: Sən elə birildin, güllələyəcəyik?

Certainly not to admit that they were already turned around and heading back (Arthur Hailey, "Airport", 352)

"*Heç vəchlə* demək olmaz ki, geri qayıdacaq" (Artur Heyli, "Aeroport", 322) [*Yəqin*, güman etmək olmazdı ki, onlar artıq geri qayıdıb (dönüb), müqavimət göstərirlər].

Həmin cümlənin əsli ilə mətbu tərcüməsi arasında mühüm fərqlər nəzərə çarpır: tərcümənin daha müxtəsər olması, budaq cümlənin xəbərinin birinci şəxsin cəminə aid edilməsi, halbuki, (oricinalda) üçüncü şəxsin cəmindən söhbət gedir. Ancaq bizim mövzu ilə bilavasitə bağlı olan fərq də vardır: bu, oricinaldakı təsdiq+inkar münasibətlərinin müqabilində mətbu tərcümədə həm modal sözün (heç vəchlə), həm də xəbərin (demək olmazdı) inkarda işlənməsi ilə bağlıdır.

Certainly her handbag would not have been inspected (Arthur Hailey, "Airport", 247)

"Əlbəttə, onun əl çantasını açmaq heç kimin ağlına gəlməyəcəkdi" (Artur Heyli, "Aeroport", 229) [*Yəqin (əlbəttə)*, onun (qadının) əl çantasını yoxlamayacaqdı].

Həmin cümlədəki modal sözün *əlbəttə*, yoxsa *yəqin* sözləri ilə verilməsi elə bir prinsipial əhəmiyyət daşımır. *certainly* modal sözü məhz çantanın yoxlanılıb-yolanılmayacağını (daha dəqiq desək, ikincini) qətiləşdirir. Burada söhbət yoxlamanın kiminsə ağlına gəlməyəcəyindən

getmir. Ancaq modal söz gerçəkliyə münasibət bildirirsə, həmin gerçəklik olduğu kimi təqdim olunmalıdır.

Certainly modal sözü cümlənin ortası və axırında da gələ bilir. O, cümlənin ortasında gələndə cümlənin özündən sonrakı parçasına, yaxud üzvünə aid olur. Məsələn:

"Well, it *certainly* seems strange…" Mrs Quonsett continued fumbling in her purse (Arthur Hailey, "Airport", 350)

"hm, *doğrudan da*, çox təəccüblüdür… Missis Kvonsett təzədən çantasını eşələdi" (Artur Heyli, "Aeroport", 320) [Yaxşı, bu, *əlbəttə* qəribə görünür" …Missis Kvonsett öz çantasında eşələnməyinə davam etdi].

Qeyd etmək lazımdır ki, ingilis dilində *certainly* sözü öz kökündən *(certain)* semantik və sözdüzəltmə əlaqəsini kəsməmişdir. Bu isə onun semantikasına müəyyən təsir göstərir. Azərbaycanca mətndə onun müqabili kimi götürülmüş *doğrudan da* modal sözünün kökünün *(doğru)* tamam başqa motivi vardır. *Əlbəttə* sözünün Azərbaycan dilində sözdüzəltmə baxımından qohum kökləri olsa da (*əlbət ki*, dan. *hələ-hələbət*), bunlar onun işlənməsinə təsir etmir. Bununla belə, məhz *əlbəttə* sözü *doğrudan da* sözü ilə müqayisədə daha artıq müəyyənlik nümayiş etdirir və ona görə də o, *certainly* modal sözünün mənasını daha yaxşı ehtiva edir.

Good news would *certainly* be a surprise (Arthur Hailey, "Airport", 204)

"Yaxşı xəbərlər, *əlbəttə*, İnezi təəccübləndirəcəkdi" (Artur Heyli, "Aeroport", 189) [Xoş xəbərlər, *əlbəttə ki*, sürpriz (göydəndüşmə bir şey) ola bilərdi].

Mətndən göründüyü kimi, oricinalda və tərcümədə yalnız modal sözlər bir-birinə müvafiq gəlir. Qalan hissələrin nisbəti isə təxmini xarakter daşıyır.

Mel wondered how much of the blame was his own; some, *certainly* (Arthur Hailey, "Airport", 231)

"Mel bütün bunlarda öz günahının nə dərəcədə olduğunu götür-qoy edirdi, hiss edirdi ki, onda da bir az var" (Artur Heyli, "Aeroport", 214) [Mel təəccüb edirdi: günahların nə qədəri onun özündə idi, bəziləri (bir qismi), *əlbəttə*].

İngilis dilində olduğu kimi, Azərbaycan dilində də həmin modal mənalı sözün cümlənin axırında işlənməsi geniş

yayılmışdır. Əlimizdə olan yeganə nümunə həmin mövqedə işlənən modal söz özündən qabaqkı cümlə üzvünə aiddir. Ancaq nəzərə almaq lazımdır ki, bu işin zahiri cəhətinə görə belədir. Əslində isə həmin cümlə üzvü ilə elliptik cümlə verilmişdir.

Undoubtedly – şübhəsiz, şəksiz

İngilis dilində *undoubtedly* və azərbaycan dilində *şübhəsiz, şəksiz* modal sözləri müvafiq isimlərlə *(doubt; şübhə, şəkk)* şəffaf sözdüzəltmə münasibətindədir. Ona görə də ingiliscə tərkibində *undoubtedly* sözü olan cümlələri azərbaycanca verərkən məhz bu iki sözlə kifayətlənmək lazım gəlir. Həmin şərtə nə dərəcədə əməl edildiyinə əmin olmaq üçün konkret misallara müraciət edək.

Roberta was *undoubtedly* repeating Cindy's words exactly (Arthur Hailey, "Airport", 17)

"*Heç şübhəsiz*, Roberta anası Sindinin dediklərini sözbəsöz təkrar edirdi (Artur Heyli, "Aeroport", 16) [Roberta, *şübhəsiz*, Sindinin sözlərini olduğu kimi (dəqiq) təkrar etmişdi (edirdi)].

Somewhere, at this moment, Ordway was *undoubtedly* hastening to a phone (Arthur Hailey, "Airport", 315)

"*Deməli*, indi hardasa leytenant Ordvey telefona sarı tələsirdi" (Artur Heyli, "Aeroport", 289) [Hardasa, bu saat Ordvey, *şübhəsiz*, telefona tərəf (telefonla danışmaq üçün) tələsirdi].

Birinci cümlədə *heç şübhəsiz* modal ifadəsi işlənmişdir. *Heç* ədatı ilə bundan qabaqlar da rastlaşmışıq. Ədəbi dilə məxsus olan bu ədat xalq danışıq dilində həmin məqamda işlənmir.

İkinci cümlədə *undoubtedly* sözünün *deməli* modal sözü ilə verildiyini görürük. Aydın məsələdir ki, bu kontekstdə o, yerinə düşmür: *undoubtedly* yəqinlik bildirən modal sözdür, *deməli* sözü isə nəticə, güman bildirir.

Aşağıdakı misal da bu qəbildəndir:

But the approaching flights had undoubtedly made a tricky instrument descent and now were close to landing, one behind the other (Arthur Hailey, "Airport", 57)

"Ancaq yaxınlaşan təyyarə, *çox güman ki*, özlərini alətlərin ixtiyarına verərək, kor-koranə, bir-birinin dalınca

yerə enməyə gəlirdi" (Artur Heyli, "Aeroport", 56) [Ancaq yaxınlaşmaqda olan təyyarələr, *şübhəsiz*, cihazların köməyi ilə enirdi və indi bir-birinin dalınca yerə enməyə yaxın idilər (az qalırdı ki, yerə ensinlər)].

Qeyd etmək lazımdır ki, çox sözünü *güman* sözünə artırmaqla gümanın dərəcəsini artırmaq mümkündür: ancaq güman yenə də güman olaraq qalır.

Bu kontekstdə *undoubtedly* sözünün işlənməsi elə situasiya ilə bağlıdır ki, orada gümana yer qalmır. Həmin şəraitdə uçuşu əllə yox, yalnız cihazların köməyi ilə idarə etmək olar, özü də bu, "kor-koranə" uçuş, idarə deyil…

Undoubtedly the same thing was happening in the other seven air craft concourses grouped around the terminal (Arthur Hailey, "Airport", 40)

"*Heç şübhəsiz*, aeroportun yeddi digər girişi qarşısında da eyni mənzərə var idi" (Artur Heyli, "Aeroport", 39) [Şübhəsiz, eyni şey (hadisə) terminal ətrafında toplanmış yeddi başqa aviasiya dəstəsində də baş vermişdi].

Cümlənin başında gələn həmin modal mənalı söz cümlənin ortasında gəlməklə müqayisədə daha artıq dərəcədə bütöv cümlənin məzmununa aid olur.

No doubt – heç şübhəsiz, şübhə yoxdur ki, şübhə ola bilməz

"They aren't", he told her, remembering Mrs Harriet Du Barry Mussman, *no doubt* still being questioned in the customs Hall (Arthur Hailey, "Airport", 254)

"O dərəcədə yox" – o, missis Harriyet Dü Bərri Mossməni xatırlayıb dedi, - onu *yəqin* hələ də yoxlayırdılar (Artur Heyli, "Aeroport", 234) ["Onlar deyillər" - o, (kişi) missis Harriyet Dü Bərri Mossməni xatırlayacaq, ona (qadına) dedi, *şübhə (yeri) yoxdur ki*, o, hələ də kömrükxana zalında sorğu-sualın təsiri altında idi].

Qeyd edək ki, bu kontekstdə *no doubt* sözünün *yəqin* sözü ilə verilməsi səhv deyil, yanlışdır.

No doubt modal sözünün cümlə başında işlənməsinə aid bir nümunə ilə kifayətlənirik:

No doubt, the reason was traffic and the storm (Arthur Hailey, "Airport", 262)

"*Heç şübhəsiz*, çovğunun və nəqliyyatın çoxluğu ucbatından beləydi" Arthur Hailey, "Airport", 239) [*heç şübhəsiz*, səbəb nəqliyyat və çovğunda idi].

No doubt modal sözü təklikdə işləndiyi kimi, *to have* feli ilə tərkib əmələ gətirməklə də işlənə bilir. Həmin üsul Azərbaycan dilinə də yad deyil. Biz həmin modal sözə aid verdiyimiz birinci nümunənin tərcüməsində *şübhə yoxdur* ifadəsindən istifadə etmişik. Həmin *yoxdur* ifadəsi semantik fon kimi *vardır* ifadəsini tələb edir.

No doubt modal sözü *to have* feli ilə birlikdə işləndikdə də ona azərbaycanca *şübhə yoxdur* modal birləşməsi müvafiq gəlir. Nəzərə almaq lazımdır ki, bu zaman *şübhə* sözü şəxs şəkilçisi ilə işlənir.

So I have no doubt that you are licensed to taxi airplanes (Arthur Hailey, "Airport", 321)

"Deməli, *heç şübhə yox ki*, yerüstü manevrlər etməyə Sizin icazəniz var" (Artur Heyli, "Aeroport", 3) [Beləliklə, mənim *heç bir şübhəm yoxdur ki*, (yerdə) təyyarə sürməyə Sizin icazəniz var"].

Of course – Əlbəttə

Həmin modal söz cümlənin başında, ortasında və sonunda gələ bilir. O, cümlənin başında və sonunda gələrkən bütövlükdə cümlənin ümumi məzmununa, cümlənin ortasında gələndə isə özündən sonra gələn hissəyə aid olur. Həmin halları konkret misallar əsasında nəzərdən keçirək.

Of course cümlənin başında:

Of course, I'l help (Arthur Hailey, "Airport", 235)

"*Əlbəttə*, kömək edərəm" (Artur Heyli, "Aeroport", 217).

Of course, the flight might be full (Arthur Hailey, "Airport", 233)

"*Əlbəttə*, təyyarə tamamilə dolu ola bilər" (Artur Heyli, "Aeroport", 216). Burada tamamilə sözü artıqdır, amma modallığa isti-soyuğu yoxdur.

Of course, there might be no connection (Arthur Hailey, "Airport", 313)

"*Əlbəttə*, olsun ki, bunların bir-birinə heç bir zidiyyəti yox idi" (Artur Heyli, "Aeroport", 287) [*Əlbəttə*, burada (bunlar arasında) heç bir əlaqə (rabitə, bağlılıq) olmaya bilər].

Gördüyümüz kimi, *of course* modal sözünün Azərbaycan dilində müqabili olaraq hər yerdə *əlbəttə* sözü çıxış edir. Bu iki söz istər semantik, istərsə də qrammatik (sintaktik) baxımdan bir-birinə müvafiq gəlir. Bununla belə, yuxarıda da qeyd etdiyimiz kimi, ingilis dilində *of course* modal sözünün mənsub olduğu dil sistemində fəal surətdə işlənən qohum kökü (sözü) vardır: *course*. Bu isə həmin modal sözün işlənməsindən ötrü semantik fon təşkil edir.

Daha bir misal:

Of course, Freemantle realized, this whole proceeding was cust an exercise in semantics (Arthur Hailey, "Airport", 301)

"*Əlbəttə*, Frimantl orasını da başa düşürdü ki, bu təkcə gəlişigözəl söz güləşdirməkdir" (Artur Heyli, "Aeroport", 275) [*Əlbəttə*, Frimantl aydın başa düşürdü ki, bütün proses semantika təmrinidir (söz güləşdirməkdir)].

Of course cümlənin ortasında:

At the moment, *of course*, she had no idea what he was talking about (Arthur Hailey, "Airport", 353)

"Hələlik isə, qarı, *əlbəttə*, baş açmırdı ki, kişi nəyə işarə edir" (Artur Heyli, "Aeroport", 323) [Bu anda, *əlbəttə*, o (qadın, qarı) təsəvvür etmirdi ki, o (kişi) nə deyir].

Verilən nümunədə *of course* modal sözü cümlənin ortasında gəlsə də, həmin məqamda onun rolu cümlə başındakının eynidir. İş burasındadır ki, *at the moment* ifadəsi zaman zərfliyi olub, özünə modal münasibət tələb etmir.

My late husband would have so encoyed meeting you, though, *of course* you are very much younger (Arthur Hailey, "Airport", 296)

"Kaş, mənim rəhmətlik ərim Sizi tanıyaydı, ancaq Siz, *əlbəttə*, ona nisbətən çox cavansınız" (Artur Heyli, "Aeroport", 271) [Mənim mərhum ərim Sizi görsəydi, elə məmnun olardı ki, çox da Siz, *əlbəttə*, (ondan) xeyli cavansınız].

Bu cümlədə isə vəziyyət tamamilə bu dilin sintaktik normalarına müvafiqdir. Burada *of course* modal sözü məhz cümlənin ikinci hissəsində ifadə olunan fikrə münasibət bildirir.

Demək lazımdır ki, həmin cümlənin azərbaycanca hər iki tərcüməsində, onlar arasındakı bütün fərqlərə baxmayaraq, həmin vəziyyət düzgün ifadəsini tapmışdır.

It was strange, *of course*, that this man was going overseas without money (Arthur Hailey, "Airport", 242)

"Çox qəribəydi, əlbəttə, cibində bir qəpiyi olmayan bu adam okeanın o tayına uçur" (Artur Heyli, "Aeroport", 224).

Burada istər *əlbəttə* sözünün cümlədə mövqeyi, istərsə də mətnin ümumi məzmunu oricinala tam müvafiq gəlir. Bununla belə, həmin cümlə Azərbaycan dilinin qrammatik normaları baxımından qaneedici deyil. Biz belə hesab edirik ki, həmin cümləni daha səlis şəklə salmaq üçün aşağıdakılara əməl etmək lazımdır:

a) ya *əlbəttə* sözündən sonra iki nöqtə işarəsi qoyub, qalan hissəni olduğu kimi saxlamaq;

b) ya da cümlədə daha əsaslı struktur və semantik dəyişikliklər etmək.

İkinci tələbə uyğun olaraq, biz aşağıdakı tərcüməni təqdim edirik: *Əlbəttə*, qəribəydi ki, bu adam pulsuz dənizin (okeanın) o tayına gedir.

Əlbəttə modal sözünü oricinalda olduğu kimi işlətmək ona görə mümkün deyil ki, həmin mətn mürəkkəb cümlə quruluşundadır: *Qəribəydi ki* – baş cümlə, qalan hissə mübtəda budaq cümləsidir. Azərbaycan dilinin sintaktik qaydalarına görə isə, baş cümlə ilə ona aid olan mübtəda budaq cümləsi arasında kənar söz işlənə bilməz.

Of course modal sözü cümlənin axırında da işlənir:

My ticket? Why, *of course* (Arthur Hailey, "Airport", 350)

"Mənim biletimə? Ah, *əlbəttə*, olar" (Artur Heyli, "Aeroport", 320) [Mənim biletimə? Əlbət ki!].

Burada *why* və *of course* ifadələrinin semantik-sintaktik vəzifələri qovuşur və tərcümədə onlara ayrı-ayrı müqabillər tapmaq vacib deyil. *Ah* nidasının mətnə daxil edilməsi isə mətləbə o qədər də aydınlıq gətirmir. Həmin mətndə diqqətəlayiq cəhətlərdən biri də odur ki, *of course* modal ifadəsinin işləndiyi cümlə özündən qabaqkı cümlədə ifadə olunan fikrə münasibət bildirir.

I'm not speaking officially *of course* (Arthur Hailey, "Airport", 305)

"Mən, *əlbəttə*, heç bir bəyanat vermirəm (Artur Heyli, "Aeroport",280)

Bu nümunədə *of course* modal sözü əsas cümləyə əlavə kimi çıxış edir. Tərcümədə onun yeri bir qədər qabağa çəkilmişdir (mübtədadan sonraya). Bundan irəliki cümlənin tərcüməsində buna oxşar hadisə ilə qarşılaşırıq. Bu o deməkdir ki, Azərbaycan dili üçün *əlbəttə* modal sözünün cümlənin sonunda işlənməsi o qədər də səciyyəvi deyil.

Bütün bu deyilənləri nəzərə almaqla, biz həmin cümləni azərbaycanca bu cür verə bilərik: Mən rəsmi (olaraq) danışmıram, *əlbət ki*.

Aşağıda verəcəyimiz cümlədə də vəziyyət eynilə bunun kimidir:

He fiddled a little himself, though not professionally, of course (Arthur Hailey, "Airport", 295)

"O özü də az-maz skripkada çalırdı, ancaq, əlbəttə, professional deyildi" (Artur Heyli, "Aeroport", 270) [O özü üçün bir az skripkada çala bilirdi, hərçənd professional (səviyyədə çalmırdı), *əlbət ki*].

In fact – "faktiki olaraq, əslində, kor-kor, gör-gör"

In fact modal sözü *indeed* sözü ilə sinonimlik münasibətində olub, onunla müqayisədə daha artıq işləklik nümayiş etdirir.

In fact modal sözü əsasən cümlənin başında və ortasında gəlir.

In fact, her gentleness had been one of the things which appealed to Mel when they first met in San-Francisco …he on leave from the Navy and Korea (Arthur Hailey, "Airport", 67)

"*Sözün düzü*, o vaxt hərbi hava qüvvələrini və Koreyanı tərk edib San-Fransiskoya gedəndən sonra Sindiylə tanış olan Meli qızın zərifliyi və incəliyi əsir etmişdi" (Artur Heyli, "Aeroport", 66) [*Əslində*, Mel Nəvi və Koreyadan San-Fransiskoya gələrkən onlar birinci dəfə görüşəndə qızın xoş qılığı (xasiyyəti) Melin xoşuna gələn şeylərdən biriydi].

Gördüyümüz kimi, *in fact* modal sözü bir halda *sözün düzü*, başqa halda isə *əslində* modal sözləri ilə verilmişdir. Hansı yaxşıdır? *In fact* modal sözü dildənxaric gerçəkliyə

işarə edir. Bu xüsusiyyət *əslində* sözündə var, *sözün düzü* ifadəsində isə yoxdur.

Some among his legal colleagues might have questioned if Elliot Freemantle's intellect was, *in fact*, superior (Arthur Hailey, "Airport", 88)

"*Əslində*, həmkarlarının arasında onun fərasətinə şübhə ilə baxanlar da vardı" (Artur Heyli, "Aeroport", 86) [*Əslində*, onun qanuni xidmət yoldaşları arasında bəziləri Elliot Frimantlın ağıl-kamalının yüksək (səviyyədə) olmasına şübhə ilə baxırdılar].

Hər iki halda *in fact* modal sözü azərbaycanca eyni ifadə vasitəsi ilə verilmişdir. Həmin tərcümələr arasındakı mühüm fərqlər tərcümənin dəqiqliyi, keyfiyyəti ilə bağlı olan məsələdir.

Tərkibində *in fact* modal sözü olan daha iki cümləni veririk. Bunlardan birincisi onunla diqqəti cəlb edir ki, burada daha bir modal söz işlənir:

In fact, probably was (Arthur Hailey, "Airport", 312)

"Güman ki, *məhz* eləydi" (Artur Heyli, "Aeroport", 286).

Tərcümədə maraqlı bir yerdəyişmə ilə qarşılaşırıq: burada modal sözlərin yeri dəyişmişdir. Doğrudur, belə də pis deyil. Ancaq bunsuz da ötüşmək olardı: *Əslində*, yəqin ki (ehtimal ki), beləydi".

İkinci cümlə heç də bundan az maraqlı deyil:

D.O.Guerrero wanted no conversation, either now or later, *in fact*, no more communication with anyone else in this life (Arthur Hailey, "Airport", 297)

"Nə indi, nə də sonra D.O.Qyurrero bir kimsəylə kəlmə kəsmək istəmirdi; *əslində*, bu, həyatda hər cür münasibətə son qoymuşdu" (Artur Heyli, "Aeroport", 272) [D.O.Qyurrero heç bir söhbət (etmək) istəmirdi – nə indi, nə də sonra; *əslində* hətta öz həyatı boyu kiminləsə heç bir ünsiyyətdə olmaq istəmirdi].

Bizə belə gəlir ki, burada izahatsız da ötüşmək (keçinmək) olar.

*****Biz yuxarıdakı tərcümədə daha çox hərfiliyə fikir vermişik. Həmin cümləni bu cür də vermək olar: "D.O.Qyurrero heç kəslə danışmaq istəmirdi, nə indi, nə də

sonra; əslində hətta bu dünyada heç kəslə ünsiyyətdə olmaq istəmirdi".

Indeed – həqiqətən, gerçəkdən(dan), əslində, düzü

Yuxarıda qeyd etdiyimiz kimi, *indeed* modal sözü *in fact* modal sözünə nisbətən az işlənir. *Indeed* sözü üçün cümlənin sonunda gəlmək xarakterikdir. Bu cür işlənmə tərzi Azərbaycan dilindən ötrü xarakterik deyil.

Indeed sözünə aid əlimizdə yalnız bir misal vardır:

Mel had replied that he was very interested *indeed* (Arthur Hailey, "Airport", 65) [Mel cavab vermişdi ki, onun *həqiqətən* buna çox marağı var (bu onu çox maraqlandırmışdı].

Truly – həqiqətən, doğrudan, gerçəkdən

He had wondered then: had he ever *truly* been in love himself? (Arthur Hailey, "Airport", 346)

"Bu etiraf Vernonun özünü də düşündürmüşdü: *görəsən*, ömründə bircə dəfə kimisə sevmişdi? (Artur Heyli, "Aeroport", 316) [Onda təəccüblənmişdi: onun özü *doğrudan* nə vaxtsa kiməsə vurulmuşdumu?].

Possibly – mümkündür, imkan daxilində, ola bilər, ola bilsin ki,

He couldn't *possibly* pay the installments, though that part, at least, was understandable (Arthur Hailey, "Airport", 205)

"*Axı*, o, xırda-xırda da olsa, həmin pulu qaytara bilməyəcəkdi" (Artur Heyli, "Aeroport", 190) [O, *yəqin ki*, borcun növbəti hissəsini qaytara bilməyəcəkdi, çox da ki (hərçənd) həmin hissə barəsində qabaqcadan razılığa gəlmişdilər].

Gördüyümüz kimi, *possibly* sözü Azərbaycan dilində bir halda *axı* ədatı, ikinci halda isə *yəqin ki, ola bilsin ki,* modal sözü ilə verilmişdir. *Axı* sözü burada o qədər də yerinə düşməsə də, növbəti misalda tamamilə yerindədir:

What more could anyone *possibly ask*? (Arthur Hailey, "Airport", 296)

"Yaxşı, adama bundan artıq nə lazımdır?" (Artur Heyli, "Aeroport", 271) [Axı adam bundan artıq nə tələb edə (istəyə, diləyə) bilərdi?!].

Probably – ehtimal ki, yəqin ki, güman ki

Probably ehtimal məqamında işlənib, cümlənin əvvəlində, ortasında və sonunda gəlir. Azərbaycan dilində bu modal sözün müqabilində üç modal söz işlənir; onların içərisində *yəqin ki,* daha işləkdir. *Ehtimal ki, güman ki,* modal sözləri daha çox yazılı dilə xasdır.

Probably cümlənin başında:

Probably there's nothing to do (Arthur Hailey, "Airport", 254)

"*Güman ki,* heç nə (Artur Heyli, "Aeroport", 235) [Yəqin ki, burada etməyə bir şey yoxdur].

Probably better than you (Arthur Hailey, "Airport", 226)

"*Güman ki,* səndən yaxşı bilmirəm" (Artur Heyli, "Aeroport", 210) [Yəqin ki, səndən yaxşı].

Probably not (Arthur Hailey, "Airport", 148)

"*Güman ki,* bundan heç kəsin xəbəri yoxdur" (Artur Heyli, "Aeroport", 137) [*Yəqin ki,* yox].

Axırda iki cümlənin mətbu tərcüməsində həmin cümlələrin real məzmunundan yox, ümumi kontekstdən çıxış edildiyinin şahidi oluruq. Bu irad deyil, ümumi vəziyyətə dair qeyddir.

Probably it was assumed that she and Mel were bedding down together, though, as it happened, that much was untrue (Arthur Hailey, "Airport", 25)

"Onu da yəqin eləmişdilər ki, Mellə qızın arasında yaxınlıq var, ancaq bu, yalan idi" (Artur Heyli, "Aeroport", 24) [*Ehtimal ki*, zənn edirdilər ki, (etmişdilər ki), o (qız) və Mel bir yatağa giriblər (bir yatağa baş qoyublar), halbuki, çox vaxt olduğu kimi, bu daha artıq yalan idi].

Cümlə başında işlənən *probably* modal sözünün daha bir maraqlı mövqeyi ilə rastlaşırıq. Modal söz cümlənin lap axırında gələn əlavəyə aid olur (beləliklə, modal sözdən qabaq cümlə gəlsə də, onunla modal söz arasında elə bir əlaqə olmur). Məsələn:

Despite his anxiety, he was aware that the girl had a sexy European accent, *probably* Hungarian (Arthur Hailey, "Airport", 237)

"Bədəninə hakim kəsilən narahatlığa baxmayaraq, qızın avropalı, *güman ki*, macar ləhcəsində qılıqlı danışığı Qyurreronun canına yağ kimi yayıldı" (Artur Heyli,

“Aeroport”, 220) [Özünün narahatlığına baxmayaraq, o başa düşürdü ki, qızın seksual avropalı aksenti vardır, *ehtimal ki (yəqin ki)*, macar (aksenti)].

İngiliscə mətndə *probably* modal sözü təyin məqamında işlənmiş *Hungarian* sözünə aiddir. Azərbaycan dilində *macar* sözü birləşmə daxilində həmin məqamda işlənə bilsə də, onu təklikdə həmin məqamda işlətmək olmur. Ona görə də biz özümüzün işçi tərcüməmizdə bu sözün təyini mövqeyini nəzərə çatdırmaq üçün onu mötərizəyə alınmış *aksent* sözü ilə birlikdə verdik.

Başqa bir misalda *probably* modal sözü həmcins üzv kimi işlənmiş təyinedici sözə aiddir:

He would be considerate, *probably* tender (Arthur Hailey, “Airport”, 179)

“Derik diqqətli, *bəlkə də*, lap həssas olacaqdı” (Artur Heyli, “Aeroport”, 163) [O, nəzakətli (hörmətcil), *bəlkə də (ola bilsin ki)*, lap həssas (mehriban) olacaqdı].

Probably cümlənin ortasında:

I’ll probably come back and sleep here (Arthur Hailey, “Airport”, 17)

“Güman ki, yatmağa da bura qayıdacağam” (Artur Heyli, “Aeroport”, 16) [*Yəqin ki*, mən geri dönüb burada yıxılıb-yatacağam].

Azərbaycan dilində *probably* modal sözünün həmin cümlədə *güman ki,* yoxsa *yəqin ki* sözləri ilə, eləcə də mübtədadan əvvəl yoxsa sonra verilməsinin elə bir prinsipial əhəmiyyəti yoxdur.

He would *probably* have to borrow one - exchange shirts with some other captain or first officer (Arthur Hailey, “Airport”, 52)

“*Görünür*, ya başqa komandirlə, ya da birinci pilotla dəyişməli olacaq” (Artur Heyli, “Aeroport”, 51) [O, *yəqin ki*, köynəkləri ya başqa bir komandirlə, ya da böyük köməkçi ilə dəyişəcəkdi].

Probably modal sözü cümlənin ortasında da bir çox hallarda əlavəyə, həmcins üzvlərdən axırıncısına aid olur. Məsələn:

Several men, *probably* an emergency crew, were clinging to the sides of the truck as it moved along (Arthur Hailey, “Airport”, 121)

“*Güman ki*, qəza komandası olan bir neçə kişi, yük maşını yerindən tərpənən kimi, onun ayaqlığına atılıb, böyür-başından tutdu” (Artur Heyli, “Aeroport”, 113) [Bir neçə kişi (*yəqin ki*, qəza komandası) yük maşını yerindən tərpənən kimi, ona tərəf atılıb, bortlarına dırmaşdılar].

The woman, *probably* the whisperer’s wife, nodded agreement (Arthur Hailey, “Airport”, 90)

“*Çox güman ki*, pıçıldayanın arvadı olan xanım razılıqla başını tərpətdi” (Artur Heyli, “Aeroport”, 88) [Qadın – *yəqin ki*, pıçıldayanın arvadı – razılıq işarəsi olaraq, başını tərpətdi].

Gördüyümüz kimi, axırıncı iki cümləni heç bir hərfiliyə uymadan Azərbaycan dilində vermək mümkündür.

Women – including Cindy, and *probably* Tanya – were seldom logical (Arthur Hailey, “Airport”, 310)

“İçi Sindi, *güman ki*, lap Tanyaqarışıq qadınlar heç vaxt dərindən düşünə bilmirlər” (Artur Heyli, “Aeroport”, 284) [Qadınlar – Sindi və *ehtimal ki*, *(yəqin ki)* Tanya daxil olmaqla, nadir hallarda məntiqli olurdular (məntiqi düşünürdülər)].

Probably cümlənin sonunda:

Oh, well, he would have to sell some stock general Dynamics, *probably* (Arthur Hailey, “Airport”, 118)

“Düşündü ki, başqa yol yoxdur, aksiyaların bəzisini satmaq lazımdır, *yaxşı olar ki*, “Ceneral Daynamiks”i satım (Artur Heyli, “Aeroport”, 110) [Yaxşı da, o bəzən aksiyaları sata bilər, “Ceneral Daynəmiks”inkini, *bəlkə də (ola bilsin)*].

Burada belə bir cəhəti də qeyd etmək istərdik ki, bir cümlədə bəzən bir yox, iki və daha artıq modal vasitə işlənir. Vaxtilə həmin məsələyə Z.Əlizadə diqqət yetirmişdir: “Modal sözlər qoşa və ya bir cümlənin müxtəlif yerlərində işlənərkən cümləyə və cümlənin ayrı-ayrı hissələrinə müxtəlif məna çalarları verir” [24, s.142-143].

V.Kapranov da modallıq məsələsinə həsr olunmuş bir tədqiqata yazdığı müqəddimədə bir sıra hallarda modallığın

iki və daha artıq vasitə ilə ifadə olunduğunu qeyd etmişdir [158, s.3].

Bizim əlimizdə olan materiallar içərisində elə misallara təsadüf edirik ki, onlarda bir yox, iki modal söz işlənir. Məsələn:

But I thought you'd better be warned because they'll probably want to see you, and maybe someone from the FAA (Arthur Hailey, "Airport", 224)

"Ona görə, sizi xəbərdar etməyi lazım bildim, çünki onlar, *yəqin ki,* sizinlə, həm də federal aviasiya idarəsinin nümayəndələri ilə görüşmək istəyəcəklər" (Artur Heyli, "Aeroport", 207) [Amma mən düşündüm ki, siz yaxşı olardı ki, xəbərdar olaydınız (ediləydiniz), çünki onlar *ehtimal ki, (yəqin ki)*, sizi və *ola bilsin ki (ola bilər ki)*, FAİ-dən kimi isə görmək istəyirlər (istəyəcəklər)].

Perhaps – Ola bilsin ki, mümkündür ki, bəlkə

Həmin modal söz və onun Azərbaycan dilindəki qarşılıqları imkan, mümkünlük mənaları bildirir. Onlar cümlənin əvvəlində, ortasında və axırında işlənir. Qeyd etmək lazımdır ki, Azərbaycan dilində həmin modal mənada olan sözlər cümlənin axırında məhdud şəkildə işlənir və bütün bu qəbildən olan misallarda onlar əlavə söz səciyyəsi daşıyır. Bunu da nəzərə almaq vacibdir ki, cümlənin ortasında işlənən modal söz olduqca müxtəlif səciyyəli cümlə quruluşlarında özünü göstərir.

Perhaps – cümlənin başında

Həmin mövqedə *perhaps* modal sözü üçün ən çox yayılmış funksiya danışanın öz fikrini güman (zənn), mümkünat şəklində verməsi ilə bağlıdır. Məsələn:

Perhaps it is the only intelligent thing I have done tonight (Arthur Hailey, "Airport", 324)

"*O da ola bilər ki*, bu, mənim bu axşam ərzində atdığım ən ağıllı addımdır" (Artur Heyli, "Aeroport", 297) [(*Ola bilər ki,* bu mənim bu axşam (gecə) etdiyim ən ağıllı şeydir)].

Perhaps I should come back (Arthur Hailey, "Airport", 286)

"*Bəlkə*, bir az sonra gəlim? (Artur Heyli, "Aeroport", 261) [*Ola bilsin ki, (bəlkə də)* mən geri qayıtmalıyam].

Perhaps Natali had finally lost heart (Arthur Hailey, “Airport”, 151)

“*Görünür*, Natali də cana doymuşdu” (Artur Heyli, “Aeroport”, 82) [*Ola bilsin ki, (bəlkə də)* Natali də artıq cana doymuşdu].

Perhaps cümlə başında işlənərkən təkcə danışanın öz fikrinə münasibətini deyil, danışanın başqasının davranışına, eləcə də onun nitq davranışına münasibətini bildirir. Məsələn:

Perhaps, it comes from being married (Arthur Hailey, “Airport”, 151)

“Görünür, ərdə olmağınızın sayəsindədir” (Artur Heyli, “Aeroport”, 14) [Ola bilsin ki, bu Sizin ərdə olmağınızdan (irəli) gəlir].

Perhaps you’d better tell me exactly what you mean (Arthur Hailey, “Airport”, 71)

“*Bəlkə*, mənə dəqiq izah edəsən ki, nəyi nəzərdə tutursan?” (Artur Heyli, “Aeroport”, 70) [*Bəlkə*, mənə əməlli-başlı (düz-əməlli) deyəsən ki, nəyi nəzərdə tutursan (nə demək istəyirsən?)].

Cümlə başında gələn *perhaps* modal sözünün daha bir işlənmə mövqeyi ilə rastlaşırıq. O yenə də danışanın öz fikrinə münasibətini bildirir, amma bununla yanaşı, müəllif nitqi ilə də müşayiət olunur. Müvafiq cümlə quruluşu etibarilə tamamlıq budaq cümləsi tabeli mürəkkəb cümlənin dəyişdirilmiş formasıdır ki, burada baş cümlə budaq cümlədən sonra gəlir və ona münasibətdə əlavə cümlə rolunda çıxış edir.

Qeyd etməliyik ki, həmin cümlə tiplərinin hər ikisini Azərbaycan dilində vermək olur, ancaq bu dil üçün tamamlıq budaq cümləli mürəkkəb cümlə tipi daha səciyyəvi, daha təbii səslənir. Aşağıdakı cümlənin tərcüməsində məhz bu üsuldan istifadə olunmuşdur.

Perhaps it was well, Mel thought, as he rode the elevator down again (Arthur Hailey, “Airport”, 20)

“Eskalatorla aşağı mərtəbəyə düşən Mel fikirləşirdi ki, *bəlkə də*, belə yaxşıdır” (Artur Heyli, “Aeroport”, 19) [*Ola bilsin ki*, bu, necə lazımdır, elədir, - Mel təzədən eskalatorla aşağı düşə-düşə düşünürdü].

Perhaps cümlənin ortasında

Cümlənin ortasında işlənən *perhaps* modal sözü cümlədüzəltmə baxımından olduqca müxtəlif vəzifələr daşıyır. Bura cümlənin sadəmi, mürəkkəbmi olması ilə əlaqədar keyfiyyətlər də əlavə olunur. Müvafiq cümlə tiplərindən aşağıdakıları qeyd edə bilərik.

a) *perhaps* modal sözü sadə cümlənin tərkibində işlənir. Bu zaman modal söz ya zaman zərfliyi, ya da mübtədadan sonra gəlir. Aydın məsələdir ki, həmin linqvistik şəraitdə modal sözün əsas vəzifəsi cümlədə özündən sonra gələn mətn parçasında yaxud cümlə üzvündə ifadə edilən fikrə münasibət bildirməkdir. Məsələn:

One reason, *perhaps* was that the traffic load was less than usual, due to the exceptionally clear weather (Arthur Hailey, "Airport", 198)

"Əsas səbəblərdən biri, *görünür*, o idi ki, bu cür qeyri-adi təmiz səmada uçuşlara nəzarət xeyli azalmışdı" (Artur Heyli, "Aeroport", 119) [Bir səbəb *ola bilsin ki*, o idi ki, daşınan yük adətən olduğundan az idi; bu isə müstəsna dərəcədə aydın (ayaz?) hava ilə bağlıdır].

Even now *perhaps*, it was not too late (Arthur Hailey, "Airport", 299)

"*Bəlkə*, heç indi də gec deyildi" (Artur Heyli, "Aeroport", 274) [Hətta indi də, *ola bilsin ki*, gec deyildi].

Deməliyik ki, *perhaps* modal sözünün zaman zərfliyi ilə qeyd olunan struktur münasibəti heç də mütləq xarakter daşımır. *Perhaps* sözü, zaman zərfliyi də daxil olmaqla, bütün cümləyə də aid ola bilir. Məsələn:

Elliot Treemantle snapped, "*Perhaps* at the other time there was not enough plain speaking (Arthur Hailey, "Airport", 299)

"Eliot Frimantl mızıldandı: "*Deməli*, əvvəlki görüşlərimizdə açıq söhbətimiz olmayıb" (Artur Heyli, "Aeroport", 273) *[…Yəqin ki (ola bilsin ki)*, başqa vaxt kifayət qədər açıq söhbətimiz olmayıb].

b) *perhaps* modal sözündən mürəkkəb cümlələrdə də geniş surətdə istifadə olunur. Mürəkkəb cümlələrdə həmin söz tərkib hissələrinin sərhəddində (daha dəqiq desək, aid olduğu nitq hissəsinin başında) gəlir. Məsələn:

If there's some misunderstanding, perhaps I can help (Arthur Hailey, "Airport", 351)

"Nəsə anlaşılmazlıq varsa, *bəlkə* mən kömək edəm" (Artur Heyli, "Aeroport", 321) [Bir anlaşılmazlıq varsa (olsa), *ola bilsin ki,* mən kömək edəm].

Hər iki halda – oricinalda və tərcümədə modal məna bildirən söz baş cümlənin əvvəlində işlənir.

Then he concluded to himself *perhaps*: the last remark was true, to an extent (Arthur Hailey, "Airport", 69).

"Sonra özlüyündə düşündü: *deyəsən*, arvadının son iradı bir balaca düz idi, axı" (Artur Heyli, "Aeroport", 68) [Onda (sonra) o öz aləmində etiraf etdi ki, *ola bilsin* axırıncı irad doğru idi. Müəyyən dərəcədə].

c) *Perhaps* modal sözünün daha bir işlənmə məqamı sadə cümlənin mürəkkəbləşmiş tipləri ilə bağlıdır (bunlar mürəkkəb cümlə deyil). Məsələn:

I am already convinced that some wrong has been done – *perhaps* considerable wrong and, in that event, you are entitled to legal redress (Arthur Hailey, "Airport", 98)

"Özüm indidən anlayıram ki, həmin ziyan nəzərə çarpacaq dərəcədədir, *ola bilsin ki*, lap artıq dərəcədə; belə olanda, təbiidir ki, Sizin qanunla yardım hüququnuz var" (Artur Heyli, "Aeroport", 87) [Mən artıq *inanıram ki (bu əqidədəyəm ki,* Sizə müəyyən zərər (ziyan) dəymişdir, ola bilsin… böyük ziyan – və bu halda (belə olduqda) Sizin qanuni ödənişə haqqınız var].

Bizə irad tuta bilərlər ki, yuxarıda verilən cümlə sintaktik quruluş etibarilə mürəkkəb cümlədir; doğrudur, o, mürəkkəb cümlədir, amma söz onun budaq cümlə hissəsində, özü də əlavə cümlənin tərkibində (əvvəlində) işlənmişdir.

Bizim materiallar içərisində elələrinə də təsadüf olunur ki, onlarda modal mənalı söz yenə də əlavə ilə birlikdə işlənir, amma həmin əlavə özündən qabaqkı üzvə aid olub, özlüyündə həmcins üzvlərdən biri kimi işlənir. Məsələn:

Ever so, at the present rate of progress, it appeared as if it might take another two hours, perhaps three, to get to the airport (Arthur Hailey, "Airport", 199)

"Ancaq avtobus ki, bu sürətlə gedirdi, heç iki saat, *bəlkə də,* üç saata aeroporta çatmazdılar" (Artur Heyli, "Aeroport",

185) [Bu cür nəqliyyatın bu sürəti ilə, belə görünürdü ki, aeroporta çatmaq üçün daha iki, bəlkə də üç saat lazım gələcəkdi].

The agent would talk to someone else, a supervisor perhaps, who might already have telephoned the aiport (Arthur Hailey, “Airport”, 203)

“O öz şübhələrini kiminləsə, deyək ki, baş inspektorla bölüşə bilərdi, *bəlkə də*, baş inspektor artıq aeroporta zəng vurmuşdu” (Artur Heyli, “Aeroport”, 188) [Agent daha kiməsə danışa bilərdi, məktəb müfəttişinə, *ola bilsin*; o artıq aeroporta zəng vurmuş olardı].

Modal mənalı söz bəzi hallarda həmcins üzvlərdən axırıncısına aid olur. Məsələn:

Meanwhile, on this flight, here would be a good meal, a movie, and later, perhaps, a pleasant conversation with her two seat companions (Arthur Hailey, “Airport”, 252)

“İndi isə uçuş vaxtı dadlı yemək veriləcək, hansı filmisə göstərəcəkdilər, üstəlik *olsun ki,* sağında-solunda oturanlarla ləzzətli söhbət edəcəkdi” (Artur Heyli, “Aeroport”, 233) [Bu əsnada həmin təyyarədə yaxşı yemək verilə bilərdi, kino göstərə bilərdilər və bir qədər də sonra, *ola bilsin ki,* özünün iki (uçuş) yoldaşı ilə ləzzətli söhbət olacaqdır].

Ortada işlənən *perhaps* modal sözünün bir işlənmə məqamı da cümlə silsiləsi ilə bağlıdır.

About the coat and dresses ...*perhaps* I did make a mistake ...I was confused (Arthur Hailey, “Airport”, 247)

“Bu palto və paltarlar haqda... *bəlkə də*, mən səhv salmışam... çaşmışam” (Artur Heyli, “Aeroport”, 228) [Paltaltar barəsində *...ola bilsin* mən yanılmışam ...mən çaşıb-qalmışam].

Cümlənin ortasında işlənən *perhaps* modal sözünün cümlənin təşkilində paralel, variant funksiyaları da diqqəti cəlb edir.

Əlimizdə olan materiallar içərisində elələrinə təsadüf edirik ki, onlar oxşar tərkib hissələrindən ibarətdir; bunların birincisində müəyyən şəxslə əlaqədar hal-vəziyyət təqdim edilir, ikincisində isə həmin nitq şəraitində danışanın öz davranışına münasibəti qeyd olunur. Hər iki cümlədə

(onların tərkib hissələrinin sərhəddində) *perhaps* sözü işlənir. Ancaq o, bir halda cümlənin birinci tərkib hissəsinə, başqa halda isə ikinci tərkib hissəsinə aid olur.

Poor man, *perhaps* he has problems, and I shouldn't bother him (Arthur Hailey, "Airport", 295)

"Zavallı kişinin, *görünür*, dərdi başından aşır, onu narahat etməyə dəyməz" (Artur Heyli, "Aeroport", 270) [Yazıq kişi ...onun *ola bilsin ki*, bir dərdi var və (mən onu narahat etməli deyildim) ...gərək onu narahat etməyəydim].

Well it's exceedingly kind of you, and *perhaps* I shouldn't but I really think I will (Arthur Hailey, "Airport", 295)

"Siz çox lütfkarlıq göstərirsiniz və mən, *güman ki,* etiraz etməliydim, ancaq fikirləşirəm ki, mütləq içməliyəm" (Artur Heyli, "Aeroport", 270) [Yaxşı, Siz fövqəladə dərəcədə lütfkarsınız və *yəqin ki,* mən bunu etməməliydim, amma doğrudan düşünürəm ki, mən bunu edəcəyəm].

Perhaps cümlənin sonunda

Perhaps modal sözü sadə cümlənin sonunda işlənir. Ancaq tabesiz mürəkkəb cümlələrin müəyyən tipi *perhaps* sözünün köməyi ilə yaranır. Həmin mürəkkəb cümlənin ikinci hissəsi birinci hissə ilə qarşılaşdırma əlaqəsində olur. Azərbaycan dilində həmin cümlələrin müqabili *amma, ancaq, lakin* bağlayıcılarının iştirakı ilə yaranan cümlə tipidir. Bu tipli ingilis və Azərbaycan dili cümlələrini müqayisə edərək görürük ki, onlar yalnız modal sözlərin işləndiyi (tutduğu) yerə görə bir-birindən fərqlənir. Artıq qeyd etdiyimiz kimi, modal sözün cümlə yaxud sintaqmın axırında işlənməsi Azərbaycan dili üçün xarakterik deyil. Ona görə də ingilis dilində cümlənin, yaxud sintaqmın sonunda işlənən modal sözün Azərbaycan dilinə tərcüməsi zamanı cümlənin ortasına və hətta əvvəlinə doğru "sürüşmə"si, yerdəyişməsi tamamilə təbii hesab edilməlidir.

It was a little frightening *perhaps* but she decided not to think to much about that (Arthur Hailey, "Airport", 354)

"Düzdür, bir az qorxuludur, ancaq qarı qorxu barədə düşünməməyi qərara aldı" (Artur Heyli, "Aeroport", 324) [*Ola bilsin ki,* bu bir az qorxulu idi, ancaq o (qadın, qarı) qərara aldı ki, bu barədə düşünməsin].

Eyni xüsusiyyət tabesiz mürəkkəb cümlənin *and* bağlayıcısı ilə təşkil edilən başqa bir tipində də müşahidə olunur.

Tanya's apartment *perhaps* ...and hang the consequences (Arthur Hailey, "Airport", 176)

"...bəlkə də, Tanyagilə... getsinlər. Sonra nə olursa olsun" (Artur Heyli, "Aeroport", 163).

Gördüyümüz kimi, həmin cümləyə müəyyən modallıqdan savayı, ellipitiklik də xasdır. Həmin xüsusiyyət tabesiz mürəkkəb cümlələrdə də özünü biruzə verir.

Red hair, *perhaps*, but not with the beginning of gray Tanya thought – the gray she had noticed again this morning (Arthur Hailey, "Airport", 151).

"Tanya düşündü: qızılı saçlı *ola bilər*, ancaq dən düşməmiş; saçına dən düşdüyünü bu səhər görmüşdü" (Artur Heyli, "Aeroport", 140).

Until midnight: *perhaps* all night (Arthur Hailey, "Airport", 158)

"Gecə yarısınacan; *bəlkə də*, bütün gecəni" (Artur Heyli, "Aeroport", 147).

Biz indiyə qədər *perhaps* modal sözünün tək-tək işlənməsindən bəhs etdik. Həmin ifadə tərzi hansı isə şeyin, şəraitin nəzərdə tutulduğu, ehtimal edildiyi hallarla əlaqədardır.

Perhaps modal sözü təkrar-təkrar da işlənə bilir. Bu zaman modal söz eyni olsa da, onun aid olduğu cümlə hissələri bir-birinin eyni olmur. Bu qəbildən olan cümlələr struktur cəhətdən Azərbaycan dilində *ya, ya da, gah, gah da, həm, həm də, nə, nə də* bağlayıcılarının iştirakı ilə düzələn cümlələri xatırladır. Maraqlıdır ki, aşağıda təqdim edəcəyimiz cümlənin tərcüməsində *perhaps* modal sözünün müqabilində *ya, ya da* bağlayıcısından istifadə olunmuşdur.

In the pilot's seat of the doomed, spinning Beech Bonanza, Irving Redfern – *perhaps* involuntarily, *perhaps* as a last despairing act – pressed the transmit button of his microphone and held it down (Arthur Hailey, "Airport", 141).

"Məhv olan "Biç Bonanz" fırlana-fırlana yerə düşəndə hələ də pilot kreslosunda oturmuş İrvinq Redfern *ya* təsadüfən, *ya da* nə isə etməyə cəhd göstərərkən

mikrofonun ötürücü düyməsini basdı və ratsiya dilə gəldi" (Artur Heyli, "Aeroport", 131) [Məhvə məhkum olub, dövrə vurmaqda davam edən "Biç Bonanıza"nın pilot kreslosunda oturmuş İrvinq Redfern – *ola bilsin* qeyri-iradi olaraq, *ola da bilsin* son çılğın cəhd kimi – öz mikrofonunun ötürücü düyməsini basdı və onu belə də saxladı].

Maybe – ola bilər, ola bilsin (ki), bəlkə (də)

Həm ingilis dilində *maybe* modal sözü, həm də onun Azərbaycan dilində qarşılıqları *ola bilər, ola bilsin (ki), bəlkə (də)* mümkünlük modal mənasında işlənir. Həmin sözlərdən ötrü daha çox cümlənin əvvəlində və ortasında işlənmək səciyyəvidir. *Maybe* modal sözü cümlənin axırında nisbətən məhdud işlənir. Azərbaycan dilinə məxsus olan eyni mənalı modal sözlər cümlənin axırında ümumiyyətlə işlənmirlər.

Maybe cümlənin başında

Maybe, you need the practice (Arthur Hailey, "Airport", 28)

"*Görünür*, danışmağa ehtiyac duyursan" (Artur Heyli, "Aeroport", 27). [*Ola bilsin,* sənə danışmaq təcrübəsi lazımdır].

Misaldan gördüyümüz kimi, *maybe* sözü *ola bilsin (ola bilər)*, *görünür*, modal sözü ilə verilmişdir. Bu, *maybe*, *ola bilsin (ola bilər)*, *görünür* sözlərinin arasındakı ümumi cəhətlə (reallıq bildirməməklə) şərtlənir.

Maybe you need to get away for good (Arthur Hailey, "Airport", 270)

"*Bəlkə*, birdəfəlik buranın daşın atasan? (Artur Heyli, "Aeroport", 246) [*Bəlkə*, xoşluğunan çıxıb-gedəsən? Buradan sürüşəsən?].

Maybe, cust before we get to Rome, we'll let her know she's been found out (Arthur Hailey, "Airport", 289)

"*Bəlkə*, Romaya çataçatda qarıya dedik ki, kələyinin üstü açılıb" (Artur Heyli, "Aeroport", 265) [*Ola bilsin (bəlkə)* biz Romaya çatmazdan qabaq ona (qarıya) bildiririk ki, onun kələyinin üstü açılıb].

Maybe cümlənin ortasında

Maybe modal sözü cümlənin ortasında müxtəlif məqamlarda işlənir. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

a) *Maybe* modal sözü cümlədə *but* bağlayıcısından sonra gəlir. *Maybe* cümlənin özündən sonrakı hissəsinə modal münasibət bildirir. *But* bütövlükdə cümləni özündən qabaqkı mətnə, cümləyə bağlayır. Aşağıdakı misalda həmin hissə maddi olaraq iştirak etməsə də, onun yaratdığı semantik fon *but* (qarşılıq, əkslik, ziddiyyət münasibəti) bağlayıcısına görə duyulur.

But *maybe* he should watch a few minutes longer from a ringside perch (Arthur Hailey, "Airport", 58)

"Özünün bir az burda ləngiyib, bir neçə dəqiqə işə göz qoyması *da hər halda* pis olmazdı" (Artur Heyli, "Aeroport", 57) [*Amma ola bilsin ki (bəlkə də*) o bir neçə dəqiqə artıq gözləməli olacaqdı].

b) *"Maybe"* modal sözü *well* sözündən sonra eyni məqamda işlənir.

Well, *maybe* at times, Cindy thought, it did look silly to Mel (Arthur Hailey, "Airport", 181)

"Sindi düşündü ki, ola *bilsin ki,* vaxtaşırı bu, Melə axmaqlıq kimi görünür" (Artur Heyli, "Aeroport", 168) [Yaxşı, *ola bilsin ki,* vaxtaşırı bu, Melə axmaqlıq kimi görünür].

c) Aid olduğu cümləyə münasibətdə *maybe* sözü daha iki məqamda işlənir. Birincisi, o, cümlənin müəyyən bir üzvünə münasibət bildirir. Məsələn:

There is not a lot any of us can do, except *maybe* pray (Arthur Hailey, "Airport", 342)

"Əlimizdən nə gələr ki... yalnız dua eləməyimiz mümkündür" (Artur Heyli, "Aeroport", 313) [*Ola bilsin ki,* dua eləməkdən savayı, bizim əlimizdən bir şey gəlməz].

İkincisi, o, tabesiz mürəkkəb cümlənin tərkib hissələrindən birinə aid olur. Məsələn:

I told you I'm not sure and *maybe* this is all silly (Arthur Hailey, "Airport", 311)

"Sizə dedim, axı, özüm də əmin deyiləm, *bəlkə də, bütün* bunlar səfeh şübhələrdir" (Artur Heyli, "Aeroport", 285) [Mən sizə dedim ki, əmin deyiləm və *ola bilsin ki,* bütün bunlar axmaqlıqdır].

Coe Patroni grinned: "If İ don't blast her out, *maybe* I'll blow her apart (Arthur Hailey, "Airport", 325)

"Cou Pətroni gülümsündü: "Əgər bunu bardan çıxara bilməsəm, heç *olmasa* tikə-tikə edə bilərəm ki!" (Artur Heyli, "Aeroport", 298) [Cou Pətroni dişlərini ağartdı: "Əgər mən onu partlada bilməsəm"].

Maybe cümlənin sonunda

Yuxarıda qeyd etdiyimiz kimi, *maybe* modal sözü cümlənin sonunda az işlənir. Məsələn:

For sympathy *maybe* (Arthur Hailey, "Airport", 32)

"Bəlkə də, dərdinə şərik etmək üçün" (Artur Heyli, "Aeroport", 31) [Mərhəmət, *bəlkə də*].

Ten or fifteen years ago *maybe* not now (Arthur Hailey, "Airport", 223)

"On-on beş il qabaq, *bəlkə də*, belə etmək olardı, indi isə mümkün deyildi" (Artur Heyli, "Aeroport", 206) [On-on beş il qabaq *bəlkə də*; indi yox].

Həmin cümlə istər onda ifadə olunan semantik-sintaktik münasibətə, istərsə də onların ifadə vasitələrinə görə nəzəri cəlb edir (müq.et: yuxarıda *but* bağlayıcısı ilə işlənən cümlələr.

Maybe eyni cümlədə başqa ehtimal bildirən sözlə birlikdə işlənərək, onunla mümkünlüyün müxtəlif dərəcələrini ifadə edir. Müq.et: Mel thought *maybe* Keith was right. Perhaps it would take another big disaster to arouse public awareness, cust as the 1956 Grand Canyon disaster had spurred President Eisenhower and the Eighty fourth Congress to revamp the airways (Arthur Hailey, "Airport", 62)

"Mel düşündü: *bəlkə də,* Keyz haqlıdır. *Görünür*, 1956-cı ildə Böyük Kanyondakı qəzanın yenisi baş verməlidir ki, ictimai fikir partlayışı olsun – o vaxt ictimai etiraz prezident Eyzenhaueri və Konqresin 84-cü çağırışını tunellərdə ventilyasiya sistemini təzələmək üçün vəsait ayırmağa məcbur eləmişdi (Artur Heyli, "Aeroport", 60).

Obviously – aydındır ki, məlumdur ki

İngiliscə *obviously* modal sözü *apparently* modal sözü ilə sinonimlik münasibətində olub, hər ikisi eyni sözdüzəltmə üsulu ilə düzəlmişdir (müvafiq surətdə *obvious* və *apparent* sözlərindən). Azərbaycan dilində həmin modal sözlərin dəqiq qarşılıqları işlənmir. Bu dildə həmin məqamda yaxın

mənalı modal ifadələrdən istifadə olunur: *aydındır ki, məlumdur ki, deməli* və s.

Obviously modal sözü daha çox cümlənin əvvəlində, məhdud dairədə isə ortasında işlənir.

Obviously cümlənin əvvəlində.

Obviously, to get the forty – seven dollars, D.O. had pawned the ring (Arthur Hailey, "Airport", 205)

"*Deməli*, qırx yeddi dollardan ötrü D.O. üzüyü girov qoymuşdu" (Artur Heyli, "Aeroport", 190)

Obviously he had heard nothing of what was going on (Arthur Hailey, "Airport", 360)

"*Məlumdur ki,* o heç nə eşitməyib və nə baş verdiyindən bixəbərdi" (Artur Heyli, "Aeroport", 329) [*Görünür*, o nə baş verdiyi barədə heç nə eşitməyib].

Obviously her stowaway status was either suspected or known (Arthur Hailey, "Airport", 350)

"*Görünür*, onlar artıq biliblər və ya şübhələniblər ki, qarı biletsiz uçur" (Artur Heyli, "Aeroport", 320) [Aydındır ki, onun biletsiz uçduğundan ya şübhələnmişdilər, ya da bunu bilmişdilər].

Bir cümlədə *obviously* inkar ədatı ilə birlikdə işlənib, müsahibin danışığına (nitqinə) münasibət bildirir.

Obviously not (Arthur Hailey, "Airport", 312)

"Əlbəttə, dəyməzdi" (Artur Heyli, "Aeroport", 286) [*Aydındır ki,* yox].

Obviously cümlənin ortasında

Obviously – modal sözünün cümlənin ortasında işlənməsi onun cümlənin başında işlənməsindən daha məhdud yayılmışdır. Azərbaycan dilində buna müqabil ola biləcək söz cümlənin başında (əvvəlində) işlənir. Məsələn:

Moreover, for some time, no vehicles had come from the opposite direction, so *obviously* something had happened to abstruct all four lanes (Arthur Hailey, "Airport", 37)

"Counun yadına düşdü ki, haçandır üzbəüz tərəfdən maşın gəlmir, *yəqin*, qabaqda qəza baş verib, yolun bütün dörd cərgəsini bağlayıb" (Artur Heyli, "Aeroport", 36) [Bundan savayı, bir müddət idi ki, qarşı tərəfdən heç bir yük vasitəsi gəlmirdi, *belə çıxırdı ki*, nə isə olub, bütün dörd cərgə yolu tutmuşdu (bağlamışdı)].

Obviously sözünün cümlənin əvvəlində işlənməsinə aid əlimizdə daha iki misal vardır. Amma diqqət yetirdikdə bilmək olur ki, həmin cümlələrdə *obviously* həqiqətən mətnin ortasında gəlsə də, onun aid olduğu sintaqmda yeri yenə də əvvəldə düşür.

Mel added, so if we need airports - and *obviously* we do – somebody, somewhere has to put up with some noise, or move away (Arthur Hailey, "Airport", 304)

"Hə, əgər biz aeroportların mövcud olmağını istəyiriksə – *məncə*, bunu hamı istəyir – onda kim isə gərək səs-küylə barışsın, ya da yaşayış yerini dəyişsin" (Artur Heyli, "Aeroport", 278) [Mel əlavə etdi: - Bizim aeroportlara ehtiyacımız varsa – *görünür (aydındır ki)*, buna ehtiyacımız var – onda kim olur-olsun, gərək ya səs-küyə dözsün, ya da köçüb getsin].

As for the Aereo-Mexican 707, obviously there was nothing more to be done until coe Patroni arrived (Arthur Hailey, "Airport", 46)

"Aero Meksikən" şirkətinin "707"-sinə qalınca, yalnız Cou Pətroninin gəlişini gözləməkdən savayı çarə yoxdur" (Artur Heyli, "Aeroport", 45) [Aero-Meksikan – 707"yə gəlincə, görünür, Cou Pətroninin gəlməsindən başqa bir şey (yol) qalmamışdır].

Obviously modal sözünün *probably* sözü ilə birlikdə eyni cümlədə işlənməsinə aid əlimizdə maraqlı bir misal vardır. Burada *obviously* işin gedişatına görə modal münasibət bildirir, *probably* isə subyektin güman və zənnini ifadə edir.

Obviously, it would take at least twenty minutes for Guerrero to reach the head of the line, but by then Flight Two would *probably* be gone (Arthur Hailey, "Airport", 237)

"Belə getsəydi, Qyurreronun növbəsi iyirmi dəqiqədən tez çatmazdı, o vaxtacan isə ikinci reysə minik qurtara bilərdi" (Artur Heyli, "Aeroport", 219).

Apparently - açıq-aşkardır ki, aydındır ki, görünür

Obviously sözü kimi, *apparently* sözü də subyektiv münasibət bildirir. Ancaq bunların bildirdiyi subyektiv münasibət *məncə, bizcə, səncə* sözlərinin bildirdiyi subyektiv münasibətin eyni deyil. *Obviously* və *apparently* sözlərinin ifadə etdiyi modal münasibət müəyyən hadisənin

zahiri təzahürünə əsaslanır. Bununla belə, onlar *doğrudan da* tipli modal sözlərlə müqayisədə qətilik, həqiqilik bildirmir.

Əlimizdə olan materiallar içərisində *apparently* modal sözünün işləndiyi misalların sayı çox deyil. Həmin azsaylı nümunələrə görə deyə bilərik ki, *apparently* modal sözü daha çox cümlənin əvvəlində və ortasında işlənir.

Apparently cümlənin əvvəlində

"*Apparently* they tried to get Patroni away (Arthur Hailey, "Airport", 32)

"Dənni sözünün ardını deyirdi: "Onlar Pətronini dərhal tapmaq istəyiblər" (Artur Heyli, "Aeroport", 31) [Dənni dedi: "*Görünür*, onlar Pətronini götürüb aradan çıxmağa çalışıblar"].

Apparently, she hadn't thought of quitting, as some girls did who suffered similar experiences (Arthur Hailey, "Airport", 23)

"*Hər halda*, bu qız da başqaları kimi baş götürüb qaçmayacaq" (Artur Heyli, "Aeroport", 22) [*Görünür (aydındır ki)*, buna bənzər şeylərə məruz qalmış başqa qızların etdiyi kimi, bu qız baş götürüb qaçmaq barəsində düşünmürdü].

Apparently sözü *not* ədatı ilə birlikdə yarımçıq cümlə şəklində işlənib, danışanın nitqinə modal münasibət bildirir (müq.et: yuxarıda *obviously* sözünün eyni məqamda işlənməsi).

Apparently not (Arthur Hailey, "Airport", 226)

Əlbəttə, bu iki sözə görə cümlədə nədən söhbət getdiyini bilmək olmur. Odur ki, həmin cümlənin tərcüməsində təkcə bu sözlər yox, bütövlükdə minimal kontekstdən çıxış edilmişdir: "Deyəsən, dəyməmişdi" (Artur Heyli, "Aeroport", 224).

Apparently cümlənin ortasında

Əlimizdə olan materiallar içərisində yalnız bir nümunədə *apparently* sözü cümlənin ortasında işlənmişdir.

The clerk was *apparently* suggesting that the woman take out a larger policy than had been asked for; the woman was being indecisive (Arthur Hailey, "Airport", 237)

"*Güman ki,* qız müştəriyə daha baha qiymətə sığorta olunmağı təklif edir, qadınsa tərəddüd edirdi" (219) [Məmur,

görünür, eyhamla bildirirdi ki, qadın lazım olduğundan artıq biclik işlətsin; qadın tərəddüd edirdi].

Likely - ehtimal ki, görünür, mümkündür ki

Likely sözü *like* sözündən törəmə olub, onunla sözdüzəltmə münasibətini saxlayır. Onun özü isə *unlikely* modal sözünün yaranmasına əsas vermişdir. *Likely* sözü həm təklikdə, həm də *most, more, entirely, highly* kimi dərəcə göstəriciləri ilə birlikdə işlənir. Həmin xüsusiyyət *unlikely* sözünə də xasdır. Həm buna görə, həm də unlikely sözünə aid misalların çox olmadığına görə biz hər iki modal sözə aid misalları bir yerdə veririk (*unlikely* sözünü Azərbaycan dilində *ola bilməz ki, mümkün deyil ki, çətin ki,* modallıq bildirən ifadələrlə vermək olar.

Despite what he had said a few minutes ago about legal proceedings being a base, any sessions in court were *likely* to be unspectacular and possibly unprofitable (Arthur Hailey, “Airport”, 214)

“Bir neçə dəqiqə qabaqkı çıxışında problemi qanunun köməyi ilə həll etmək barədə danışsa da, bilirdi ki, məhkəmə iclasları *adətən* çox maraqsız olur və heç bir xeyir vermir” (Artur Heyli, “Aeroport”, 198) [Bir neçə dəqiqə qabaq onun məhkəmə proseslərinin əsas olduğu barəsində danışıqlarına baxmayaraq, *görünür*, hər bir məhkəmə iclası effektsiz və ola bilsin (yəqin ki), xeyirsiz idi].

Over his shoulder, Anson Harris said, “More likely Arsenic and Old Lace” (Arthur Hailey, “Airport”, 289)

“Ənson Hərris başını çevirmədən dedi: - *Güman ki*, “Mərgümüş və köhnə kruceva” əsərindən” (Artur Heyli, “Aeroport”, 264) [Ənson Hərris çiyninin üstündən: - *Çox güman ki*, “Mərgümüş və köhnə kruceva”].

As to Cindy, when she determined to do something she usually did it, so it was *entirely likely* that she would arrive at the airport later tonight (Arthur Hailey, “Airport”, 159).

“Sindiyə gəlincə, o, qərar qəbul etdisə, *deməli*, həyata keçirəcəkdi və *gözləmək olardı ki*, gecəyarısı aeroportda peyda olacaqdı” (Artur Heyli, “Aeroport”, 148) [Sindiyə gəlincə, bir şeyi eləməyi qərara aldımı, adətən, onu eləyir, odur ki *tamamilə mümkün idi ki*, o, gecədən keçmiş aeropotra gələcəkdi].

The ten percent was a long shot because it was *highly unlikely* that there would ever be any damages to collect (Arthur Hailey, “Airport”, 93).

“Bu on faiz məsələsi hər ehtimala qarşı yazılmışdı, çünki hər hansı cərimənin ödənilməsinə ümid az idi” (Artur Heyli, “Aeroport”, 91) [Bu on faiz uzun məsələ idi, çünki *heç mümkün deyildi ki*, hansı isə məbləğ yığılsın].

“Tale”, “bəxt” (“xoşbəxtlik”, “bədbəxtlik”) təsəvvürlərindən çıxış edərək modal münasibət bildirən sözlər: Modal sözlərin mühüm bir qrupunu “tale”, “bəxt” anlayışları assosiasiyası yolu ilə modal münasibət bildirən sözlər təşkil edir. Bunların sırasına *xoşbəxtlikdən, bədbəxtlikdən*, ing.: *fortunately, unfortunately* sözləri aiddir. Həmin sözlər üçün cümlədə, mətndə ifadə olunan hadisəyə danışanın, deyək ki, “taleyüklü” maraq və mənafeləri baxımından qiymət vermək xarakterikdir. Ancaq nəzərə almaq lazımdır ki, həmin modal münasibət tamamilə şərti xarakter də daşıya bilər.

Həmin modal sözlərin əsasında “tale”, “bəxt”, “xoşbəxtlik”, “bədbəxtlik” kimi təsəvvürlər dayanır. Sırf linqvistik baxımdan bu, müvafiq bazis sözlərdən “müsbət” və “mənfi” mənalı modal sözlərin düzəlməsi şəklində özünü göstərir. Həmin əlamətə görə də qeyd olunan modal sözlər iki yarımqrup əmələ gətirir:

a) müsbət mənalı modal sözlər: azərb.: *xoşbəxtlikdən*; ing.: *fortunately*.

b) mənfi mənalı modal sözlər: azərb.: bədbəxt*likdən, qəzadan olan kimi, təəssüf ki, əfsuslar olsun ki*; ing.: *unfortunately*.

Fortunately sözü üçün cümlənin əvvəlində işlənmək daha çox xarakterikdir.

Fortunately, the bus with downtown checkins had arrived several minutes earlier (Arthur Hailey, “Airport”, 236)

“*Xoşbəxtlikdən*, minik başa çatmamış sərnişin avtobusu özünü aeroporta yetirdi” (Artur Heyli, “Aeroport”, 219) [*Xoşbəxtlikdən*… avtobus bir neçə dəqiqə tez gəlib-çıxmışdı].

Fortunately, the ground being obscured by cloud meant that no one could see and identify cities (Arthur Hailey, “Airport”, 346)

"*Xoşbəxtlikdən*, yer üzü buludlarla örtülmüşdü və şəhərlərin işıqlarına görə istiqaməti müəyyən etmək olmazdı" (Artur Heyli, "Aeroport", 317) [*Xoşbəxtlikdən*, yerin buludla örtülməsi o demək idi ki, heç kəs şəhərləri görüb müəyyənləşdirə (tanıya) bilməzdi].

Fortunately, the woman had left cust before the flight finished loading (Arthur Hailey, "Airport", 251)

"*Nə yaxşı ki*, minik başlanmamış, o qız rədd olub ordan getmişdi" (Artur Heyli, "Aeroport", 232) [*Xoşbəxtlikdən (nə yaxşı ki)*, qadın təyyarənin yüklənməsindən azca qabaq çıxıb (duşub) getmişdi].

Fortunately cümlənin ortasında

Bu sözün cümlənin ortasında işlənməsinə aid əlimizdə yalnız bir misal var, lakin burada o, tam mənası ilə cümlənin ortasında deyil, tabesiz mürəkkəb cümlənin tərkib hissələrindən birinin əvvəlində işlənmişdir.

A trait of character of Coe Patroni's was a white hot, violent temper; *fortunately*, the violent part was not easily set off, but once it was, all reason and logic deserted him (Arthur Hailey, "Airport", 109)

"Cou Pətroninin çılğın, ipə-sapa yatmaz xasiyyəti vardı; *xoşbəxtlikdən*, onu özündən dərhal çıxarmaq asan deyildi, ancaq özündən çıxdımı, ağlı da başından uçurdu" (Artur Heyli, "Aeroport", 101) [Cou Pətroninin xasiyyəti tünd, çılğın idi: *xoşbəxtlikdən*, onu təbdən çıxarmaq asan deyildi, ancaq təbdən çıxdımı, ağıl və məntiq onu tərk edirdi].

Unfortunately – bədbəxtlikdən, təəssüf ki, əfsuslar olsun ki (köh.)

Azərb.: *xoşbəxtlikdən – bədbəxtlikdən*, ing.: *fortunately – unfortunately* antonim cütlər təşkil edir. Həmin sözlər üçün eyni cümlədə iştirak etmək səciyyəvi deyil (ancaq bu istisna olunmur).

Unfortunately sözü, sözdüzəltmə və semantik cəhətdən bağlı olduğu fortunately sözü kimi, cümlənin əvvəlində gəlib, bütün cümlədə ifadə olunan fikrə modal münasibət ifadə edir. Eyni sözü azərb.: *bədbəxtlikdən* sözü barəsində də demək olar.

Qeyd etmək lazımdır ki, *fortunately, unfortunately* sözlərinin Azərbaycan dilində müqabilləri *xoşbəxtlikdən,*

bədbəxtlikdən sözləridir. Ancaq Azərbaycan dilində müvafiq məqamlarda *nə yaxşı, nə əcəb, yaxşı ki, təəssüf ki, əfsuslar olsun ki* modal ifadələri də işlənir. *Təəssüf ki, əfsuslar ki* modal ifadələri motivlərinə görə ing. *unfortunately* sözündən fərqlənsələr də, işlənmə məqamına görə ona uyğun gəlirlər.

Unfortunately sözünə aid misalların sayı çox deyil. Əlimizdə olan misallarda bu söz istisnasız olaraq cümlənin başında gəlir.

Unfortunately, it often didn't (Arthur Hailey, "Airport", 191)

"*Təəssüflər ki,* tez-tez əksinə olur" (Artur Heyli, "Aeroport", 177) [*Təəssüf ki,* çox vaxt bu belə olmur].

Unfortunately, the glamour no longer affected him personally (Arthur Hailey, "Airport", 282)

"*Bədbəxtlikdən*, bütün bunların Melə qətiyyən aidiyyəti yoxdur" [*Bədbəxtlikdən*, əfsun şəxsən ona daha təsir etmirdi].

Unfortunately, Lionel was now a long way from eighteen he was forty – eight (Arthur Hailey, "Airport", 184)

"*Təəssüf ki,* Layonel indi on səkkizdən uzun bir məsafədə idi; o, qırx səkkiz yaşında idi.

2.2.1. Nəticələr.

1. Modallıq çox mühüm dil kateqoriyalarından biridir. Onun ifadə vasitələrinin sayı dildən-dilə dəyişsə də, əsas sinifləri olan prosodik, leksik və qrammatik vasitələr dillər arasında eyniyyət təşkil edir. Azərbaycan və ingilis dillərinin materiallarının müqayisəli nəzərdən keçirilməsi də bu fikrin doğruluğunu təsdiq edir.

2. Modallıq kateqoriyasının mühüm ifadə vasitələrindən birini modal sözlər təşkil edir. Bunlar danışanın öz nitqində ifadə edilən fikrə münasibətini obyektiv gerçəkliyə nisbət, ağıl və düşüncə qaydalarına müvafiqlik, emosional qiymətvermə, insan həyatı və taleyində oynadığı rola görə ifadəsinə xidmət edən sözlərdir. Təsadüfi deyil ki, Azərbaycan və ingilis dillərində modal sözlər sahəsində birbaşa təmas nöqtələri olmasa da, həmin dillərin modal sözlərinin əsas sinifləri bir-birinə uyğun gəlir.

3. Modal sözlər mənsub olduqları dilin leksik sistemi və qrammatik quruluşu ilə sıx təmasda fəaliyyət göstərir və inkişaf edir. Modal sözlər tarixən dilin başqa kateqoriyalarından olan sözlərindən törəmişlər. Bundan başqa, modal sözlərin bir qismi müasir dildə mövcud olan başqa sözlərlə canlı sözdüzəltmə və semantik münasibətləri büruzə verir. Məsələn: Azərb. *doğru → doğrudan, xoşbəxtlik → xoşbəxtlikdən;* ing. like → l*ikely, obvious → obviously* və s. Dilin leksik sistemi ilə canlı əlaqələr modal sözlərin işlənməsinə də təsir göstərir.

4. Modal sözlər sadə və mürəkkəb cümlələrdə, dialoci nitqdə, nitq parçaları və nitq situasiyaları ilə sıx əlaqədə istifadə olunur. Onlar cümlənin müxtəlif yerlərində gələrək, olduqca rəngarəng cümləyaratma imkanları, qabiliyyəti nümayiş etdirir. Azərbaycan və ingilis dillərinin cümlə modellərini nəzərdən keçirdikdə görmək olur ki, onlar arasında həmin sahədə ümumi, oxşar cəhətlər çox olduğu kimi, fərqli cəhətlər də az deyil. Məsələn, bir çox modal sözlər ingilis dilində cümlənin ortasında və axırında gəldiyi halda, Azərbaycan dilində onların normal işlənmə mövqeyi cümlənin əvvəlindədir.

5. Modal sözlər arasında əksmənalılıq və yaxınmənalılıq münasibətləri tez-tez özünü büruzə verir. Bundan başqa, modal sözlərin bir qismi özlərinin sözdüzəltmə motivini saxlamış, bir qismi isə öz motivini itirmiş sözlərdir. Azərbaycan və ingilis dillərində motivini saxlamış sözlər arasında funksional oxşarlıq tapmaq daha asan olur. Məsələn, müq. et: *xoşbəxtlikdən (xoşbəxt)* – ing. *fortunately (fortunate)*; Azərb. *bədbəxtlikdən (bədbəxt)* – ing. *unfortunately (unfortunate)*. Motivini saxlamış sözlər daha artıq funksional sabitlik nümayiş etdirir.

6. Modal sözlərin işlədilməsi dil ənənəsindən çox asılıdır. Məsələn, Azərb. *Ehtimal ki,* modal sözünün işlənmə tezliyi onun ingilis dilindəki müqabili ilə müqayisədə o qədər də çox deyil.

7. Modal sözlər çoxfunksiyalılıq nümayiş etdirir. Dilin başqa sözləri kimi, bunlara da əsas məna və əlavə məna xasdır.

8. Modal sözlərə çoxifadəlilik, variativlik də yad deyil. məsələn, subyektin öz münasibətini bildirməsi müxtəlif şəkillərdə ola bilər: *məncə, bizcə, mənim fikrimcə, bizim fikrimizcə, mənə görə, bizə görə* və s.

9. Modal sözlərin seçilib-işlədilməsi şifahi nitqdə danışanın, yazılı nitqdə isə yazanın, müəllifin linqvistik məqsəd və niyyətindən asılıdır. Məsələn, Azərbaycan və ingilis dillərinə məxsus olan dil materiallarını müqayisə edərək görürük ki, eyni modal məna müxtəlif şəkillərdə, iki cür, üç cür ifadə edilir.

10. Modal münasibət başqa yollarla, üsullarla ifadə olunsa da, modal sözlər həmin münasibətlərə daha çox konkretlik, əyanilik verir. Hər iki dilin materialları bu fikri təsdiq edir.

2.3. İngilis və Azərbaycan dillərində modallığın morfoloci ifadə vasitələri.

Modallığın morfoloci ifadə vasitələri modallığın ikinci növü ilə əlaqədardır. Y.A.Zverevanın qeyd etdiyi kimi, "modallığın ikinci növündə mülahizənin bütün məzmununun gerçəkliyə müvafiqliyinə danışanın inamı, şübhəsinin (yaxın inamsızlığının) dərəcəsi ifadə olunur" [104, s.20]. İndi isə İngilis və Azərbaycan dillərində modallığın morfoloci ifadə vasitələrini nəzərdən keçirək.

2.3.1. Indikativ modallıq.

Fel şəkilləri ilə ifadə edilən modallığın bir növü "təsdiqetmə modallığı" (nəqletmə, iqraretmə modallığı), "indikativ modallıq" adlanır. İndikativ modallıq həm sintaksis, həm də morfologiya sahəsində özünə yer tapır. Sintaksisdə indikativ modallıq nəqli cümlələrdə özünü göstərir.

Morfologiya sahəsində indikativ modallıq felin xəbər şəkli ilə ifadə olunur. Sintaksisdə nəqli cümlə cümlənin məqsəd və intonasiaya görə növləri içərisində mərkəzi mövqe tutduğu kimi, morfologiyada da xəbər şəkli felin zaman-növ formaları sistemində mərkəzi mövqe tutur. A.N.Slüsareva yazır: "Fel morfologiyası modallıq ifadə edərkən bazis (baza) kateqoriyası kimi xəbər şəklini özünə daxil edir ki,

inkar, sual və modal mənaları onunla nisbətdə götürülür" [146, s.69].

Təsdiqetmə (iqraretmə, nəqletmə) morfologiyası felin xəbər şəklinə söykənir. Felin xəbər şəkli danışana hal, hərəkət prosesi əslində baş vermiş kimi, eləcə də gələcəkdə icrası qəti şəkildə baş verəcək kimi təqdim etməyə imkan verir. N.A.Slüsareva təsdiqetmənin (iqraretmənin, nəqletmənin) morfologiyalaşdırılmasını ingilis dilinin müstəsna xüsusiyyətlərindən biri kimi qiymətləndirir [146, s.53]. Həmin xüsusiyyəti Azərbaycan dilində də müşahidə edirik.

Məlumdur ki, felin xəbər şəklinin xüsusi ifadə vasitəsi yoxdur. O, felin zaman formaları ilə ifadə olunur. Bu, Azərbaycan dilində də, ingilis dilində də eynidir.

İngilis dilinin təsdiqetmə (iqraretmə) modallığının ifadəçiləri olan felin zaman kateqoriyası formaları bu dilin morfoloci sistemində mərkəzi mövqe tutur. Bu, Azərbaycan dilində də belədir.

Bununla belə, unutmaq olmaz ki, Azərbaycan və ingilis dillərinin xəbər şəkillərini təmsil edən zaman formaları həm formal, həm də semantik cəhətdən bir-birindən kəskin surətdə fərqlənir. Bu iki dilin zaman formalarını müqayisəli şəkildə nəzərdən keçirərkən həmin fərqlər daha açıq-aşkar nəzərə çarpır.

Modallıq kateqoriyasının reallaşmasının morfoloci vasitələri şəkil formaları ilə təmsil olunur [146, s.52]. Burada indikativ modallıq əsas yer tutur. İndikativ modallıq felin şəxsli formaları ilə bağlıdır. O, felin şəxsli formaları içərisində morfoloci olaraq və şəxs (kəmiyyət/şəkil) zaman morfemləri ilə ifadə olunmuşdur. İngilis dilində bunlar xəbərlik göstəriciləridir [63, s.107].

İndikativ modallığın felin xəbər şəkli ilə ifadəsindən danışarkən keçmiş və indiki zaman formaları ilə kifayətlənmək lazım gəlir. Bunun əsas səbəbi odur ki, yalnız indiki və keçmiş zaman formaları subyektlə predikat arasındakı real şəkildə mövcud olan, yaxud real münasibət kimi təqdim olunan münasibəti bildirir. Başqa səbəb bundan ibarətdir ki, ingilis dilində felin gələcək zamanı modal fellərin köməyi ilə ifadə olunur. Bundan isə biz artıq müəyyən qədər

bəhs etmişik. Başqa bir səbəb də onunla bağlıdır ki, felin gələcək zaman formaları qətilik və qeyr-qətilik bildirmələrindən asılı olmayaraq, hələlik baş verməmiş hərəkəti bildirir. Onu görə də gələcək zaman formalarının ayrıca nəzərdən keçirilməsi vacibdir.

A) İNDİKİ ZAMAN FORMALARI

İndiki zamanın qeyri-müəyyən forması (The Present Indefinite Tense Form).

İndiki zamanın qeyri-müəyyən forması hərəkətin yalnız icra olunmasını bildirir. Hərəkət indiki zamanda baş versə də, danışıq anına bağlı deyil. O, adətən, ümumiyyətlə və yaxud həmişə baş verə bilər. Məsələn:

He *knows* nobody. He *hates* all people. Us he tolerates, for we *are* the way of his desire (C.London. Short Stories, 216) "O heç kimi *tanımır (tanımaq istəmir)".* O, bütün insanlara *nifrət edir.* Bizə o, onun yolundan olduğumuz üçün *dözür* (C.London, Qısa hekayələr, 216) [Bizi isə onun ürəyincə / istəyincə olduğumuz üçün *yola verir*].

Bununla belə, indiki zamanın qeyri-müəyyən forması müvafiq kontekstual şəraitdə danışıq anına aid olan hərəkəti də ifadə edə bilir:

I *tell* you *true. I am afraid.* He is the breath of death (C.London, Short Stories, 214) "Mən sənə *doğru deyirəm.* Mən *qorxuram.* O, ölüm havasıdır" (CLQH, 214) […ölüm nəfəsidir].

İngilis dilində indiki zamanın qeyri-müəyyən forması başqa zaman formalarının da yerində işlənə bilir. Məsələn:

Ah, that is cust what I *don't* understand! (M.Christie, Selectid Stories, 91) "Ah, mən elə bunu *başa düşə bilmirəm!*" (İndiki zamanın davamedici forması əvəzinə).

Even if it *rains*, we'll work "Yağış *yağsa da (belə),* biz sabah işləyəcəyik". Your plane *leaves* in an hour's time, he said "Sənin təyyarən (sizin təyyarə) bir saatdan sonra *uçur*", -o dedi" (Gələcək zamanın qeyri-müəyyən forması əvəzinə).

I remember the scene very well. Miss. Blake in a dinner-caket, *arrives,* at the ground floor by lift. The lift door *opens* Blake *gets out, looks* at something on his left *registers alarm*

and *walks away* briskly.* "Mən bu səhnəni çox yaxşı tanıyıram. Yemək libası ("smokinq") geyinmiş Missis Bleyk liftlə aşağı mərtəbəyə *duşur.* Liftin qapısı açılır, Bleyk oradan (ondan) *çıxır,* solunda (sol tərəfində) nəyəsə *baxır,* nədənsə *üşənib,* tezcə *çıxıb-gedir*" (Keçmiş zamanın qeyri-müəyyən forması əvəzinə).

Üçüncü və dördüncü hallarda müqayisə edilən dillər arasında tam müvafiqlik müşahidə olunur.

İ.Rəhimov və T.Hidayətzadə indiki zamanın qeyri-müəyyən formasının işlənmə xüsusiyyətlərini Azərbaycan dili ilə müqayisədə nəzərdən keçirərək qeyd edirlər ki, indiki zamanın qeyri-müəyyən forması *to leave, to start, to sail, to return, to arrive, to go, to come* felləri ilə işlənərək yaxın gələcəkdə icra olunası hərəkəti bildirirlər [, 99]. Məsələn:

The train *starts* in 10 minutes "Qatar 10 dəqiqətən sonra *yola düşür.* Burada ingilis və Azərbaycan dillərinin zaman formaları bir-birini tam ehtiva edir. Amma bunu da bilmək lazımdır ki, azərbaycanca həmin məqamda qəti gələcək zaman forması də işlənə bilir: "… *yola düşəcək".*

İ.Rəhimov və T.Hidayətzadə indiki zamanın qeyri-müəyyən formasının daha bir işlənmə məqamını qeyd edirlər: *if, unless, as soon as, provided that, when, until, till* bağlayıcıları ilə başlanan zaman və şərt budaq cümlələrində qeyri-qəti gələcək zaman forması əvəzinə indiki zamanın qeyri-müəyyən forması işlənir. Məsələn:

When she *comes,* I shall speak to her "O *gələndə* mən onunla danışacağam". They will wait *until* she *returns* "O (qadın, qız) *qayıdana kimi* onlar onu gözləyəcəklər".

İngiliscə felin şəxsli formasında olan *comes* "gəlir", *returns* "qayıdır" sözləri azərbaycanca mətndə felin şəxssiz formaları ilə verilmişdir. Həmin kontekstdə başqa cür etmək mümkün deyil.

Müəlliflər indiki zamanın qeyri-müəyyən formasının müstəsna bir xüsusiyyəti kimi nitq zamanı icra olunan hərəkəti ifadə etmək üçün indiki zamanın davamedici

* İngiliscə misalları İ.P.Krılova və Y.V.Krılovanın "Hamı üçün ingilis dili" kitabından götürülmüşdür.

forması ilə işlənməyən fellərlə işlənməsini qeyd edirlər: Do you *see* these new houses? “Bu yeni evləri *görürsünüzmü?”*

İndiki zamanın qeyri-müəyyən formasının bir xüsusiyyəti kimi də hərəkətin təkrar olunduğunu göstərən *often, sometimes* zaman zərfləri, *every day, morning, evening* kimi zaman zərflikləri (söz birləşmələri) ilə işlənməsi qeyd olunur: *Every day I go to the library* “*Hər gün* mən kitabxanaya *gedirəm”*. Bizcə, bu bəndi 2-ci və 3-cü bəndlə birləşdirmək olar.

Bütün bunlardan sonra İ.Rəhimov və T.Hidayətzadə göstərirlər ki, ingiliscə indiki zamanın qeyri-müəyyən forması Azərbaycan dilində indiki zaman forması ilə tərcümə edilir. Ancaq biz bilirik ki, bu belə deyil. Həmin forma Azərbaycan dilində əsasən indiki zaman forması ilə tərcümə edilir. Amma kontekstual şəraitdən asılı olaraq o, azərbaycanca başqa zaman formaları, hətta felin şəxssiz formaları ilə də tərcümə edilə bilir. Bu, müvafiq modal mənanın verilməsinə maneçilik törətmir. Bildiyimiz kimi, felin şəxssiz formalarının zamanı əsas felin ifadə etdiyi zamanda müəyyənləşir.

İndiki zamanın davamedici forması (The Present Continuous Tense Form).

[*be* felinin indiki zaman forması *am, is, are* və əsas felin Participle I forması ilə düzəlir].

İndiki zamanın davamedici formasının əsas vəzifəsi dəqiq göstərilməmiş indiki zamanda baş verən hərəkətləri ifadə etməkdir. Həmin hərəkətlərin əlavə səciyyələri bitkin olmama, dinamik və əyanilikdir. Ona görə də indiki zamanın davamedici formasında yalnız dinamik fellər işlənir.

İndiki zamanın davamedici formasından aşağıdakı hallarda istifadə olunur.

1. Nitq anında baş verən hərəkətləri ifadə etmək məqamında. Məsələn:

It *is raining* “Yağış *yağır*”. You can *talk* to him “Sən onunla danışa bilərsən”. He *is not working* “O (bu saat) *işləmir”*.

2. İndiki dövrdə baş verən hərəkətləri ifadə etmək məqamında. Məsələn:

My husband *is working* on an invention “Mənim ərim (hal-hazırda) bir ixtira üzərində *işləyir”*.

Gördüyümüz kimi, indiki zamanın davamedici formasında olduğu kimi, indiki zamanın davamedici formasının da müqabili olaraq Azərbaycan dilində yeganə indiki zaman forması işlənir. Ancaq bilmək lazımdır ki, bu dildə davamlı indiki zaman formasının tam müqabili də vardır. Bu, (məsdər+yerlik hal şəkilçisi+xəbərlik şəkilçisi) şəklində işlənən formadır (*işləməkdədir, yazmaqdayam* və s.) (Bu forma ilə əlaqədar olaraq bax: Azərbaycan dilinin qrammatikası. I h., 1960, s.197). Müq.et: Yoldaşlar, mən bilirəm ki, bu kənddə mənim dilimdən və mənim haqqımda bir çox əsassız sözlər *danışılmaqdadır* (C.Cabbarlı).

Bununla belə, qeyd etməliyik ki, bu formanın Azərbaycan dilində indiki zaman formalarından biri olması ümumən qəbul olunmamışdır. Bundan əlavə, *oxuyur* tipli indiki zaman forması ilə müqayisədə bu forma olduqca məhdud dairədə işlənir.

3. Yaxın gələcəkdə icra ediləcəyi qəti olan hərəkətləri ifadə etmək məqamında. Məsələn:

My husband *is staying* in town tonight "Mənim ərim bu gecə şəhərdə *qalacaq*, yaxud: …bu gün şəhərdə *gecələyəcək"*.

Həmin məqamda azərbaycanca indiki yox, qəti gələcək zaman formasının işlənməsi daha təbii və xarakterik səslənir.

İngilis dilində hərəkətə intensivlik, dinamiklik əlaməti qarışanda indiki zamanın qeyri-müəyyən formasını indiki zamanın davamedici forması əvəz edir. Bu halda cümlədə *always, constantly* tipli zərflər işlənir. Məsələn:

She *is always showing* pictures of her children "O (qadın) həmişə uşaqların şəkillərini (adama) *göstərir*".

He *is being* silly "O, *axmaqlıq eləyir"* (Müq.et:. He *is silly* "O, *axmaqdır"*. How *do your* like your life in the town? – I'*m* hating it "Siz şəhərdəki həyatınızdan *razısınızmı? (…xoşlayırsınızmı, xoşunuza gəlirmi?)* "-Mən ona *nifrət edirəm* (Mənim ondan z*əhləm gedir*").

Gördüyümüz kimi, Azərbaycan dilində davamlı indiki zaman, ingilis dilində felin "Present Continuous" zaman formasının müqabili olsa da, onun işlənmə dairəsi (tezliyi) olduqca məhduddur. Ona görə də həm indiki zamanın qeyri-

müəyyən, həm də indiki zamanın davamedici formalarının qarşılığı olaraq Azərbaycan dilində indiki zamanın əsas ifadə forması işlənir.

İngilis dilində statiklik və dinamiklik tamamlanmadığına görə həm indiki zamanın qeyri-müəyyən, həm də indiki zamanın davamedici formalarının işləndiyi halların müqabilində Azərbaycan dilində yalnız bir forma işlənir:

You *look (are looking)* happy. "Sən xoşbəxt *görünürsən*". My hands *itch (*are itching). "Mənim əllərim *qaşınır (gicişir)"*

İ.Rəhimov və T.Hidayətzadə indiki zamanın davamedici formasının danışıq vaxtı davam edən hərəkəti göstərdiyini qeyd etməklə yanaşı, həmin cümlələrdə danışıq vaxtını ifadə edən zaman zərflərinin də (*now, at the present, moment)* işləndiyini qeyd edirlər.

Listen, how well *he is playing!* "Gör, o nə yaxşı *çalır*!".

Burada da indiki zamanın davamedici forması *çalır* tipli indiki zaman forması ilə verilir. Biz yuxarıda indiki zamanın qeyri-müəyyən formasından bəhs edərkən bəzi məqamlarda onun yerlik halda və xəbərlik şəkilçisi ilə işlənən məsdərlə ifadə olunduğunu qeyd etmişdik. Qəribə burasıdır ki, ingiliscə indiki davamedici zamanın üçün həmin formadan istifadə etmək olmur.

İ.Rəhimov və T.Hidayətzadə indiki davamedici zamanın formasının başqa bir xüsusiyyətini "icra etmək niyyətində olduğumuz və icrasına əmin olduğumuz hərəkəti" ifadə etmək kimi təyin edirlər [39, s.113]. Məsələn:

I *am buying* a car soon "Bu yaxınlarda mən bir maşın *alıram".* Müəlliflər həmin məqsədlə "*to go* + məsdər" konstruksiyasından da istifadə olunduğunu göstərirlər. I *am going to buy* a car soon "Mən bu yaxınlarda maşın *almaq niyyətindəyəm*".

Azərbaycan dilində məsdərlə yanaşı, kontekstual şəraitə işarə edən *niyyət* sözü də işlənmişdir. Diqqətəlayiq cəhət burasıdır ki, yuxarıda haqqında bəhs etdiyimiz məsdər forması kimi, *niyyət* sözü də yerlik hal və xəbərlik şəkilçilərinin əlavəsi ilə işlənir.

Müasir Azərbaycan dilində həmin modal mənanı ifadə etməkdən ötrü başqa vasitələr də vardır: "gərək ədatı + felin arzu şəkli", felin vacib şəkli: *gərək alam, alasıyam.*

İ.Rəhimov və T.Hidayətzadə indiki zamanın davamedici formasının Azərbaycan dilində verilməsi yollarından danışarkən məlum indiki zaman formasını qeyd edirlər, "*to be going*+məsdər" konstruksiyasını "bir şeyi etmək niyyətində olmaq (hazırlaşmaq)" şəklində verməyi təklif edirlər.

I *am going to tell* you an interesting tale "Mən sizə bir maraqlı nağıl *söyləməyə hazırlaşıram*".

Deməliyik ki, bu hərfi tərcümə səviyyəsindədir. Kiməsə maraqlı bir nağıl söyləməyə hazırlaşan şəxs azərbaycanca, yəqin ki, belə deyərdi: "Sizə bir maraqlı nağıl *danışım/danışmaq istəyirəm*".

Burada arzu da, niyyət də, qətiyyət də vardır.

İndiki zamanın bitmiş forması (The Present Perfeet Tense Form).

[*to have* felinin indiki zamanı + əsas felin Participle II forması]

İndiki zamanın bitmiş forması nitq zamanı qurtarmış hərəkəti ifadə etmək üçün işlənir. Hərəkətin icra olunması şəraiti (zamanı, yeri, tərzi) bu zaman elə bir əhəmiyyət kəsb etmir.

We have bought a new TV set "Biz təzə televizor *almışıq*".

Göründüyü kimi, ingiliscə indiki zamanın bitmiş forması Azərbaycan dilində nəqli keçmiş zaman forması ilə verilir. Qeyd edək ki, rus dilində də vəziyyət buna oxşardır. Yuxarıdakı cümlə rusca belə tərcümə olunur: "Mı kupili novıy televizor".

İ.P.Krılova və Y.V.Krılova yazırlar: "The Present Perfect formasında olan fellər rus dilinə keçmiş zamanla tərcümə edilsə də, yadda saxlamaq lazımdır ki, ingilis dilində həmin hərəkətlər *indiki* zaman hərəkətləridir" [122, s.20].

Bunu bir tərəfdən köməkçi felin forması (Məsələn: He *has* come back), o biri tərəfdənsə indiki zamanın bitmiş forması keçmiş zaman (nəqletmə zamanı) yox, yalnız indiki zaman kontekstində işlənməsi göstərir. Yəni indiki bitmiş zamanla ifadə olunan hərəkət həmişə danışıq anına nisbətən verilir, ona "bağlanmış" olur.

İndiki zamanın bitmiş formasının ifadə etdiyi hərəkətlərin indiki zamana aid olduğunu dəyişmə (çevrilmə) də sübut edir:

I *have heard* the doctor's opinion = I *knew* the doctor's opinion.

Azərbaycan dilində nəqli keçmiş zaman forması keçmişdə baş vermiş hərəkəti bildirsə də və bu formanın əsasında tarixən keçmiş zaman feli sifəti dayansa da, onunla işlənən şəxs / kəmiyyət şəkilçisi məhz indiki zaman bildirir. Biz ingiliscə *am*, azərbaycanca *-am/-əm* morfemlərini dillərin uzaq keçmişinə aid şəkilçilər hesab edirik.

Həmin məsələ ilə əlaqədar olaraq bunu da yada salmaq lazımdır ki, *-am/-əm* və s. şəxs / kəmiyyət şəkilçiləri (başqa sözlə, xəbərlik şəkilçiləri) təkcə fellərin ifadə etdiyi hərəkətləri deyil, adların müxtəlif kateqoriyalarının (isim, sifət, say və s.) ifadə etdiyi anlayış və təsəvvürləri də indiki zamanla bağlayır. Məsələn: Mən *müəlliməm.* Mən *kiməm*? Bir *bikəsü - bixaniman* (Füzuli). Sözümüz *sözdür.* Mən *yaxşıyam, s*ən *necəsən?*

Beləliklə, biz deyə bilərik ki, Azərbaycan dilində nəqli keçmiş zaman formasında hərəkətin qurtarmasını, tamam olmasını ifadə etmək vəzifəsi feli sifət tərkib hissəsinin üzərinə, həmin hərəkəti danışıq anına, indiki zamana bağlamaq vəzifəsi isə şəxs/kəmiyyət şəkilçisinin üzərinə düşür.

Bu cəhətdən İ.Rəhimov və T.Hidayətzadənin indiki zamanın bitmiş formasının işlənməsinə dair qeydləri diqqəti cəlb edir: «Bu zaman forması keçmişdə icra olub-bitmiş, nəticəsi hal-hazırda meydanda olan hərəkəti göstərmək üçün işlənir. Həmin nəticə indiki zamanla əlaqədardır» [39, s.120].

The workers have built a new house "Fəhlələr təzə ev tikmişlər"

Həmin zaman forması zaman zərfləri (*today, this week / month, year, minute, afternoon, evening)* ilə də işlənə bilir.

I *have not received* a letter from him this week "Bu həftə mən ondan heç bir məktub *almamışam*" (Mən bu həftə ondan məktub *almamışam*).

Həmin forma *never, ever, often, already, cust, yet* kimi qeyri-müəyyən zaman zərfləri ilə də işlənir.

İ.Rəhimov və T.Hidayətzadə indiki zaman bitmiş formasının Azərbaycan dilinə nəqli keçmiş zaman forması ilə tərcümə edildiyini qeyd edirlər. Onlar göstərirlər ki, hərəkətin başlanğıcının *since* sözü ilə ifadə edildiyi cümlələrdə fel azərbaycancaya həm indiki zaman, həm də nəqli keçmiş zaman formaları ilə tərcümə edilir: Məsələn:

I *have not seen* him since 1965 "Mən onu 1965-ci ildən *görmürəm / görməmişəm"* [39, s.125].

Belə bir kontekstual şəraitdə indiki zaman və nəqli keçmiş zaman formalarının paralel olaraq işlənməsi faktdır. Amma bizə belə gəlir ki, Azərbaycan dilində bu iki zaman formasının işlənmə məqamları arasında belə bir fərq vardır: uzaq keçmiş üçün nəqli keçmiş zaman, yaxın keçmiş zaman üçünsə indiki zaman forması yarayır.

İndiki zamanın davam edib bitmiş (The Present Perfect Continuous Tense Form).

[*have* felinin "bitmiş" indiki zamanı+*be* felinin Participle II forması (*been/*+əsas felin *-ing* forması].

İndiki zamanın davam edib bitmiş forması yalnız dinamik fellərlə işlənir. O, keçmişdə başlanıb, hazırkı danışıq anına qədər davam edən hərəkəti ifadə edir.

İndiki zamanın davam edib bitmiş forması işlənən cümlələrdə hərəkətin baş verdiyi dövrü (müddəti) göstərən ifadələr (zərfliklər, qoşma birləşmələri, *since* sözü) də işlənir. Məsələn: We *have been staying* here all this week "Biz bütün bu həftəni burada qonaq *qalırıq*" He *has been working* for two hours "O, iki saatdır ki, *işləyir*". I *have known him* since my childhood "Mən onu uşaqlıqdan *tanıyıram*".

Beləliklə, biz görürük ki, ingiliscə İndiki zamanın davam edib bitmiş formasına Azərbaycan dilində yenə də indiki zaman forması müvafiq gəlir.

Bəzi hallarda İndiki zamanın davam edib bitmiş forması keçmişdə baş verib qurtarmış hərəkəti bildirir. Bu zaman o, felin indiki zaman formasından düzəlmiş hekayə forması ilə verilir. "Siz burada olmayanda mən bu məqaləni *tərcümə edirdim*".

İndi isə, görək, ingiliscə İndiki zamanın davam edib bitmiş formasının Azərbaycan dili ilə müqayisədə öyrənilməsi nə vəziyyətdədir.

İ.Rəhimov və T.Hidayətzadənin ingilis dili qrammatikasında "I *have been reading* this article for two hours" cümləsi azərbaycanca "Mən bu məqaləni iki saatdır ki, *oxuyuram"* şəklində verilir [39, s.134]. Bu, "İki saatdır ki, mən bu məqaləni *oxuyuram"* variantının çevrilmiş şəklidir.

Etiraf etmək lazımdır ki, tərcümə istər oricinalın zaman göstəricisini, istərsə də orada işlənən felin məzmununu dəqiq ehtiva edir. Ancaq burada belə bir cəhətə diqqət vermək lazımdır. İngilis dilində həmin cümlə sadə cümlə şəklində olub, *for* two *hours* ifadəsi də cümlə üzvüdür (zaman zərfliyi). Azərbaycan dilində isə bütövlükdə cümlə mürəkkəb cümlə olub, *iki saatdır ki* baş cümlə, qalan hissə isə mübtəda budaq cümləsidir.

İngilis dilində zaman göstəricisi budaq cümlə ilə də ifadə oluna bilir.

He *has been working* at the plant since we came here "Biz bura gələndən (bəri) o, zavodda *işləyir*".

Aydındır ki, zamanın nə ilə, necə verilməsi indiki zamanın davam edib bitmiş formasının azərbaycanca necə ifadə olunmasına təsir etmir. Misallardan gördüyümüz kimi, həmin zaman forması Azərbaycan dilində əsasən indiki zaman forması ilə verilir.

B) KEÇMİŞ ZAMAN FORMALARI.

Keçmiş zamanın qeyri-müəyyən forması (The Past İndefinite Tense Form).

Keçmiş zamanın qeyri-müəyyən forması qaydalı, qaydasız və qarışıq üsulla düzəlir. Bunun modallıq məsələsinə elə bir dəxli yoxdur.

Keçmiş zamanın qeyri-müəyyən formasından keçmişdə tək-tək, ardıcıl olaraq, təkrar olaraq baş vermiş hərəkətlərdən bəhs edərkən istifadə edilir. Müvafiq cümlələrdə keçmişə aid zaman müddətlərini bildirən zaman zərfləri də işlənir: *yesterday, last week (month, year), in 2000* və s.

Məsələn: He wrote the letter and gave me "O, məktubu *yazdı* və mənə *verdi (yazıb,* mənə *verdi)*".

Yesterday he *came* from Turkey “Dünən o, Türkiyədən *gəldi*”

The teacher *entered* the room, *greeted* us and *sat* down at the table “Müəllim otağa *daxil oldu,* bizi *salamladı* və stol arxasında oturdu”.

Gördüyümüz kimi, ingiliscə keçmiş zamanın qeyri-müəyyən forması azərbaycanca müntəzəm olaraq şühudi keçmiş zaman forması ilə verilir. Ancaq bu, yeganə imkan deyil. Keçmiş zamanın qeyri-müəyyən forması başqa keçmiş zaman formaları ilə də verilir. Məsələn: Dan *worked at a factory* “Dən fabrikdə *işləyirdi*” (davamlı keçmiş)

I only *met* Peter six months ago “Mən Peterlə cəmi-cümlətanı altı ay bundan qabaq *tanış olmuşam*” (nəqli keçmiş zaman).

Şərt və zaman budaq cümlələrində işlənərkən keçmiş zamanın qeyri-müəyyən forması azərbaycanca ümumiyyətlə keçmiş zaman forması ilə verilmir. Məsələn:

He said that if he *got* tickets he would give me a call “O dedi ki, bilet *tapa bilsə,* mənə zəng edəcək”.

The children promised that they would turn the TV set off before they *went* to bed “Uşaqlar vəd etdilər ki, *yatmağa getməzdən qabaq* televizoru söndürəcəklər”.

Keçmiş zamanın qeyri-müəyyən forması müəyyən müddətdə baş verib qurtarmış hərəkəti bildirərkən azərbaycanca həm şühudi, həm də nəqli keçmiş zaman formaları ilə verilə bilir:

After seminar we *sat* in the Academian garden for a long time “Seminardan sonra biz uzun müddət Akademiya bağında *oturduq* (oturmuşuq)”.

Buna oxşar bir halı *used+to infinitive* qaydasında düzəldilmiş keçmiş qeyri-müəyyən zamanda da müşahidə edirik.

Həmin forma azərbaycanca həm indiki zamanın, həm də qeyri-müəyyən gələcək zamanın formasından düzəlmiş hekayə forması ilə verilir. Məsələn:

He *used to come* to see us every Sunday “O *adətən* hər bazar günü bizi görməyə *gəlirdi (gələrdi)*”.

Davamlı keçmiş zaman forması (The Past Continuous Tense Form).

[*To be* felinin keçmiş zaman forması (was, were) + əsas felin -ing forması]

Keçmiş zamanın davamedici forması keçmişdə dəqiq vaxt çərçivəsində və ya müəyyən vaxt ərzində davam etmiş hərəkəti bildirir. Onun əlavə xarakteristikası natamamlıq, dinamiklik və əyanilikdir. Ona görə də yalnız dinamik fellər bu formada işlənir.

I *was reading* at 5 o'clock "Dünən saat 5-də mən *oxuyurdum*".

I *was writing* when he came "O gələndə mən yazı *yazırdım*".

We *were working* in the garden the whole day yesterday. "Dünən biz bütün günü bağda *işləmişik / işlədik*".

Keçmiş zamanın davamedici formasında hərəkətin uzun müddət davam etməsini bildirmək vəzifəsi felin formasından başqa, felin leksik-semantik əhatəsinin də üzərinə düşür. Həmin məna zamana işarə edən *constantly, always, ever* zərfləri ilə də ifadə olunur.

He *was always coming* to our garden "O həmişə bizim bağa *gəlirdi*".

She was noisy and constantly trying to attract attention by any means "O, səs-küylü ili və həmişə, hər yolla özünü gözə soxmağa (başqalarının nəzərini cəlb etməyə) *çalışırdı*".

Beləliklə, biz görürük ki, keçmiş zamanın davamedici forması Azərbaycan dilində əsasən felin qeyri-qəti gələcək və indiki zaman formalarından düzəlmiş hekayə forması ilə ifadə olunur.

Bəzi hallarda ilkin təşkiledicilər kimi nəqli, şühudi keçmiş zaman formaları da işə yarayır.

Keçmiş zamanın davamedici forması keçmişə nisbətdə gələcək olan hərəkti bildirmək üçün də işlənir (qəti gələcək). Məsələn:

At the end of the week she wired that she was returning "Həftənin axırında o, teleqram *vurdu (göndərdi)* ki, *qayıdacaq / qayıdır*".

Qeyd: Yadımıza salaq ki, indiki zaman forması hər iki dildə qəti gələcəyi bildirmək üçün də işlədilir.

Keçmiş zamanın davamedici forması intensivlik çaları ilə keçmiş zamanın qeyri-müəyyən forması əvəzinə və statiklik bildirən fellərlə də işlənir:

I *was seeing (was meeting)* Tom regularly now "İndi mən Tomla tez-tez *görüşürdüm / rastlaşırdım*".

Keçmiş zamanın bitmiş forması (The Past Perfect Tense Form).

[*to have* felinin qeyri-müəyyən keçmiş zaman forması *(had)* + əsas felin Participle II forması].

Keçmiş zamanın bitmiş forması keçmişdə müəyyən bir vaxta qədər bitmiş, tamamlanmış hərəkəti bildirmək üçün işlənir. Həmin vaxt zaman zərfləri, təyinedici cümlələrlə ifadə olunur. Məsələn:

His wife didn't tell him of the many presents which *had came* before and since the Wonderful Christmas (Th. Dreiser. Cennie Gerhardt, 62). "Hər halda arvadı o xoşbəxt milad bayramınadək və bayramdan sonra Brenderdən alınmış çoxlu həddiyyələr haqqında ona bir şey *deməmişdi*" (T.Drayzer. Cenni Herhardt, 47).

I *read* attentively *the note which he had left* for me "Onun mənim üçün *qoyub-getdiyi* məktubu mən diqqətlə *oxudum*" hərfən: "O məktub ki, o mənim üçün *qoyub-getmişdi*, diqqətlə oxudum".

Gördüyümüz kimi, keçmiş zamanın bitmiş forması Azərbaycan dilində həm keçmiş zaman feli sifəti (yadımıza salaq ki, ingilis dilində bu zaman formasının əsasında keçmiş zaman feli sifəti durur), həm də şəxsli fel forması (nəqli keçmiş zaman formasından düzəlmiş forması) ilə verilir.

Keçmiş zamanın bitmiş forması müəyyən hərəkətdən qabaq baş vermiş hərəkəti bildirir. Bu zaman onun cümlədəki yeri əvvəldə də, axırda da ola bilir. Bir qədər bundan qabaq verdiyimiz cümlələrdə cümlədə onun yeri axırda idi. İndi verəcəyimiz cümlədə isə onun yeri cümlənin əvvəlindədir.

After they *had written* the exercises, they went to the cinema "Onlar çalışmaları *yazıb-qurtardıqdan sonra* kinoya getdilər" (Elə ki, onlar çalışmaları *yazıb-qurtardılar,* kinoya getdilər".

Biz yuxarıda bir neçə dəfə “felin şəxssiz forması” terminindən istifadə etmişik və ingiliscə şəxsli fel formalarını bu şəkildə tərcümə etmişik. Bununla əlaqədar olaraq bir neçə söz demək istərdik.

Felin şəxssiz formaları anlayışı Azərbaycan və ingilis dillərində bir-birini o qədər də tutmur. İngilis və başqa Avropa dillərində bu ad altında cümlənin mübtədası ilə şəxs və kəmiyyətə görə uzlaşmayan qeyri-finit formalar nəzərdə tutulur. Azərbaycan dilində feli sifətlər mübtəda ilə şəxsə və kəmiyyətə görə uzlaşır, amma cümlənin xəbəri olmur və belə bir məqamda o, predikativlik xüsusiyyətindən məhrum olur.

Beləliklə, biz görürük ki, ingiliscə keçmiş zamanın bitmiş formasının Azərbaycan dilində kateqorial müqabili nəqli keçmiş zaman formasından düzəlmiş hekayə formasıdır. Ancaq onu fakültativ olaraq şühudi keçmiş zaman forması ilə də vermək olur. Bu məqamda əlavə vasitələrə də müraciət etmək mümkündür (bizim tərcümədə bu, tamamlayıcı feldir: *…qurtardılar*).

Bizim müstəqil olaraq tapdığımız bu üsuldan keçmiş zamanın bitmiş formasının tərcüməsində İ.Rəhimov və T.Hidayətzadə də istifadə etmişlər: I *had* written the article by 5 o’clock “Saat 5-ə kimi mən məqaləni *yazıb-qurtarmışdım*” (s.129).

Müəlliflər qeyd edirlər ki, keçmiş zamanın bitmiş forması Azərbaycan dilinə uzaq keçmiş zaman forması ilə tərcümə edilir. Bu münasibətlə verilmiş qeydlərdə deyilir ki, keçmiş zamanın bitmiş forması feli bağlama və feli sifətlə də tərcümə edilə bilir.

At last, I met my school friend whom I had not seen for a long time “Nəhayət, mən uzun müddət görmədiyim məktəb dostuma rast gəldim”.

Keçmiş zamanın bitmiş formasının bir işlənmə məqamı da yadasalma (xatırlama) konteksti ilə bağlıdır. Burada ardıcıl olaraq baş vermiş hərəkətlər və onlardan qabaq baş vermiş hərəkətlərin nisbəti diqqət mərkəzindədir.

The morning was beautiful. I took a towel and went down to the beach, outside the hotel I met Max. I had gone to school with him “Gözəl bir səhər idi. Mən məhraba götürüb,

çimərliyə düşüb-getdim. Mehmanxananın yanında Maksla rastlaşdım. Mən onunla məktəbə getmişəm (gedərdim) = Biz bir yerdə məktəbdə oxumuşuq".

Keçmiş zamanın davam edib bitmiş forması (The Past Perfect Continuous Tense Form).

Keçmiş zamanın davam edib bitmiş forması keçmişdə baş vermiş hərəkətdən əvvəl başlanıb-davam edən hərəkəti bildirmək üçün işlədilir. O, zaman müddəti bildirən zərflərlə müşayiət olunur: *for an hour (month, longtime* və s.); həmin vasitələr sırasına qoşma birləşmələri *(for…)*, zərf, qoşma və bağlayıcı kimi çıxış edən *since* sözü də aiddir.

Qeyd etmək lazımdır ki, keçmiş zamanın davam edib bitmiş formasından yalnız mürəkkəb cümlələrdə istifadə olunur. Məsələn:

I *had been living* in Baku for ten years when they came here "Onlar buraya gələndə mən artıq 10 il idi ki, Bakıda *yaşayırdım*" ("Mən 10 il Bakıda *yaşayırdım* ki, onlar buraya gəldilər").

I was very tired as *I had been working "İşlədiyim üçün (işlədiyimdən)* mən çox yorğun idim" = Mən çox yorğun idim (çünki, belə ki), (çox) işləmişdim".

He *said he had been working* in a newspaper office since he returned from abroad "O dedi ki, xaricdən *qayıtdıqdan* bəri (sonra) bir qəzetdə *işləyir(miş)*".

C) GƏLƏCƏK ZAMAN FORMALARI.

Bizim bundan qabaq nəzərdən keçirdiyimiz indiki və keçmiş zaman formaları artıq həyata keçmiş, icra olunmuş hərəkətləri bildirir. Gələcək zaman formaları ilə ifadə olunmuş hərəkətlər belə deyil. Bunlar olsa-olsa niyyətdə tutulur, irəlicədən güman, fərz edilir. Bunların modal çaları vardır. Həmin hərəkətlər həyata keçməsində yəqinlik, inam, şübhə olan, arzu edilən və edilməyən, zəruri, mümkün olan, vacib, lazım, ehtimal edilən (edilməyən), hərəkətlər kimi təqdim olunur. Gələcək zamanın həmin məna çalarları ingilis dilində müxtəlif leksik və qrammatik vasitələrin köməyi ilə öz ifadəsini tapır [122, s.41].

İngilis dilində gələcək zamanın aşağıdakı formaları işlənir:

1) Gələcək zamanın qeyri-müəyyən forması (The Future Indefinite Tense Form);

2) Gələcək zamanın davamedici forması (The Future Continuous Tense Form);

3) Gələcək zamanın bitmiş forması (The Future Perfect Tense Form);

4) Gələcək zamanın davam edib bitəcək forması (The Future Perfect Continuous Tense Form);

5) Keçmişə nəzərən gələcək zaman forması (The Future in the Past).

Azərbaycan dilində gələcək zamanın aşağıdakı formaları vardır: qəti gələcək, qeyri-qəti gələcək, keçmişdə qəti gələcək (*idi* və *imiş* bağlamaları ilə), keçmişdə qeyri-qəti gələcək (*idi* və *imiş bağlamaları ilə*), şərti qəti gələcək və şərti qeyri-qəti gələcək.

Hər iki dildə qeyd olunan zaman formalarının işlənmə tezliyi bərabər deyil. Bundan başqa, həmin zaman formalarının işlənmə məqamları da çox vaxt bir-birinə müvafiq gəlmir. Bunu konkret zaman formalarının müqayisəsi açıq-aşkar göstərir.

Gələcək zamanın qeyri-müəyyən forması (The Future Indefinite Tense Form).

Həmin forma danışıq anına nisbətdə gələcəyə aid olan hərəkətləri bildirir. O, statik və dinamik fellərlə müxtəlif şəkildə işlənir.

Gələcək zamanın qeyri-müəyyən forması statik fellərlə heç bir məhdudiyyət olmadan işlənir və hərəkətə heç bir modal məna çaları vermir. Bunu neytral hesab etmək olar.

Everybody *will be* at the meeting “Bu gün axşam hamı iclasda *olacaq*”. Gələcək zamanın qeyri-müəyyən forması dinamik fellərlə işlənərkən *shall* və *will* fellərinin modal məna saxlamalarına görə modal məna kəsb edirlər.

Əvvəllər məcburiyyət modal mənası olmuş *shall* feli 2-ci və 3-cü şəxslərdə bütün cümləyə vəd, təhdid və xəbərdarlıq mənası verir.

You *shall pay* for it “Sən buna görə *cavab verəcəksən*”.

He *shall* get the money tomorrow “O, sabah həmin pulları *mütləq alacaqdır*”.

Shall feli sualda birinci şəxslə əlaqədar olaraq əmr (komanda, buyruq), sərəncam, gözləmə mənası bildirir.

Shall we *alter* the plan? “Biz planı *dəyişdirməliyik / dəyişdirəsiyik?*

Will(‘ll) feli birinci şəxsin tək və cəmində arzu, hazırolma, razılaşma, niyyət, qətiyyət mənaları bildirir. Məsələn:

All right*, I’ll come* “Yaxşı, (mən) gələrəm/gələcəyəm”.

Give this to the taxi dispatcher, Patsi and *he’ll send* you to home (AHA, 24) “Ver bunu taksi dispetçerinə, Pətsi, o səni evə *göndərər*” (AHA. a, 23).

Let’s take him off a while, anyway, and as an afterthought, *I’ll* do it (AHA, 79) “Hər halda ona bir az istirahət verməliyik”. – bir az düşünüb, əlavə etdi, - “özüm *deyərəm*” (ANA. a, 77) […özüm bunu *edərəm*].

We’ll explain everything to them “Biz onlara hər şeyi *izah edərik / edəcəyik*”.

Will feli 2-ci və 3-cü şəxslərlə əlaqədar olaraq buyruq (komanda) ifadə edir.

My husband *will pay* for the taxi “Mənim ərim taksinin haqqını *verər / ödəyər*”.

İnkar cümlələrində *will* hərəkəti icra etməkdən boyunqaçırma mənası ifadə edir.

I *won’t argue* with you “Mən sənin*lə mübahisə etmirəm (etməyəcəm) edəsi deyiləm*”.

Sual cümlələrində *will* xahiş və dəvət mənalarını ifadə edir.

Will you *ask* him into my office? “Zəhmət olmasa, onu mənim ofisimə (kabinetimə) çağırın/dəvət edin”.

Will you *come* in! “Buyurun, *içəri keçin / gəlin*”.

İ.Rəhimov və T.Hidayətzadə ingiliscə gələcək zamanın qeyri-müəyyən formasından danışarkən bir dəfə və təkrar olaraq baş verən hərəkətləri bildirən fellərin Azərbaycan dilinə müxtəlif şəkildə tərcümə olunduğunu qeyd edirlər. Ancaq həmin fikri sübut etmək üçün verilmiş misallarda bunu görmürük [39, s.109].

Bundan başqa, müəlliflər gələcək zamanın qeyri-müəyyən formasının azərbaycancaya tərcümə olunması yollarından danışarkən onun qəti və qeyri-qəti gələcək zaman formaları ilə verildiyini qeyd edirlər. Müq.et: He w*ill come tomorrow*. “O, sabah gələcək” və He *will help* us. “O, bizə kömək edər”. Belə çıxır ki, qəti və qeyri-qəti gələcək

formalarından istifadə olunması zaman zərfinin işlənib-işlənməməsindən asılıdır.

Daha sonra müəlliflər *likely, probably, possibly* sözləri ilə işlənən gələcək zamanın qeyri-müəyyən formasının Azərbaycan dilinə qeyri-qəti gələcək zamanın forması ilə tərcümə edildiyini göstərirlər. He *will probably* come tomorrow "*Yəqin ki,* o, sabah *gələr*". Biz deyə bilərik ki, həmin cümlədə ehtimal, güman bildirən sözün işlənməsinə baxmayaraq, onda qəti gələcək zaman formasından da istifadə etmək olar.

Həmin mövzunun axırında verilmiş qeyddə deyilir. Tabeli mürəkkəb cümlənin xəbəri gələcək zamanın qeyri-müəyyən forması ilə ifadə olunmuşsa, o, məzmunundan asılı olaraq, həm qəti, həm də qeyri-qəti gələcək zaman forması ilə tərcümə edilir: If he comes, we shall go to the cinema "O gəlsə, biz kinoya *gedəcəyik / gedərik*" (s.111). Burada hansı məzmun fərqinin nəzərdə tutulduğu açılmamış qalır.

Gələcək zamanın davamedici forması (The Future Continuous Tense Form).

[*to be* felinin gələcək zaman forması *(shall/will be)* + əsas felin Participle I forması].

Gələcək zamanın davamedici forması hadisələrin adi, təbii gedişində gələcəkdə baş verəsi hərəkətləri bildirir. Məsələn:

Today is 20 of March. The peoples *will be celebrating* the Novruz Holiday "Bu gün martın 20-sidir. Adamlar Novruz bayramını qeyd *edəcəklər*".

Meg, *will* you close the window? The food *will* be getting cold . "Meq, zəhmət olmasa, pəncərəni örtün. Xörək *soyuyar / soyuyacaq*".

İ.Rəhimov və T.Hidayətzadə göstərirlər ki, gələcək zamansy davamedici forması gələcəkdə müəyyən vaxt ərzində davam edəcək hərəkəti bildirmək üçün işlədilir. Həmin müəyyən vaxt zaman zərfləri, zərflikləri və zaman və şərt budaq cümlələri ilə ifadə olunur.

Müəlliflər gələcək zamanın davamedici formasının Azərbaycan dilində qəti gələcək zaman və "məsdər + *olmaq* felinin qəti gələcək zaman forması" şəklində tərcümə edildiyini qeyd edirlər:

We *shall be* writing when he comes “O, evə gələndə biz yazı *yazmaqda olacağıq*” [39, s.116].

Deməliyik ki, ikinci formanın işlənmə tezliyi Azərbaycan dilinin özündə belə olduqca məhduddur.

Gələcək zamanın bitmiş forması (The Future Perfect Tense Form).

[*to have* felinin gələcək zamanı (*shall / will have* + əsas felin Participle II forması].

Gələcək zamanın bitmiş forması zərfliklərlə ifadə olunmuş ana qədər tamamlanacaq hərəkətləri bildirir.

I suppose he *will have made* up his mind before the meeting “Mən belə güman edirəm ki, o, iclasa qədər bir *qərara gələcək / gəlmiş olacaq”*.

She *will have cleaned* the house by their arrival “Onlar gələnə qədər o (qadın) evi *yığışdıracaq / yığışdırmış olacaq”.*

Həmin tərcümələr içərisində “gəlmiş olacaq” tipli ifadə tərzi diqqəti cəlb edir. İngilis dilində olduğu kimi, burada da əsas fel keçmiş zaman feli sifəti formasındadır; gələcəyin ifadəsi isə köməkçi felin üzərinə düşür. “Keçmişə nəzərən gələcək” termini ilə əks assosiasiya yolu ilə bunu “gələcəkyə nəzərən keçmiş” adlandırmaq olar.

Gələcək zamanın bitmiş forması bəzən gələcək zamana aid olan hərəkəti deyil, keçmişə aid olan və icrası güman edilən hərəkəti bildirir. Bu halda gələcək zamanın bitmiş forması semantik cəhətdən *“Must + Perfect Infinitive”* birləşməsinin ifadə etdiyi mənaya uyğun gəlir, yəni modallıq məna çaları ilə yüklənir. Müqayisə edin:

a) You *will have read* in the newspapers about the conclusion of this agreement.

Siz *yəqin ki, (çox güman ki, görünür, deyəsən)* qəzetdə bu sazişin bağlanması haqqında oxumuşsunuz.

b) He must have known someone in the registrar’s office there (I.Levin/ A kiss Before Dying, 140).

O *yəqin ki, (çox güman ki, görünür, deyəsən)* orada qeydiyyat bürosundakılardan kimisə *tanıyırmış*.

Yuxarıdakı misallardan aydın olur ki, gələcək zamanın bitmiş formasının bu mənası Azərbaycan dilində *«yəqin ki», «çox güman ki», «görünür», «deyəsən»* sözlərinin iştirakı ilə

felin nəqli keçmiş zaman forması və başqa fel şəkilləri vasitəsilə ifadə olunur.

Gələcək zamanın bitmiş və keçmiş zamanın bitmiş formalarının müqayisəsi göstərir ki, onların arasındakı fərq gələcək bitmiş formanın hərəkəti gələcəyə, keçmiş bitmiş zamanın isə keçmişə aid etmələridir:

a) The students *will have translated* the article by two o'clock.

Tələbələr saat ikiyədək məqaləni *tərcümə etmiş olacaqlar*.

b) The students *had translated* the article by two o'clock.

Tələbələr saat ikiyədək məqaləni (artıq) *tərcümə etmişdilər*.

Müasir ingilis dilinin ümumi zaman sistemində fəaliyyət göstərən gələcək zamanın bitmiş forması olduqca az işlənir. Bu dilin materialları əsasında birbaşa çıxarışlar inandırıcı statistik nəticələr üçün yetərli sayda misallar toplamağa imkan vermir.

Gələcək zamanın davam edib bitəcək forması (The Future Perfect Continuous Tense form)

[*to be* felinin gələcək bitmiş zaman forması *(shall / will have been)* + əsas felin *Participle* I forması].

Bu zaman forması müəyyən hərəkətdən və ya müddətdən qabaq başlanıb-davam edəsi hərəkəti bildirir. Misallar:

I shall begin to translate this article from 5 o'clock. When you came home at 7 o'clock I *shall have been translating* this article already two hours. "Mən bu məqaləni saat 5-dən tərcümə etməyə başlayacağam. Siz saat 7-də evə gələndə artıq iki saat olacaq ki, mən bu məqaləni *tərcümə edəcəyəm"* [39, s.138]. Biz başqa cür tərcümə etməyi təklif edərdik: "…Siz saat 7-də evə gələndə mənim bu məqaləni *tərcümə etməyim* iki saat *çəkmiş olacaq"*.

She *will have been* teaching for 20 years by the end of this year. "Bu ilin axırında iyirmi il *olacaq* ki, *dərs deyir*". Həmin cümləni başqa cür də vermək olar: "Bu ilin axırında onun *dərs deməyi (dediyi)* iyirmi il *olacaq*".

Həm İ.Rəhimov və T.Hidayətzadə, həm də bizim tərcümələr müvafiq cümlələrin ümumi məzmununu

Azərbaycan dili vasitələri ilə vermək təşəbbüsləri kimi qiymətləndirilə bilər. Həmin vasitələr ingilis dilində gələcək zamanın davam edib bitəcək formasının qarşılığı hesab edilə bilməz. Bizim indiyə qədər apardığımız çoxsaylı müqayisələrdən də göründüyü kimi, Azərbaycan dili müvafiq analitik formaların olduğu hallarda belə sintetik formalara üstünlük verir.

Keçmişə nəzərən gələcək zaman forması (The Future-in-the Past)

[*should / would* + məsdər]

Həmin forma keçmiş zaman nöqteyi-nəzərindən gələcəkdə baş verəsi hərəkətləri bildirmək üçün işlənir.

Adi gələcək zaman formalarından hansı ilə işlənməsindən asılı olaraq keçmişə nəzərən gələcək zamanın aşağıdakı növləri meydana çıxır:

1) Keçmişə nəzərən gələcək zamanın qeyri-müəyyən forması (The Future-Indefinite-in-the Past);

2) Keçmişə nəzərən gələcək zamanın davamedici forması (The Future Continuous-in-the Past;)

3) Keçmişə nəzərən gələcək zamanın bitmiş forması (The Future Perfect-in-the Past);

4) Keçmişə nəzərən gələcək zamanın davam edib bitəcək forması (The Future Perfect Continuous-in-the Past). Misallar:

I thought then he *would return* soon "Mən o vaxt fikirləşdim ki, o tezliklə qayıdacaq / qayıdar".

I didn't know what I *should do* without them "Mən bilmirdim ki, onsuz *nə edəcəyəm* / Mən onsuz *nə edəcəyimi* bilmirdim".

I expected we *should be having* coffee after dinner as usual "Mən güman edirdim ki, biz adətimizə görə, günorta yeməyindən sonra kofe *içəcəyik".*

I hoped she *would have got* supper ready by the time we got home "Mən ümid edirdim ki, o (qadın) biz evə gələnə (çatana) qədər şam yeməyini *hazırlayar / hazırlayacaq / hazırlamış olacaq*".

He said that by the end of May be *would have been working* on that problem for a year.

O dedi ki, may ayının sonunda o, bu problem üzərində bir il *işləmiş olacaq*.

Beləliklə, biz görürük ki, Azərbaycan dilində keçmişdə gələcək zaman formalarının olmasına baxmayaraq, həmin formalar özlərinin işlənmə xüsusiyyətlərinə görə ingilis dilindəki keçmişə nəzərən gələcək zaman formalarına müvafiq gəlmirlər. Ona görə də ingilis dilindəki keçmişə nəzərən gələcək zaman formaları Azərbaycan dilində qəti və qeyri-qəti gələcək zaman formaları ilə verilir. Fakültativ olaraq həmin formalar gələcək zaman feli sifəti (sadə cümlədə) və "gələcəkdə keçmiş" forması ilə verilir (yuxarıdakı misallara bax).

2.3.2. İmperativ modallıq.

Əmr modallığı dilin funksional xüsusiyyətləri arasında mühüm yer tutur. Əmr modallığı həm sintaksisdə, həm də morfologiyada müvafiq vasitələrlə təmsil olunur.

Qeyd etmək lazımdır ki, "əmr" anlayışı müvafiq sintaktik və morfoloci vasitələrin ifadə etdiyi bütün mənaları ehtiva etmir. Başqa sözlə desək, əmr cümləsi və felin əmr şəkli heç də yalnız əmr mənası bildirmir.

Azərbaycan və ingilis dillərində felin əmr şəkillərini müqayisə etsək, onlar arasında oxşar, ümumi cəhətlərlə yanaşı, bəzi mühüm fərqlərin də olduğunu görərik. Hər şeydən əvvəl, nəzərə çarpan odur ki, bu dillərdə əmr şəkli üçün bazis forma Azərbaycan dilində məsdərin kökü, ingilis dilində isə (xalis) məsdər forması ilə üst-üstə düşür. Bu dillərdə əmr şəkli ilə ifadə olunan mənanın zənginliyi də qeyd olunan oxşarlıqlar sırasına daxildir.

İngilis və Azərbaycan dillərində felin əmr şəkilləri arasında oxşarlıq üçüncü şəxsin təki ilə məhdudlaşır. Azərbaycan dilində ikinci şəxsin cəmi və birinci, üçüncü şəxslərin tək və cəmi üçün formal cəhətdən fərqlənən şəkilçilər vardır. Belə bir vəziyyət sintaktik konstruksiyalarda (cümlələrdə) şəxs əvəzliklərinin işlənməsinə müəyyən sərbəstlik verir.

Azərbaycan və ingilis dillərində imperativ modallıq bir çox çalarlar nümayiş etdirir. Bunları konkret misallar əsasında nəzərdən keçirək.

1. Felin əmr şəkli icrası əmr edilən, təmin edilməli olan hərəkəti bildirir. Məsələn:

After a while, Whenever there was pressure, or a difficult repair cob, the word went out: *get* Coe Patroni! (AHA, 35) "Bir qədər keçəndən sonra harda sınıqlıq, ya təmir işləri *olsaydı,* dərhal deyirdilər: -Cou Pətronini *tapın*!" (AHA. a, 34). [Bir qədər sonra nə vaxt ki, nə isə sındı, yaxud çətin təmir işi düşdü, o saat deyirdilər: -Cou Pətronini *tapın!*].

Felin əmr şəklinin əmretmə məqamında işlənməsini ümumi kontekstdən, müşayətedici sözlərdən, felin inkar formasında işlənməsindən də bilmək olur.

Get all that crap *out* of here! (AHA, 111) "*Yığışdırın* bütün zir-zibilinizi burdan!" (AHA. a, 102) [Bütün bu zir-zibilinizi burdan *götürün (çıxarın)*].

Get him the *hell out* of the approach area! (AHA, 78) "Onu enməyə gələn təyyarənin yolundan *rədd eləyin!* (AHA. a, 76) [Onu giriş sahəsindən *cəhənnəm (rədd) eləyin*].

"Pay attention", he commanded (AHA, 90) *"Fikriniz məndə olsun*", Elliot göstəriş verdi" (AHA. a, 89) [O, əmr elədi: - *Fikir ver!*].

*Keep an eye o*n TWA and North west (AHA, 78) "*Bir gözün* TWA və "Şimal-Qərb"in *üstündə olsun*!" (AHA. a, 77).(TWA-ya və Şimal-Qərbə *göz qoy*)

2. Felin əmr şəkli icrası müəyyən şərtlə bağlı olan hərəkəti bildirir.

If you want to lose some airplanes in flight, *throw* me *out of here.* If you don't, *sit down* and *listen* (AHA, 35) "Əgər Siz bəzi təyyarələrin uçuş vaxtı partlamasını istəyirsinizsə, məni *bayıra ata bilərsiniz*. Əgər istəmirsinizsə, onda *oturun* və *qulaq asın*" (AHA. a, 35) [Siz bəzi təyyarələri havada (uçuşda) itirmək istəyirsinizsə, məni buradan *bayıra atın;* istəmirsinizsə, *(aşağı) oturun* və *qulaq asın (eşidin, dinləyin)*].

Tərcümələrin bir-birilə və oricinalla müqayisəsi aşağıdakıları söyləməyə imkan verir. İngiliscə mətndə ikinci şəxsin təkinə müraciət olunur. Həmin şəxs bu dildə ikinci şəxsin təki və cəmi üçün ümumi (müştərək) olan *you* əvəzliyi ilə ifadə olunmuşdur. Azərbaycan dilindəki mətndə belə bir qeyri-müəyyənlik yoxdur: burada ikinci şəxsin

cəminə aid olan *siz* əvəzliyi nəzakət məqamında ikinci şəxsin cəminə aid edilmişdir.

Tərcümələr arasında fərq *throw me out of here* ifadəsinin necə verilməsi ilə bağlıdır: “məni bayıra ata bilərsiniz” və “məni buradan bayıra atın”. Birincidə *of here* ifadəsi əksini tapmayıb. Ancaq məhz həmin buraxılmış ünsürlər belə bir tərcüməni qeyri-mümkün edir. Belə bir tərcümə əmr cümləsi şəklində olmaması bir yana, qeyzlənmiş şəxsin (danışanın) əhval-ruhiyyəsinə də uyğun deyil.

İkinci tərcümədə oricinalın həmin xüsusiyyətləri saxlanılmışdır. Burasını da qeyd etmək lazımdır ki, ingilis dilində təkcə *you* əvəzliyi yox, felin əmr şəkli də ikinci şəxsin təki və cəmi üçün müştərəkdir. Azərbaycan dilində ikinci şəxsin təki və cəmi üçün ayrı-ayrı formaların olması həmin qeyri-müəyyənliyi də aradan qaldırır.

Listen, son, you’ll never move that rig with one tow truck! (AHA, 38) “*Qulaq as,* bala, bircə yedəklə bu leşi buradan heç vaxt tərpədə bilməzsən!” (AHA. a, 37) [*Eşit, qulaq as,* oğlum, sən bir dənə burazla o cəmdəyi (leşi) heç vaxt yerindən tərpədə bilməyəcəksən!].

Burada əmr şəklinin işlənməsinin daha maraqlı xüsusiyyəti ilə qarşılaşırıq. L*isten* feli ikinci şəxsin təkinə aiddir. Funksional baxımdan o, *you* əvəziyinə tuşlanmışdır. Mətndə onun əvəzinə *son* sözü işlənir. Azərbaycanca mətbu tərcümədə o, *bala* sözü ilə verilmişdir. Onu *oğlan, oğlum* sözləri ilə də vermək olardı.

Həmin mətndə *listen* feli əmr yox, xəbərdarlıq funksiyası daşıyır. O, müraciət olunan şəxsi bir qədər sonra eşidəcəyi hökmü qavramaq üçün səfərbər edir, onun diqqətini həmin mətləb üzərində cəmləşdirir. Bu, felin əmr şəklinin müstəqil modal çalarlarından olub, ayrıca nəzərdən keçirilməlidir.

3. Felin əmr şəklinin xəbərdarlıq məqamında işlənməsi.

“*Drive carefully out* there”, she cautioned, “*Don’t get* in the way of any airplanes!” (AHA, 34) “Qız qayğıkeşliklə dilləndi: “ Çöldə maşını *ehtiyatla sür.* Təyyarə yollarına-zada *çıxma*” (AHA. a, 33) [*Ehtiyatla sürüb çıx,* - o (qız) xəbərdarlıq elədi, - *gözlə* təyyarənin yoluna (qabağına) *çıxma*].

Oricinalda ikinci şəxsə müraciət edilməsi morfoloci cəhətdən açıq-aşkar ifadə olunmuşdur. Cümlənin xəbərdarlıq məqamında işlənməsi onun birinci tərkib hissəsində *carefully* sözünün, ikinci tərkib hissəsində felin inkarda işlənməsi, bundan əlavə, "She cautioned" ara cümləsi ilə nişanlanmışdır. Azərbaycan dilində həmin vasitələr adekvat ifadəsini tapmışdır. Yalnız bir fərqlə ki, felin inkarı sintetik üsulla ifadə olunmuşdur. İkinci tərcümədə *gözlə* ədatının işlənməsi xəbərdarlıq modal mənasını bir qədər də qüvvətləndirir.

4. Felin əmr şəkli göstəriş, sərəncam vermə məqamında.

Həmin modal çalar onunla səciyyələnir ki, burada təkcə hansı isə hərəkətin icra edilməsi əmr olunmur, onun icrasının yolu, üsulu da qeyd olunur. Məsələn:

"Pan Am fifty-four, stand by!" The briefest pause, then the controller's voice again: "Cessna seven three metro from ground control. *Enter* the next right intersection, *hold* ant *led* Pan American *pass* you" (AHA, 40) "Pən Əmerikə" – əlli dörd, *saxla,* - ikinci fasilədən sonra yenə dispetçerin səsi [gəldi]; - "Kesna yetmiş üç", danışan yerüstü nəzarət dispetçeridir. Qarşıdakı ilk kəsişmədə *sağa dönüb gözləyin, qoy,* "Pən Əmerikə" şirkətinin təyyarəsi Sizi keçsin!" (AHA. a, 39) ["Pən Əmerikə" – əlli dörd, *hazır ol"* - az fasilədən sonra yenə nəzarətçinin səsi [gəldi]: - "Kesna" - yeddi-üç, nəzarət dispetçeridir. Ən yaxın sağ kəsiyə *daxil ol, dayan* və qoy, Pən Əmerikən səni (Sizi) *ötüb keçsin*].

Burada bizim üçün yeni olan *let* ədatının işlənməsidir. Bu, ingilis dilində əmr məzmununun ifadə vasitələrindən biridir. Burada o, üçüncü şəxsin təkinə aid olan *pass* felinin nitqə daxil edilməsi üçün işlənmişdir.

Mətbu tərcümədə *let* sözü haqlı olaraq *qoy* ədatı ilə verilmişdir. Bu ədat Azərbaycan dilində birinci və üçüncü şəxslərə aid olan əmr şəkli forması ilə geniş surətdə işlənir. Müq.et: *Qoy,* gülüm *gəlsin,* ay nənə. *Qoy,* yarım *gəlsin,* ay nənə! (Xalq mahnısı).

Azərbaycanca mətbu tərcümədə oricinaldakı əmr şəkli formalarının verilməsində bəzi uyğunsuzluqlar müşahidə edilir. *Enter* feli *right* sözünə görə *dönüb* şəklində verilmişdir. Bir az da dəqiq desək, *enter* felinin tərcümədə feli bağlama

formasında verilməsi *hold* felinə görədir. Ancaq buna heç bir lüzum yoxdur. Birincisi, ona görə ki, *enter* "dönmək" mənasını daşımır; ikincisi, bu söz *hold* felini təyin edə bilmir. Bir sözlə, həm *hold*, həm də *enter* felləri əmr şəkli forması ilə verilməlidir.

Let ədatının işlənməsinə aid bir misal:

"*Let's go* to my car!" he told the Aereo Mexican foreman (AHA, 44) "Mel "Aero Meksikən" şirkətinin baş texnikinə dedi: -*Gedək* mənim maşınımla!" (AHA. a, 43) [*Gəl* – yaxud: *gəlsənə* mənim maşınımla *gedək*, - o, "Aeromeksikən"in baş texnikinə dedi].

Burada istər *let* sözü, istərsə də *go* feli birinci şəxsin cəminə aiddir. Amma mətndə o, faktiki olaraq ikinci şəxsin təkinə müraciətlə deyilir. Həmin kontekstdə ona Azərbaycan dilində *gəl(sənə)* ədatı müvafiq gəlir.

Qeyd etmək lazımdır ki, Azərbaycan danışıq dilində həmin modal mənanın başqa bir ifadə forması da vardır: o, əsas felə müvafiq şəkilçinin artırılması yolu ilə düzəlir: *gedəyin.*

5. Felin əmr şəkli icbar, vadaretmə məqamında.

Go ahead, Pan Am, you great big bully! (AHA, 40) "*Keç get,* "Pən Əmerikə", öküzün biri" (AHA. a, 40).

Azərbaycan dilində bəzi fellərin əmr şəkli qoşa leksemlərin işlənməsi yolu ilə verilir: *çıx-get* və s. *Go* feli mətbu tərcümədə məhz bu cür verilmişdir: *keç get*. Amma onu başqa cür də vermək mümkündür: *irəli*! (*go ahead* elə belə deməkdir). Bu cür tərcümədə əmr şəkli işlənməsə də, əmr modallığı oricinala uyğun şəkildədir.

Felin əmr şəkli bir çox hallarda icbar, vadaretmə məqamında, mənasında işlənir.

Azərbaycan dilçilik ənənəsində *icbar* sözü müəyyən bir işi, hərəkəti başqasına gördürmək, etdirmək mənasında başa düşülən fel növlərindən birini ifadə edir. Biz burada həmin sözdən felin əmr şəklinin ifadə etdiyi modal mənalardan birini bildirmək məqsədilə istifadə edirik.

İcbar, vadaretmə (olma) modal mənası əmr, nəsihət, tövsiyə və s. deyil; o elə hallara aiddir ki, nəyinsə haqqında kiminsə nəzərinə çatdırılır; rəsmi olaraq o bunu etməyə məcbur olmasa da, şəraitə görə, sərfəli olub-olmamasına

görə bunu etməyə məcburdur. Amma bunu etməyə də bilər. Misallara müraciət edək.

Take a break, Keith. It was the tower watch chief's voice (AHA, 79) "Bir az *dincini al,* Keyz, - bu, uçuş rəhbərinin səsi idi" (AHA. a, 77) [Nəfəsini dər, Keyz].

Daha bir misal:

Tanya Livingston steered her to a chair. "Make yourself comfortable". Tanya said practically, "and take your time" (AHA, 20) "Tanya Livinqston onu stula oturtdu, amiranə səslə dedi: "Özünüzü *ələ alın, tələsməyin*" (AHA. a, 20) [Tanya Livinston onu stula tərəf yönəltdi: "*Arxayın (rahat) olun*, Tanya qayğıkeşliklə (canıyananlıqla) dedi, - və *tələsib-eləməyin"*].

Give this to the taxi dispatcher, Patsy, and he'll send you home (AHA, 24) "*Ver* bunu taksi dispetçerinə, Pətsi, o səni evə göndərər" (AHA. a, 23) [Bunu taksi dispetçerinə *ver*, Pətsi, o səni evə göndərər].

6. Felin əmr şəkli xahiş, ricaetmə məqamında.

Tell me one thing. How is it you know so much about all this? (AHA, 123) "Mənə *düzünü de.* Necə olub ki, bu barədə belə çox məlumat yığmısan?" (AHA. a, 114) [Mənə *bir şeyi söylə (de):* Bu necə olub ki, Siz bütün bunlar barəsində bu qədər çox şey bilirsiniz?].

He gestured unhappily. "*Forget it.* I'm sorry" (AHA, 117) "Veron bədbəxt görkəmlə əlini yellədi: "Bunu *unut-getsin.* Üzr istəyirəm" (AHA. a, 109) [O, məyus-məyus əlini yellədi. "Bunu *yadınızdan çıxarın!* Üzr istəyirəm].

7. Felin əmr şəkli dilək, yalvarma məqamında.

Dear God in heaven, *give* me strength not to blow, which is probably what the ornery son-of-a bitch wants (AHA, 52) "Ey gözəgörünməz Allah, yıxılmamaq üçün mənə *qüvvət ver,* bu it küçüyünün bütün çalışdığı onun üçündür" (AHA. a, 51) [Ya Rəbbim, mənə güc, *qüvvə ver, yıxılmayım* – bu qancıq uşağının istəyi budur].

Əmr modallığı bildirən cümlələrdə felin əmr şəkli formaları ilə yanaşı, müvafiq hərəkətlərin icrasının şəraitini bildirən sözlər də işlənir. Bunlar zaman zərfləri, köməkçi sözlər və s.-dən ibarət olur. Məsələn:

Mobile one, *hold until* the Lake Central Nord crosses ahead of you, *then follow* it *in* (AHA, 66) “Bir nömrəli maşın, *gözləyin,* qoy “Leyk Sentral Nord” keçsin, *sonra* onun *arxasınca sürün!*” (AHA. a, 65) [Birinci maşın, Leyk Sentral Nord Sizdən *qabağa keçməincə dayanın (gözləyin),* sonra *arxasınca gedin (onu izləyin)*].

The lieutenant pointed to it : “*Keep closed up behind* that car” (AHA, 113) “Leytenant maşını çırtmaladı: - Bu maşının *dalınca gedin*” (AHA. a, 105) [Leytenant onu barmağı ilə göstərdi: “O maşının *dalınca düşün!*”]”.

2.3.3. Modal məsdər.

İngilis dilində əmr konstruksiyalarında istifadə edilən fel formaları vardır. L.S.Barxudarova görə “xalis” məsdər fel formasını xüsusi kateqorial forma – əmr forması hesab etmək lazımdır [146, s.66].

Xalis məsdər və əmr formasının əlaqədə götürülməsi heç də bütün ingilis dili mütəxəssisləri tərəfindən qeyd-şərtsiz qəbul edilməmişdir. D.Bolincerin belə bir məqaləsi vardır: “Əmr forması məsdərdirmi?” Amma bu da inkaredilməz bir faktdır ki, ingilis dilində xalis məsdər modal xarakter daşıyır.

D.Bolincer qeyd edir ki, məsdər formasının əmr mənası təəccüb doğurmamalıdır: bir çox dillərdə bununla qarşılaşmaq olur [146, s.66] .

L.S.Barxudarov ingilis dilində məsdər formasının iki variantda təmsil olunduğunu göstərir: nişanlanmış variant (o – o məsdər), nişanlanmamış məsdər – xalis əsas (kök).

L.S.Barxudarov məsdərin bu iki forması arasında fərqi onların sintaqmatik işlənməsi şəraitindən ibarət bilir. Nişansız forma modal fellərlə birləşmələrdə və bəzi başqa konstruksiyalarda işlənir; nişanlanmış forma bütün qeyri şəraitlərdə işlənir [146, s.148-149].

N.A.Slüsareva qeyd edir ki, müasir ingilis dilində “xalis” modal məsdər və *to* ədatlı məsdərin açıq-aşkar qarşılaşdırılması təmayülü başa çatır [146, s.66]. O, əlavə edir ki, ikinci formanın da modal mənası özünü büruzə verir.

Əmr şəklinin fel sistemində yeri məsələsi müxtəlif cəhətlərdən dilçi mütəxəssisləri düşündürmüşdür. V.V.Vinoqradov yazır: “Əmr şəkli fel sisteminin ucqarında

yerləşib, ondan qopub-ayrılmağa can atır; belə ki, onu inadla cəzb edir [78, s.590].

O, belə hesab edir ki, əmr şəklinin imperativ intonasiyasından azad olan əsas forma – şərt-arzu şəklinin dairəsinə yaxın modal mənalar ifadə edir [78, s.598].

N.A.Slüsareva əlavə edir ki, analitik ingilis dilində "xalis" məsdər hərəkətə sövqetmə mənasına daha yaxındır [146, s.66].

Bəs Azərbaycan dilçilik ənənəsində ingilis dilinin məsdər formasının ifadə etdiyi modal məna nə şəkildə təqdim edilir?

Azərbaycan dilçilərinin ingilis dilinin qrammatikasına həsr olunmuş əsərləri əsasən tədris xarakteri daşıyır. Biz burada məhz qrammatik məsələləri müəyyən nöqteyi-nəzərdən, nəzəri platformadan şərh etmək təşəbbüslərinə diqqət yetirəcəyik.

İ.Rəhimov və T.Hidayətzadənin "İngilis dilinin qrammatikası" əsərində məsdərin tarixən isimdən törəndiyi qeyd olunur.(Həmin məsələ ilə əlaqədar olaraq bax: [109, s.195-202].

Bu fikir Azərbaycan dilində məsdəri nəzərdən keçirərkən bizə lazım olacaqdır.

Müəlliflər məsdərin ismi və feli xüsusiyyətlərini qeyd edirlər. Onlar belə hesab edirlər ki, *to* ədatı ilə işlənən məsdər Azərbaycan dilində *–maq / -mək* şəkilçisi ilə işlənən felə müvafiq gəlir (*to write – yazmaq).*

Buradaca məsdərin təsirli fellərdə məlum növdə dörd, məchul növdə iki forması olduğu qeyd edilir. Bu məsələyə Azərbaycan dilçiliyində toxunulmamışdır. Biz deyə bilərik ki, Azərbaycan dilində felin bütün məna növlərinin (məlum, məchul, qayıdış, qarşılıq-müştərək, icbar) məsdər forması vardır və bunlar struktur cəhətdən bir-birindən fərqlənmirlər.

Bizim üçün məsdərdə isim və feli xüsusiyyətlərin nisbəti, məsdərin *to* ədatı ilə və onsuz işlənməsi, bunun modallıq məsələsi ilə əlaqəsi mühüm əhəmiyyət kəsb edir.

İngilis dili məsdərinin ismi xüsusiyyəti onun mübtəda və xəbər vəzifəsində işlənməsi, ismi xəbərin ad hissəsi olması kimi izah edilir. Məsdərin mübtəda vəzifəsində işlənməsi məsələsində Azərbaycan və ingilis dillərinin arasında elə bir

fərq müşahidə olunmur. Məsələn: *To read* is useful *"Oxumaq* xeyirlidir".

Amma nəzərə alaq ki, bu, azərbaycanca təbii səslənmir, hərfi tərcümə təsiri bağışlayır. Həmin cümləni belə də vermək olar: "Oxumağın xeyri var". Burada *xeyri* sözü eyni zamanda iki birləşmənin tərkib hissəsi kimi çıxış edir: *oxumağın xeyri* və *xeyri var.*

Həmin dillər arasında ən maraqlı fərq ikinci halla bağlıdır:

The boy asked *to go away* "Oğlan icazə istədi ki, *getsin* (bizcə, *çıxıb-getsin* daha düzgün olardı).

Buradakı *to go (away)* tamamlıq hesab edilir. Bu fikir bizdə etiraz doğurmur. Amma həmin cümlənin azərbaycanca variantında (tərcüməsində) bu belə deyil. Burada *getsin (çıxıb-getsin)* sözü birincisi, isimlə ifadə olunmuş üzv deyil; o, felin əmr şəklindədir. İkincisi, həmin söz cümlədə tamamlıq yox, tamamlıq budaq cümləsi vəzifəsi daşıyır.

Bu cümləni sadə cümlə şəklində də vermək olur: "Oğlan *çıxıb-getməyə* icazə istədi".

İndi isə prof. O.Musayevin həmin məsələyə aid verdiyi misala müraciət edək. I promise *to obey*… (Dickens) [36, s.173]. "Mən vəd etdim ki, *tabe olum*…"// "Mən *tabe olacağıma* boyun oldum"//"Mən *tabe olacağımı* vəd etdim". *To obey* birinci cümlədə tamamlıq budaq cümləsi, ikinci və üçüncü cümlələrdə isə başqa-başqa formalarda olan tamamlıq kimi verilmişdir.

İ.Rəhimov və T.Hidayətzadənin «İngilis dilinin qrammatikası» kitabında məsdərin *to* ədatı ilə və onsuz işlənməsi də qeyd olunur. Bizim burada daha çox məsdərin *to* ədatı olmadan işlənməsi maraqlandırır. Ancaq məsdərin *to* ədatı ilə işlənməsində də elə məqamlar vardır ki, tutuşdurma-tipoloci baxımdan müəyyən maraq doğurur. Müəlliflər göstərirlər ki, bir cümlədə iki və daha artıq eyni (oxşar) vəzifədə işlənən məsdər olduqda *to* ədatı birinci məsdərlə işlənib, ikincidən əvvəl buraxılır. Məsələn: She wants *to be* a doctor and *work* in her village "O, həkim olmaq və öz kəndlərində işləmək istəyir".

Azərbaycan dilində həmcins məsdərlərdən birincisinin şəkilçisiz işlənməsi mümkün deyil. Amma bu dildə də

məsdər şəkilçisinin (və, ümumiyyətlə, hər hansı sözdəyişdirici şəkilçinin) təkrar işlənməsindən qaçmaq təmayülü vardır. Yuxarıdakı cümləni həmin təmayülə uyğun olaraq belə də vermək olar: *«O (qız) həkim olub, öz kəndlərində işləmək istəyir».*

Deməli, Azərbaycan dilində həmcins vəzifədə işlənən fel formalarının işlənməsi qaydası ingilis dilindəkinin əksinədir: ingilis dilində *to* ədatı ikinci məsdərdən əvvəl buraxılır; azərbaycan dilində isə *–maq/-mək* şəkilçisi birinci məsdərdən sonra, feli bağlama şəkilçisi ilə əvəz edilir. Həmin qayda sintetik (iltisaqi, aqlütinativ) və analitik dillər arasındakı ünsürlərin yaradıcılığında tərs mütənasibliyə tamamilə uyğundur.

İ.Rəhimov və T.Hidayətzadə *to* ədatının aşağıdakı hallarda işlənmədiyini göstərirlər: "*Shall, will, do* köməkçi və *can, may, must* modal fellərindən sonra". Məsələn: We *shall* be teacher "Biz müəllim olacağıq". Every one *must love* his country "Hər kəs öz vətənini sevməlidir" [39, s.173].

Aydın məsələdir ki, bu hal modal fellərin işlənməsi mövzusu ilə çulğaşır. Məlumdur ki, modal fellər içərisində yalnız *ought* feli məsdərin *to* ədatı ilə işlənməsini tələb edir. *Do* feli köməkçi fel hesab edilsə də onun modal xüsusiyyətləri də qeyd olunur.

Deməliyik ki, "modal fel"+(xalis) məsdər" konstruksiyası Azərbaycan dilində vahid sintaktik (morfoloci) tərkiblə verilir: (We) *shall be* "ola-cağ-ıq".

Məsdərin hansı modal fellə işlənməsindən asılı olaraq modal mənaların da xarakteri dəyişir. N.V.Yermakova yazır ki, "*Can, will* modal felləri" modal fel+məsdər" konstruksiyasına yəqinlik, əminlik konnotativ mənası, *may* modal feli və *might, could, should, would* formaları isə inamsızlıq (inanmama) konnotativ mənası verir" [98, s.10].

Hər iki əsərdə məsdərin *to* ədatı olmadan işlənməsinin başqa bir halı da qeyd edilir. Bu, modal məna bildirən qiymətverici konstruksiyalarla bağlıdır. I'*d better come* with you "Mən daha çox sənlə getmək istərdim". We'*d better go* home "Yaxşı olardı ki, evə gedəydik". You *should rather say* so "*Gərək* Siz belə deyəydiniz". *You'd better* not *do* anything (Maugham) "Yaxı olardı ki, Siz heç nə etməyəydiniz"

(Əvvəldən üç cümlə İ.Rəhimov və T.Hidayətzadənin, sonrakı cümlələrsə O.Musayevin kitabından götürülmüşdür). You'*d rather go out* (Braine) "Yaxşı olardı ki, Siz çıxıb-gedəydiniz".

Misallardan göründüyü kimi, Azərbaycan dilində həmin modal mənaları vermək olur, amma məsdər forması yox, şərti olaraq "keçmişdə arzu şəkli" adlandırdığımız forma ilə.

Qeyd etmək lazımdır ki, Azərbaycan dilində felin məsdər formasının modal mənası yoxdur. Bu dildə məsdər həm isim, həm də fel funksiyasında işlənir. Məsdərin həmin xüsusiyyəti Azərbaycan dilinin morfologiyasına həsr olunmuş hər bir əsərdə qeyd edilir. Azərbaycan dilində məsdərin isim kimi işlənməsi ingilis dili ilə müqayisədə daha zəngin, onun fel kimi işlənməsi isə daha kasıb xüsusiyyətlər nümayiş etdirir.

Azərbaycan dilində məsdərin iki formasından danışmaq olar: geniş məsdər (*yaşamaq)* və müxtəsər məsdər (*yaşama)*. Azərbaycan dilçilik ənənəsində müxtəsər məsdər feli isim kimi qəbul edilmişdi.

İngilis dili ilə müqayisə belə bir fərziyyə irəli sürməyə imkan verir ki, Azərbaycan dilində geniş məsdər forması müxtəsər məsdər formasının yönlük halda işlənməsindən törəmiş ola bilər. Bu fikri Azərbaycan dilində bəzi sintaktik konstruksiyalarda müxtəsər və geniş məsdər formalarının müvazi şəkildə işlənə bilməsi faktı da sübut edir: müq.et: Onun belə *eləməyi/eləməsi*. Hər halda bunun modal məsdər məsələsinə aidiyyəti yoxdur.

İngilis dilindəki "*shall* + məsdər" tipli konstruksiyalar Azərbaycan dilində tərkibində məsdər olmayan konstruksiyalarla verilir. Deməli, Azərbaycan dilində bir dil hadisəsi kimi modal məsdərdən danışmaq olmaz.

2.3.4. İngilis dilində modal fellər və Azərbaycan dilində felin modallıq bildirən şəkilləri.

İngilis və Azərbaycan dillərində modallıq bildirən fellərin sayı eyni deyildir. İngilis dilində modal fellərin sayı təxminən 10-12-dir. Azərbaycan dilində modallığa yaxın mənada işlənən yalnız iki fel vardır: *bilmək* və *bacarmaq*. Lakin həmin fellərin modal məna ifadə etmək qabiliyyəti çox

deyildir. Üstəlik, *bacarmaq* feli əsas fellərlə işlənə bilmir. Belə bir xüsusiyyət *istəmək* felində özünü göstərir. İngilis və başqa Avropa dillərindəki modal fellərin ifadə etdiyi mənalara Azərbaycan dilində fel kateqoriyalarının bəzi şəkilləri müvafiq gəlir. Bu dildəki *bilmək* felininsə modal mənası onun əsas yox, ikinci mənasıdır.

İngilis dilində modallıq bildirən fellərin sayı təxminən eyni göstərilir. F.R.Palmer "Qrammatik şəkil və modallıq" əsərində yazır: «İngilis dilində formal olaraq təyin edilə bilən modal fellər şəbəkəsi vardır. Bunlar aşağıdakılardır: *may, can, must, ought to, will, shall;* həmin şəbəkənin ucqarında *need* və *dare* yer tutur. *Might, could, would* və *should* da bura aiddir» [201, s.100].

"*Will, shall, may, might, can, could, must, ought to, should, would, used to, need"* kimi köməkçi, yaxud yardımçı fellər əsas fellərlə birləşmədə zaman və şəkil çaları ifadə etmək üçün işlənir. Köməkçi fellərin əsas fellərlə birləşməsi feli ifadələr (frazalar) və yaxud feli cərgələr (silsilələr) deyilən heyətlər yaradır.

Bu bölmədə biz çıxış nöqtəsi kimi ingilis dilinin modal fellər şəbəkəsini götürəcəyik. İngilis dilində modal fellərin çox, Azərbaycan dilində isə az olması heç də bu dillərin göstərilən aspektdə müqayisəli öyrənilməsi lüzumunu aradan qaldırmır. Biz burada konkret ingilis modal fellərini nəzərdən keçirəcək və müvafiq modal mənaların Azərbaycan dilində hansı vasitələrlə verilməsi imkanlarını qeyd edəcəyik. Bu məqsədlə ingilis dili materiallarını müxtəlif variantlarda Azərbaycan dilinə tərcümə edəcək və yeri düşdükcə oricinal Azərbaycan dili materiallarından da istifadə edəcəyik. Belə bir işin bir əhəmiyyəti də ondadır ki, Azərbaycan dilçiliyində modallıq məsələsi yalnız modal sözlərin timsalında öyrənilmişdir.

Biz modallıq kateqoriyasının elə bir sahəsinə daxil oluruq ki, ingilis və Azərbaycan dillərində onun ifadə vasitələri kateqoriyal baxımdan bir-birinə müvafiq gəlmir. Bunlar ingilis dilində modal fellər və Azərbaycan dilində felin modallıq bildirən (arzu, lazım, vacib və bacarıq) şəkilləri, bəzi zaman formalarıdır.

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan dilində modal fellərlə yaxın mənalarda işlənən cəmi iki fel vardır: *bacarmaq* və *bilmək. Bacarmaq* felinin mənası "qabil olmaq", "qadir olmaq" mənalarına çox yaxın olsa da, onun başqa fellərə qoşulub, onların ifadə etdikləri mənalara modal məna çaları vermək qabiliyyəti yoxdur. O, yalnız əsas fel kimi, özü də adlarla əlaqədar olaraq işlənə bilir. Müq. et: Mən bu işi *bacarıram/bacarmıram.*

Bilmək feli isə həm əsas fel, həm də köməkçi fel kimi işlənə bilir. Məsələn: Mən öz işimi yaxşı *bilirəm.* Mən o adamı *görə bilmədim.* Lakin *bilmək* feli modal fel kimi işlənsə də, onun ifadə edə biləcəyi modal mənaların sayı çox deyil. Bu səbəbdən *bilmək* feli Azərbaycan dilində modallıq kateqoriyasının ifadə vasitələri cərgəsində elə bir əhəmiyyətli yer tutmur. Bu heç də o demək deyil ki, Azərbaycan dilində modallığın ifadə vasitələri kasaddır. Modallığın ifadə vasitələri həm növlərinə, həm də saylarına görə olduqca müxtəlif və rəngarəngdir. Bunlardan birinin azlığı o birilərinin çoxluğu ilə tarazlaşır.

Bu fikri ingilis dilindəki modal fellərin işləndiyi kontekstual şəraitləri Azərbaycan dilində verməklə də sübut edə bilərik. Modal məna təkcə ayrı-ayrı sözlərlə deyil, onların leksik-sintaktik əhatəsi ilə də ifadə olunur. Bundan başqa, modallıq kateqoriyası dildənxaric gerçəklik, dil kateqoriyalarının funksional rəngarəngliyi və ünsiyyətin xüsusi məqsədlərinin kəsişməsi, çarpazlaşması yolu ilə təmin olunur.

Biz bunu ingilis dilində modal fellərin işlənmə kontekstlərinin Azərbaycan dili vasitələri ilə verilməsinin timsalında bariz şəkildə görürük.

***Shall* modal felinin işlənməsi.**

Müasir ingilis dilində *shall* əsasən gələcək zaman formalarını əmələ gətirən köməkçi fel kimi işlənir. Həmin formalarda müəyyən modal məna çaları da qalır. *Shall* feli aşağıdakı modal mənaları ifadə edir:

1. İkinci və üçüncü şəxslərdə işlənən *shall* feli vəd, hədə-qorxu və xəbərdarlıq mənasını ifadə edir.

You *shall have* my answer tomorrow "Sən mənim cavabımı sabah *alacaqsan (vəd)*".

He *shall do* as I say “Necə mən deyirəm, o da elə *eləməlidir (eləyəcək)*” (O mən dediyim kimi *eləyəcək)* (hədə-qorxu).

2. Birinci və üçüncü şəxslərlə əlaqədar *shall* sual cümlələrində danışanın müraciət etdiyi şəxsdən göstəriş, buyruq gözlədiyini ifadə edir.

Who *shall meet* the delegation? “Nümayəndələri kim *qarşılayacaq / qarşılamalıdır?*”.

İngilis dilində *shall* feli I şəxs üçün olan İ və *we* əvəzliklərinə aid olan sadə gələcək zamanı ifadə edir. Məsələn: *Shall* we meet by the river? “Biz çayın sahilində / yanında görüşəcəyik?”

II-III şəxslər üçün *will* feli işlənir. *Will* felinin I şəxs üçün işlənməsi danışanın iştirakının müəyyənləşdirilməsini ifadə edir: We will finish this procect by tonight. “Biz bu işi (tikintini) bu (gün) axşam qurtaracağıq”.

Shall felinin II-III şəxslər üçün istifadə olunması mübtəda barəsində müəyyən bir vəd bildirir: This *shall* be revealed to you in good time. “Bu, münasib bir vaxtda sizə göstəriləcək”.

Shall və *Will* felləri arasındakı fərq *‘ll* ixtisar forması sayəsində silinir. Həmin forma hər iki modal fel üçün eynidir.

Azərbaycan dili ilə müqayisədə götürdükdə biz *shall* felinin aşağıdakı xüsusiyyətlərini qeyd edə bilərik.

Shall felinə Azərbaycan dilində felin qəti gələcək zaman forması müvafiq gəlir. Məsələn: I *shall* go to the village this summer. “Bu yay mən (yaxud: Mən bü yay) kəndə gedəcəyəm”.

Əlbəttə, modallığın növlərindən birini inam, yəqinlik, əminlik mənasını hesab ediriksə, demək lazım gəlir ki, məhz belə bir məna sadə (yaxud *Indefinite)* gələcək zaman formasına tamamilə xas olan bir keyfiyyətdir.

Shall modal felinin sual məqamında işlənməsi ikimənalıdır. O, birincisi, cavab almaq məqsədi güdən sual mənası bildirir. Məsələn: Shall I see you tomorrow? “Mən sabah səni (yaxud səni sabah) görəcəyəm(mi)?”

Aydın məsələdir ki, müraciət edilən şəxsin rəyindən asılı olaraq bu suala həm “hə”, həm də “yox” cavabı vermək olar.

Sual məqamında işlənən *shall* felinin başqa bir mənası zərurət, vaciblik bildirməkdir: Shall I come and fetch you (Maugham W.S.) “Mən gəlib sizi tapmalıyam?”

Shall Abas give himself up Tun? (Maugham W.S., Rain). “Abas Tuna güzəştə getməlidir?”. Y.A.Zvereva göstərir ki, *shall* felinin bu cür işlənməsi bədii üslubla məhdudlaşır; elmi üslubda o özünü göstərmir [104, s.34]. F.R.Palmer belə hesab edir ki, *shall* felinin məcburilik (vaciblik) mənasında işlənilməsinin formal əlaməti onun *will* feli ilə əsəz oluna bilməsi və *shall* felinin şərt buraq cümlələrində işlənməsi imkanıdır [104, s.34].

Shall felinin inkarda işlənməsi də Azərbaycan dili ilə müqayisədə bir sıra özünəməxsusluqlar nümayiş etdirir. Həmin mənalardan birincisi əsas fellə ifadə olunan hərəkətin icrasının inkar edilməsidir: We *shall* not work tomorrow “Biz sabah işləməyəcəyik”.

Həmin məqamda müvafiq məzmun Azərbaycan dilində, misaldan da göründüyü kimi, qəti gələcək formasının inkarı ilə ifadə olunur. Ancaq bununla yanaşı, ingiliscə gələcək zamanın həmin forması Azərbaycan dilində sırf modallıq bildirən formalarla da verilə bilər: “Biz sabah *işləyəsi/işləməli deyilik*”. Həmin məzmunu hətta bu şəkildə də ifadə etmək olar: …*işləyəsi olmadıq*.

Azərbaycan dili materialları həmin felə daha bir nöqteyi-nəzərdən baxmağa imkan verir. Biz bilirikki, *shall* köməkçi felinin *should* keçmiş zaman forması da vardır. Belə bir forma yalnız bu felə xas deyildir: *Will, may* fellərinin də oxşar derivatları vardır.

Bəs Azərbaycan dilində vəziyyət necədir? Bu dildə də maraqlı məqamlara rast gəlirik. İş burasındadır ki, Azərbaycan dilində qəti gələcək zaman forması ilə yanaşı, qeyri-qəti gələcək zaman forması da işlənir. O, *-ar/-ər/-r* şəkilçisi ilə düzəlib, icrası mütləq xarakter daşımayan hərəkəti bildirir [10, s.198-200].

Shall felinin işlənməsi sahəsində Azərbaycan dilində ingilis dili ilə tipoloci oxşarlıq başqa bir cəhətdən də özünü göstərir: hər iki dildə “keçmişdə gələcək” zaman forması işlənir. İngilis dilində həmin zaman *shall* felinin derivatı olan *should* modal feli ilə, Azərbaycan dilində isə qəti və qeyri-

qəti gələcək zaman formalarının *idi* və *imiş* bağlamaları ilə işlənməsi şəklində özünü göstərir. Bu isə artıq başqa mövzudur.

Coe Patroni grinned: "If I don't blast her out, maybe I'll flow her apart (AHA, 325). "Cou Pətroni gülümsündü: "Əgər bunu buradan çıxara bilməsəm, heç olmasa tikə-tikə edə bilərəm ki?" (AHA. a, 298) [Cou Pətroni dişini qıcadı: -Əgər mən onu (qadını) buradan üfürüb-çıxarmasam, ola bilsin başqa yerdə (onun külünü göyə) *sovurdum/sovuracağam*].

"Nothing but a sky hook' *ll help* her now" Inram said (AHA. 324) "İnqrəm dedi: -Yalnız göydən qarmaq salmaqla bunu qaldırmaq olar" (AHA. a, 291) [İndi ona "göy qarmağı"ndan başqa heç nə kömək edə bilməz].

İngiliscə mətndə diqqətəlayiq cəhətlərdən biri modal felin ümumi isimlə əlaqəli şəkildə işlənməsidir (o, III şəxs əvəzliyinə müvafiq gəlir). Həmin incəliyi azərbaycanca tərcümələrdə vermək mümkün olmamışdır.

Shall felinə xas olan maraqlı xüsusiyyətlərdən biri onun təfəkkür felləri ilə işlənməsidir. Baş cümlədə işlənən həmin fellər *shall* felinin qoşulduğu əsas felin ifadə etdiyi hərəkətin icra olunması imkanını artırır. Məsələn:

I *think I'll* cust *go* to the ladies room. I *expect It'll be* all right (AHA. 234) "*Deyirəm,* bəlkə ayaqyoluna gedim. Məncə, orada *keçib-gedər*" (AHA. a, 216). [Belə düşünürəm ki, tez qadın otağına (ayaqyoluna) *gedim*. *Zənn edirəm* ki, *yaxşı olacağam*].

She reassured him "I've had an attack like this before, *I'm sure I'll* feel better soon (AHA, 234) "Qarı özü agenti sakitləşdirdi: -Əvvəllər də, belə ağrılarım olub. *Əminəm* ki, tezliklə *ötüb-keçər*" (AHA. a, 217) [O, (qarı) onu sakitləşdirdi: -Mənim buna oxşar tutmalarım əvvəllər də olub. *Əminəm ki, (yəqinimdir ki),* tezliklə özümü yaxşı *hiss edəcəyəm*].

Shall modal feli *to have* feli ilə də işlənir. Müvafiq konstruksiya ilə zərurət (məcburiyyət) mənası ifadə olunur. Bu zaman budaq cümlədə *if* şərt bağlayıcısı işlənir və hal-hazırda mümkün olmayan şəraiti bildirir. Məsələn: "Look", Ordway said, "If this is a bad time, *I'll tell* these people *they'll have to* come back some other day" (ANA, 286) "Ordvey

dedi: -Əgər münasib vaxt *deyilsə,* mən bu adamlara *deyim* ki, başqa gün gəlsinlər" (AHA. a, 262) [Bax, -Ordvey dedi, -Əgər bu pis vaxtırsa, mən bu adamlara *deyim* ki, onlar bir də başqa gün gəlsinlər].

As he sensed the girl hesitate, "If *I'll have* to, I'll call your district manager and get authority" (AHA, 313) "Qızın tərəddüd etdiyini hiss edib əlavə elədi: -*lazımdırsa,* Sizin müdiriyyətə zəng vurub, *icazə ala bilərəm"* (AHA. a, 287) [O, qızın tərəddüd etdiyini duyunca: -Əgər mən bunu *eləməliyəmsə,* Sizin sahə rəisinə zəng vurub, izacə alım].

Həmin misallarda *shall* modal feli təkcə *to have* feli ilə deyil, həm də *if* şərt bağlayıcısının işlənməsi ilə öz məzmununu reallaşdırır. *İf* bağlayıcısı ilə işlənməyə dair daha bir sual: *If* you like, *I'll* explain it to you (AHA, 244) "Əgər istəyirsinizsə, bunun nə üçün edildiyini *başa salaram"* (AHA, 266) [İstəyirsiniz(sə), bunu Sizə *izah edim*].

Bu kontekstdə qeyri-qəti gələcək zaman formasından çox əmr forması işə yarayır. Ona görə ki, ingiliscə cümlənin birinci tərkib hissəsində məsləhətləşmə, ikinci tərkib hissəsində isə təklif vardır. Burada danışan gələcəkdə qeyri-müəyyən şəkildə olsa belə, nə edəcəyini yox, nə etməyə hazır olduğunu nəzərdə tutur:

But if you're waiting in your car, outside, I'll *come* through the main doors in fifteen minutes (AHA. 172) "Ancaq küçədə maşınınızda gözləsəniz, mən on beş dəqidədən sonra əsas qapıdan çıxaram" (AHA. a, 172) [Ancaq əgər Siz küçədə maşında gözləyirsinizsə, mən on beş dəqiqədən sonra əsas qapıdan *çıxıram*].

But I'll tell *you we're not* here to get cosy (AHA. 287) "Ancaq Sizə *deməliyəm* ki, biz bura rahat otaqda oturub, çənə döyməyə gəlməmişik" (AHA. a, 262) [Ancaq Sizə *deyim ki,* biz həzz almaq üçün burda deyilik].

Müvafiq linqvistik şərait zaman zərfliklərı ilə də ifadə olunur: *tomorrow, then* və s. Bu qəbildən olan cümlələrdə Azərbaycan dilində modal məna *-malı / -məli* şəkilçisinin köməyi ilə ifadə olunur. Misallara müraciət edək.

Then we'll have to disagree (AHA, 164) "Bizim də çoxumuz sizinlə razılaşmırıq" (AHA. a, 153).

Bizə belə gəlir ki, həmin cümləni bu cür təqdim etmək mümkündür: *Onda* bizim fikrimiz bir-birini *tutmayacaq* (yaxud: …bizim sözümüz bir-birini *tutmayacaq, düz gəlməyəcək)*.

Then I'll come out there. You can expect me (AHA, 159) "*Onda* mən özüm ora *gəlirəm.* Məni *gözləyə bilərsən"* (AHA. a, 147) [*Onda* mən orada *olasıyam(olmalıyam).* Sən məni *gözləyə bilərsən*].

Tomorrow I'll have to waste time explaining how ignorant – in some areas – you really are (AHA, 227) "*Sabah* bir xeyli vaxt sərf edib *sübut etməliyəm* ki, bəzi məsələlərdə sən nə qədər cahilsən" (AHA. a, 210) [*Sabah* mən sənin həqiqətən avam olduğunu – bəzi sahələrdə – izah etməyə vaxt *sərf etməliyəm* (edəsiyəm)].

"No", Mel said, "I think, in the end, they'*ll have* to move (AHA, 305) "-Xeyr! Məncə, *əvvəl-axır* onlar buradan *köçməli olacaqlar"* (AHA. a, 280) [-Yox, -Mel dedi, -mən belə düşünürəm ki, axırda onlar buradan *tərpənməli (köçməli)* olacaqlar].

Shall modal felinin daha iki tətbiq üsulu nəzəri cəlb edir. Birincisi, onun *need* köməkçi feli ilə işlənib, əsas felə aid olması:

I'll need to make a couple of phone calls (AHA, 185).

Qeyd etmək lazımdır ki, Azərbaycan dilində belə bir sadə fel yoxdur. Ona görə də onun azərbaycanca verilməsi imkanları maraq doğurur. "Mən bir-iki yerə zəng *vurmalıyam*" (AHA. a, 172). Burada *vurmaq* felinin vacib şəklindən istifadə olunmuşdur. Amma Azərbaycan dilində *lazım* sözü də vardır ki, o, isim, sifət, zərf məqamında işlənərək, *lazım gəlmək, lazım olmaq* mürəkkəb fellərini əmələ gətirir. Biz indi həmin fellərdən istifadə edərək yuxarıda verilmiş ingiliscə cümləni başqa cür tərcümə edəcəyik: "Mənə bir-iki yerə zəng etmək *lazım gələcək (olacaq)*".

Shall modal felinin işlənməsində maraqlı xüsusiyyətlərdən biri də onun modal sözlərlə birlikdə işlənməsidir:

Of course, *I'll help* (AHA, 235) "*Əlbəttə, kömək edərəm"* (AHA. a, 217).

Of course modal sözü yəqinlik, qətiyyət bildirir. *I'll help* feli silsilə icrası şübhəsiz olan, amma hələlik icra olunmamış hərəkəti bildirir. Yuxarıda verdiyimiz mətbu tərcümədə *kömək etmək* felinin qeyri-qəti gələcək zaman formasından istifadə olunmuşdur. Bu, səhv deyildir. Amma həmin kontekstdə felin qəti gələcək zaman formasından da istifadə etmək mümkündür: *Əlbəttə (təbiidir ki),* kömək *edəcəyəm*.

***Should* modal felinin işlənməsi.**

Should modal feli "shall" felinin keçmiş zaman forması olub, əsas felin məsdər forması ilə birlikdə «keçmişə nəzərən gələcək» (The Future-in-the Past) zamanı ifadə etmək üçün işlədilir. O, ("Would" feli ilə bərabər) felin şərt şəklini əmələ gətirərkən şərt budaq cümlələrində və baş cümlədə işlənir. Məsələn:

If you think that was amazing? You *should have seen* it last night.

Əgər siz bunu heyrətamiz hesab edirsinizsə, *gərək* onu keçən gecə *görmüş olaydınız.*

Müasir ingilis dilində, xüsusən onun Kanada və Amerikan variantlarında «Should" feli daha çox «Would" ilə əvəz olunur. Britaniya ingiliscəsində və rəsmi Amerikan ingiliscəsində "Should" felinin modallıq bildirən aşağıdakı mənalarını müşahidə etmək olar:

1. Məcburilik modal mənasının ifadəsi. Məsələn,

You *should speak* to him right away.

Sən elə indicə onunla *danışmalısan*.

"Should" modal feli həmin semantik mənasında Azərbaycan dilinə felin vacib şəkli vasitəsilə tərcümə olunmuşdur.

2. Başqasının fikrini öyrənmə (sərəncam gözləmə) modal mənasının ifadəsi. Məsələn:

Should I ask him about it? – Mən bu barədə ondan *soruşmalıyam*?

3. Ritorik sualda «Should" emosional münasibət bildirir. Məsələn:

Why *should* he *do* it? – O niyə bunu etsin ki / etməlidir ki?

How *should* I *know*? – Mən hardan *bilim*?

4. *“Should”* modal feli öz inkişafı nəticəsində, *“Shall”* felindən fərqli olaraq, yeni məna – məsləhət bildirmək mənası qazanmışdır. Məsələn:

You *should* never *look at* one woman when you are talking to another (Braine).

Siz bir qadınla söhbət edərkən gərək başqasına *baxmayasınız*.

Bu situasiyada *“should”* modal feli *“ought to”* feli ilə demək olar ki, eyni mənanı bölüşür, sinonimlik əmələ gətirir.

“You *should consult* a doctor” cümləsində *“should”* modal felini *“out to”* feli ilə əvəz etmək olar: You *ought to* consult a doctor. – «Siz *gərək* həkimə müraciət *edəsiniz*». Hər iki cümlə Azərbaycan dilinə eyni cür tərcümə olunur və hər ikisində eyni məna ifadə olunur.

Misallardan ca göründüyü kimi, əsas felin ifadə etdiyi hərəkət indiki və gələcək zamanlara aid olanda sadə məsdərdən istifadə edilir; əsas felin ifadə etdiyi hərəkət keçmiş zamana aid olduqda isə bitmiş məsdərdən (“Perfect Infinitive”) istifadə olunur. Məsələn:

It’s too late, sir; you *should have thought* of that before (Voynich). – Çox gecdir, cənab; Siz *gərək* bunu əvvəlcədən *düşünəydiniz / düşünmüş olaydınız*.

“Should” modal eli də *“Ought to”* feli kimi Azərbaycan dilinə «gərək» sözü vasitəsilə tərcümə olunur. *“Should”* modal felindən sonra məsdər qeyri-müəyyən formada (“Indefinite Infinitive”) işləndikdə Azərbaycan dilində fel indiki zamanda, bitmiş formada (“Perfect Infinitive”) işləndikdə isə keçmiş zamanda olur.

«Should» feli aşağıdakı məqamlarda işlənir:

Birincisi, o, formal olaraq yarımçıq cümlənin xəbəri vəzifəsində çıxış edir. Bu, danışıq dilinə, dialoci nitqə xas olan bir xüsusiyyətdir. Ancaq mətndən *should* felinin aid olduğu əsas feli bərpa etmək olar.

Qeyd etmək lazımdır ki, həmin cümlənin azərbaycanca variantında *should* felinin adekvat vəzifəsini saxlamaq olmur. İş burasındadır ki, Azərbaycan dilində *should* felinə müvafiq gələ biləcək köməkçi fel yoxdur. Onun müqabili olaraq Azərbaycan dilində əsas felin müəyyən şəkli işlənir: She interrupted: “Yes, you *should*. You’re entitled to ask

(AHA, 117) “Qız onun sözünü kəsdi: –Əksinə, *soruşmalısan*. Sənin soruşmağa haqqın var” (AHA. a, 108) [O (qız) onun sözünü kəsdi: -Bəli, sən *soruşmalısan*. Soruşmağa sənin haqqın var].

İkincisi, *should* feli əsas fellə birbaşa əlaqədə işlənir. Məsələn: I *should* say you’re twenty – eight (AHA. 151) “Məncə, yaşınız iyirmi səkkizdən *çox olmaz*” (AHA. a, 104)

Demək lazımdır ki, tərcümədə sərbəstliyə yol verilmişdir. Cümlə quruluşu və fel formalarını saxlamaqla onu belə vermək olar: Mən *deməliyəm* ki, sizin iyirmi səkkiz yaşınız var (yaxud: …siz iyirmi səkkiz yaşında olarsınız).

Eyni sintaktik məqamda (ancaq sual cümləsində) *should* feli müxtəlif cür başa düşülməyə imkan verir.

Should he return to the radar room now? (AHA, 127) “İndi radar otağına *qayıtsınmı*?” (AHA. a, 113)

Yalnız cümlə çərçivəsində qalmaqla belə bir tərcümənin düzgün olub-olmaması barəsində heç nə demək mümkün deyildir. Sual daxili nitqə aiddirsə, onun yuxarıdakı şəkildə verilməsi məqbuldur; sual cavab almaq məqsədi güdürsə həmin cümləni bu şəkildə də vermək olar: “İndi o, radar otağına *qayıtmalıdırmı*?”

Should felinin sual əvəzliyi ilə işlənməsi cümlədəki qeyri-müəyyənliyi aradan qaldırır. *“Why should I sign anything?”* Mrs. Harriet Du Barry Mossman demanded (AHA, 244) “-Nə münasibətlə mən nəyisə *imzalamalıyam*?!” (AHA. a, 226). Aydındır ki, burada sual feli xəbərə yox, ona aid olan zərfliyə (*why* sual əvəzliyinin müqabilinə) mənsubdur.

***Will* və *would* modal fellərinin işlənməsi.**

İngilis dilində *will* və *would* felləri həm tam predikasiya vasitələri, həm də modal fellər kimi işlənir. *Will* feli bu məqamda əsas (müntəzəm—“regular”) fel kimi işlənə bilir *(wills, willed)*. O, bu məqamda “özünü biruzə vermək (göstərmək)”, “əmr etmək”, “məcbur etmək”, “tələqin etmək” mənasında işlənir.

Will felinin modal feli kimi iki forması vardır: *will* – indiki zaman; *would* – keçmiş zaman. İ.P.Krılova və Y.M.Qordon yazırlar ki, *would* forması iki qaydada işlənir: a) keçmişdə baş vermiş aktual faktı ifadə etmək çün; b) indiki zamanda

qeyri-reallığı ifadə etmək üçün yaxud *will* felinin daha yumşaq və nəzakətli forması kimi [191, s.61].

Müəlliflər *will* və *would* fellərini *shall* və *should* felləri ilə müqayisə edərək, göstərirlər ki, müasir ingilis dilində *shall* və *should* felləri iki müstəqil fel kimi təfsir edildiyi halda *will* və *would* felləri başlıca olaraq paralel şəkildə işlənir; onların ilkin mənası da iradi aktdır (istək). Bununla yanaşı, *will* feli özünün bəzi mənalarında *would* felinə paralel olaraq işlənib, keçmişdə baş verən aktual hərəkəti bildirir. *Will* başqa mənalarında *would* felindən təcrid olunmuş mövqe tutur. Bu elə hallarda özünü göstərir ki, *would* hal-hazırda real olmayan hərəkəti bildirir, ya da *will* felinin daha yumşaq və nəzakətli forması kimi özünü göstərir [191, s.61].

İ.Rəhimov və T.Hidayətzadə. "İngilis dilinin praktik qrammatikası" əsərində həmin fellərdən bir ad altında *(will)* danışırlar və qeyd edirlər ki, *will* feli niyyət, xahiş, arzu və vəd ifadə etmək üçün işlədilir" [39, s.166].

Burada vəd mənasına misal olaraq belə bir cümlə verilir: I will help you to learn grammar. "Qrammatikanı öyrənməkdə sənə kömək edəcəyəm". Azərbaycanca tərcümə oricinalın məzmununu ehtiva edir, amma burada sözlərin sintaktik əlaqələnmə üsulu nəzərə alınmamışdır (daha dəqiq desək, qismən nəzərə alınmışdır). Ona görə də biz belə hesab edirik ki, həmin cümlənin daha adekvat tərcüməsini axtarmaq lazımdır: bizcə, bu belə olmalıdır: "Mən sənə *kömək edərəm (edəcəyəm)* ki, sən qrammatikanı *öyrənəsən*".

Arzu mənasına misal olaraq aşağıdakı cümlə verilir: *Will you go there tomorrow?* "Sabah oraya *gedəcəksinizmi*? – "Siz sabah oraya *getmək arzusundasınızmı*?". Bizcə, həmin cümləni, felin modal mənasını saxlamaqla, belə tərcümə etmək olar: "Siz sabah oraya *getmək istəyirsinizmi?*".

Bizim tərcümədə *istəmək* feli özündən qabaq gələn *getmək* feli ilə işlənir. Ancaq bu cür işlənmə üsulu *istəmək* felindən ötrü yeganə imkan deyildir. Azərbaycan dilində *istəmək* feli cümlənin mübtədası ilə birbaşa əlaqəyə girməklə də işlənə bilir. Bu zaman o, köməkçi fel yox, tam predikasiya feli kimi özünü göstərir və onun əlaqəyə girdiyi fel özündən sonra gəlib, əmr yaxud arzu şəklində işlənir.

Məsələn, yuxarıdakı cümləni həmin qayda üzrə belə də vermək olar: “Siz *istəyirsinizmi* ki, sabah ora *gedəsiniz*?”.

İ.Rəhimov və T.Hidayətzadə qeyd edirlər ki, nəzakətli danışıqda sual cümlələrində *will* və *would* fellərindən istifadə olunur: *Will (would)* you *open* the window? “Zəhmət olmasa, pəncərəni açın”.

Azərbaycanca təcrümədəki *zəhmət olmasa* söz birləşməsi nəzakət mənasını kifayət qədər qənaətbəxş ifadə edir. Deməliyəm ki, cümlənin oricinalında ona müvafiq gələn söz birləşməsi yoxdur. Həmin məna *will* felinin işlənmə məqamı və ümumi kontekstdən hasil olur. Amma belə bir fakt nədənsə müəlliflərin nəzərindən qaçmışdır ki, azərbaycanca tərcümə sual yox, əmr cümləsi şəklindədir. Bizcə, həmin cümləni Azərbaycan dilinə sual cümləsi kimi də tərcümə etmək mümkündür: “Siz, zəhmət qəbul edib, pəncərəni *açmazsınız (açmazdınız)*?”.

İndi isə *will* və *would* fellərinin hər birinin ayrı-ayrılıqda işlənməsinə dair daha təfsilatı ilə danışmaq istərdik.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, *will* feli mənşə və məzmunca *would* feli ilə bağlı olsa da, işləkliyinə görə ondan çox geri qalır.

Will modal felinin nitqdə işlənməsi məqamlarını nəzərdən keçirdikdə ilk növbədə gözə dəyən onun özündən qabaq və özündən sonrakı sözlərlə əlaqələridir. Əlimizdə olan materiallara görə deyə bilərik ki, *will* feli özündən qabaq ikinci və üçüncü şəxslərə aid əvəzliklərdən savayı, *that, there, one* əvəzlikləri, isimlərlə işlənir. Bu elə bir mühüm linqvistik əhəmiyyət kəsb etmir.

Dillərarası tipoloci oxşarlıqlar baxımından *will* modal felinin özündən sonrakı sözlərlə əlaqəsi diqqətəlayiqdir. Biz bunlardan tam predikasiyalı felləri, *be, have* kimi köməkçi felləri qeyd edə bilərik.

İndi isə *will* felinin işlənmə məqamlarını həmin ardıcıllıqla da nəzərdən keçirək.

a) *Will* modal felinin əsas fellərlə işlənməsi:

We’re taking off more weight, hoping that’ll help (AHA, 43) “Yükü boşaldırıq ki, *bəlkə köməyi dəydi*” (AHA. a, 42) [Biz bunun *kömək edəcəyi* ümidilə daha çox yük boşaldırıq; yaxud: …bir *köməyi olacağına* ümid edərək…].

Həmin cümlənin azərbaycanca variantlarını diqqətlə öyrənməyə dəyər. Mətbu tərcümədə budaq cümlə "bəlkə köməyi dəydi" şəklində verilmişdir. Burada *bəlkə* modal sözü *köməyi dəydi* xəbəri ilə birlikdə icrası gələcəyə aid olan hərəkəti, hadisəni bildirir. Həmin xəbərin ifadə olunduğu mürəkkəb fel şühudi keçmiş zamandadır. Demək lazımdır ki, həmin ifadə tərzi qrammatik cəhətdən *that'll help* budaq cümləsini ehtiva etməsə də, semantik və üslubi cəhətdən onu tamamilə ehtiva edir.

Bizim təklif etdiyimiz tərcümələrdə feli hissə "əsas+feli sifət" formasındadır; onların *ümid* sözünün iştirakı ilə əmələ gətirdiyi tərkib bir-birinə bərabər deyildir: *bunun kömək edəcəyi ümidilə* mürəkkəb təyini söz birləşməsi, *bunun bir köməyi olacağına ümid edərək* feli bağlama tərkibidir. Sonuncu variant oricinala daha çox yaxındır.

Will felinin əsas fellə işlənməsinə dair daha bir neçə misal:

I believe you'll get it (AHA, 31) "İnanıram ki, o vəzifəni tutacaqsan" (AHA. a, 30) [Mən inanıram ki, sən *onu əldə edəcəksən / ona nail olacaqsan*].

Aralarındakı üslubi fərqlərə baxmayaraq, hər iki feli birləşmə qəti gələcək zaman formasındadır.

b) *Will* modal felinin *be* feli ilə işlənməsi:

"If anyone can get that airplane moved tonight, Mel conceded, it'll be Coe" (AHA. 33) "Mel dedi: – hə, əgər o təyyarəni yerindən tərpətsə, yalnız Cou *tərpədəcək*" (AHA. a, 32) [Əgər bir kəs bu axşam o təyyarəni yerindən tərpədə bilsə – deyə Mel zənn edirdi, – o, Cou *olacaqdır (olasıdır)*].

This advice *will be* a free sample, but like toothpaste – any **subsequent** tubes *will have to be* paid for (AHA, 93) "Bu məsləhət reklam edilən ilk diş pastası kimi havayı *olacaq*, ancaq sonrakı məsləhətdən ötrü *pul vermək lazımdır*" (AHA. a, 91) [Bu məsləhət *müftə olacaq*, amma – diş pastası kimi – hər bir sonrakı *pullu olacaqdır* (hər bir sonrakına *pul vermək lazım gələcəkdir*)].

Azərbaycanca birinci və ikinci variantlar arasında fərq bundan ibarətdir ki, bunların birində haqqı ödəmək bir vaciblik kimi qeyd olunur, ikincisində isə məcburiyyət,

zərurət çaları ifadə olunur. Bu baxımdan o, oricinala daha yaxındır.

c) *Will* modal felinin *have* feli ilə işlənməsi:

Will felinin bu cür işlənməsi ilə biz indicə verdiyimiz misalda rastlaşdıq. Buna aid bir neçə misal.

I **believe** you *will have* no difficulty in proving it here (AHA, 91) "Ümid edirəm ki, bunu Sizə geniş izah etməyə ehtiyac *yoxdur*" (AHA. a, 89) [Mən inanıram ki, burada bunu sübut etməkdə Sizin heç bir *çətinliyiniz olmayacaq*].

Mel said grimly: "Meadowood *will have* to suffer" (AHA. 66) "Mel hiddətlə dedi: -Midouvud *əziyyət çəkməlidir*!" (AHA. a, 65) [Mel qeyzlə dedi: -Midouvud *iztirab çəkəsi (çəkməli) olacaq!*]

Həmin bəhsə yekun olaraq qeyd etməliyik ki, ingilis dilində *be* və *have* fellərinin Azərbaycan dilində müqabilləri vardır: bunlar *var(dır)* predikativi və olmaq felidir. Ancaq *var/dır* predikativi fellərlə yox, adlarla işlənir. Ona görə də ingilis dilindəki *be* və *have* fellərinin yuxarıda qeyd olunan məqamlarda işlənməsi Azərbaycan dilində ya fellərin sadə formaları ilə, ya da olmaq felinin analitik məqamda işlənməsində öz ifadəsini tapır.

İndi isə *would* modal feli barəsində. Əlimizdə olan materiallar göstərir ki, bu fel ingilis dilində *will* feli ilə müqayisədə daha artıq işləklik nümayiş etdirir. O, nitqdə həm təklikdə, həm əsas fellərlə birlikdə, həm modal sözlərin müşayəti ilə, həm də başqa modal fellərlə birlikdə işlənə bilir. Bunların hər birinin müqabilinin Azərbaycan dilində axtarılıb-tapılması həm nəzəri, həm də praktik əhəmiyyət kəsb edir.

Would felinin tək işlənməsi:

Everybody voted to get the hell out. I *would*, too (AHA, 8) "Hamı bir səslə bu cəhənnəmdən tezliklə aralanmağa tərəfdar çıxdı. Mənə qalsaydı, özüm də belə edərdim" (AHA. a, 8) [hər kəs (hamı) bu cəhənnəmi tərk etməyə tərəfdar idi. Mən də belə *(ed)ərdim*].

Mətndən gördüyümüz kimi, ingiliscə cümlədə *would* felinin tək işlənməsi eliptik hadisənin nəticəsidir; o, məzmun etibarilə əvvəlki cümlədəki *to get out* əsas feli ilə əlaqədardır. Həmin felin *(would)* Azərbaycan dilindəki

müqabilinin bu cür işlənməsi mümkün deyildir. Cümlənin azərbaycanca variantında o, *edərdim* forması ilə verilir. Ancaq nəzərə almaq lazımdır ki, modal məna *et-* kökü ilə yox, onun konkret forması ilə ifadə olunur. O, məhz bu şəkildə "*would* + əsas fel" konstruksiyasına müvafiq gəlir.

Modallığın bu yolla ifadəsi *would* felinin işlənməsi sahəsində aparıcı rol oynayır. *Would* feli əsas fellə ifadə olunan hərəkətin icrasını bir imkan kimi qarşıya qoyur. Konkret misallara müraciət edək.

"What *would happen*", Mel wondered, "if he could reach out and touch Cindy now? *Would* the old magic work". (AHA, 70) "Mel düşündü: "Əgər indicə çıxıb özünü Sindiyə çatdırsaydı, görəsən, *nə olardı*? Köhnə sehrli qüvvə *baş qaldırardımı*?" (AHA. a, 68) [Mel bilmək istəyirdi ki, o indi əlini *uzadıb*, Sindiyə toxundursaydı, *nə olardı*? Köhnə möcüzə (sehr) yenə *işə düşərdimi? (kara gələrdimi?)*]

Moreover, it was also agreed that aircraft taking off toward Meadowood *would* almost at once after becoming airborne – follow noise abatement procedures (AHA, 10) "Bu az imiş kimi, razılığa gəlmişdilər ki, Midouvud səmtə qalxan təyyarələr, yerdən aralanan kimi, səslərini azaltmaq qayğısına *qalmalıdırlar*" (AHA. a, 10) [Bundan başqa (üstəlik), razılığa gəlmişdilər ki, Midouvud tərəfə uçan təyyarələr – yerdən aralanan kimi – səslərinin azalması qaydasına *riayət edəcəklər*]

Only meatheads like us *would work* in this lousy weather (AHA, 45) "Yalnız bizim kimi səfehlər belə zəhlətökən havada işləyər" (AHA. a, 44) [Ancaq bizim kimi kütbeyinlər (hərfən: ətbaşlar) belə bir pis havada *işləyər (işləyə bilər)*]

Would modal feli əsas fellərlə inkarda da işlənir. Burada Azərbaycan dil təfəkkürü baxımından belə bir cəhət diqqəti cəlb edir. *Not* ədatı *would* modal felinə aiddir, amma bütövün mənası, əsas fellə ifadə olunan hərəkətin icrası inkar edilir. Məsələn:

He made sure the papers *would not move* around, but that the string could move freely under them (AHA, 102) "Kağızların çamadanda sürüşməməsi, onların altında ipin rahatca tərpənməsi üçün onlara da əl gəzdirdi" (AHA. a, 98) [O, arxayın idi ki, kağızlar ətrafa *səpələnməyəcəklər*

(səpələnməzlər), amma onların altındakı kəndir (ip) sərbəst surətdə *oynaya (tərpənə) bilər*].

Would modal feli eyni cümlədə təkcə bir yox, iki və daha artıq əsas felə də aid ola bilir. Bunun müqabilində Azərbaycan dilində əsas fellərdən birincisi (arıxıncı olmayan) feli bağlama formasında işlənir. Məsələn, müqayisə edək:

Demerest *would use* the right seat – normally the first officer's position – from where he *would observe* and report on Captain Harris's performance (AHA, 50) "Demerest isə adətən birinci pilotun oturduğu sağ kresloda *əyləşib*, Hərrisin hərəkətlərinə *göz qoyacaq*, sonra isə uçuşun necə keçdiyi haqda raport *yazacaqdı*" (AHA. a, 49) [Demerest sağ oturacaqdan (kreslodan) – birinci pilotun yerindən – *istifadə edəcəkdi (edə bilərdi)* ki, oradan da *müşahidə aparıb*, kapitan Hərrisin hərəkətləri haqqında *məruzə etsin (raport versin)*].

Would + be…

Be feli ingilis dilində ən çox işlənən köməkçi fellərdən biridir. Onun köməyi ilə adlardan mürəkkəb fellər yaranır. *Would* modal feli bu qəbildən olan fellərlə işlənərkən həmin mürəkkəb fel əsas felin yerini tutur. Həmin tərkibdə hissələrin mövqeyi belədir: modal fel modallıq ifadə edir, *be* köməkçi feli özündən sonrakı birləşməyə prosessuallıq məzmunu verir, leksik-semantik dolğunluq isə müvafiq adın üzərinə düşür. Burada *be* felindən sonra gələn sözün qrammatik müəyyənlikdə isim, sifət, feli sifətlə ifadə olunması müəyyən rol oynayır.

Ad hissəsi isimlə ifadə olunan tərkib:

In this case, as Danny predicted, there *would be a flood* of protests when other airlines realized their food trucks were not getting through… (AHA, 8) "Dənni düz deyirdi, beləcə hər şey bir-birinə qarışanda ərzağı vaxtında çatdırmayan digər şirkətlərin nümayəndələri də şikayəti *dolu kimi yağdıracaqdılar*" (AHA. a, 8) [Bu halda, Dənninin qabaqcadan dediyi kimi, öz ərzaq mallarını reallaşdıran başqa aviasiya xətləri onları almayanda *şikayət sel (kimi) gələcəkdi*].

Action *would be a theraphy* (AHA, 8) [Əməl *terapiya* ola bilərdi].

Ad hissəsinin sifətlə ifadəsi:

He put the note on a table where Inez *would be sure* to see it (ANA, 99) [O, məktubu stolun üstünə qoydu: *əmin olmaq olardı* ki, İnez onu burada *görəcəkdi (görərdi)*].

Driving back toward the terminal, Mel radioed the Snow Desk confirming to Danny Farrow that runway one seven, left, *would be usable* shortly (AHA, 63) "Aeroportun binasına tərəf maşını sürərkən Mel ratsiya ilə qartəmizləmə məntəqəsinə Dənni Fərrouya dedi ki, soldakı bir-yeddi uçuş yolundan bir azdan *istifadə etmək olar*" (AHA. a, 62) [Maşını geri, terminala tərəf sürərkən Mel radio ilə Qartəmizləmə məntəqəsi ilə danışıb, Dənni Fərrouya xəbər verdi ki, soldakı bir-yeddi start xətlərindən bir azdan *istifadə etmək olar (istifadə edilə(oluna) bilər)*].

Ad hissəsinin sıra sayı ilə ifadəsi:

After Captain Harris's two flights, of which tonight's *would be the second*, he *would be given* final *check by a senior supervisory* captain before being accepted for international command (AHA, 50) "Kapitan Hərrisin iki uçuşundan sonra bu axşamkı uçuş *üçüncü ola bilərdi (olasıydı)* o, internasional komandaya qəbul edilməzdən qabaq böyük təlimatçı eskadron komandirinin rəhbərliyi ilə axırıncı *"şah" verəcəkdi"*.

Həmin cümlədə saydan başqa, feli sifət də *(given)* be kimәkçi feli ilə işlənmişdir. Sonuncuya aid daha bir misal:

Flight insurance claims – in the absence of any evidence of sabotage - *would be settled* in full (AHA, 99) "Təxribatı sübut edən faktlar olmadığından, sığorta pulu *tamamilə ödəniləcəkdi*" (AHA. a, 96) [Təxribat aşkar edilmədiyi halda *təsdiq olunmuş iddiaya görə* uçuş *tam ödəniləcəkdi (ödənilməlidir)*].

Eventually …the airport and the Federal Aviation Administration had conceded that cet takeoffs and landings directly over Meadowood would be made only when essential in special circumstances (AHA, 10) "Nəhayət… aeroport da, Federal Aviasiya idarəsi də güzəştə getməli və vəd etməli olmuşdular ki, təyyarələr yalnız müstəsna

hallarda Midouvudun üstündən *qalxacaq və enəcəklər*" (AHA. a, 10) [Nəhayət… aeroport və Federal Aviasiya idarəsi güzəştə getməli (etiraf etməli) olmuşdular ki, təyyarələrin birbaşa Midouvud üzərindən qalxıb-enməsi yalnız çox mühüm hallarda *ola bilər (yerinə yetirilə bilər)*].

Would modal felinin *have* köməkçi feli ilə işlənməsi

Be köməkçi feli kimi, *have* köməkçi feli də *would* feli ilə işlənməkdə rəngarəng imkanlar nümayiş etdirir. Bunlardan bəzilərini Azərbaycan dili ilə müqayisədə nəzərdən keçirək:

Have feli özündən sonra gələn məsdərə aid olur (bu zaman *to* ədatı da işlənir). Məsələn:He *would* probably *have to borrow* one exchange shirts with some other captain or first officer (AHA, 52) "Görünür, ya başqa komandirlə, ya da birinci pilotla *dəyişməli olacaq*" (AHA. a, 51) [Ehtimal ki, o ya başqa bir komandirlə, ya da birinci pilotla köynəklərini başabaş *dəyişməli olacaqdı*; yaxud: dəyişmək *lazım gələcəkdi*].

Have feli *to* ədatı olmadan da məsdərlə işlənə bilər:

The mail he knew *would have* come off anyway (AHA. 43) "Bilirdi ki, poçt ləngiməyəcək, *yola salınacaqdı*" (AHA. a, 42) [Poçt, o bilirdi ki, hansı yollasa *göndəriləsi olacaqdı*].

Have felinin feli sifətlə işlənməsi:

İngilis dilində *have* felinin keçmiş zaman feli sifəti ilə işlənməsi geniş yayılmışdır. Məsələn:

He *would have preferred* a Scotch and soda, but, like most pilots, abstained from liquor for twenty four hours before a flight (AHA, 54) "O, əlbəttə, indi sodalı viski *içməyi üstün tutardı*, ancaq pilotların əksəri kimi, uçuşa iyirmi dörd saat qalmışdan dilinə spirtli içki vurmazdı" (AHA. a, 53) [O, şotland viskisi və sodanı *üstün tutardı*, ancaq təyyarəçilərin əksəri kimi, o da uçuşdan iyirmi dörd saat qabaq içkidən imtina edirdi].

A few years ago, in a storm like this, an airport *would have closed* completely (AHA, 59) "Bir-iki il qabaq belə bir çovğunlu havada aeroportu *tamamilə bağlayacaqdılar*" (AHA. a, 58) [Bir neçə il qabaq buna oxşar bir çovğunda (çovğunlu havada) bir aeroport *tamam bağlanmalı olmuşdu (bağlanmışdı)*].

***Can* modal feli.**

Can modal feli fiziki və əqli cəhətdən hansı hərəkətə isə qabilolma, onu bacarma, icra edəbilmə mənaları ifadə edir.

Can modal felinin bir leksik vahid kimi Azərbaycan dilində qarşılığı vardır: *bacarmaq*. Lakin *bacarmaq* felinin qrammatik modallığın ifadə vasitəsi kimi Azərbaycan dilində elə bir rolu yoxdur. O az və başqa məqamlarda işlənir.

Can modal feli zaman etibarilə indiki və gələcək zamanlara aid olan hərəkətləri ifadə edir.

Can feli aşağıdakı modal mənaları bildirir:

1. O, əsas fellərlə ifadə olunan hərəkəti icra etməyə qabilolma mənasını bildirir. Məsələn:

He *can* play the piano "O, pianino *çala bilir*"

It's the place where you *can buy* everything you want "Sən burada ürəyin istədiyini (istəyəni) *ala bilərsən*"

I *can talk* with you like a man. I *can tell* you things "Mən Sizinlə kişi kimi *danışa bilərəm.* Mən Sizə bəzi şeylər *deyə bilərəm*".

2. *Can* feli əsas fellə ifadə olunan hərəkətə izn, icazə vermə mənası ifadə edir. Məsələn:

You *can borrow* my car "Siz mənim maşınımı *götürə bilərsiniz"*.

3. İnkarda birinci şəxs barəsində işlənən *can* imkansızlıq, mümkünsüzlük bildirir.

I *cannot* promise you any thing "Mən Sizə heç nə vəd *edə bilmərəm*".

4. İnkarda ikinci şəxs barəsində işlənən *can* qadağan mənası tfadə edir.

You *can't speak* to me like that "Mənimlə belə *danışmağa* sənin *haqqın yoxdur*"

5. İnkarda işlənən *can* feli əsas fellə ifadə olunan hərəkəti imkan xaricində qoyur.

It *can't be* true! "Bu *ola bilməz*!"

He *can't have said it* "Onun belə deməsi *mümkün olan şey deyil*!"

6. Sual cümlələrində *can* feli qeyri-mümkünlük və emosional çalar bildirir.

Can it be true? "Bu, *doğrudur?*"

What *can* he *mean?* “O nəyi *nəzərdə tutur?* O *nə demək istəyir?*”

***Could* modal feli.**

Could modal feli *can* felinin keçmiş zaman formasıdır. O, əsas fellə ifadə olunan hərəkəti keçmiş zamana bağlayır.

In its reflection Mel *could see* the mud beneath snow in which the aircraft’s wheels were deeply wired (AHA, 42) “Onun solğun şəfəqi altında Mel təyyarənin şassilərinin qarlı palçığa möhkəmcə batdığını *seçə bildi”* (AHA. a, 42)

Eyni xüsusiyyət *could* felinin inkarına da xasdır. Məsələn:

After what had happened I *couldn’t trust* him “Bütün olub-keçənlərdən sonra mən ona *inana bilmədim”.*

Həmin xüsusiyyət *could* felinin sual formasına da xasdır: *Could* the boy *read* before he went to school? “Uşaq məktəbə getməzdən qabaq *oxuya bilirdi?”.*

Belə bir xüsusiyyət *could* felinin təkcə sadə məsdərlə yox, məsdərin mürəkkəbləşmiş formaları ilə işləndiyi hallara da aid özünü göstir. Məsələn:

You *could not have* done it (Golsworthy) “Siz bunu *edə bizməzsiniz / etmiş olmazsınız!”*

My wife *couldn’t have sent* such a letter “*Mümkün olan şey deyil ki,* mənim arvadım belə bir məktubu *göndərsin/göndərmiş olsun!*” və ya “Mənim arvadım belə bir məktubu *göndərə bilməz!*”.

Where *could* he *have gone?* “O hara *getmiş olar?”*

***May* modal feli.**

May modal feli icazə, güman, mümkün olub-olmama modal mənalarını bildirir.

1. İzn, icazə modal mənasının ifadəsi. Bu mənа daha çox sual cümlələrində özünü göstərir. Məsələn:

May I come in? “Gəlmək (içəri keçmək) *olarmı* ? [=Mən içəri *gələ bilərəmmi?*].

May I speak to Zibbi? (AHA, 159) “Zibbiylə *danışa bilərəm*? (AHA. a, 147) [Zibbiylə *danışmaq olar?*].

Pardon me, madam. *May I see* your ticket? (AHA, 350) “Bağışlayın, madam. Sizin biletinizə *baxmaq olar*? (AHA. a, 320).

İcazə istəmək üçün verilən sualın cavabı həm icazəvermə, həm qadağan ola bilər:

-*May smoke* here? “Mənə burda *papiros çəkmək olarmı?/* “Mən burada papiros *çəkə bilərəmmi*?”

-You *may* not smoke here! “Burada *papiros çəkmək olmaz”* (Qadağan).

İcazə mənası sualsız da meydana qoyula bilər:

You *may continue* slow descent (AHA, 354) “Yavaş-yavaş *enə bilərsiniz”* [AHA. a, 324] [Yavaş-yavaş enməyə *davam edə bilərsiniz*”].

Mr.Warren is alone now. You *may* see him “Mister Uerren indi təkdir. Siz onun yanına *gedə bilərsinrz*”.

2. Güman (zənn) modal mənasının ifadəsi.

He *may not be at home* “O, evdə *ola (olmaya)* bilər” / O, *ola bilsin* ki, *evdədir/evdə deyil”.*

We *may be* glad of it (AHA, 211) “Biz ondan şad ola *bilərik”*

3. Şəraitin yaratdığı imkan mənasının ifadəsi.

You *may order* a taxi by telephone “Sən telefonla taksi *çağıra bilərsən*”.

Then you *may go,* madam (AHA, 245) “Sonra *çıxıb-gedəcəksiniz,* madam” (AHA. a, 227).

“Some day you *may regret* this”, Vernon Demerest said (AHA, 175). “Demerest davam etdi: -Günün birində bu çıxışına *təəssüf edəcəksən” (*AHA. a, 162).

***Might* modal feli.**

Might forması keçmişə aid olan hərəkəti bildirir. O, *may* feli ilə müqayisədə daha artıq inamsızlıq ifadə edir.

He *might come* soon “O, *bəlkə (də)* tezliklə *gəldi*”.

Sual cümləsində *might* xahişi daha nəzakəili edir:

Might I come, *too?* “Mən də *gələ bilərəm/bilərdim?*”.

Bəzi məqamlarda *might* feli baş tutmamış hərəkətə görə tənə ifadə edir:

You *might go* and *help* him “Sən *gedib* ona *kömək edə bilərdin”* (Amma etməmisən).

You *might come* a bit early (Braine) “Sən bir az tez *gələ bilərdin”* (Amma gəlməmisən).

Might təkcə sadə məsdərlə yox, mürəkkəb məsdərlə də işlənir:

You *might have told* me about it before “Sən bu barədə mənə bir qədər əvvəl də *deyə (danışa) bilərdin*”.

***Must* modal feli.**

Must modal feli indiki və gələcək zamana aid olan hərəkəti bildirir. O, məcburilik, vaciblik, əmr, məsləhət (tövsiyə) kimi modal mənalar ifadə edir.

1. Borc, zərurət mənasının ifadəsi.

You *must warn* him "Sən onu *xəbərdar etməlisən"* (Onu *xəbərdar etmək sənin borcundur*).

2. İnama əsaslanan güman (zənn) mənasının ifadəsi.

He looks so pale. He *must be* ill. "O, solğun görünür (Onun rəngi qaçıb). O, *xəstə olmalıdır* (O, *yəqin ki, xəstədir)".*

3. Qadağan modal mənasının ifadəsi.

She *must not do* so much work about the house "O, evdə *çox işləməli deyil /* Ona evdə *çox işləmək olmaz"*.

4. Tövsiyə (öyüd) mənasının ifadəsi.

You *must not be impatient*, my son "Sən *hövsələsiz olmalı deyilsən (olmamalısan),* oğlum / Sən *hövsələli olmalısan,* oğlum".

5. Emosional etiraz modal mənasının ifadəsi.

How many times *must* I *tell* you? (AHA, 245) "Eyni şeyi Sizə neçə dəfə *təkrar etməliyəm?"* (AHA. a, 226) [...*deməliyəm?*].

6. Zərurət modal mənasının ifadəsi

He *must go back* soon to the radar room (AHA, 126) "O artıq radar otağına *qayıtmalıdır*".

Obviously, it *must be adequate to destroy the airplane, but equally important – it must occur* at the right time (AHA, 99) "Aydındır ki, o [partlayış] təyyarəni dağıtmağa *kifayət etməlidir,* amma eynilə vacibdir ki, o, *vaxtında baş versin".*

***Ought to* modal feli.**

Ought modal felinin yalnız bir forması vardır. O, indiki zaman kontekstində işlənir.

Ought feli aşağıdakı modal mənaları ifadə edir:

1. Gərəklik, lazımlılıq modal mənasını.

You *ought to be thankful*. I think we *ought to be starting* (Galsworthy). - Siz *gərək minnətdar olasınız*. Məncə, biz *gərək yola düşək*.

2. Güman (zənn) modal mənası.

She *ought to be* very happy “O (qadın) gərək ki, çox *xoşbəxt olsun”*.

3. Arzu, tövsiyə (öyüd) modal mənasını.

There’s another thing you *ought* to know (AHA, 258), “Bir şeyi də *bilməyiniz məsləhətdir”* (AHA. a, 237).

At your age you *ought to help* your mother about the house “Bu yaşda sən gərək anana ev işində *kömək edəsən*”.

Your brother *ought not to be* so credulous “Sənin qardaşın bu qədər *sadəlövh olmamalıdır” /* ...gərək bu qədər *sadəlövh olmasın”.*

4. Peşmançılıq modal mənasını.

I am sorry. I *ought not to have* said it “Bağışla. Mən bunu deməli deyildim (deməməli idim)... gərək deməyəydim”.

Son söz olaraq demək istədim ki, Azərbaycan dilində həm leksik mənasına, həm də (yönlük halla) işlənməsinə görə ingiliscə *ought* felinin müqabili ola biləcək sözlər vardır: *borc, borclu olmaq*. Ancaq yuxarıdakı məqamların heç birisinin ifadəsində bunlar işə yaramır.

***Need* modal feli.**

Need modal feli həm *qüsurlu (defective)*, həm də *düzgün (regular)* fel kimi işlənə bilir.

1) *Need* qüsurlu fel kimi yalnız indiki zaman formasında işlənir və ondan sonra məsdər *“to”* hissəciyi olmadan gəlir.

Need feli lazımlılıq, ehtiyac bildirir. Hərəkətin indiki və gələcək zamana aid edildiyi inkar və sual cümlələrində *need* felindən sonra sadə məsdər *(Simple infinitive)* işlədilir. Bu məqamda o, hərəkətin icrasına zərurət, ehtiyac olmaması, lazımsızlıq, lüzumsuzluq modal mənasını ifadə edir. Məsələn:

You *needn’t come* – Sənin *gəlməyinə ehtiyac (lüzum) yoxdur;* və ya Sən *gələsi deyilsən*.

Need I *tell* you everything in detail? – Mənim hər şeyi sizə təfərrüatı ilə *deməyimə ehtiyac vardırmı? /...deməyim lazımdırmı?*”.

Müasir ingilis dilində inkar cümlələrində *need* feli inkar formasında olmur. İnkarlıq cümlənin digər hissələrində də ola bilər. Məsələn:

I don't think we *need continue* the conversation. – Düşünmürəm ki, söhbəti davam etdirməyimizə ehtiyac olsun.

I *need* hardly *show* it to you. – Mən çətin ki, bunu sənə *göstərə bilim*.

Need felindən sonra bitmiş məsdər *(Perfect Infinitive)* işləndikdə hərəkətin artıq yerinə yetirilmiş olması ifadə olunur. Buna baxmayaraq həmin hərəkətin icrasına zərurət, ehtiyac yoxdur. Məsələn:

You *needn't have come.* (We managed to do it without your help) – Sizin *gəlməyinizə ehtiyac yox idi.* (Sizin köməyiniz olmadan da biz onun öhdəsindən gəldik).

2) *Need* düzgün *(regular)* fel kimi işlənərkən məsdər *"to"* ədatı ilə gəlir. Həmin məqamda *need* əsasən inkarda, bəzən də sual cümlələrində işlənərək zərurət, lazımlılıq bildirir və mənaca *"to have to"* modal felinə yaxın olur. Məsələn:

I *do not need to explain* anything – Mən heç nəyi *izah etməli (edəsi) deyiləm*.

Did you *need to read* all those books? – Sənə bütün bu kitabları *oxumaq lazımdırmı?* və ya Sənin bütün bu kitabları *oxumağına ehtiyac (lüzum) vardımı?*

Qeyd etmək yerinə düşərdi ki, *need* felinin bu cür işlənməsi onun qüsurlu *(defective)* variantına nisbətən az yayılmışdır.

Düzgün *(regular) need* felindən sonra isim də işlənə bilir. Bu məqamda *"to need"* artıq modal fel olmaq keyfiyyətini itirir. Məsələn:

He needs a dictionary.

Dose he need a dictionary?

He does not need a dictionary.

***To have to* modal feli.**

To have to feli modal mənada bütün növ-zaman formalarında, o cümlədən bitmiş və davamedici formalarda işlənir. Məsələn:

I'll have to work alone "Mən təklikdə *işləməli olacağam" / "...işləməyə məcburam"".*

1) *To have to* daha çox şəraitlə bağlı olan məcburilik, zərurət bildirir:

Did you *have to wait* for long him? “Sən onu uzun müddət (çox) *gözləməli oldun? /* Sənə onu çox *gözləmək lazım gəldi?*”.

2) İnkar cümlələrində *to have to* lazımsızlıq, lüzumsuzluq modal mənasını ifadə edir. Məsələn:

You *don’t have to go* there. – Sən oraya *getməməlisən* (Sənin oraya getməyinə lüzum yoxdur).

Qeyd etmək lazımdır ki, *must* modal feli inkar formasında qadağan modal mənasını bildirir. Məsələn:

You *mustn’t go* there. – Sən oraya getməməlisən (Sənə oraya getmək olmaz).

İngilis danışıq dilində zərurət, öhdəçilik modal mənası *have (has) got to* birləşməsi ilə də verilə bilər. *To have to* modal feli kimi o da sadə məsdərlə (Simple Infinitive) birləşib bütün növ cümlələrdə işlənmək keyfiyyətinə malikdir. Məsələn:

He *has got to go* there.

Has he *got to go* there?

He *hasn’t got to go* there.

To be to modal feli

To be to modal fel kimi iki formada işlənir: indiki zamanın qeyri-müəyyən və keçmiş zamanın qeyri-müəyyən formalarında. Məsələn:

We *are (were) to start off at dawn* “Sübh tezdən (səhər erkən) biz *yola düşürük (düşəcəyik)) ...düşməli idik*”.

To be to aşağıdakı modal mənaları ifadə edə bilir:

1. İrəlicədən olan sazişə (şərtləşməyə) əsaslanan borc (öhdəçilik, vəzifə) mənasını.

He *is to arrive* tomorrow “O sabah *gəlir (gələcəkdir / gəlməlidir) gələsidir” (*Bu cür şərtləşmişlər).

The information was that stewardesses were issued almost no change, sometimes non, and where a stewardess conuld not make change, her instructions *were to give* the passenger his or her drinks free (AHA, 190), “Məsələ burasındadır ki, əgər stüardessalar sərnişin pulunun qalığını qaytara bilmirdilərsə, qaydaya görə, içkini *pulsuz verməliydilər”)* (AHA. a, 176).

Who *is to arrange* the meeting “İclası kim *təşkil eləyəcək? eləməlidir?*”

2. Əmretmə, sərəncamvermə (çox vaxt rəsmi şəkildə) mənasını.

The students *are to hand in* their course papers by the 1st of May "Tələbələr öz kurs işlərini mayın 1-dək *təhvil verməlidirlər"*.

3. Qaçılmaz fakt mənasını.

He knew at the time that he *was* never *to see* his son again "O vaxt o bilirdi ki, öz oğlunu bir də *görmək* ona *nəsib (qismət) olmayacaq*".

4. Şəraitlə bağlı olan imkan mənasını.

Where *is he to be found* "Onu harda *tapmaq olar / mümkündür?*"

***Dare* modal feli.**

Dare feli də həm *qüsurlu (defective)*, həm də *düzgün (regular)* fel kimi işlənə bilir.

1) Qüsurlu *Dare* feli indiki və keçmiş zaman formalarında "bir işi görməyə cəsarət etmək" mənasını bildirir. Onun işlənmə dairəsi çox məhduddur. Müasir ingilis dilində *dare* modal feli *how* sözü ilə başlanan sual və inkar cümlələrdə işlənir. Məsələn:

How *dare* you *talk* to me like that? – Sən mənimlə bu cür *danışmağa* necə *cəsarət (cürət) edirsən*?

He *dared not look* at her. – O (kişi) ona (qadına) *baxmağa cürət eləmədi.*

Dare feli təsdiq cümlələrdə də, xüsusən birinci şəxsin təkində tez-tez işlədilir. Bu məqamda o, güman modal mənasını ifadə edir və Azərbaycan dilinə şəxs əvəzliyi və əsas fellə birlikdə *"Güman edirəm"* şəklində tərcümə edilir. Məsələn:

"I dare say you are dull at home", he said (C.Galsworthy). – "Güman edirəm ki, sən evdə kütsən", o dedi.

2) *Dare* düzgün *(regular)* fel kimi işlənərkən şəxslər üzrə dəyişir, keçmiş zamanın qeyri-müəyyən forması *-ed* şəkilçisi ilə düzəlir *(dared)*, məsdər formasında *to* ədatına malik olur *(to dare)*, indiki zaman feli sifəti *-ing* şəkilçisi ilə düzəldilir *(daring)*, felin mürəkkəb zaman formalarında işlənə bilir, sual və inkar formaları *to do* köməkçi feli vasitəsi ilə düzəldilir. Məsələn:

How *does* she *dare* to return home so late. Why *didn't* you *dare* it before? (C.London)

O, evə belə gec *qayıtmağa* necə *cəsarət edir*. Sən əvvəllər buna niyə *cürət etmirdin*.

Misallardan da göründüyü kimi, *Dare* feli Azərbaycan dilinə əsasən *"cəsarət etmək", "cürət etmək"* felləri ilə tərcümə olunur.

Beləliklə, biz görürük ki, Azərbaycan dilində Avropa qrammatik ənənəsində başa düşülən mənada modal fellər olmasa da, müvafiq modal mənaların ifadə vasitələri istənilən qədərdir. Hətta bir modal mənanı bir neçə şəkildə ifadə etmək imkanı vardır.

2.4. İngilis və Azərbaycan dillərində modallığın sintaktik ifadə vasitələri.

Modallığın sintaktik ifadə vasitələrindən danışmaq olduqca ümumi və şərti xarakter daşıyır. İş burasındadır ki, modallığın xüsusi olaraq sintaktik ifadə vasitələri vardır. Burada yenə leksika və morfologiyanın bir sıra xarakterik ünsürləri iştirak edir. O biri tərəfdən, bunu da nəzərdən qaçırmaq olmaz ki, həmin ünsürlər məhz müəyyən sintaktik kontekstdə modallığın ifadə vasitələri kimi özünü göstərir. Belə bir sintaktik fon olmadan onların modallığın ifadə vasitələri funksiyasından danışmaq mümkün deyildir.

Bununla yanaşı, modallığın leksik və morfoloci vasitələri konkret cümlə tipləri ilə bağlıdır. Ona görə də bunların nəzərdən keçirilməsi müəyyən seçmə əməliyyatı tələb edir. Məsələn, ədatların və ara sözlərin (modal sözlərin) ifadə etdiyi modallıq istər məzmun, istərsə də ifadə baxımından fərqli cəhətlər nümayiş etdirir. Odur ki, modallığın ifadə vasitələrinə görə nəzərdən keçirilməsi heç də lüzumsuz bir məşğələ deyildir və özünü doğruldur.

Bundan başqa, belə bir cəhəti də qeyd etmək vacibdir. Biz bu tədqiqatın əvvəlki hissələrində də gördük ki, Azərbaycan və ingilis dillərinin materialları müəyyən modallıq kateqoriyaları çərçivəsində heç də bərabər yer tutmur. Eyni vəziyyəti modallığın sintaktik ifadə vasitələri sahəsində də müşahidə edirik. Modallığın ədat və nidalarla ifadə üsullarını dillərarası birbəbir müqayisə üsulu ilə

araşdırmaq mümkün deyildir. Burada olsa-olsa yalnız ümumi kateqorial miqyasda müqayisədən söhbət gedə bilər. Deyilənlərə bunu da əlavə etmək istərdik ki, ədat və nidalar sahəsində Azərbaycan və ingilis dilləri üzrə bizim materiallar kəmiyyət etibarilə də bərabər deyildir: birincilər çox, ikincilərsə azdır. Belə bir vəziyyət bizim ümumi qənaətlərimizə də təsir edir.

2.4.1. Azərbaycan dilində modallığın sintaktik ifadə vasitələri.

Modallığın sintaktik ifadə vasitələrindən bəhs edərkən biz aşağıdakı ardıcıllığa riayət etmək fikrindəyik:

1. Modallığın nidalarla ifadəsi.
2. Modallığın ədatlarla ifadəsi.
3. Modallığın ara sözlər, ara cümlələr, əlavə sözlər və əlavə cümlələrlə ifadəsi.

Həmin ardıcıllıq müvafiq ifadə vasitələrinin modallıq kateqoriyasını ifadə etməkdə oynadığı rolla müəyyənləşir. Belə ki, məsələn, nidalar modallığın birbaşa ifadəsində iştirak etməyib, müvafiq modal məna fonunda danışanın əhvali-ruhiyyəsini, cümlənin məzmununa emosional münasibətini bildirir.

Ədatlar nidalara nisbətən cümlə, mətnlə daha üzvi surətdə bağlıdır. Onlar hansı isə cümlə üzvünə, ya da bütövlükdə cümləyə "bənd edilərək", modal mənanın ifadəsində iştirak edirlər.

O ki qaldı ara söz və cümlələr, əlavə söz və cümlələrə, bunlar artıq cümlə və mətnin zəruri olmasa da, fakultativ tərkib hissələri kimi özünü göstərir.

1. Modallığın nidalarla ifadəsi.

Nidaların ifadə etdiyi "hiss və həyəcan" tipləri rəngarəngdir. Bunlar içərisində emosional münasibət bildirən nidalardan aşağıdakıları qeyd edə bilərik.

Təəccüb modal mənasının ifadəsi:

Bıy, buy, boy, bay nidası.

Həmin nida əsasən təəccüb, bəzən də sevinc mənası ifadə edir. *Bıy, buy* variantları çox, *boy, bay* variantları isə az işlənir. Bundan başqa, həmin nida tək, cüt və s. variantlarda da işlənir.

Həmin mənanı variantlar üzrə nəzərdən keçirək.

Bıy variantı.

Bıy … Qəzetdə nə yazırsınız, siftəsini mən oxuyuram (S.Qədirzadə. Ülkər Aytəkin, 106) – təəccüb, etiraz.

Bıy, boyuna qurban, gəlibsənmi? Bə niyə dinmirsən?! (İ.Şıxlı. Dəli Kür, 79) – təəccüb, sevinc.

Bıy nidasının təkrarən işlənməsi daha artıq intensivliyə, emosional təsirə (həyəcana) işarə edir. Məsələn:

Bıy, bıy, başıma xeyir, ay qız, deyəsən, bizi bəxtəvərliyə salacaqsan yatmaq nədi?! (İ.Şıxlı. Dəli Kür, 74).

Buy variantı

Həmin variantın işlənmə məqamı eynən *bıy* variantında olduğu kimidir. Məsələn:

Buy, şair, Sizsiniz?! Mənim bu kasıb komama xoş gəlmisiniz! (Ə.Babayeva. Səni axtarıram, 34). – təəccüb, sevinc.

Buy, ay Həmid sənsənmi?! – dedi, - keç içəri (M.Süleymanlı. Yel Əhmədin bəyliyi, 250) – təəccüb, sevinc.

Buy variantı təkrarən də işlənir:

Buy! Buy! Sən nə danışırsan! (S.Qədirzadə. S.Ə, 120).

-Buy! Buy! - deyə guya təəccüblənmiş Kəklik Bayramı aralamaqdansa, lap kişinin çənəsinin altına girdi (M.Qocayev. Gecələrin mahnısı, 90).

Bizə belə gəlir ki, *buy* və *boy* variantlarının işlənməsi daha çox qadın nitqinə xasdır. Amma bu faktın tam qətiyyətlə qoyulmasının əlavə materiallara ehtiyacı vardır.

Boy variantı

Boy… Qız heç demədi ki, qara sap lazımdı, yoxsa ağ sap… (E.Əfəndiyev. Şuşaya duman gəlib, 116).

Bay variantı

-Bay səni, - dedi və qar-boranın fironluq elədiyi bu məqamda doluxsundu (E.Əfəndiyev. Qış nağılı, 91).

Buy variantının fonetik dəyişikliyi təkcə saitlərin əvəzlənməsi, müxtəlifliyi ilə məhdudlaşmır. Əlimizdə olan materiallar içərisində son samiti cütlənmiş (ikiləşmiş) variantla da qarşılaşırıq. Bu, modallığın fonetik ifadə vasitələrinin bir nümunəsi hesab edilə bilər:

Buy-y! Kişidə üzə bax, ey! (N.Nağıyev. Həsrət, 134).

Baho/paho nidası

Həmin nida *bıy* nidası ilə müqayisədə təəccübün daha yüksək dərəcəsini (heyrəti) bildirir. Məsələn:

Baho! Siz yenə mültəfit olmadınız! (C.Cabbarlı. Vəfalı Səriyyə, 35).

Baho… Onda lap axşama düşəcəyik (S.Qədirzadə. Ülkər Aytəkin, 35).

Bizə belə gəlir ki, *baho* və *paho* variantlarının işlənmə məqamları arasında müəyyən qədər fərq vardır: *paho* heyrətin daha artıq dərəcəsini ifadə edir.

Paho!.. Xalacıq, bu çox bahadır, qarpıza beş şahı vermək student cibinə yaraşmaz (Y.V.Çəmənzəminli. Studentlər, 40).

Paho! – qaşqabağını salladı, - indi biz ona nə cavab verəcəyik?! (S.Qədirzadə. Ülkər Aytəkin, 214).

-*Paho*! – deyə Gülyaz içini çəkdi, -nə gözəl qızdır, nə qəşəng qızdır, necə də bic-bic gülür?! (M.Süleymanlı. Dağlar qoynunda fırtına, 17).

Paho, qəttəzə dəsmalı zay elədin! (Ə.Babayeva. Səni axtarıram, 127).

Paho nidası nadir hallarda cümlənin axırında da işlənir:

-Yüz min, *paho*! (İ.Qasımov, H.Seyidbəyli. Uzaq sahillərdə, 7).

Sevinc, razıqalma, təqdiretmə, bəyənmə modal mənasının ifadəsi:

Həmin modal məna əsasən *bəh/bah/pəh/pah* nidasının vasitəsilə ifadə olunur. Qeyd etmək lazımdır ki, həmin nida bütün variantlarda həm təklikdə, həm də təkrar olaraq işlənə bilir; təkrar olaraq işlənmək bu nida üçün daha xarakterikdir.

Bəh!.. Bəh!.. Gör, Sərinbulaqda nələr yetişir! (S.Qədirzadə. Ülkər Aytəkin).

Bəh-bəh, lap gün kimi açıldın! (İ.Şıxlı. Dəli Kür, 78).

Bəh-bəh! Bu idbarı nə qəşəng çəkiblər! (S.Qədirzadə. Kəndimizdə bir gözəl var).

Bəh-bəh-bəh! Sən bir gül-çiçəyə bax! (N.Nağıyev. Həsrət, 168).

Bəh-bəh-bəh-bəh! Maşallah, kəlama bax, -deyib, başını bir neçə dəfə o tərəf-bu tərəfə tərpətdi (M.İbrahimov. Gələcək gün, 220).

Bah, bah! Böyük adamın arvadıdır! (Ə.Haqverdiyev. Seçilmiş əsərləri, 49) – təəccüb, istehza.

Bah!.. Bah!.. Kişi! –deyə o, fərəhlə gülüb qoluma girdi (İ.Əfəndiyev. Sarıköynəklə Valehin nağılı, 12).

Pəh/pah variantı

Pəh, pəh, maşallah, nə göyçək qızdır, -deyə Xankişi Məlahətin alnından öpdü (S.S.Axundov. Təbrik, 14).

Pəh-pəh! Sağ ol! Afərin! (S.Qədirzadə. S.Ə, 44).

Pəh-pəh!.. Nə ləzzətli qovurmadır! (M.Qocayev. Gecələrin mahnısı, 34).

Misallardan göründüyü kimi, həmin nida üçün cümlənin başında gəlmək daha xarakterikdir. Bununla yanaşı, o cümlənin axırında da gəlir:

Bəli, Soltan bəyin qızı bir gədəyə aşıq olub, *pəh-pəh-pəh!* (Ü.Hacıbəyov. Arşın mal alan, 604).

Pah, pah, gözünə dönüm, a hökumət! (Mir Cəlal. Ayaz, 281).

Qeyd etmək lazımdır ki, həmin nidanın tək yaxud təkrarlanaraq işlənməsi müəyyən məqamlarda əhəmiyyət kəsb edir. Belə ki, təklikdə o, etiraz, təəccüb, istehza mənasında işlənir:

Pəh! Çox elə böyük adamsız! (B.Babanlı. Vicdan susanda, 128).

Həmin qrupa *o, oh, aha, oho* nidalarını da aid etmək olar.

O! nidası

Təəccüb bildirən bu nida danışanlardan birinin o birisinin sözünə qüvvət verməsi məqamında işlənir. Məsələn:

O! Faiq əfəndi ilə Hüseyn Minasazovun yazılarını mən də əlahiddə bir həvəslə oxuyuram (B.Bayramov. Karvan yolu, 646).

Oh nidası

Həmin söz etimoloci cəhətdən, yəqin ki *o* və *oho* nidaları ilə bağlıdır.

Oh, Şəmsiyyə xanım, darıxmaq nədir? Belə bir tanışlıq üçün təşəkkür edirəm (M.İbrahimov. Gələcək gün, 242).

-Oh! "Qoç" lülə ürəyə qız keçməz! -deyə qəhqəhə ilə güldü (Y.V.Çəmənzəminli. Qızlar bulağı, 29).

Mətndən göründüyü kimi, *oh* nidası etiraz məqamında işlənmişdir, amma etiraz bir növ xoşagəlimli, dostluğa, mehribançılığa xidmət edən etirazdır.

Oho variantı

Təəccüb bildirən bu nida mənşə etibarilə *aha* nidası ilə bağlıdır.Biz burada mənşə etibarilə deyərkən bir sözün şəkilçiləşmə yolu ilə başqa sözdən törəməsini deyil, sait və samit dəyişməsi yolu ilə sözlərin müxtəlif variantlarının meydana gəlməsini nəzərdə tuturuq.

Oho! Sən fəlsəfəyə keçdin, əmiqızı (İ.Əfəndiyev. Bahar suları, 183).

Oho… Demək, məsələni sənə bu şəkildə çatdırıblar (S.Qədirzadə. Ülkər Aytəkin, 190).

Oho,-Covanni ucadan dedi, -Martimonio?(H.Abbaszadə. Uzaqdan gələn qonaq, 105).

Oho! heç inanmazdım ki, uzaq Berlində bakılı professorla rəqs edəcəyəm (Z.Ağayev. Dünyanın düz vaxtı, 10).

Oho, lap qiymətini də bilir ki! (Ə.Hacızadə. dünyanı tanı, 253).

-*Oho!..* -mən süni təəccüblə gözlərimi bərəltdim (İ.Hüseynov. Tütək səsi, 115).

Verilmiş bütün misallarda *oho* nidası təəccüb, heyrət məqamında işlənmişdir. Aşağıdakı misalda həmin məna qalmaqla yanaşı, yüngülcə məzəmmət mənasında öz əksini tapmışdır.

Oho! Nə böyük yerdən yapışıb sənin bu qızın?! (Ə.Hacızadə. Dünyanı tanı, 253).

Aha nidası

Bu nidanın işləndiyi modallıq kontekstinin növləri çoxdur. O, təəccüb, heyrət, sevinc, istehza, yadasalma (xatırlama) və s. kimi məqamlarda işlənir. Məsələn:

Aha, budur birisi əlindəki qazançanı yellədə-yellədə gəlir (C.Əlibəyov. Vida görüşü, 260) – təəccüb mənası.

Aha, deməli belə! Yəqin, bunlar çoxdan dost imişlər (N.Nağıyev. Həsrət, 133) – zənn, güman mənası.

Aha! deməli, Vüqar Şəmsizadə? (V.Babanlı. Vicdan susanda, 19) – zənn, güman mənası.

Aha, dayanın, dayanın, yadıma gəldi. Mən ondan soruşdum ki, nə vaxtdan Ərəstun qız adı olub?

(H.Seyidbəyli. Cəbhədən-cəbhəyə, 77) – xatırlama, yadasalma mənası.

Narazılıq, kədər modal mənasını ifadə edən nidalar:

Bura *ah, ax* və *eh* sözlərini aid etmək olar.

Ah nidası

-Ah, dovşan, - deyə içini çəkib, yerində hərləndi, -tüfəng olsaydı, atardıq, -dedi (Y.V.Çəmənzəminli. Studentlər, 151).

Burada *ah* nidasının işlənməsi tüfəngin olmaması ilə bağlıdır. Danışanın əhval-ruhiyyəsi onun içini çəkməkdən də bilinir. Ancaq nidanın işlənmə məqamı heç də həmişə bu cür aydınlıqla mətndə öz əksini tapmır. Məsələn:

-Ah, Rüstəm bəy! –deyə Rüstəm bəylə görüşdü (Y.V.Çəmənzəminli. Studentlər, 153).

Ah, yuxuya qalmısınız (Y.V.Çəmənzəminli. Studentlər, 24).

Hə, yazmaq lazımdır, yox, *ah,* ilahi, dəli olacağam, dəli olacağam (Z.Ağayev. Beş günün intizarı, 93) – iztirab mənası.

Ah, bu nə deməkdir, ilahi?!. Mənə nə olub?! (G.Fəzli. Yeddi ulduzlu səma, 7) – heyrət, təşviş, iztirab mənası.

Ah, bu farsçılıq, bu farspərəstlik, -dedi, -nə çirkin bir fikirdir! (M.İbrahimov. Gələcək gün, 300) – narazılıq, qəzəb mənası.

Ah, mənim Yusifdən xoşum gəlir (Z.Ağayev. Dünyanın düz vaxtı, 12) – məmnunluq, həyəcanlanma mənası.

Bizim materiallar içərisində *ah* nidasının müəyyən fono-semantik çalarla işlənməsinə də təsadüf olunur. Bu, iki şəkildə özünü göstərir: *a* saitinin uzun tələffüz olunması və *h* samitinin sürəkli, davamlı tələffüz olunması şəklində. Bunlar modallığın fonetik ifadə vasitələri hesab oluna bilər. Yadımıza salaq ki, bu qəbildən olan nümunələrə bir qədər yuxarıda da rast gəlmişik.

Rəis sərin kompotu birnəfəsə başına çəkib, ürəkdən bir "*aaah"* elədi, dodaqlarını yalayıb, ortalığa dedi (Z.Ağayev. Beş günün intizarı, 3).

Ahhh! Mən də deyirəm, nəyə işarə eləyirsiniz (Y.V.Çəmənzəminli. Studentlər, 136).

Ax variantı

Həmin nida da narazılıq, iztirab məqamlarında işlənir.

Ax, Aida, sən də buradasan? (M.İbrahimov. Madrid, 129).

Ax, nankor! (V.Babanlı. Vicdan susanda, 314).

-Ax, namərd, -deyərək, atından yerə sərildi (M.İsmayıl. İki od arasında) – qəzəb, ağrı-acı məqamı.

Ax, bu nə bəladır, özümü saldım! (C.Cabbarlı. Solğun çiçəklər, 61) – iztirab mənası.

Yuxarıdakı misallarda *ax* nidası az-çox *ah* nidasından fərqli məqamlarda işlənmişdir. Ancaq onun *ah* nidası ilə tam uyğun gələn məqamlarda işləndiyini də görürük:

Ax, nə yaxşı oldu, yamanca düşmüsən əlimə (H.Seyidbəyli. İ.Qasımov. Cəbhədən-cəbhəyə, 41).

Ax, Turac, görəsən, doğrudur? (İ.Əfəndiyev. Bahar suları, 174).

Ax, nə ola, indi ikisini də atalar bayıra! (Ə.Əbdülhəsən. Sədaqət, 234).

Ax, **ləkfə** gedib anama xəbər verəcək! (M.F.Axundov. Hekayəti-müsyö Cordan, 27).

Ax, məlunlar! Yəqin, quldurdurlar, at qovub-gətirib, keçirmək istəyirlər (M.F.Axundov. Hekayəti-mərdi xəsis).

Ox nidası

Belə düşünmək olar ki, həmin nida *ax* nidası ilə variantlıq münasibətindədir. O, *ah* və *ax* nidalarından az işlənib, yeni bir nidanın əmələ gəlməsində iştirak edir: *oxqay.*

Ox, onu öldürdülər (C.Cabbarlı. Oqtay Eloğlu, 229).

Məna etibarilə qeyd olunanlara yaxın olan məqamda *eh* nidası da işlənir. Danışıq dilində onun *əh* variantına da təsadüf olunur. *Eh* nidasının kədər, etiraz mənalarından savayı, bezmə, bezikmə məqamlarında da işləndiyini görürük. Məsələn:

Eh, neynirəm varı, ay bala, bir bığıburma ərim olsaydı, onların hamısına dəyərdi! (İ.Şıxlı. Dəli Kür, 77).

Eh, vallah, mən bir qəpik pula dəymərəm (C.Məmmədquluzadə. Danabaş kəndinin əhvalatları, 311).

Eh, tanrının bir ucuz ölümü də yoxdur ki, ölək-qurtaraq! (Y.V.Çəmənzəminli. Qan içində, 328).

Bütün bu misallarda *eh* nidası kədər, narazılıq məqamlarında işlənmişdir. Aşağıdakı nümunələrdə isə o, təəccüb, narazılıq, etiraz məqamlarında işlənir.

Eh! İnsanların təbiəti çox mürəkkəbdir! (S.Qədirzadə. Ülkər Aytəkin, 138).

Eh, nə qoyub, nə axtarırsan?! (Ə.Babayeva. Anadil ağlayırdı, 12).

Eh, kimdir onlara inanan? (Z.Ağayev. Beş günün intizarı, 32).

Eh nidası sırf təəccüb məqamında da işlənir.

Eh, məsələni, gör, haradan başlayıb, hara gətirdik?! (V.Babanlı. Həyat bizi sınayır, 16).

Eh, necə axmaq işlər olur bu dünyada! (G.Fəzli. Yeddi ulduzlu səma, 37).

Eh nidası emfatik məqamda da işlənir:

Ehh, doğrudan, qəribə adamsınız (V.Babanlı. Vicdan susanda, 45).

Of / uf nidası

Bu nida həm fiziki, həm də mənəvi əzab, əziyyət, iztirab bildirmək məqamlarında işlənir. Məsələn:

Of… bu zəhrimar yara məni lap öldürür (H.Mehdi. Şöhrət).

Of, nə iş tuturam?.. (S.Vurğun. Vaqif).

Aşağıdakı nümunələrdə qeyd olunan modal məna ilə yanaşı, darılma, bezikmə çalarının da ifadəsini görürük.

Uf, nə istidir… *Uf,* lənətə gələsiniz. *Uf,* əl çəkməzlər. Çarə yoxdur (M.F.Axundov. Hekayəti-Molla İbrahim Xəlil).

Qorxu, tələş modal mənası ilə əlaqədar olan nidalara *vay, aman/ay aman/, haray/ay haray/, vaxsey* sözləri aiddir.

Vay nidası

Həmin nida mənşə etibarilə *vay* ismi ilə bağlıdır. Müq.et: Toyda oynamaz, *vayda* ağlamaz (Zərb məsəl).

Vay ismi matəm, hüzn təsəvvürləri ilə assosiasiya yaradır. Həmin məna çaları modal mənalarda da qalır. *Vay* nidası qorxu, tələş, ağrı, əzab, nifrət, ikrah kimi modal mənalarla əlaqədar olaraq işlənir. O həm tək, həm də təkrarlanaraq işlənə bilir.

Vay nidası aşağıdakı modal mənaları müşayiət edir.

1. Əzab, ağrı, iztirab modal mənasını.

Vay!.. Vay! Bədənim başladı gicişməyə (İ.Əfəndiyev. Sarıköynəklə Valehin nağılı, 232).

Vay, yeriyə bilmirəm. Ayaqlarım tutulub, başım gicəllənir (Ə.Hacızadə. Dünyanı tanı, 267).

2. Qorxu, tələş modal mənasını.

Vay, qoymayın, müsəlmanlar! (M.Cəlal. Dirilən adam, 43).

*Vay,*dədəm *vay!* İlahi, bu nə müsibətdir?! (M.Süleymanov. Fırtına, 200).

Verilmiş nümunələrdən göründüyü kimi, *vay* nidası işləndiyi mətndə müvafiq situasiyanı bildirən sözlərlə müşayiət olunur. *Vay* nidası azərbaycanlılar, xüsusən də azərbaycanlı qadınlar tərəfindən işləndikdə müvafiq cestlərlə, əl hərəkətləri ilə (dizə vurmaq, başa vurmaq və s.) də müşayiət olunur. Məsələn:

-*Vay!* -deyə Sevinc *dizlərinə vurdu* (O.Salamzadə. Gqapısı, 110).

Başa, dizə vurmaq hərəkəti sonsuz qəm, kədər bildirməyə xidmət edir.

3. Rəhmetmə, mərhəmət modal mənasını.

Vay, yazıq yetim! (V.Babanlı. Vicdan susanda, 310).

4. Təəccüb, heyrət, etiraz modal mənasını.

Vay, Allah səni yox etsin, gör nə murdar səsi var! (S.S.Axundov. Nurəddin, 28).

Vay, köpək oğlu, gör, necə and içdi! Yox, bu, düşmənçilikdir! (N.Nağıyev. Həsrət, 175).

Vay, iraq olsun, bu nədir? (S.Qədirzadə. Ülkər Aytəkin, 188).

5. Nifrət, hədə-qorxu modal mənasını.

Vay, Allah səni öldürsün! Bu nə sözdür! (A.Şaiq. Bir saat xəlifəlik).

Vay, Ala pişik, *Vay,* Qara pişik! (Uşaq şeri).

Vay nidası *dədə, nənə, qardaş* və s. sözlərlə birbaşa əlaqədə işlənir.

Vay, dədəm vay, ay şah, başına dönüm, sənə qurban olum, mənə yazığın gəlsin! (Ü.Hacıbəyov. Yuxuda, 494).

Artıq qeyd etdiyimiz kimi, *vay* nidası təkrarlanaraq da işlənir.

Vay-vay-vay! A kişi, bu nə üst-başdır, bu nə əl-ayaqdır?! (H.Sarabski. Köhnə Bakı, 194).

Vay, vay, vay! Allah sənə lənət eləsin! (C.Məmmədquluzadə. Kişmiş oyunu, 93).

Aman (ay aman, aman allah) nidası

Aman nidası öz törəmələri ilə birlikdə şiddətli qorxu və onunla bağlı olan yalvarış, kömək diləmə məqamlarında işlənir. Onları həmin ardıcıllıqla da nəzərdən keçirək:

1. *Aman* nidasının qorxu məqamında işlənməsi.

Ay aman! Vəzir gəlir! (M.F.Axundov. Hekayəti-vəziri-xani-Lənkəran, 53).

Ay aman, öldüm allah! (M.Süleymanlı. Dağlar qoynunda fırtına, 79).

Xanıma güllə dəyib, *ay aman!* (B.Bayramov. Karvan yolu, 216).

2. *Aman* nidasının yalvarış, köməyə çağırma məqamında işlənməsi.

Ay aman, Heydər bəy, Səfər bəy, Əskər bəy, yetişin, mən boğuldum! (M.F.Axundov. Hekayəti-mərdi-xəsis).

Ay aman, qoymuyun! Mənim gözümün ağı-qarası bircə oğlum var! (M.F.Axundov. Hekayəti-xırs-quldurbasan, 72).

Ay haray, *ay aman!* Kömək edin, ay allahı sevən, dadıma yetişin! (M.F.Axundov. Hekayəti-xırs-quldurbasan, 86).

Deməliyik ki, *aman* nidası və onun törəmələrinin mətndə qorxu-təlaş və yalvarış məqamlarında işlənməsi bir sıra hallarda tamamilə şərti xarakter daşıyır. Yəni, bunlar qorxmağa və yalvarmağa elə bir əsas olmadığı hallarda da işlənir. Məsələn:

Aman allah, biliksiz adam nə qorxaq, nə yazıq, nə miskin olurmuş? (G.Hüseynoğlu. İşıq və zülmət, 259).

Aman allah, Xam xəyal. Qeyri mümkün olan şey (A.Rzayev. Gürcü familiyası, 46).

Aman allah, nə çox təpə var burada! (Ə.Nicat. Qızılbaşlar, 217).

Sonuncu nümunədə sadəcə olaraq yüksək dərəcədə təəccüb ifadə olunur.

Haray (ay haray) nidası

Haray nidası qorxulu şəraitlə əlaqədar olaraq işlənib, köməyə çağırış mənasını ifadə edir.

Haray naşı əlindən! (Bayatı).

Ay haray! Bir neçə şair, neçə şair kimilər. İstəyir döndərələr Gəncəyə Şirvanımızı! (Sabir. Hop-hopnamə, 128).

Vaxsey nidası

Bu, Azərbaycan dilində qorxu və tələş məqamında işlənən nidalardandır. O, sözdüzəltmə baxımından və işlənmə məqamına görə şaxsey nidası ilə bağlıdır. *(Şah Hüseyn şaxsey; vay(y)Hüseyn vaxsey).*

Aşura təziyəsi ilə əlaqədar olaraq meydana gəlmiş bu nidalardan ikincisinin *(vaxsey)* işlənməsi daha geniş vüsət almışdır.

Vaxsey! Bəs mənim pullarım?! (Ü.Hacıbəyov. O olmasın, bu olsun, 530).

Vaxsey! Balta əlini apardı kişinin! (E.Əfəndiyev. Talvar, 103).

Heyfsilənmə, təəssüflənmə modal mənası ilə əlaqədar olan nidalar:

Bura *heyf(hayıf), əfsus (ki), təəssüf (ki)* sözləri aiddir.

Heyf (hayıf) nidası

Həmin variantlardan birincisi ədəbi dilə, ikincisi isə danışıq dilinə məxsusdur.

Heyf (hayıf) nidası həm müstəqil olaraq, təcridolunmuş şəkildə, həm də cümlənin müəyyən ünsürləri ilə əlaqəyə girərək işlənir.

1. *Heyf* nidasının müstəqil olaraq işlənməsi.

Tfu, nə fəlakətdir bu?! *Heyf, heyf!* (M.Süleymanov. Yerin sirri,).

-Heyf, heyf, -o, naümid bir halda pıçıldadı (M.Süleymanov. Dağlar qoynunda fırtına).

Heyf nidası *ki* bağlayıcısı ilə də işlənir.

Kür qırağının əcəb seyrəngahı var, Yaşılbaş sonası hayıf ki, yoxdur! Ucu tər cığalı siyah tellərin hərdən tamaşası, hayıf ki, yoxdur! (M.P.Vaqif. Əsərləri, 110).

Heyf ki, xətrinə dəyə bilmirəm, deyərdim ki, bu “siz”, “biz”lə ətimi tökmə (B.Bayramov. Cıdır düzü, 30).

Heyf ki, Əlibala yoxdur (M.Süleymanov. Dağlar qoynunda fırtına).

Heyf nidasının ifadə etdiyi heyfsilənmə mənasının daha intensiv çalarını bildirmək üçün «çox» ədatından istifadə olunur:

Heyf, çox heyf ki, bizim millət peyğəmbər buyruğuna da əməl etmir belə (N.Nərimanov. Nadanlıq).

2. *Heyf* sözünün başqa sözlərlə əlaqədar olaraq işlənməsi.

Bu halda *heyf* sözü əlaqəyə girdiyi sözün ya yönlük, ya da çıxışlıq halda olmasını tələb edir. Məsələn:

Hayıf o dağlara! (Əfqan. Həsrət də bir vüsaldır,).

Heyf ana südünə, heyf! (B.Babanlı. Həyat bizi sınayır, 389).

Heyf, çox heyf qayğısız, kədərsiz uşaqlıq çağlarından! (S.Qədirzadə. Kəndimizdə bir gözəl var).

Heyf ondan, heyf! (H.Abbaszadə. Uzaqdan gələn qonaq).

Biz burada istər modallıq, istər mətndə nidaların işlənməsi, istərsə də Azərbaycan dilinin sintaksisi baxımdan maraqlı bir hadisəyə toxunmaq istəyirik. Bu, *heyf* sözünün təkrar işlənməsi ilə bağlıdır. Onun təkrar olaraq işlənməsi başqa nidaların (məsələn, müq.et: *bəh-bəh-bəh* və s.) təkrar-təkrar işlənməsinin eyni deyildir. Bu, məhz sintaktik, məsafəli təkrardır və məhz heyfsilənmə bildirən nidalarla əlaqədar olaraq özünü göstərir. O, eyni zamanda emosionallıq ifadəsinə xidmət edir.

Əfsus nidası

Həmin nida iki şəkildə işlənir: həm təklikdə, müstəqil şəkildə, həm də *ki* bağlayıcısı ilə birlikdə. Hər iki variant ədəbi dilə məxsusdur.

Əfsus, qocaldım, ağacım düşdü əlimdən (Sabir).

Əfsus! Artıq gecdir, zavallı! (A.Rzayev. Zəncir, 118).

Əfsus, bu aləmdən hələ uzaqdır (Qabil. Seçilmiş əsərləri, 203).

Əfsus ki, yar qeyrisinin aşinasıdır (C.Cabbarlı. Nəsrəddin şah).

Əfsus ki, qadının gözlərindəki ifadəni Əkrəm oxuya bilməyəcəkdi (S.Qədirzadə. Kəndimizdə bir gözəl var, 16).

Ancaq, *əfsus ki,* şərti zəng indi vurulmuşdu (Z.Ağayev. Dünyanın düz vaxtı, 56).

Əfsus ki, ifadəsi *əfsus* nidasından törəmə olsa da, ondan daha artıq işləkdir.

Təəssüf nidası

Həmin nida da ədəbi dilə məxsusdur. O, istisnasız olaraq *ki* bağlayıcısı ilə işlənir.

Təəssüf ki, bir qərara gələ bilmədik (M.Süleymanov. Yerin sirri).

Gülarə, təəssüf ki, sənin bu gözəl arzuna əməl edə bilməyəcəyəm (Ə.Dilbazi. Məhəbbət qocalmır).

Çox *təəssüf* ki, belə-belə şeyləri biz bütün ömrümüz boyu az görmürük, onların acısını, iztirabını az çəkmirik (V.Babanlı. Vicdan susanda).

Beləliklə, biz görürük ki, *heyf, əfsus* və *təəssüf* nidaları ki bağlayıcısı ilə işlənir: birincisi tən yarıbayarı, ikincisi yarıdan çox, üçüncüsü isə əksərən (monoloci nitqdə *təəssüf* nidası *ki* bağlayıcısı olmadan işlənmir). Bununla belə, biz deyə bilərik ki, məsələn, *heyf* nidası ilə yanaşı, Azərbaycan dilində *heyf ki* nidası da vardır.

Hər üç halda *ki* bağlayıcısı bağlayıcı olaraq qalır və özündən qabaqkı və sonrakı ünsürlər arasında əlaqə yaradır.

Təqdiretmə, bəyənmə, alqışlama modal mənası ilə bağlı olan nidalar:

Həmin qrupa *əhsən, afərin, bərəkallah, maşallah* nidaları aiddir.

Əhsən, Taclıbəyim! (F.Kərimzadə. Çaldıran döyüşü, 30).

Hə! *Əhsən!* Mən müəllimi belə tanımazdım: qızıl kimi oğlandır (N.Nağıyev. Həsrət, 215).

Afərin ustadına! (Klişe).

Afərin, afərin! Daşa da dil verər sənin hünərin! (S.Vurğun. Fərhad və Şirin).

Mərhəba, mərhəba, İlyas pəhləvan! (S.Vurğun. Vaqif).

İstehza, tənə modal mənası ilə bağlı olan nidalar

Bura *ay-hay, hay-hay* nidaları aiddir.

Ay-hay! Fərhad ölüb, külüngünün səsi gəlmir! (F.Kərimzadə. Xudafərin körpüsü, 11).

Ay-hay! Bir reys hökumətə işləyirlərsə, iki reys də levi gedirlər! (Z.Ağayev. Beş günün intizarı, 95).

Ay-hay! Bu dedi, sən də inandın! (V.Babanlı. Vicdan susanda, 23).

Hələ şübhə altından çıxmayıb, özünü doğrultmayıb, istəyir dövlətdən mükafat alsın, hay-hay! (Mir Cəlal. Açıq kitab, 140).

Sevinc, nəşə modal mənası ilə bağlı olan nidalar

Bura *can, ay can* nidaları aiddir.

Can nidası çox vaxt istəkli adama cavab olaraq işlədilir:

-Dədə (ata)… -*Can! (dan)*. O, ağlayan, yaxud yüngül xəsarət almış uşağa müraciətlə də işlədilir: *Can, can,* ağlama (dan).

Can nidası bu kimi xüsusiyyətlərinə görə şəxs adlarına əlavə edilərək işlədilir:

Durma qapı dalında, *Məryəm can!* Gözüm qaldı xalında, *Məryəm can!* (Xalq mahnısı).

Can nidası həm təklikdə, həm də *ay* vokativi ilə birlikdə sevinc, nəşə məqamında da işlədilir.

Doğdu Günəş qırmızı, *can* gülüm, *can, can,* Topladı oğlan-qızı, *can* gülüm, *can, can!* (Uşaq mahnısı). Düşdü bütün qəzetlər qiymətdən, *ay can, ay can!* (Sabir).

Anam gəlir, *ay can!* -deyə uşaq sevinclə atılıb-düşdü (G.Fəzli. İldırımlı dağlar, 32).

Sevinc, nəşə mənasına yaxın olan nidalardan biri də *ha/xa* nidasıdır. Bu nida gülüş bildirir.

Doğrudur, gülüş əsasən sevinc doğuran hadisələrlə bağlıdır. Amma bununla belə, gülüşdən-gülüşə də fərq vardır. Ona görə də *ha/xa* nidası təkcə sevinclə bağlı olan gülüşlə yox, istehza, qəm-qüssə ilə müşayiət olunan gülüşlə əlaqədar olaraq zühur edir. Həmin nidadan ötrü ən xarakterik xüsusiyyətlərdən biri də budur ki, o, demək olar ki, tək işlənmir; iki və daha artıq təkrar olunaraq işlənmək bu nidadan ötrü daha səciyyəvidir.

Ha… ha… ha… Doğrudan, ağıllısınız! Adam da eşq üçün odlara yanar? (S.Vurğun. İnsan, 240).

Ha… ha… ha… O arvadı nə qədər gec deyil, oradan rədd elə, -təhdidə keçdi, -yoxsa pis olar (M.Süleymanov. Dağlar qoynunda fırtına, 79).

Nə yuxu? *Ha, ha!* İndiki zamanda ancaq frontda ölülər yuxu yatır! (İ.Hüseynov. Tütək səsi, 59).

Ha, ha, ha, ha!.. Gorun çatlasın, ay Yavər, çıx, qoşa-qoşa balanın toyudur… *ha, ha, ha, ha!* (Z.Ağayev. Qoşa qanad, 77).

Xa variantının ifadə etdiyi modal məna ha variantınınkının eynidir. Amma xa variantı ha variantına nisbətən məhdud işlənir.

Xa-xa! Xox! Qorxdum! (E.Əfəndiyev. Ayaqqabı, 189).

Xa-xa-xa-xa-xa! Bəli, bu sualı etməyə haqq tərəfindəsiniz (M.F.Axundov. Hekayəti-Molla İbrahimxəlil kimyagər, 19).

Xa-xa-xa… xa-xa-xa… Bığların da sallaqdır, lap İraq naibinə oxşayırsan (Y.V.Çəmənzəminli. Studentlər, 50).

Təşviqetmə, sövqetmə modal mənası ilə bağlı olan nidalar

Azərbaycan dilində nidaların bir qrupunu müraciət nidaları, xitab-nidalar təşkil edir. Bunlar əsasən aşağıdakılardır: *a, ay (dan), ey.*

Müraciət nidalarının əsas xüsusiyyəti onların cümlədə xitablarla işlənib, müraciət olunan şəxsin diqqətini özünə cəlb etmək, onun ünsiyyətdə iştirak etməsinə nail olmaq, onu müəyyən hərəkətlərin icrasına təşviq etməkdən ibarətdir. Təsadüfi deyildir ki, həmin sözlərin iştirak etdiyi cümlələrin xəbəri felin əmr şəkli ilə ifadə olunur. Müraciət nidaları əmr (etmə) modallığı ilə bağlıdır.

Müraciət nidaları həm təklikdə, həm də xitablarla birlikdə işlənir. Məsələn:

A nidası

Bu nida daha çox danışıq dilinə məxsus olub, *bala, qızım* və s. nəzakət bildirən sözlərlə işlənir.

A bala, höcət eləməyin, görmürsünüzmü, tərs damarına düşüb?! (İ.Şıxlı. Dəli Kür, 52).

A yüzbaşı, bəs murova nə deyək? (.M.F.Axundov. Hekayəti-mərdi-xəsis, 121).

A kişi, sən də, öz aramızdır, xanım içkisi içirsən (C.Cabbarlı. Aydın, 182).

Ay nidası

Belə düşünmək olar ki, *ay* nidası *a* nidası ilə variantlıq münasibətindədir; amma o, ondan çox işlənir. *Ay* nidası da yanaşdığı xitabla birlikdə işlənir.

Ay uşaqlar, bir yaxşı ocaq çatın (İ.Şıxlı. Dəli Kür, 32).

Ay canım, padşahdır, birdən tərs damarına düşər, başını kəsdirər (Y.V.Çəmənzəminli. Qan içində, 310).

Ay falçı, hələ də köhnə xasiyyətindən əl çəkməyibsən?! (Ə.Hacızadə. Dünyanı tanı, 86).

Ay oğul, xan qızı Sənəm xanım sənə sovqat göndərib (Y.V.Çəmənzəminli. Qan içində, 137).

Hardasan, *ay qağa,* dadıma çat, *ay qardaş!* (İ.Şıxlı. Dəli Kür, 308).

Ey nidası

Bu nida ədəbi dilə, ali üsluba xas olan bir sözdür. Ey nidasının üç işlənmə məqamı diqqəti cəlb edir:

1. *Ey* nidası tək şəxsə, fərdə müraciət məqamında işlənir.

Ey gözəllər şahı, sənin vətəninə gəlmişik (F.Kərimzadə. Xudafərin körpüsü, 79).

2. *Ey* nidası müəyyən şəxslər qrupuna müraciət məqamında işlənir.

Ey Ərdəbil əhli, bura gələnə kimi əgər mənim gücüm bir idisə, indi min oldu! (F.Kərimzadə. Xudafərin körpüsü, 298).

Qalxın, *ey müsəlmanlar!* ((F.Kərimzadə. Çaldıran döyüşü, 17).

Ey müsəlmanlar, bu günlər bir hidayət vəqtidir! (Sabir).

3. *Ey* nidası "Allah" mənasında olan sözlərlə işlənir. Qeyd etmək lazımdır ki, həmin məqamda *ay* nidası da işlənir (*a* nidası isə işlənmir).

Ey tanrı, sənə inanmayana min lənət! (F.Kərimzadə. Xudafərin körpüsü, 119).

4. *Ey* nidası Azərbaycan klassik şerində şairlərin özlərinə müraciəti məqamında işlənir. Məsələn:

Eşqara rüsvalığım tən etməgil, *ey Kişvəri!* (Kişvəri).

5. *Ey* nidası təklikdə də işlənir.

Ey, orada nə pıçhapıçdır?! (G.Fəzli. Yeddi ulduzlu səma, 42).

Ey, saxla, saxla görüm, ey! Taksi! (A.Rzayev. Taksi və vaxt, 41).

Ey, sən kimsən? (F.Kərimzadə. Çaldıran döyüşü, 37).

Ey, rus Əhməd, artıq-əskik danışma! Ey, rus Əhməd, bildirçini mən vurmuşam (İ.Şıxlı. Dəli Kür, 132).

Sonuncu iki misal onunla diqqəti cəlb edir ki, burada *ey* nidası xitabla yanaşı gəlsə də, onun tərkib hissəsinə çevrilmiş, müstəqil intonasiya ilə ondan ayrılır.

Müraciət məqamında *can* sözü də işlənir. Başqa müraciət nidalarından bunun fərqi odur ki, *can* nidası xüsusi münasibət bəsləyən obyektin adına qoşulur.

Məni sevirsənsə, getmə, *Əkrəm can!* (S.Qədirzadə. Kəndimizdə bir gözəl var, 58).

Çağırma və cavabvermə modal mənası ilə bağlı olan nidalar:

Bura *hey* və qismən də *can, ay can* nidaları aiddir. Məsələn:

Meşədə üç balaca işıq sürətlə ora-bura hərəkət edirdi və ara-sıra "Leyla, hey!" deyə gah Laçının, gah da Elxanın səsi eşidilirdi (İ.Əfəndiyev. Tufandan sonra, 342).

Nidaların emfatik modallıqla əlaqədar olaraq işlənməsi

Biz bir qədər əvvəl ekspressivliklə əlaqədar olaraq bəzi nidalarda sait səsin uzanması, samit səsin təkrarlanması kimi hadisələrin baş verdiyini qeyd etmişik. Həmin misallara aşağıdakı faktları da əlavə edə bilərik.

-*Oxay,* -qız məst olmuşdu (M.İsmayılzadə. Üç nöqtə, 21).

-*Oxqay,* -deyib açdı o, yaxasını, başını (Qabil. Seçilmiş əsərləri, 338).

Oxxay!. Ay allah, bütün arzularımı beləcə yerinə yetirsən, nə olar?! (N.Nağıyev. Həsrət, 169).

2. Modallığın ədatlarla ifadəsi.

Ədatlar məqsəd və intonasiyaya görə cümlə tipləri və cümlə üzvlərinin mənalarının qüvvətləndirilməsinə kömək edən sözlərdir. Ədatlar cümlənin nəqli (təsdiq və inkar), sual, əmr, nida cümləsi kimi tipləri ilə əlaqədar olaraq işlənir. Ədatlar cümlə üzvlərindən əsasən mübtəda, tamamlıq, zərflik, təyin, qismən də xəbərlə əlaqədar olaraq işlənir.

Təsdiq modallığının ədatla ifadəsi

Azərbaycan dilində təsdiq ədatları əsasən bunlardır: *hə, bəli.* Bundan başqa, funksional məqamda *budur, odur, belədir, elədir sözləri, özüdür ki, var* ifadəsi də təsdiq modallığının ifadəsinə xidmət edir. Burasını da qeyd etmək lazımdır ki, təsdiq ədatları həm təklikdə, cümlə əvəzi kimi,

həm də aid olduqları cümlə ilə birlikdə, onun bir tərkib hissəsi kimi işlənə bilir.

Bəli ədatı

Bəli, biz Bağdadı tutacağıq. Özü də lap tez (M.İsmayıl. İki od arasında, 140).

Bəli, biz də elə bunu deyirik (M.F.Axundov. Mürafiə vəkillərinin hekayəti, 151).

Bəli, həmin məktubu mən göndərmişəm (M.S.Ordubadi. Dumanlı Təbriz, 520).

Bəli ədatının təklikdə, cümlə kimi işlənməsi

-Bəli, deyə Cahandar ağa yavaşca dilləndi və ayağa qalxdı (İ.Şıxlı. Dəli Kür, 131).

Yüksək emosionallıq məqamında *bəli* sözü təkrar-təkrar da işlənir:

-Bəli, bəli, bəli!

Əsgər xan yerindən qalxıb, Səfinin boynunu qucaqladı (Ə.Nicat. Gəncəli müdrik, 117).

Hə ədatı

Hə ədatı, *bəli* ədatı kimi, təsdiq məqamında işlənməklə, ondan nəzakət çalarının olmaması, neytral məna daşıması ilə fərqlənir.

-Razısan? *-hə, hə!* (Ü.Hacıbəyov. O olmasın, bu olsun).

Hə, mən də elə sən deyəni deyirəm (“Kirpi”). Hə! Xəlilin adına çox belə əfsanələr danışırlar (F.Kərimzadə. Qarlı aşırım, 40).

Budur ədatı

Budur, bizim küçənin tinində “Varşava paltar yuyanı” var (Y.V.Çəmənzəminli. Studentlər, 10).

Budur, Faxirə qollarını açıb atasının üstünə atılır (Mir Cəlal. Dirilən adam, 37).

Aha, *budur,* gəldilər (İ.Əfəndiyev. Bahar suları, 172).

Bir də görürsən ki, *budur,* kombinatın pəncərəsinə doğru üz tutur, doğma yurdda yuva salırlar (Ə.İsayev. Göyərçin pərvazlanır, 8).

Verilən nümunələrə görə deyə bilərik ki, *budur* ifadəsi yalnız cümlənin (yaxud sintaqmın) əvvəlində gəlib, onu təqdim edərkən modal funksiya daşıyır. Bunu *odur* ifadəsi haqqında da demək olar.

Odur ədatı

Odur, uşaqlar da gəldilər (H.Sarabski. Köhnə Bakı, 62).

Odur ki, əvvəlcə özündən asılı olmayaraq "ata" deyə çağırmaq istədi (S.Hacıyev. Xatirələr dil açır, 128).

Elədir ədatı

Elədir, insanı tərbiyə etmək, dəyişdirmək çətindir (Ə.Babayeva. Səni axtarıram, 55).

Elədir ədatı daha çox cümlə (əvəzi) kimi işlənir:

Elədir. Bunların hər ilməsini atanda xəyalımdan min fikir gəlib keçirdi (İ.Əfəndiyev. Bahar suları, 179).

Elədir, amma kimi inandırasan? (N.Babayev. Babam, nənəm, atam, anam və biz, 244).

-Elədir, -deyə Əhməd sakitcə cavab verdi (İ.Şıxlı. Dəli Kür, 124).

İnkar modallığının ədatla ifadəsi

İnkar modallığı *yox, xeyr, heç* inkar ədatları ilə ifadə olunur.

Yox ədatı

Həmin ədat inkar ədatı kimi *hə* təsdiq ədatına qarşı durur, ancaq neytral məqamda işlənməsinə görə onun tam eynidir. *Yox* ədatı, *hə, bəli, xeyr* ədatları kimi, həm cümlə əvəzi kimi, həm də cümlənin tərkib hissəsi kimi işlənir.

Yox, bu səs ona tanış deyil (G.Fəzli. Yeddi ulduzlu səma).

Yox, qısa olmaz (Ə.Babayeva. Səni axtarıram, 4).

Yox, lap yaxşıdır (İ.Şıxlı. Dəli Kür).

Yox ədatı təkrar olunaraq da işlənir.

Yox, yox, Mənsurə, söhbətini elə, fikrim səndədir (S.Qədirzadə. SƏ, 162).

Xeyr ədatı

Xeyr ədatı nəzakət məqamında inkar modallığı bildirir.

Xeyr, nə Sabit müəllim belə güman edirdi, nə də mən belə düşünürəm (N.Babayev. Babam, nənəm, atam, anam və biz, 232).

Xeyr, ay qız, qoy, sözümü qurtarım, sonra sən danışarsan (S.Qədirzadə. Ülkər Aytəkin, 225).

Həmçinin müq.et: *Xeyr,* o otağın çölə pəncərəsi belə yoxdur (M.S.Ordubadi. Dumanlı Təbriz, 222).

Heç ədatı

Bu ədat ritorik sual və nəqli cümlədə işlənib, cümlənin ümumi məzmununu qüvvətləndirir.

Heç dəxli var mətləbə?! -deyə üzünü yana tutub deyindi (S.Qədirzadə. SƏ, 14).

Buna *heç* şübhə yoxdur, Seyfi əmi (M.Əliyev. Torpağın ətri, 150).

Kefini *heç* pozub-eləmə, əşi! (V.Babanlı. Vicdan susanda, 47).

Sual modallığının ədatla ifadəsi

Sual modallığı Azərbaycan dilində sual ədatlarının işlənməsini zəruri edir. Sual mənasının ifadəsində mühüm yerlərdən birini sual ədatları tutur.

-mı[4] ədatı

Bu ədat cümlədə özündən qabaq gələn sözə qoşulub sual mənasını qüvvətləndirir. Azərbaycan dilində -mı[4] ədatı yeganə ədatdır ki, şəkilçi vəziyyətində işlənir.

Nə əmr?! Atları görmədən əmr verə bilərəmmi?! (Y.V.Çəmənzəminli. Studentlər, 150).

Baharın bunu deməyə haqqı varmı? (Mir Cəlal. Bir gəncin manifesti, 10).

Bəs ədatı

Bəs ədatı ya ayrı-ayrı cümlə üzvlərinin, ya da bütövlükdə cümlənin mənasını qüvvətləndirir. Aşağıdakı misallarda müvafiq sözlər (cümlə üzvləri) kursivlə veriləcəkdir.

Burada da oxumasam, *bəs harada* oxuyacağam?! (H.Sarabski. Köhnə Bakı, 102).

-*Bəs,* ay yoldaş, -deyə onu saxladı, -mən bunu *hara* köçürüm? (Əfqan. Həsrət də bir vüsaldır, 268).

Bəs sən, oğlum, *yatmayacaqsan?* (S.S.Axundov. Qaraca qız, 125).

Bəs kəndimizin klubunda necə, qızlar oğlanlarla birlikdə toplaşırlar? (S.Qədirzadə. Ülkər Aytəkin, 64).

Məgər ədatı

Həmin ədat ritorik sual cümlələrində işlənərək, emosionallığın bir qədər də artmasına kömək edir.

Məgər mənim özümün pulum var?! (M.F.Axundov. Hekayəti-mərdi-xəsis, 102).

Mən *məgər* belə çirkinəm ki, məni ona oxşadırsan?! (H.Sarabski. Köhnə Bakı, 76).

Məgər özünə kişi deyən şəxs kişiyə layiq olmayan sifətlərlə barışa bilərmi? (N.Babayev. Adamın özü və sözü, 6).

Yəni ədatı

Həmin ədat mənşəcə *yəni* izahedici bağlayıcısı ilə bağlıdır. Ona görə də o, cümlədə suala əlavə dəlil-sübut axtarışı çaları verir.

Sonra otağa baxmışdı: *yəni,* o iclas bura yerləşməz görəsən? (Hidayət. Sabaha çox var, 18).

Yəni, Nurcabbar bilmir bunu? (İ.Məlikzadə. Günəşli payız, 87).

Sual modallığının bu tipi də təsdiq məqsədi güdür. Bu, normativ qrammatikadan yaxşı məlum olan ritorik sualdır. Həmin məqamda sual ədatı sual mənasının qüvvətlənməsinə, onunla birlikdə isə təsdiq mənasının ifadəsinə xidmət etmiş olur. Bir qədər bundan qabaq M.F.Axundovdan verdiyimiz misal "Məgər mənim özümün pulum var?!" "Mənim özümün də pulum yoxdur" deməkdir. Həmin modal məna başqa ədatların işləndiyi sual cümlələrində də özünü göstərir.

Yəni, bundan asan nə var?! (M.F.Axundov.Hekayəti-xırs-quldurbasan, 57) =Bundan asan heç nə yoxdur".

Bütün bunlar Əhmədin kələyi deyilmi? Elə keçən il Cahandar ağanı baş-beyindən çıxarıb Əşrəfi oxumağa göndərtdirən də bu deyilmi? (İ.Şıxlı. Dəli Kür,129).

Funksional təbəddülatın bütün başqa hallarında olduğu kimi, burada da ibarənin ifadə və məzmun planları arasında uyğunsuzluq vardır; o, ifadə cəhətindən sual, məzmun baxımındansa təsdiq (nəqletmə) bildirir.

Əmr modallığının ədatlarla ifadəsi

Əmr modallığı əsasən felin əmr şəkli ilə ifadə olunur. Sintaktik səviyyədə bu modallığa əmr cümlələri müvafiq gəlir. Bununla yanaşı, modallığın həmin növündə əmr ədatlarından da istifadə olunur.

Bildiyimiz kimi, felin əmr şəklinin əmrdən başqa bir sıra qeyri mənalar (arzu, öyüd, istək, dilək) ifadə etmək xüsusiyyəti vardır. Əmr modallığı da təkcə əmrlə məhdudlaşmır. O, arzu, mümkünlük və s. kimi mənalar da ifadə edir. Təsadüfi deyildir ki, əmr ədatı adı ilə tanınan bəzi

sözlər *(bax, gör, görək, görüm, qoy)* bu adı mənşəcə felin əmr şəkli forması ilə bağlı olduqlarına görə daşıyırlar. Əslində isə onlar çox vaxt felin əmr şəkli işlənən cümlələrdə işlənmirlər.

Gəl ədatı

Bu ədat *gəl* felinin ikinci şəxs tək formasından törəmədir. Onun işləndiyi cümlənin xəbəri müvafiq surətdə ya ikinci şəxsin təkinə, ya da birinci şəxsin cəminə aid olan fellə ifadə olunur. Məsələn:

Gəl, nə qədər onlar burada yoxdur, *qaçaq!* (C.Cabbarlı. Vəfalı Səriyyə, 22). – təklif mənası.

Gəl, bir *güləşək,* görüm sənin canın nədir ki, düşüb ortalığı qarışdırırsan! (Y.V.Çəmənzəminli. Studentlər, 52).

Gəl, əyri *oturaq,* düz *danışaq (dan.).*

Verilən misalların hamısında təklif mənası ifadə olunmuşdur. Amma diqqət verdikdə görmək olur ki, bu təkliflərin hamısı şərti xarakter daşıyır.

Gəlin ədatı

Bu ədat mənşəcə *gəl* felinin ikinci şəxs təki formasından törəmədir. Onun işləndiyi cümlənin xəbəri birinci şəxsin cəminə aid olur. Amma ikinci şəxsin cəmi forması da istisna olunmur.

Gəlin, elə yaşayaq ki, bu güzgüdə eybəcər *görünməyək,* qəlbi, ruhu, təmiz və gözəl görünək (N.Babayev. Adamın özü və sözü, 40).

Gəlin, vaxtı *itirməyək,* yoldaş, vətəndaş Krunsel (Z.Ağayev. Dünyanın düz vaxtı, 157).

Gəlin, gəlin, qazıya gedək, qoy, kəbini kəssin (Ü.Hacıbəyov. O olmasın, bu olsun).

Gəlsənə ədatı

Bu, gəl ədatının törəməsidir və onun ifadə etdiyi mənaya daha çox intimlik verir. Əlbəttə, *gəl* ədatının ifadə etdiyi təklif mənası kimi, bu məna da tamamilə şərti xarakter daşıyır.

Gəlsənə, bu gün dünyadan yaxşıca hayfımızı çıxaq? (S.Nəzirova. Tale damğası, 91).

Gəlsənə, boğazını sərçə boğazı kimi üzüm?.. (V.Babanlı. Həyat bizi sınayır, 8).

Gör ədatı

Belə başa düşmək olur ki, *gör* ədatının işləndiyi cümlə tipi tarixən (mənşəcə) tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədən törəmişdir.

Gör, necə əl-ayağa düşür, elə bil, tək qalmağımıza sevinir (İ.Məlikzadə. Günəşli payız, 164).

Gör, əmi necə ağıllı, fərasətli adamdır ki, rəqiblər də onu böyük adam hesab edirlər! (N.Nərimanov. Bir kəndin sərgüzəşti, 249).

Görün ədatı

Həmin ədat həm mənşəcə, həm də funksional baxımdan *gör* ədatı ilə bağlıdır. Onun mənşəcə ikinci şəxsin cəminə aid olması cümlədə həmin şəxsə mənsub olan əvəzlik və fel formaları ilə işlənməsini zəruri edir.

Görün, hansına razısınız, fikrinizi *bildirin* (M.Aslan. Bizdən sonra nə qalır,8).

Qoy, qadir Allah onu mənə göstərsin, *görün,* başına nə oyun açacağam! (O.Salamzadə. Gəncə qapısı).

Görün özünü nə kökə salıb! (Ə.İldırımoğlu. Dərd, 64).

Görüm ədatı

Bu ədatın felin birinci şəxsin təki üçün əmr şəkli forması ilə əlaqəsi şübhəsizdir. Nitqdə modal məqamda bu ədat həm təklikdə, həm də *demək* feli ilə birlikdə işlənir. Məsələn:

Gedim *görüm* nə eləyirəm (dan).

Düzünü de *-görüm,* harada idin? (S.S.Axundov. Nurəddin, 43).

Deyin *görüm,* bu otaq qışda isti olurmu? (Y.V.Çəmənzəminli. Studentlər,9).

Bundan başqa, *görüm* ədatı *baxım* sözü ilə də əlaqədə işlənə bilir; müq.et:

Elə deyirəm ki, dədə, qoy *baxım,* qoy *görüm,* burda nə var? (H.Abbaszadə. Uzaqdan gələn qonaq). Həmçinin bax: *gərək* ədatı.

Görək ədatı

Bu ədat *gör-* felinin birinci şəxsin cəmi üçün əmr şəkli formasından törəmədir.

Biz də arın-arxayın başımızı aşağı salıb bir tikə çörək pulu qazanıb yavaş-yavaş balalarımızı dolandıraq, *görək* bu dünyanın axırı hara gedir (Ə.İldırımoğlu. Dərd, 17).

Tez olun *görək,* acından qırıldıq (İ.Məlikzadə. Günəşli payız, 216).

Görək ədatı *baxaq* ədatı ilə də əlaqələnərək, işlənə bilir:

Qızım, qoy, birisini də mən söyləyim, sonra *baxaq-görək* kiminki əladır! (S.S.Axundov).

Beləliklə, biz Azərbaycan dilinin qrammatikası üçün olduqca maraqlı olan bir hadisəni qeyd etməliyik. *Gör* felinin əmr şəklinin bütün paradiqması modal mənada işlənə bilir. Doğrudur, üçüncü şəxsin təki və cəmi üçün olan *görsün* və *görsünlər* formalarına aid əlimizdə material yoxdur, amma canlı nitqdə bu formaların modal mənada işlənməsi nadir hadisə deyildir.

Qoy ədatı

Bu ədat təhriketmə, sövqetmə məqamlarında işlənir. O, ikinci şəxsə müraciətlə işlənir, onun qoşulduğu əsas fel birinci və üçüncü şəxslərə aid olur.

O keçən günlər isə, *qoy,* bizim gələcək həyatımızın xatirəsi olsun (İ.Əfəndiyev. Bahar suları, 185).

Qoy, bütün Ərdəbil torpağı silkinib yasdan çıxsın (F.Kərimzadə. Xudafərin körpüsü, 192).

Qoy, dost da, düşmən də ilk gündən bilinsin (F.Kərimzadə. Çaldıran döyüşü, 14).

Qoysana ədatı

Bu ədat həm sözdüzəltmə, həm də funksional baxımdan *qoy* ədatının törəməsi olub, onun ifadə etdiyi mənanı təkid çaları ilə ifadə edir. O, etiraz, xahiş məqamında işlənir [10, s.305].

Qoysana, gəlinin sənə kömək eləyə, ay ana (V.Babanlı. Həyat bizi sınayır,195).

Qoyun ədatı

Qoy ədatının törəməsi olub, funksional baxımdan onun tam eynidir; *qoy* ədatından əsas fərqi çoxlu şəxsə müraciət məqamında işlənməsindən ibarətdir.

Qoyun, hər nə istəyirlər, aparsınlar (M.S.Ordubadi. Dumanlı Təbriz, 483).

Qoyun, yaşayaq, görək, necə yaşayırıq (M.Süleymanlı. Yel Əhmədin bəyliyi, 260).

Biz indiyə qədər mənşəcə fellərlə bağlı olan əmr ədatlarını nəzərdən keçirdik. Əmr ədatları içərisində

mənşəcə fellərlə bağlı olmayanlar da vardır: *di, da/də, ha* və s.

Di bir yerə otur, qulaq as, deyim ki, hardan tapmışam… (M.F.Axundov. Hekayəti-mərdi-xəsis, 104).

Hə, *di* başlayın! (V.Babanlı. Vicdan susanda, 10).

Keçin, qabaqda əyləşin, *də!* (M.Süleymanov. Dağlar qoynunda fırtına,61).

Bu xalq da sənin kimi vətəndaşdır, *da!* (C.Cabbarlı. Almaz).

Ancaq sən də gələndə bu saçlarını daramağı yaddan çıxarma, *ha!* (S.Qədirzadə. Seçilmiş əsərləri, 83)

Ədə, kişi, bunu sənə etibar eləyirəm, itirməzsən, *ha!* (F.Kərimzadə. Qarlı aşırım, 15).

Misallardan gördüyümüz kimi, cümlələrdəki əsas fellərə *di* ədatı qabaqdan, *da/də* və *ha* ədatları axırdan yanaşır (qoşulur).

Arzu modallığının ədatla ifadəsi

Azərbaycan dilində arzu modal mənası əsasən felin arzu şəkli ilə ifadə olunur. Felin arzu şəklinin iki forması məlumdur: 1) *-a/ə* şəkilçisi ilə düzələn sadə forma *(alam, görəm);* 2) *-a/-ə+idi* bağlaması ilə düzələn mürəkkəb forma *(alaydım, görəydim).*

Biz burada həmin iki forma arasındakı məna fərqi məsələsini bir kənara qoyuruq. Bizim müşahidələrimizə görə, arzu bildirən ədatlar məhz ikinci forma ilə işlənir.

Barı ədatı

Barı, Rüstəmin yazıb-yaratmasına imkan veriləydi"! (S.Qədirzadə. Ülkər Aytəkin, 86).

Barı, nənəmə yazığı gələydi! (S.Hacıyev. Xatirələr dil açır, 125).

Kaş ədatı

Nola, bir evdə qalaydım qaravaş, *Verməyəydiz* məni bu əbləhə, kaş! (Sabir. Hop-hopnamə, 173).

Kaş, şəhərdə qalıb, ondan bir xəbər gözləyəydim! (S.S.Axundov. Nurəddin, 27).

Kaş öləydim, səni dərdə salmayaydım! (İ.Şıxlı. Dəli Kür, 64).

Kaş ədatı ki bağlayıcısı ilə də işlənir.

Kaş ki, heç çevirməyəydi! (Mir Cəlal. Dirilən adam, SƏ, 28).

Təki ədatı

Bu ədat daha çox danışıq dilinə xasdır. O əksər hallarda felin əmr şəkli, az-az hallarda isə felin arzu şəklinin mürəkkəb forması ilə işlənir. Məsələn:

Təki, ağıllı, sədaqətli olsun, Gülşad (S.Qədirzadə. Ülkər Aytəkin, 26).

Təki, elə olsun, nə deyirəm, ay qardaş?! (Y.V.Çəmənzəminli. Studentlər,49).

Gördüyümüz kimi, *təki* ədatı işləndiyi cümlələrin xəbəri olan felin əmr şəklinin mənasını zəiflədir, onu əmretmədən çıxarıb, arzu, istək, dilək mənasına yaxınlaşdırır.

Əlimizdə olan materiallar içərisində *təki* ədatının arzu şəklinin mürəkkəb forması ilə işlənməsinə də təsadüf edirik.

Təki doğru çıxaydı! (S.Qədirzadə. Ülkər Aytəkin, 183).

Bircə ədatı

Arzu modal mənası ilə əlaqədar olaraq işlənən bu ədat təcridetmə çaları da bildirir.

Bircə, bu yerlərə su çəkilsəydi, dərdim olmazdı! (Ə.İsayev. Göyərçin pərvazlanır, 17).

Bircə, mən bu ağacdan qorxmazdım (Ə.Hacıyeva. O günlərə baxıram, 15).

Bircə ədatının cümlədə işlənməsi təkcə şərt şəklinin mürəkkəb forması və arzu şəklinin mürəkkəb forması ilə məhdudlaşmır. O, felin əmr şəkli ilə də işlənir [10, s.303].

3. Modallığın ara cümlə və əlavələrlə ifadəsi.

Sintaksis sahəsində modallıq aşağıdakı üsullarla ifadə olunur. Birincisi, daxiledici sözlərin köməyi ilə. Bu, ilk növbədə qiymətləndirmə bildirən sözlərin köməyi ilə mürəkkəb cümlələrin qurulması şəklində özünü göstərir. Məsələn:

Yaxşı ki, bunu yadıma saldın!

Nə *yaxşı,* vaxtında gəlib-çıxdın!

Təəssüf ki, bu gün mənim vaxtım yoxdur (işim var). Yoxsa mütləq sizinlə gedərdim.

İkincisi, modallığın sırf sintaktik ifadə vasitələri sırasına ara cümlələr, daxiledici cümlələr və əlavə, qoşma tərkiblər daxildir. Bunlardan aşağıdakıları qeyd edə bilərik.

1. *Ümid etmək, ümidvar (olmaq)* ifadələrinin köməyi ilə modallığın ifadə olunması. Həmin sözlər baş cümlənin xəbəri olur, özü də indiki zamanı bildirir, budaq cümlənin xəbəri isə gələcək zamanı bildirir.

Ümid edirəm ki, hələ Milliylə çox görüşəcəksiz (Z.Ağayev. Dünyanın düz vaxtı, 55).

2. Məlumata qiymət verməklə modallığın ifadə olunması.

Biz onu yaxşı bilirik ki, Siz bizə xəyanət edən adamlardan deyilsiniz (C.Məmmədquluzadə. Kişmiş oyunu, 94).

Əlbəttə, Fazilə də, Cavanşir də bilirdi ki, əslində lap doğrusu bu idi ki, var – Kərki kişinin acığı tutub, öz səksən yaşına (Elçin, SƏ, I, 84).

Əslinə baxsan, nökərlərin araçılıq eləməyi zahir üçün idi (Mir Cəlal. Bir gəncin manifesti, 19).

Əslinə baxsan, o da yaman qəribsəyir (İ.Şıxlı. Dəli Kür, 131).

Aydın məsələ idi ki, bu həyət həmişə çox adamlı, beləcə gur olmamışdı (Elçin. SƏ, I, 99).

Qəribə bu idi ki, Şamxal evlənmişdi (İ.Şıxlı. Dəli Kür, 92).

Zərər o idi ki, Dilşadın adının ləkələnməsinə, kənddə bir para söz-söhbətin gəzməsinə, qızının indiyə qədər dul qalmasına […] səbəb olmuşdu (N.Nağıyev. Həsrət, 41).

Söz yox ki, Ağarəşid hampalığına, belinin xəncərinə, qolunun qüvvətinə, sözünün kəsərinə arxalananda da təkə-təklikdə Mərdanın üstünə gələ bilməzdi (Mir Cəlal. Bir gəncin manifesti, 27).

Amma gözünə döndüyüm arvad, *acıqcan belə deyirəm,* usta tərpənib, özünü ona tutdurmur (V.Babanlı).

Birinci dəfə olduğu üçün şiddətli töhmətlə keçiniblər *(bunu Asif bilmirdi)* (Z.Ağayev. Beş günün intizarı, 39).

3. Məlumatın mənbəyini dəqiqləşdirməklə bağlı olan modallığın ifadəsi.

Bu qəbildən olan modallıq daha çox şifahi mənbələrə əsaslanır. Məsələn:

Həmidə xəbər tutmuşdu ki, - *əslində atasının dediyi idi* – Tiflisin əlyazmaları evində gürcü əlifbası ilə yazılmış Azərbaycan bayatıları saxlanılır (B.Bayramov. Karvan yolu, 337).

Dağa köçməzdən əvvəl şəhərə gedib, işlərini sahmana salan və bir az da, *özü demişkən,* "ayın-oyun" alan Cahandar ağa otağa keçib taxtın üstündə əyləşəndə evi üçün bir daha qəribsədiyini dərk etdi (İ.Şıxlı. Dəli Kür, 138).

Deyilənə görə, bura ən təhlükəli dərə idi (Mir Cəlal. Dirilən adam, 29).

Deyilənə görə, Mərdan heç bu gün işə gəlməmişdi (Mir Cəlal. Bir gəncin manifesti, 28).

Deyilənə görə, o türbəyə müqəddəs bir adam basdırılmışdı (İ.Şıxlı. Dəli Kür, 144).

Kənd arasında pıçhapıç gedirdi ki, hökumət bu yolu tez çəkmək, Tiflisi İrəvanla, İrəvanı da Gəncə ilə birləşdirmək istəyirdi (İ.Şıxlı. Dəli Kür,95).

Bu qəbildən olan modallıq bəzi hallarda zənnə, gümana əsaslanır.

Onun zənnincə, kişi ömrü boyu istədiyini arvadına bildirməməlidir (İ.Şıxlı. Dəli Kür, 140).

4. Əsas (budaq) cümlədəki məlumat barəsində təyinedici, xəbərverici vəzifə daşıyan modallığın ifadəsi.

Dediyim odur ki, otaqdan ötrü sinov gedirəm (Mir Cəlal. Mərkəz adamı,189).

Sözüm odur ki, mənim ruzumu ver (İ.Şıxlı. Məni itirməyin, 163).

Yadıma düşmüşkən deyim ki, sizin seçdiyiniz sənət üçün ən birinci şərt inamlı olmaqdır (C.Əlibəyov. Mənim analı dünyam, 67).

5. Mülahizənin ünsürünün onomasioloci təyini ilə bağlı modallığın ifadəsi.

Modallığın bu növü mətndəki müəyyən sözün deyiliş, ifadə tərzi, ifadə planının təfsiri şəklində özünü göstərir. Məsələn:

Çayda çimərkən, həmin bu məktub yazan Petrus, *Petya deyərdilər,* Məmmədi batabatda xilas eləmişdi (B.Bayramov. Karvan yolu, 155).

Müdir, *ona burda komendant deyirlər,* zəhmli, zabitəli bir arvad idi (V.Babanlı. Həyat bizi sınayır, 39).

Ə, *qoçu (özünə məxsus bir söz idi, həmişə keçmiş şagirdlərinə deyərdi),* eşitdim Şakirovla yaman başlamısan (Z.Ağayev. Beş günün intizarı, 35).

Amma Zərnişanla *(xaç atasının adı belə idi)* əri yaxşı bilirdi ki, Bəkir dərddən itir (V.Nəsibov. Ceyrançöllü qoç Kərəməli, 93).

Durum gedim, babam *(atasına belə deyərdi)* tapşırıb, Namaz oğlu ilə Qareykəni yanına çağırım (V.Nəsibov. Ceyrançöllü qoç Kərəməli, 107).

Qaraxal tələbə *(əsil adı Kəlləağa idi)* gözünü açıb bircə ana görmüşdü(V.Nəsibov. Ceyrançöllü qoç Kərəməli, 40).

Onomasioloci modallıq bildirən əlavə cümlələr bir sıra hallarda cümlənin sonunda gəlir. Məsələn:

O, əsərini "Şirin yuxu və istirahət hesabına yaratdığı əsəri" səliqəli bir qutuda "Ürək" adı ilə müsabiqəyə təqdim etmişdi *(bu adı o, harada isə gördüyü bir rəsmdən götürmüşdü)* (Mir Cəlal. Açıq kitab, 142).

Sənin böyüklərlə nə işin var, bacı *(atam hərdəm anama "bacı" deyərdi və atamın anama "bacı" deməsi mənim çox xoşuma gəlirdi),* böyüklərin işinə qarışma (Elçin. Ağ dəvə, 14).

Qeyd etmək lazımdır ki, bu cümlədə bir yox, iki modallıq ifadə olunmuşdur: advermə ilə bağlı olan (onomasioloci) modallıq və qiymətverici modallıq.

6. Nitq şəraitini təyin etməklə bağlı olan modallığın ifadəsi.

Həmin modallığın ifadə vasitələri nitq şəraitinin zaman və məkan cəhətindən səciyyələndirir. Məsələn:

Ağarəhim də müharibəyə getdi *(təxminən mənim atamla eyni vaxtda, qırx üçün axırlarında)* və bizim həyətimizdə cəmi üç nəfər qaldı (F.Kərimzadə. Xudafərin körpüsü, 150).

-Yox, hələ tələsmə, Molla Sadıq, *məscid olmasın, bayır olsun,* biz söhbətimizi edəcəyik (İ.Şıxlı. Dəli Kür, 127).

Həmin cümlədə ara cümlənin cümlə üzvü vəzifəsində işlənməsi də diqqəti cəlb edir.

Günlərin bir günü *(onda IV kursda oxuyurdular)* Sahibəli dostunu heyrətləndirdi (V.Nəsibov. Ceyrançöllü qoç Kərəməli, 7).

Nəhayət, Köçərov, ikilikdə *söhbət edirlərmiş kimi,* briqadirə tərəf döndü (N.Nağıyev. Həsrət, 82).

Burada nitq şəraitinin təyini danışana aiddir. Başqa hallarda nitq şəraitinin (hətta məzmununun) danışan və eyni

zamanda nitqin iştirakçısı tərəfindən qiymətləndirilməsi, təyin edilməsi ilə rastlaşırıq.

7. Xəyali təsəvvürün subyektə bağışlanan təsirə görə modallaşdırılmasının ifadəsi.

Həmin modal məna (kiməsə) *elə gəlməsi* ifadəsinin köməyi ilə bildirilir. Məsələn:

Camaatın tərpənişindən mənə elə gəlir ki, Abış sağ qalmayıb, bacımdan gizlədirlər, qorxurlar bir şey olar (H.Abbaszadə. Uzaqdan gələn qonaq, 86).

Ancaq mənə elə gəlir ki, üzürlü bir səbəb olmasa, o, işini belə yarıtmaz tutmaz (V.Babanlı. Gəlin, 165).

Üzr istəyirəm […] *mənə belə gəlir ki,* ikimizdən birimiz nəyisə qarışdırırıq (V.Babanlı. Vicdan susanda, 39).

Verilmiş misallarda nitq anında (indiki zaman) subyektə bağışlanan təsir ifadə olunmuşdur. Ancaq bir sıra başqa hallarda bu qəbildən olan təəssürat nitq anından qabaqlara da aid edilir. Məsələn:

…mənə elə gəlir ki, Zəhra xanım təzə iş yerindən o qədər də razı deyil (H.Abbaszadə. Uzaqdan gələn qonaq, 162).

Ona elə gəldi ki, obalar yaylaqdan köçüb gəlmiş, o isə yurdda tək qalmışdır (İ.Şıxlı. Dəli Kür, 122).

Şahinə birdən elə gəldi ki, o ağaclar yerlə göyü birləşdirmir, ayırırlar (Hidayət. Sabaha çox var, 99).

Gördüyümüz kimi, xəbəri şühudi keçmiş zaman forması ilə ifadə olunan cümlələrin aid olduğu əsas (budaq) cümlələrin xəbəri felin indiki zaman və nəqli keçmiş zaman formalarındadır. Burada indiki zaman formasının işlənməsi tamamilə təbiidir: o, hərəkətin "baş verdiyi" zamanı bildirir. Nəqli keçmiş zaman formasının işlənməsi də yerindədir: bu zaman şühudi keçmiş zaman forması ilə müqayisədə indiki zamana çox yaxındır.

Bəzi hallarda əsas (budaq) cümlənin xəbəri felin şühudi keçmiş zaman forması ilə ifadə olunur.

*Yusifə elə gəldi ki,*Millinin gözləri doldu (Z.Ağayev. Dünyanın düz vaxtı, 69).

Verilən nümunələrə görə belə nəticə çıxarmaq olur ki, tamamlığı «mən» əvəzliyi ilə ifadə olunan cümlədə danışanın özünün, «o» şəxs əvəzliyi və xüsusi isimlərlə

ifadə olunan cümlələrdə isə danışana aid olmayan təəssürat bildirilir.

8. Nəqli modallığın (təhkiyə modallığının) əlavə-ara cümlələrlə ifadə olunması.

Modallığın bu növündə əsas cümlədə olan məlumata əlavə edilən məlumat ifadə olunur. Cümlənin həmin hissələri tematik cəhətdən bir-birilə əlaqədar ola da, olmaya da bilir. Məsələn:

Həyəti başa qədər gəzib, Fərəc işləyən sexə – *o, marten sexində işləyirdi* – gəldik (V.Babanlı. Həyat bizi sınayır, 31).

Laçın bu qızlardan ən çox Gülyazı bəyənirdi *(Gülyaz onun qohumu deyildi, qonşu məhəllədə fağır bir kişinin qızı idi)* (M.Hüseyn. Kin, 9).

Bir dəfə əvvəllər *(onda hələ Alxasın qırışları az idi)* qulağı eşidə-eşidə onu tapşırmışdı (V.Nəsibov. Ceyrançöllü qoç Kərəməli, 14).

Elə bilirdi ki, rəhmətlik atası *(onun şəklini də tapıb böyütdürmüşdü)* Şərif müəllimi anası ilə birgə qaçaqlar belə şillələmişdilər (V.Nəsibov. Ceyrançöllü qoç Kərəməli, 65).

Elə kənddə də *(Hacı Ələsgər dədə-baba Nardaranlı idi)* bu sahədə çətinliyə düşən camaatın dadına çatırdı (V.Nəsibov. Ceyrançöllü qoç Kərəməli, 39).

4. Modallığın ara sözlərlə ifadəsi.

Modallıq kateqoriyası təkcə leksik və qrammatik (morfoloci) vasitələrlə deyil, sintaktik vasitələrlə də ifadə olunur. Belə vasitələrdən biri də ara sözlərdir.

Modallıq kateqoriyasının ara sözlərlə ifadəsindən danışarkən iki cəhəti diqqət mərkəzində saxlamaq lazımdır. Birincisi, burada ayrı-ayrı ara sözlərin ifadə etdiyi modal mənalardan danışmaq vacib deyildir. Burada, normativ qrammatikada olduğunun əksinə hərəkət edərək, müəyyən modal mənaların məhz hansı ara sözlərlə ifadə olunduğundan bəhs etmək lazımdır.

İkincisi, biz burada ara söz və əlavə söz, daxiledici söz kimi sintaktik vasitələri də nəzərdən keçiririk. Bizim üçün cümlənin əsas növləri ilə əlaqədar olaraq modal mənaların ifadəsi maraqlıdır.

Beləliklə, demək olar ki, burada bizim məqsədimiz modal sözlər, modal fellərlə əlaqədar olaraq qəbul etdiyimiz hərəkət xəttinin əksinədir.

Ara sözlərlə aşağıdakı modal mənalar (münasibətlər) ifadə olunur.

1. Əsas cümlə haqqında bəhs olunan faktın kiminsə zənn, güman kimi təqdim etməsi. Bu, daxiledici ünsürün köməyi ilə yerinə yetirilir.

Ona elə gəldi ki, üzünə zillənən gözlərdə ovunu əvvəlcə ovsunlayıb, sonra yeyən bir yırtıcı sehrkarlığı var (İ.Şıxlı. Dəli Kür, 85).

Oğlana elə gəldi ki, şəkildəki kişinin bir-birinə qapanmış dodaqları bu saat açılacaq və nə isə mehriban bir söz deyəcəkdi (İ.Şıxlı. Dəli Kür, 101).

Zənn, güman modal mənasının ara sözlərlə ifadəsinin bir üsulu da *görünür* ara sözü ilə həyata keçirilir. Bu söz ara cümlədə təklikdə işlənib, danışanın nitqində özünü göstərir.

Ancaq bu Vaqif deyilən, *görünür,* ağlı başında cavandır (Y.V.Çəmənzəminli. Qan içində, 507).

Görünür, o, ayrılığın yaxınlaşdırığını yəqin bilirdi (C.Əlibəyov. Lal haraylar, 165).

Zənn, güman modal mənasının ifadə vasitələrindən biri də *deyəsən* sözüdür. *Görünür* ara (daxiledici) sözü kimi, *deyəsən* sözünün də cümlədə yeri onun əvvəlində, başındadır. Onun cümlənin ortasında işlənməsi sırf üslubi məqsəd daşıyır.

Deyəsən, Həmid tərəddüd edirdi, Sadığa inana bilmirdi (A.Qədiri. Ötən günlər, 156).

Amma, *deyəsən,* axtardığımı tapmışam (Ü.Hacıbəyov. Arşın mal alan,586).

Deyəsən ara sözünün ifadə etdiyi modal məna bütövlükdə cümləyə aid olduğu kimi, onun bir üzvünə də aid ola bilir. Müq.et:

Deyəsən, yavaş-yavaş başıma hava gəlir (Z.Ağayev. Dünyanın düz vaxtı,57).

Amma mənim şübhəm, *deyəsən,* yavaş-yavaş düz çıxır (V.Babanlı. Vicdan susanda, 65).

Hardasa, *deyəsən,* “Revkom kabineti” tərəfdə Sultan əminin qəhqəhəsi eşidildi (İ.Hüseynov. İdeal, 81).

Birinci və ikinci cümlədə güman (zənn) cümlənin xəbərinə, üçüncü cümlədə isə zərfliyinə aiddir.

Zənn (güman) modal mənasının *yəqin* ara sözü ilə ifadəsi daha çox danışıq dilində özünü göstərir.

Yəqin, məndən ona bir şey çatdıran olub (M.Hüseyn. Kin, 7).

Zənn (güman) modal mənasının ifadəsində *bəlkə (də)* ara sözü mühüm rol oynayır.

Bəlkə, professor onu sınayır, qanacağını öyrənir? (V.Babanlı. Vicdan susanda, 10).

Bəlkə, qumu çox doldurublar? (M.Süleymanov. Dağlar qoynunda fırtına,414).

Bəlkə də, buna görə o, çox vaxt uşaqların Mərcan xalaya dediyi sözü qəsdən özünə götürmüşdü (Ə.Əylisli. Aydınlıq, 139).

Bura qədər nəzərdən keçirdiyimiz zənn, güman mənaları təsviri cümlələrə aid idi. Zənn, güman modal mənasının sual cümlələri ilə əlaqədar işlənən bir tipi də vardır ki, *görəsən* ara sözü ilə ifadə olunur.

Görəsən Mücgan bilirmi ki, atasına xətər haradan toxunub? (Z.Ağayev. Beş günün intizarı, 29).

Görəsən, bu rayon camaatı bilmirmi ki, məsələn, mən institutu fərqlənmə diplomu ilə qurtarmışam (Z.Ağayev. Beş günün intizarı, 35).

Dedim, *görəsən,* harda ləngiyibsən? (V.Babanlı. Vicdan susanda, 33).

2. Əsas cümlədəki fikrin həqiqətə uyğun olub-olmamasını bildirən ara sözlər.

Həmin modal məna *əlbəttə, həqiqətən, doğrudan(da), şübhəsiz, şəksiz* ara sözləri ilə ifadə olunur.

Əlbəttə ara sözü mülahizənin gerçəkliyə uyğun olub-olmamasını bildirməkdən ötrü ən çox istifadə edilən ara sözlərdən biridir. O, həm ünsiyyət iştirakçılarından birinin o birisinin fikrini təsdiq etməsi, həm də danışanın öz fikrinə qüvvət verməsi, onu iqrar etməsi məqamında işlənir. Məsələn:

Əlbəttə, pulsuz olmaz!" (Ü.Hacıbəyov. O olmasın, bu olsun, 557).

Əlbəttə, o qəsdən bu yalanı uydurdu (Ə.Əbülhəsən. Utancaq, 26).

Yan-yana əyləşmiş qadınlar himləşdilər, dirsəkləşdilər. *Əlbəttə,* yol böyüyün idi (B.Bayramov. Karvan yolu, 163).

Sonuncu cümlədə *əlbəttə* ara sözü qoşulma (əlavə) cümləyə aiddir. Daha bir misal:

Hərdən də Arzu ilə kinoya, teatra gedib, *əlbəttə,* boş vaxtlarında, Cənnət ananı intizarda, gözü yolda qoyardı (V.Babanlı. Vicdan susanda, 60).

Əlbəttə ara sözü bəzən cümlənin ortasında gəlsə də, bütövlükdə cümlənin məzmununa aid olur:

Lələyev, *əlbəttə,* bu sözlərin hamısını eşidirdi (V.Babanlı. Vicdan susanda,43).

Həqiqətən ara sözü

Bu söz yalnız cümlənin başında gəlir və bütövlükdə cümlənin məzmununa aid olur.

Həqiqətən, bu gəliş Orxana yuxu kimi görünürdü (Ə.Hacızadə. Təyyarə kölgəsi, 192).

Həqiqətən, az qalmışdı ki, məni çaşdırıb vursun (C.Cabbarlı. Nəsrəddin şah, 89).

Doğrudan (doğrusu, doğrudur) ara sözü.

Mülahizənin həqiqətə uyğun olmasını bildirən vasitələr sırasına doğru sözünün aşağıdakı törəmələri daxildir: *doğrudan(da), doğrudur, (sözün) doğrusu.*

Doğrudan, gözəldir o, səhər kimi (S.Vurğun. Fərhad və Şirin, 139).

Doğrudan, nə olub, axı? (Z.Ağayev. Beş günün intizarı, 28).

Doğrudan da, qəzetimizdə tənqidi satiranı gücləndirmək lazımdır (S.Qədirzadə. Ulduzlar sayrışanda, 191).

Doğrudan da ara sözü cümlənin bir hissəsinə də aid ola bilir:

Belə bir qoçaq, işgüzar köməkçinin tərcümeyi-halı ilə az da olsa maraqlanmaq, onun haqqında beş-üç kəlmə məlumat öyrənmək, *doğrudan da,* ayıb idi (V.Babanlı. Vicdan susanda, 135).

Doğrusu, bu işdən mənim gözüm su içmir (*dan.*).

Doğrusu, mən faydasız pul verməyə öyrənməmişəm (M.F.Axundov. Hekayəti-mərdi-xəsis).

Doğrusu, Nadir xan, siz bizi soyursunuz (C.Cabbarlı. Nəsrəddin şah).

Doğrusu, mən Sizə söz vermişdim, ancaq indi sözümü geri götürməyə məcburam (*dan.*).

Şübhəsiz ara sözü

Faktın gerçəkliyə uyğun olmasının ifadəsinin başqa bir vasitəsi *şübhəsiz* ara sözüdür.

Şübhəsiz ara sözü cavab cümləsində də işlənir:

- *Şübhəsiz,* -dedi və Rüstəmbəyin istehzalı təbəssümünü görərək: -Baxın, -deyə sözünə davam etdi (Y.V.Çəmənzəminli. Studentlər, 157).

Şübhəsiz ara sözü ki bağlayıcısı ilə də işlənir:

Şübhəsiz ki, bu məlumatda Gəldiyev bütün yaradıcılıq qabiliyyətini işlətdi (Mir Cəlal. Açıq kitab, 95).

Bu xəbəri belə tezliklə atasına çatdıran, şübhəsiz ki, o idi (V.Babanlı. Vicdan susanda, 106).

Şəksiz ara sözü

Şəksiz, yubanmağına başqa səbəb var (M.F.Axundov. Hekayəti-mərdi-xəsis).

Azərbaycan dilində *şübhə* və *şəkk* sözləri yaxınmənalı olsalar da, sinonim deyillər; onların törəməsi olan *şəksiz* və *şübhəsiz* sözləri eyni modal mənanın ifadəsinə xidmət edirlər.

3. Qənaətçıxarma, qənaətə(qərara)gəlmə modal mənası ifadə edən ara sözlər

Həmin modal məna *demək, deməli, beləliklə* ara sözləri ilə ifadə olunur. Məsələn:

Deməli, şəkildə bunlar da əks olunmalıdır (İ.Qasımov, H.Seyidbəyli. Uzaq sahillərdə, 184).

Deməli, sən bizdən izn istəyirsən?! (Ü.Hacıbəyov. O olmasın, bu olsun,547).

Demək, nə vaxt istəsək, ora pənah apara bilərik (O.Salamzadə. Gəncə qapısı, 43).

Demək, sən də, ərin də mənim bu evdən çıxıb-getməyimi istəyirsiniz (İ.Əfəndiyev. Sən həmişə mənimləsən, 309).

Beləliklə, biz hamımız məhv olarıq (C.Cabbarlı. Nəsrəddin şah, 124).

*Beləliklə,*əri haqqında söz-söhbətin sədası Moskvadan çox-çox uzaqlara gəlib çıxdı (Ə.Babayeva. Səni axtarıram, 237).

4.Nitqin (mülahizənin) ifadə tərzinə münasibət bildirən ara sözlər

Həmin modal məna mülahizənin sırası, ardıcıllığı, meydana çıxma mənbəyi, təfsilatının dərəcəsi və s. modal məna çalarlarını da ehtiva edir. Bura aşağıdakı ifadə vasitələri aiddir.

Əvvəla ara sözü

Bu, mənşəcə *əvvəl* sözünün törəməsi olub, ifadə edilən faktların nitqdə birinci yer tutduğunu qeyd edir.

Axı, məndən niyə inciyirsən? *Əvvəla,* niyə nahaq danışaq?! (N.Nağıyev. Həsrət, 314).

Burada, əlbəttə, əsas məsələ pul məsələsi deyildi; *əvvəla,* Əliabbas kişigilin dolanacağı yaxşı idi, *ikincisi,* bütün alətlərin qiyməti bir o qədər pul da eləmirdi (Elçin. SƏ, I, 104).

*Əvvəla,*bu yalandır, -dedi, -tamam yalandır. *İkincisi* də, tutalım, lap biz deyən kimidir, burada uşağın günahı nədir? (V.Babanlı. Vicdan susanda, 228).

İkincisi (üçüncüsü…) ara sözləri

İkincisi sözünün ara sözü kimi işləndiyini bir qədər bundan qabaq verilmiş misallarda gördük. Həmin xüsusiyyət potensial olaraq bütün sıra saylarına xasdır. Ancaq bu prosesə müəyyən bir məhdudiyyət də xasdır. Bu isə danışanın (düşünənin) təsnifetmə, ümumiləşdirmə imkanlarının, dinləyənin, məlumatı qəbul edəninsə qavrama, başadüşmə imkanlarının məhdud olması ilə müəyyənləşir. Ona görə də real nitq fəaliyyətində bu cür sözlərin işlədilməsi o qədər də çox ünsür tələb etmir. Danışıqda çox vaxt yığcamlıq, müxtəsərlik mülahizələri ortaya çıxır. Məhz həmin şəraitdə *bir sözlə, xülasə, uzun sözün qısası, nəhayət* kimi yekunlaşdırıcı vasitələrdən istifadə olunur. Məsələn:

Bir sözlə, işinə məşğul ol (V.Babanlı. Vicdan susanda, 53).

Bir sözlə ara sözü bəzi hallarda müəyyən sadalamanın nəticəsi, son halqası kimi özünü göstərir.

Onun uşaqları, nəvələri, gəlinləri, *bir sözlə,* bütün böyük külfəti xalis şəhər adamları idi, kənddən […] xəbərləri yox idi (Elçin. SƏ, I c., 101).

Təbiət sükuta qərq olanda, insanlar yatıb dincələndə, *bir sözlə,* hər şey sakitləşəndə biz arxayın işləyə bilirik (İ.Şıxlı. Məni itirməyin, 243).

Nəhayət ara sözü

Bu söz, *xülasə* sözü ilə bərabər, müəyyən nitq şəraitinə yekun vurmaqla səciyyələnir. Məsələn:

Nəhayət, sükutu Rüstəmbəy pozdu (Y.V.Çəmənzəmindi. Studentlər, 158).

Nəhayət, yeşiklərdən qiymətli daşlarla bəzənmiş bir cüt qadın şəkli çıxdı (M.S.Ordubadi. Dumanlı Təbriz, 537).

Mən onun baxışını, nəfəsini hiss edirəm və *nəhayət,* yenə səsini eşidirəm (İ.Hüseynov. Tütək səsi, 3).

Nəhayət, ara sözü ki bağlayıcısı ilə birlikdə işlənir:

Muradov, *nəhayət ki,* bir az toxtadı (Ə.Əylisli. Aydınlıq, 347).

Xülasə ara sözü

Bu söz müəyyən mülahizəyə yekunvurma məqamında işlənir.

Xülasə, sabah axşam sənə bir qonaqlıq (Ə.Haqverdiyev. SƏ, 36).

Bu cümlə təkcə onda *xülasə* sözünün işlənməsi ilə yox, eyni zamanda yarımçıq, elliptik cümlə olması ilə də diqqəti cəlb edir.

Xülasə, Ağarza ayrı təbdə bir insandır (V.Babanlı. Vicdan susanda, 24).

Xülasə, açılış başa çatdı (S.Nəzirova. Tale damğası, 85).

Xülasə ara sözü təklikdə işlənməklə də müəyyən bir nitq şəraitinə yekun vurur; bu halda onun işləndiyi məqamı danışan yox, təhkiyəçinin nitqindən bimək olur:

-Xülasə, -deyə Zakir də mövzunu dəyişmək istədi (S.Qədirzadə. Kəndimizdə bir gözəl var, 100).

Nitqin məzmununa münasibət *türkün sözü, necə deyərlər* ara sözləri ilə də ifadə edilir. Hər iki halda danışan (fərd) istifadə etdiyi ifadəyə xas olan kələ-kötürlüyü, nahamarlığı sosial cəhətdən şərtlənmiş ifadə tərzinə isnad etməklə aradan qaldırmağa cəhd edir.

Demək, *türkün sözü,* o, böyüklərdən olubdur (C.Cabbarlı. Sevil, 357).

Necə deyərlər, xəstə sağalsa da, təbib qənşər gələr. *Necə deyərlər,* kürəyini Cahandar ağanın gülləsinə verməyə təhəri yox idi. Mən də, necə deyərlər, boş evə qarovul çəkirəm (İ Şıxlı. Dəli Kür, 115).

2.4.2. İngilis dilində modallığın sintaktik ifadə vasitələri.

Biz bu işin (fəslin) əvvəlki hissəsində modallığın Azərbaycan dilində ifadə vasitələrindən təfsilatı ilə danışdıq. Burada isə biz ingilis dilində bu məsələnin qoyuluşu vəziyyətindən bəhs etmək istərdik. Mövcud ədəbiyyatla tanışlıq bizdə belə bir təsəvvür yaratmışdır ki, ingilis dilində modallığın ifadə vasitələrindən danışarkən əsasən leksik-morfoloci vasitələri (modal sözlər, modal fellər, felin bəzi şəkilləri) nəzərdə tutulur.

Əlbəttə, müəyyən dil faktlarını tədqiq və təfsir edərkən müvafiq elm sahəsində mövcud olan vəziyyətlə hesablaşmaq lazım gəlir. Bununla belə, istər ingilis dili, istərsə də Azərbaycan dili ilə ümumi tanışlıq, istərsə də bu dilin faktlarının müqayisəli şəkildə nəzərdən keçirilməsi ingilis dilində modallığın sintaktik ifadə vasitələrindən bir neçə aspektdə danışmağı mümkün edir.

Birincisi, bir çox başqa dillərdə, o cümlədən Azərbaycan dilində olduğu kimi, ingilis dilində də cümlənin məqsəd və intonasiyaya görə tipləri vardır (nəqli cümlə, sual cümləsi, əmr cümləsi, nida cümləsi) ki, onlarda modallıq müxtəlif cəhətlərdən öz təzahürünü tapır. Ancaq həmin cümlə tipləri və onların xarakterik ifadə vasitələri hər bir dilin, o cümlədən ingilis dilinin normativ qrammatikalarında kifayət qədər dolğunluqla öz əksini tapmışdır. Bu barədə hər cür əlavələr ya deyilənlərin təkrarı, ya da ümumi sözlərdən ibarət olmalıdır. Ancaq bu da danılmaz bir faktdır ki, cümlənin məqsəd və intonasiyaya görə tipləri modallığın hər cür təzahür formaları ilə daxili, görünməz tellərlə bağlıdır.

Modallığın sintaktik ifadə vasitələri sahəsində bizi xüsusilə maraqlandıran ingilis dilinə xas olan analitiklik və Azərbaycan dilinə xas olan sintetikliyin burada özünü necə göstərməsidir. Maraqlıdır ki, həmin xüsusiyyətlər təkcə mor-

fologiya deyil, sintaksis sahəsində də öz qüvvəsini saxlayır. Ona görə də biz əlimizdə olan materialları qeyd olunan nöqteyi-nəzərdən araşdırmağa çalaşacağıq. Bu işin qabaqkı hissələrində olduğu kimi, burada da biz müvafiq mətnlərin ingiliscə və azərbaycanca variantlarından çıxış edəcəyik, lazım gəldikdə tərcümələrin yeni variantlarını təqdim edəcəyik. Bu yolla eyni modal mənanın dil və nitq imkanlarından asılı olaraq neçə cür və necə ifadə olunması formaları üzə çıxacaqdır.

1. Şərti modal mənanın ifadəsi. Xəbəri felin şəkli ilə ifadə olunan şərt budaq cümləsinin yeri mürəkkəb cümlənin əvvəlidir O, baş (əsas) cümlədə fellə ifadə olunan hərəktin baş verib-verməməsini müəyyən şərtlə bağlayır. Müasir Azərbaycan dilində belə bir ardıcıllıq, demək olar ki, istisnasız olaraq gözlənilir. Müasir ingilis dilində şərt budaq cümləsi mürəkkəb cümlənin əvvəlində də, axırında da gələ bilir. Həmin halları ayrı-ayrılıqda nəzərdən keçirək.

I can drop back, if you like (AHA, 24)

"Əgər məşğulsunuzsa, sonra gələrəm" (AHA. a, 23).

Bizcə, belə olmalıdır: "İstəyirsiniz, bir az sonra gəlim". İstəyirsiniz, bir az sonra gələ bilərəm". Hərfən: Mən bir az sonra gələ bilərəm – istəsəniz / istəyirsinizsə".

Burada şərt budaq cümləsi baş cümlədən sonra gəlir və onun əlavəsi vəzifəsini daşıyır. Bu isə onun ifadə etməli olduğu şərt modal mənasını zəiflətmiş olur: hərəkətin həyata keçməsinin obyektiv şərti subyektiv şərtlə əvəz olunur.

Başqa bir misala müraciət edək:

I doubt very much if he had ever seen their picture (S.Maugham. The Moon and Sixpence, 164). "Əslində heç güman etmirəm ki, Strikland haçansa onların əsərlərini görmüş olsun" (S.Moem. Ay və qara şahı, 140).

Həmin cümləni azərbaycanca belə də vermək olar: "Onun (Strikləndin) onların rəsmlərini nə vaxtsa gördüyünə (görmüş olmasına) mənim çox şübhəm vardır".

Hər iki halda aydın olur ki, ingilis dilindəki şərti ədatlı hissə heç də şərt mənasını bildirmir. Azərbaycan dilində bunun müqabili olaraq nə əgər bağlayıcısı, nə də felin şərt şəkli işlənməmişdir.

İndi isə şərt modal mənasının normal qaydada işlənməsinə fikir verək:

Coe Patroni grinned: “If I were him, I might feel the same way” (AHA, 218). “Cou Pətroni qımışdı: -(Əgər) onun yerinə olsaydım, mən də eyni cür hiss edərdim” = Onun yerində mən də eyni cür hiss edərdim)”.

If Leo wanted to check on him, why had not done it sooner? Why today? (I.Levin. A Kiss Before Dying, 118). “Əgər Leo onu yoxlamaq istəyirdisə, niyə bunu əvvəldən etməmişdir, niyə bu gün?” (A.Levin. Ölümqabağı öpüş, 200).

Hər iki halda şərt budaq cümləsi öz əsas funksiyasına uyğun olaraq işlənmişdir, ona görə də Azərbaycan dilində adekvat surətdə verilmişdir.

2. Güman, zənn modallığının ifadəsi.

“Do I understand”, Miss Young inquired, “that you think your husband might be leving on Flight Two but you’re not sure?” (AHA, 208).

“Miss Yanq dedi: -Belə başa düşürəm ki, Sizin əriniz ikinci reyslə uçur, ancaq buna əmin deyilsiniz? (AHA. a, 192).

[Mən belə başa düşməliyəmmi ki, -miss Yanq soruşdu, -Siz (belə) düşünürsünüz ki, əriniz ikinci reyslə uça bilər, amma Siz buna əmin deyilsiniz?”].

Beləliklə, biz görürük ki, xitab olunanın hərəkəti danışan tərəfindən güman edilir; o, felin xəbər şəkli ilə *(think)* ifadə olunmuşdur və ola da bilər, olmaya da bilər. Ona görə də *might* modal feli ilə ifadə olunmuşdur. Axırıncı hərəkət danışanın zənni olmaqla, xitab edilənin müəyyən vəziyyətini əks etdirir *(you’re not sure).*

3. Ara cümlə təsdiq mənasında

Modal mənaların müəyyən qismi ara cümlə və əlavə cümlələrlə ifadə olunur. Məsələn:

But of the difference in tallies turned out to be a clerical error – as it *might* the D.T.M. would roast him alive (AHA, 253)

“Ancaq haqq-hesabdakı fərq dəftərxana səhvi olmaqdan kənara çıxsaydı, *-necə ki, bu ola bilərdi (mümkün idi),* -uçuş idarəsi onu şişə çəkəcəkdi = (onun boğazına çökəcəkdi)”.

Misallardan göründüyü kimi, mümkünlük modal mənası müstəqil cümlə ilə yox, ara cümlə ilə verilmişdir.

4. Ara sözlərin funksional aidiyyəti.

Biz bu işin qabaqkı hissələrində ara sözlərdən (modal sözlərdən) kifayət qədər danışmışıq. Burada bizi maraqlandıran onların konkret fərdiyyəti yox, funksional aidiyyətidir.

Ara sözlər cümlənin harasında gəlməsindən asılı olmayaraq, fel şəkillərinin seçilməsinə təsir edir. Məsələn:

It was *perhaps* a hundred and fifty fut square, edged by the brick parapet whose coping was flat white stone a foot wide (I. Levin. A Kiss Before Dying,58).

"Təxminən yüz əlli kvadratmetrlik meydançaydı, kənarlarının məhəccərləri kərpicdəndi, üstü hamar daşla işlənmişdi" (A.Levin. Ölümqabağı öpüş, 62).

[Bu, *təqribən* 150 futluq meydança idi, piltəsi ayaq enində olardı, hamar ağ daşlarla döşənmişdi].

Aydın məsələdir ki, *perhaps* ara sözü təxmini olsa da, sabit kəmiyyət bildirir. Ona görə də mətndə felin xəbər şəklindən istifadə olunmuşdur.

There *would be* an autopsy, *of course*. It *would reveal* the preserve of a great deal of organic and a two month embryo the way and the why of her suicide (I. Levin. A Kiss Before Dying, 46).

"Təbii ki, meyidi yaracaqdılar. Çoxlu siçan dərmanı və iki aylıq dölü *çıxaracaqdılar*. Onun (qadının) intihar etməsinin nə yolla və nəyə görə baş verməsini aşkar edəcəkdilər".

Burada *of course* ara sözü (modal sözü) *would be an autopsy* ifadəsinə aiddir. Ancaq onun bu cümlədə iştirakı mətnin sonrakı cümlələrində də fel şəkillərinin seçilməsini müəyyənləşdirmişdir: hər yerdə eyni istifadə olunmuşdur. Bu, Azərbaycan dilində həmcins xəbərlərdən yalnız birində (axırıncısında) xəbərlik şəkilçisinin saxlanmasını xatırladır. Bir fərqlə ki, ingilis dilində ardıcıllıq bunun əksinədir.

A little thing like the hat *would probably louse up* somebody else (I.Levin. A Kiss Before Dying, 58).

"Şlyapa kimi balaca bir əşya başqa əngəllər də açа bilərdi" (A.Levin. Ölümqabağı öpüş, 61).

[Şlyapa kimi kiçik bir şey, *yəqin ki,* başqa birisinin də *başını bitləyə bilərdi / axırına çıxa bilərdi*].

5. İngilis dilində baş və budaq cümlələr arasında modallıq münasibətləri.

İngilis dilində baş cümləsində sorğu-sual bildirən fel iştirak edən mürəkkəb cümlələrin budaq cümləsinin Azərbaycan dilində verilməsi imkanları diqqəti cəlb edir. Bu cür cümlələrin baş cümləsindəki fellərin Azərbaycan dilində tam olmasa da, xəbər şəklinə mənsub olan qarşılığı vardır. Budaq cümlədə işlənən fel şəklinin Azərbaycan dilində, ümumiyyətlə, qarşılığı yoxdur. Ancaq bu o demək deyildir ki, həmin şəkli Azərbaycan dilində vermək mümkün deyildir. Tərcümə və tədris praktikası göstərir ki, bu tipli fellər Azərbaycan dilində həm predikativ, həm də qeyri-predikativ fel formaları ilə verilir. Predikativ formalara felin xəbər şəklinin hekayəsi və rəvayəti, qeyri-predikativ formalara isə feli sifət formaları aiddir. İndi isə konkret misallara müraciət edək.

Stroeve *asked* him if *he had seen* Strikland (S.Maugham. The Moon and Sixpence, 99) .

“Stryov ondan Strikləndi görüb-görmədiyini soruşdu” (S.Moem. Ay və qara şahı, 78).

[Stryov ondan soruşdu ki, Strikləndi *görübmü (görüb-görməyib), görüb, yoxsa yox?*].

Bizim tərcümə mətbu tərcümədən oricinalın mürəkkəb quruluşunu saxlaması ilə seçilir. Ancaq biz təkcə buna görə onu təqdim etmirik. Burada bizim məqsədimiz müvafiq sintaktik şəraitdə Azərbaycan dilinin imkanlarının nə qədər zəngin olduğunu nümayiş etdirməkdir. Daha bir misal:

I *wished* I *hadn’t spoken* (S.Maugham. The Moon and Sixpence, 114).

“*Kaş,* Strikləndə heç nə deməyəydim” (S.Moem. Ay və qara şahı, 91).

Burada tərcüməçi sərbəst hərəkət edərək, *to wish* feli əvəzinə *kaş* arzu bildirən ədatını, *hadn’t spoken* ibarəsinin əvəzinə isə arzu şəklinin hekayə formasını işlətmişdir. İnkar məqamında *heç nə* inkar ədatı işə yaramışdır. Bizim həmin tərcümənin məzmunca qeyri-dəqiqlikləri ilə işimiz yoxdur.

Ancaq bununla yanaşı, belə hesab edirik ki, həmin cümləni oricinala daha yaxın şəkildə vermək mümkündür:

Mən istəyirdim ki, (heç nə) deməmiş olaydım (Mən istərdim ki, heç nə deməmiş olum).

Mürəkkəb cümlələr içərisində budaq cümlələri müqayisəyə əsaslananlar da maraqlıdır.

It *had worked,* as Elliot Freemantle *had known* it would (AHA, 93) "İşlər Elliot Frimәntlin düşündüyü kimi gedirdi" (AHA. 91).

Tərcümə sərbəst və səlisdir. Amma burada oricinala xas olan qrammatik özünəməxsusluq saxlanmamışdır: o, mürəkkəb (müqayisə budaq cümləli, əlavəli) cümlədən sadə cümləyə çevrilmişdir. Etiraf etmək lazımdır ki, həmin cümləni olduğu kimi azərbaycanca vermək olmaz, çünki onda olan fel formalarına müvafiq gələ biləcək morfoloci formalar bu dildə yoxdur; amma həmin cümlənin mürəkkəb qrammitk quruluşunu qismən saxlamaq mümkündür.

İşlər, necə ki, Elliot Frimәntl bilirdi, o cür də (eləcə də) gedirdi".

6. Keçmiş zamanın müxtəlif xronoloci münasibətlərinin ifadəsi.

Bildiyimiz kimi, ingilis dilində keçmiş zaman formalarından savayı, uzaq keçmiş bildirən formalar da vardır. Azərbaycan dilində bunlardan birincisi şühudi və nəqli keçmiş zaman formaları, ikincisi isə fel zamanlarının hekayə və rəvayət formalarına müvafiq gəlir. Burada bizi həmin formaların eyni kontekstdə işlənməsi imkanı maraqlandırır.

This was the story I *had expected* him to tell me (S.Maugham. The Moon and Sixpence, 114). "Ümumiyyətlə, bu bir əhvalat (hadisə) idi ki, onun (bu barədə) mənə danışacağına (xəbər verəcəyinə) ümid edirdim (bəsləyirdim)".

Demək lazımdır ki, müvafiq zaman məzmunlarının nisbəti istər ingilis dilində, istərsə də Azərbaycan dilində ifadə planlarında öz əksini tapmamışdır; burada heç bir zaman ifadəçisi başqalarının yaranmasında iştirak etmir. Beləliklə də, hər bir formanın semantik müstəqilliyi bir qədər də artmış olur.

Colonel Mac-Andrew *had not exaggerated* when he said she *would be* penniless (S.Maugham. The Moon and Sixpence, 75) “Polkovnik Mak-Əndru deyəndə ki, Missis Strikləndtamam pulsuz-parasız qalmışdır, yalan demirdi” (S.Moem. Ay və qara şahı, 55).

Hələlik yazılı dildə yerini möhkəmlətmiş *deyəndə* ki ifadəsindən istifadə edilməsi burada yerinə düşür.Buna baxmayaraq, həmin cümləni Azərbaycan dilində başqa şəkildə də vermək mümkündür: “Polkovnik Mak-Əndryu missis onun (Strikləndin arvadının) pulsuz (penisiz) qala biləcəyini deyərkən mübaliğəyə yol vermirdi”.

Beləliklə, biz görürük ki, ingilis dilində eyni mətndə felin müxtəlif keçmiş zaman formalarının işlənməsinə Azərbaycan dilində bunlardan birinin qeyri-predikativ forma ilə ifadə olunması müvafiq gəlir.

2.5. Modallığın struktur modelləri.

Biz modallığın müxtəlif təzahür formaları və ifadə vasitələrini nəzərdən keçirdik.

Modallıq nitqlə bağlı hadisədir. O, nitqin məzmununa qiymətverici münasibət ifadə edir. Burası da var ki, hər bir dil kateqoriyası kimi, modallıq da müvafiq dil vahidlərinin köməyi ilə reallaşır. Ancaq həmin vahidlərin (ifadə vasitələrinin) modallığın təmin olunmasında rolu eyni deyildir. Ona görə də modallığın müxtəlif tiplərindən danışarkən onların həmin rolu nəzərə alınmalıdır. Biz aşağıda müxtəlif ifadə vasitələrinin rolunu nəzərə almaqla modallığın struktur modellərini müəyyən etməyə çalışacağıq.

1. Modallığın fonetik ifadə vasitələri. Bura əsasən nidalar aiddir. Nidalar cümlədə ifadə olunan modal mənaya uyğun olaraq danışanın əhvali-ruhiyyəsini bildirən sözlərdir. Nidalar nitqin məzmununa emosional münasibəti iki cür ifadə edirlər: a)hər bir nida özü-özlüyündə müəyyən bir əhvali-ruhiyyə bildirir; b)emosiyaların gərginliyindən, gücündən asılı olaraq nidalarda müəyyən fonetik dəyişiklik baş verir. Ya sait səs uzadılaraq tələffüz edilir, ya da samit səslərin bəziləri iki, üç və s. dəfə təkrar edilməklə tələffüz olunur.

Emosional münasibətin təsiri ilə nidaların dəyişməsinin bir tipi də onların təkrar işlənməsidir.

Bununla belə, nidalar modal mənalara heç nə əlavə etmir. Onlar olsa-olsa danışanın nitqin məzmunu ilə əlaqədar olaraq keçirdiyi əhvali-ruhiyyəni büruzə verirlər.

Modallığın fonetik ifadə vasitələrinin əsas hissəyə münasibətini belə ifadə etmək olar:

MM = MS > FV

(MM – modal məna; MS – modallıq sahəsi; FV – fonetik vasitə)

2. Modallığın leksik ifadə vasitələri. Bunlar morfologiyada modal sözlər, sintaksisdə isə ara sözlər adı ilə tanınan sözlərdir ki, mülahizənin ya bir ünsürünə, ya da bütövlükdə onun məzmununa modal münasibət bildirir. Buradan belə çıxır ki, eyni modal məna iki şəkildə ifadə olunur: a) modallıq sahəsi ilə; b) modal sözlə. Deyilənləri nəzərə alaraq onların münasibətini (struktur modelini) aşağıdakı kimi ifadə edə bilərik:

MM = MS > < MS / AS

(MS – modal söz; AS – ara söz)

3. Modallığın qrammatik (morfoloci) ifadə vasitələri. Bura birinci növbədə modal fellər, xəbərlik kateqoriyasını təmin edən fel şəkilləri, daha sonra hərəkətin baş verməsinin müxtəlif təmayüllərini bildirən fel şəkilləri (əmr, şərt, arzu, ehtimal və s.) daxildir.

4. Bunların mülahizədə rolu, birincisi, onların arasında duran modal mənalarla, ikincisi, müvafiq formaların bir-birinə nisbətdə reallaşması ilə müəyyən olunur. Ancaq unutmaq lazım deyil ki, bura təklikdə morfologiyanın yox, həm də sintaksisin fəaliyyət sahəsidir. Ona görə də bunlar qarşılıqlı əlaqədə nəzərdən keçirilməlidir. Bu sahədə dillərin fərdiyyəti daha bariz şəkildə özünü göstərir.

Deyilənləri nəzərə almaqla, müvafiq modal mənanı bu cür formalaşdırmaq mümkündür:

MM = SV + MV

(SV – sintaktik vahid; MV – morfoloci vahid)

Qeyd etməliyik ki, morfoloci və sintaktik ifadə vasitələrinin sərhədləri, hüdudları heç də dəqiq olaraq müəyyənləşdirilməmişdir. Sintaksisin qəlibləri müxtəlif

morfoloci ifadə vasitələrinin işə cəlb edilməsini tələb edirlər ki, bunlar da öz növbəsində həmin qəliblərin tərtibində iştirak edirlər.

5. Modallığın köməkçi ifadə vasitələri. Bura ədatlar aid edilə bilər. Ədatlar artıq mövcud olan modal mənalara aiddirlər. Onlar öz iştirakları ilə həmin mənalara daha artıq intensivlik gətirirlər. Ədatların iştirakı ilə yaranan modal mənanı bu cür modelləşdirmək olar:

MM = MS < Ə

(Ə – ədat)

Nidalarla ədatların müqayisəsini davam etdirərək deyə bilərik ki, nidalar emosional təsir göstərən sözlərdir. Ədatlarsa həmin emosional gərginlik sahəsində şəxsin təhriketmə, sövqetmə gücünü ifadə edir və birbaşa təhrik bildirən sözlərə aid olur.

FƏSİL 3.

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MODALLIĞIN SEMANTİK TƏHLİLİ

Modallıq kateqoriyasının bütün təzahür formalarının əsasında dilin kommunikativ vəzifəsi dayanır. Bildiyimiz kimi, nitq fəaliyyətinin, ünsiyyətin əsas məqsədi dinləyiciyə, müraciət olunana müəyyən bir fikir təqdim etmək, aşılamaq, onun həmin şəxs tərəfindən başa düşülməsinə nail olmaqdır. Bu məqsədin baş tutması üçün nitq vahidi, cümlə asanlıqla qavranılan semantik və struktur tərkib hissələrinə malik olmalıdır.

Modallıq kateqoriyasının təzahür formalarının sayı məsələsi dilçi mütəxəssislər tərəfindən ümumən qəbul edilməmişdir. Bu məsələ mübahisəli olduğu kimi, modallıq kateqoriyalarının işlənməsi də qeyri-bərabərdir.

N.A.Slüsareva modallıq kateqoriyasının morfoloci zonasından danışarkən qeyd edir ki, bu onun tərkibi məsələsinə dirənir. Modallığın təyin edilməsi kimi, bu məsələ də hələlik həll edilməmiş qalır.

N.A.Slüsareva göstərir ki, kateqoriyaları təsnif edərkən müəyyən ümumi əsas vacibdir. Modallıq barəsində ümumi əsas modallığın danışanın dil vasitələri ilə öz danışığına münasibətini ifadə edən kateqoriya kimi təyin olunması, yəni, mülahizənin kommunikativ niyyətə müvafiq gələn hadisə kimi təqdim olunmasıdır [146, s.48-49].

Tədqiqatçı modallığı geniş mənada başa düşür: ifadə ediləni təsdiq (iqraretmə), onun gerçək (real), mümkün olan, sual (maraq), şübhə, təəssüf, razılıq, inam, güman və s. doğuran kimi təqdim edilməsi [146, s.51-52].

Modallığa dair əlimizdə olan ən son əsərlərdən birində deyilir ki, danışanın mövqeyi açıq və ya gizli surətdə modallığın istənilən izahına daxil olur. Danışan modal kateqoriyaların hər birində aktuallaşmanın xüsusi aspektində çıxış edir [153, s.64].

Modallığın izah və təyinində danışanın mövqeyinin nəzərə alınması təzə məsələ deyil. Ancaq bunu da yadda

saxlamaq lazımdır ki, danışanın rəyində başqalarının da münasibəti öz əksini tapa bilir.

Müəllif qeyd edir ki, məhz modallığa bağlanan "gerçəkliyə münasibət" bu münasibətin reallıq//irrealığın əsas əlamətlərində tapdığına işarə etməklə keyfiyyət müəyyənliyi qazanır.

Burada linqvistik ədəbiyyatda ayırd edilən modal münasibətlərin əsas tipləri qeyd olunmuşdur. Dilçilik ənənəsində qrammatik, leksik və intonasiya kimi müxtəlif ifadə vasitələri olan cəmi 6 modal məna tipi müəyyənləşdirilmişdir:

1. Mülahizənin məzmununun reallıq/qeyri-reallıq baxımından qiymətləndirilməsi. Bunlar felin şəkil və zaman formaları, eləcə də cümlənin bəzi ünsürləri ilə (bağlayıcılar, ədatlar və s.) ifadə olunur.

2. Mülahizədə əksini tapmış modal fel və başqa modal sözlərlə ifadə olunan şəraitin (situasiyanın) onun mümkünlüyü, zəruriliyi, arzulandığı baxımından qiymətləndirilməsi.

3. Xəbər verilənin doğruluğuna danışanın əminliyi dərəcəsinin danışan tərəfindən qiymətləndirilməsi. Bu, modal zərflər, daxiledici söz və tabeli mürəkkəb cümlələrlə ifadə olunur. Sonuncu halda budaq cümlə ilə ifadə olunmuşa baş cümlədə modal qiymət verilir.

4. Mülahizənin məqsədcə təyinatı yaxud kommunikativ funksiyası. Həmin əlamətə görə cümlələr xəbərvermə ifadə edən nəqli cümlələr, sorğu ifadə edən sual cümlələri, təhrik bildirən əmr cümlələri və arzu bildirən optativ cümlələrə bölünür. Bunların ifadə vasitələri aşağıdakılardır: morfoloci (fel şəkilləri), sintaktik (cümlə konstruksiyaları), prosodik vasitələr(intonosiya).

5. Cümlədə haqqında bəhs olunan mətləblər: əlamətlər, hadisələr, aralarında obyektiv əlaqələrin olub-olmamasını əks etdirən təsdiq/inkar mənaları. Oppozisiyanın birinci üzvü olan təsdiq markalanmır (nişanlanmır), ikinci üzvsə qrammatik, sözdüzəltmə və leksik vasitələrin köməyi ilə markalanır (nişanlanır).

6. Mülahizənin məzmununun emosional və keyfiyyət cəhətindən qiymətləndirilməsi. Bunlar leksik vasitələrlə *(yaxşı, pis, eyib, biabırçılıq, dəhşət)*, prosodik vasitələrlə (nida cümlələri), eləcə də nidaların köməyi ilə ifadə olunur.

Bundan başqa, həmin məna ya baş cümləsində qiymətləndirici modus olan tabeli mürəkkəb cümlələrlə, ya da tərkibində təqdimedici söz və söz birləşmələri olan konstruksiyalarla təmsil olunur *(xoşbəxtlikdən, bədbəxtlikdən və s.)* [153, s.67-68].

Qeyd etməliyik ki, modallığın göstərilən tipləri və onlara isnad verilən terminlər yeganə linqvistik vasitələr deyildir. Dilçilik ədəbiyyatında həmin terminlə yanaşı, "indikativ modallıq", "güman modallığı", "şübhə modallığı", "sual modallığı", "əmr (təhrik) modallığı", "ehtimal modallığı", "volyuntativ modallıq", "şərt modallığı", "inkar modallığı" kimi ifadə üsullarına da rast gəlirik.

Aşağıda biz həmin modallıq tiplərinin bəzilərindən semantik aspektdə bəhs edəcəyik.

Modallıq məsələsinin tədqiqi sahəsində diqqətəlayiq işlərdən biri də C.Sörl və D.Vandervenenin "Nitq aktlarının hesablanmasının əsas anlayışları" əsəridir. Burada nitq aktlarının müfəssəl təsnifatına rast gəlirik. Müəlliflər göstərirlər ki, illokutiv aktın məqsədi daxilən ona xas olan mətləbdir. Məsələn, iqrarın məqsədi işlərin necə olduğunu deməkdir. Əmretmənin məqsədi kimi isə nə isə etməyə məcbur etməkdir. Üzrxahlığın məqsədi bu və ya başqa hərəkətlə əlaqədar olaraq danışanın peşmançılığını bildirməsidir [144, s.252].

C.Sörl və D.Vandervenen beş əsas illokutiv məqsədin olduğunu qeyd edirlər: 1. Assertiv məqsəd("işlər necədir?"). Danışan bunu nəzərdə tutur ki, təklif işlərin həqiqi vəziyyətini qeydə alır. 2. Komissiv məqsəd. Bu, danışanı nə isə etməyə borclu etməkdən ibarətdir. Danışan yalnız propozisional məzmunla təmsil olunan hərəkətləri həyata keçirməyi öz öhdəsinə götürür. 3. Direktiv məqsəd. Bu, kiminsə başqasını nəyə isə məcbur etməsi ilə bağlıdır. Danışan dinləyicini propozisional məzmunla təmsil olunan hərəkəti reallaşdırmağa təhrik etməyə çalışır. 4. Deklarativ məqsəd. Bu, verilmiş tələffüz vasitəsilə xarici aləmi dəyişdirməkdən ibarətdir. Danışan həmin nitq aktını müvəffəqiyyətlə yerinə yetirməklə işlərin propozisional məzmunla təmsil olunmuş vəziyyətinin baş tutmasına səbəb olur. 5. Ekspressiv məqsəd. Bu, hissləri və ya məramları

ifadə etməkdən ibarətdir. Danışan öz tələffüzü ilə işlərin propozisional məzmunla təmsil olunmuş vəziyyətinin psixoloci məramını ifadə edir [144, s.252-253].

Həmin məqsədlərin dil vasitələri ilə ifadəsi aşağıdakı kimidir:

Assertiv məqsəd performativ(icraetmə) və illokutiv fellərdə ifadəsini tapır: *iqrar etmək (təsdiq etmək), bəyan etmək (elan etmək), inandırmaq, irəlicədən xəbər vermək, xəbərdar etmək, nağıl etmək, ərz etmək (məruzə etmək), bildirmək, məlumat vermək, etiraf etmək, ehtimal etmək, şahidlik etmək (şəhadət vermək), yada salmaq (xatırlatmaq), təsdiq etmək, sübut etmək, boynuna almaq, təxmin etmək, anlamaq (duymaq), qeyd etmək, fərz etmək, and içmək, təkid etmək.*

Komissivlərə aşağıdakı fellər aid edilir: *öhdəsinə götürmək, vəd etmək, hədələmək, razılaşmaq (razı olmaq), təntənəli vəd vermək, and içmək, zamin olmaq, söz vermək.*

Direktivlərə aşağıdakı fellər aiddir: *xahiş etmək, sərəncam vermək, tələb etmək, əmr etmək, təklif etmək, ərizə verib xahiş etmək, təhrik etmək, sövq etmək, öz tərəfinə çəkmək, yoldan çıxarmaq, yalvarıb-yaxarmaq, məsləhət görmək (tövsiyə etmək), təqdim etmək, ərizə vermək.*

Deklarativ məqsədi ifadə edən fellər bunlardır: *elan etmək, təntənəli surətdə bildirmək, iddia etmək, icazə vermək, hökm çıxarmaq, viza qoymaq, kənarlaşdırmaq (rədd etmək), ad qoymaq, ad vermək, xeyir-dua vermək.*

Ekspressivlərə aşağıdakı fellər aid edilir: *üzr istəmək (üzrxahlıq etmək), təbrik etmək, təşəkkür etmək, tərifləmək, kompliment demək, yazığı gəlmək, dərdinə şərik çıxmaq, başsağlığı vermək, salamlamaq.*

Y.M.Volf belə hesab edir ki, modal mənaların təhlili çox müxtəlif olan modal sistemlərin mövcudluğuna dəlalət edir. O göstərir ki, əsas semantik struktura normanın məcburi bir ünsür kimi daxil olduğu modallıqlardan biri dəyərləndirmə (rəy) modallığıdır. Başqa bir növ "qəribəlik" modallığıdır. Bu, modal subyektinin nəzər nöqtəsindən norma və stereotiplərə göstərişlə əlaqədardır.

Həmin modallığın iki mənası vardır: normativ hal-vəziyyətə uyğunluq və ondan kənaraçıxma. Özü də norma və stereotiplərdən kənaraçıxmanın mənfi mənası markalanmış olur [79, s.179].

Beləliklə, - deyə Y.M.Volf bu barədə öz düşüncələrinə yekun vurur, - dəyərləndirmə (rəy) modallığı kimi, "qəribəlik" modallığı da şüurunda dünya haqqında müəyyən təsəvvür olan subyektlə bir sıra xüsusiyyətlərə malik olan obyekt arasındakı münasibəti əks etdirir ki, həmin obyekt barəsində subyektin müəyyən rəyi vardır.

Tədqiqatçı bir çox elə sözlərin də olduğunu qeyd edir ki, onlar ayrı-ayrı obyektlərin xüsusiyyətlərində normadan kənaraçıxmanı yox, bütövlükdə qeyri-normal hadisə və şəraitləri ifadə edir: *süqut, iğtişaş, bərbadlıq.*

Y.M.Volf göstərir ki, modal struktur obyektlərinə istiqamətlənmiş "qəribəliy"in ifadəsi üçün şəraitlərin qavrayıcı subyektin nəzər nöqtəsindən "qəribə" kimi ifadə üsulları vardır: *qəribədir ki, təəccüblüdür ki, birdən, gözlənilmədən, qəflətən (qəfildən).*

"Qəribəlik" və dəyərləndirmə (rəy) modallıqlarının qarşılıqlı nisbətinə gəldikdə isə, müəllif bunları eynitipli hesab etməklə, subyektiv modallığa aid edir [79, s.186].

3.1. Təsdiq modallığı.

Təsdiq modallığının əsas xüsusiyyəti müəyyən obyekt barəsində hansısa hal, hərəkət, keyfiyyətin iqrar edilməsindən ibarətdir. Təsdiq modallığı əsasən nəqli cümlələr şəklində təzahür edir. Onun əsas təşkiledicileri subyekt və predikatdır. Bu qəbildən olan cümlələrin xəbəri həm fel, həm də adlarla (isim, sifət, say, zərf, əvəzlik, Azərbaycan dilində isə hətta qoşmalı birləşmələrlə) ifadə edilir.

Azərbaycan və ingilis dillərində təsdiq modallığının əsas ifadə vasitəsi felin xəbər şəklidir. İndi isə təsdiq modallığını konkret ifadə vasitələri üzrə nəzərdən keçirək.

3.1.1. Feli xəbərlə ifadə olunan təsdiq modallığı.

Təsdiq modallığı əsasən felin indiki və keçmiş zaman formaları ilə ifadə olunur. Həmin formalardan biri hərəkətin,

prosesin danışıq anında, o biri isə ondan qabaq baş verməsini bildirir. Buna müvafiq olaraq təsdiq modallığı ifadə olunan cümlələrdə həmin fel formalarının bildirdiyi zamana uyğun gələn zaman zərfllikləri də işlənir. Amma bu həmişə vacib olmur, hərəkətin baş verdiyi zaman nitq situasiyasından da aydın olur. Məsələn:

I hear lions."Mən aslan [səsi] eşidirəm"

I see you. "Mən səni görürəm". Müq. et: Səni də görürəm, onu da (İdiomatik ifadə).

I see a huge star "Mən nəhəng bir ulduz görürəm".

I feel my guilty "Mən öz günahımı hiss edirəm (Mən özümü təqsirkar bilirəm).

Beləliklə, biz görürük ki, təsdiq modallığının xüsusi ifadə vasitəsi yoxdur. O, xəbərlik kateqoriyasının göstəriciləri, felin zaman və şəxs şəkilçiləri vasitəsilə özünü büruzə verir.

İndi isə felin xəbər şəkli ilə formalaşan təsdiq modallıqlı cümlənin zaman zərflikləri ilə işlənməsinə fikir verək:

I met him yesterday "Dünən mən onunla rastlaşdım".

The bear I shot yesterday was huge "Mənim dünən vurduğum ayı nəhəng idi".

Qeyd: İngiliscə shot feli təsriflənən formadadır; Azərbaycan dilində heyvanın ölçüsündən danışarkən onun boyunun uzun-qısalığına deyil, cəmdəyinin irilik-xırdalığına fikir verirlər. Bu cümlədəki nəhəng sözü həmin məqsədlə işlədilir.

Feli xəbərin yer zərfliyi şəklində də konkretləşdirici üzvü ola bilir:

I see silvery speck in the sky "Mən göydə gümüşü ləkə görürəm".

Eyni məqamda zaman-tərz bildirən zərf də işlənir:

Very tall man often marry very short woman "Çox ucaboy kişilər çox vaxt çox qısaboy qadınlarla evlənirlər" Yaxud: Çox vaxt uzundraz kişilər bəstəboy qadınlarla evlənirlər".

Quite pretty girls become often spinters, whereas their entirely charmless friends marry attractive men and become happy wives and mothers "Gözəl -göyçək qızlar çox vaxt evdə qarıyırlar, onların, tamam çirkin (kifir) rəfiqələri isə cəzbedici kişilərə ərə gedib, xoşbəxt arvad və ana olurlar".

Təsdiq modallığı danışanın nitqində ifadə olunur, amma burada təkcə danışanın yox, dinləyənin, yaxud bir başqasının da nöqteyi-nəzəri öz əksini tapa bilir: Məsələn:

I love you and you love me “Mən səni sevirəm, sən də məni” Müq. et: Mən səni sevirəm, sən özgəsini [sevirsən] (Mahnı).

I like tea, but you like coffee “Mən çayı xoşlayıram, sən isə qəhvəni”.

İngilis dilində təsdiq modallığının there is, there are kimi ifadə vasitələri də vardır:

There is a house I see “Mən görən ev budur. Bu, mən görən evdir”.

There is a snake bit me “Məni vuran(çalan) ilan budur. Bu məni vuran(çalan) ilandır”.

There are two kinds of large cats living in Paraqway: the caguar and the puma “Paraqvayda yaşayan iki iri pişik növü vardır: yaquar və puma”.

Təsdiq modallığının həqiqətə uyğunluğunun dərəcəsi danışanın hiss və duyğuları ilə bağlıdır. Məsələn, yuxarıda misal verdiyimiz ikinci şəxsi və ulduzu görməkdən bəhs edən cümlələrdə qavramanın vasitəsi gözdür. Aslan səsini eşitməkdən bəhs edən cümlədə isə belə bir vasitə eşitmə orqanı olan qulaqdır. Həmçinin müq. et:

We heard them come up the stairs “Biz onların pilləkəni (pilləkənlə) (necə) qalxdığını eşitdik”.

Bir sıra hallarda müvafiq hiss orqanının adı çəkilmir, hiss (duyğu) bildirən fel (feel, hiss etmək) birbaşa danışana aid edilir.

I feel that you are hostile “Mən hiss edirəm ki, siz mənə düşmənsiniz /. düşmən kimi yanaşırsınız / düşmən kəsilmisiniz)”.

Bəzi hallarda təsdiq modallığı ictimai-sosial, siyasi meyarlara, motivlərə əsaslanır:

Coffee and tea comes with the meal “Qəhvə və çayı yeməklə birlikdə verirlər”.

A citizen of the US who is not a naturalized is a person born in the US or a person born of US citizens “ABŞ-ın vətəndaşlıq hüququ olmayan vətəndaşı ya ABŞ-da anadan olmuş, ya da ABŞ vətəndaşlarından doğulmuş şəxslərdir”.

Təsdiq modallığı inkar modallığı ilə qarşıladırma-müqayisə yolu ilə ifadə olunur. Məsələn:

Nobody can do that. But he did. "Bunu heç kəs eləyə bilməz. Amma o elədi".

Müəyyən proseslərin baş verməsi eyni şəxsə aid edilən əks mənalı mətləblər şəklində təqdim olunur:

Did he try, but did he fail. "O bunu eləməyə can atdı, amma bu ona müyəssər olmadı".

Təsdiq modallığı şəklində təkcə real vəziyyət deyil, subyektiv, qeyri-real təəssürat da təqdim edilir:

The patient reached the stage of seeing white mice "Xəstə elə bir həddə çatdı ki, gözünə ağ siçanlar göründü (...gözləri alacalandı, onu qara basdı).

The delivious patients saw the room spinning around him, but we know it wasn't spinning "Sayıqlayan xəstənin gözünə görünürdü ki, otaq onun başına fırlanır (hərlənir), amma biz bilirik ki, bu belə deyil (otaq fırlanmır)".

Təsdiq modallığının mənbəyi təkcə danışanın şəxsi təəssüratı yox, onun eşidib-bildiyi məlumat da ola bilər:

The man she loved committed suicide "Onun [qızın] sevdiyi adam (sevgilisi) özünü öldürdü (intihar elədi)".

3.1.2. Predikatı adlarla ifadə edilən təsdiq modallığı.

Predikat adlarla ifadə olunarkən təsdiq modallığı yenə şəxs göstəricilərinin köməyi ilə özünü təzahür etdirir. Predikatın semantik ifadəsi struktur formanın sayəsində modallığın ifadəsinə xidmət edir. Məsələn:

Agnes is docile "Quzu sakitdir".

The snow is white "Qar ağdır".

Grass is green "Ot yaşıldır".

Humility is green "Təvazökarlıq (bir) məziyyətdir".

Qeyd etmək lazımdır ki, hər bir təsdiq modallığı gerçəklikdə əşya ilə onun əlamətləri arasında olan obyektiv münasibəti nəzərdə tutur. Amma həmin münasibət ünsiyyətin tələblərindən asılı olaraq tamamilə məcazi, şərti xarakter də daşıya bilər. Məsələn, "Sənə deyirlər: "Qatıq qaradır", sən də de: "Qatıq qaradır" idiomatik ifadəsini götürək. Aydın məsələdir ki, təbii şəraitdə qatıq qara olmur. Amma əşyaya obyektiv şəkildə xas olmayan əlamətin ona

istinad verilməsi nitq anında tamamilə başqa bir effekt yaradır. Həmin idiomatik ifadədə məqsəd müraciət edilənin qeyd-şərtsiz danışanın dediyini təsdiq etməyə razı salmaqdır.

Təsdiq modallığı xas olan cümlədə subyekt və predikativ ifadəsi üçün hansı ad kateqoriyasından istifadə olunması müvafiq dildə müəyyən sözlərin olmasından da asılıdır. Məsələn, ingilis dilində "*A vixen is a female fox*" cümləsini götürək. *Vixen* "dişi tülkü", "qancıq tülkü", "tülkü qancığı" deməkdir. Amma Azərbaycan dilndə dişi tülkünü ifadə edən ayrıca leksik vahid olmadığından yuxarıdakı cümləni bu dildə adekvat şəkildə vermək mümkün deyildir. Həmin cümləyə məzmunca yaxın olan mətləbi Azərbaycan dilində təxminən belə ifadə etmək olar: "Azərbaycan dilində tülkünün dişisinə "dişi tülkü", ya da "qancıq tülkü" deyirlər(demək olar)". Birinci halda mülahizə tavtoloci xarakter daşıyır(tülkünün dişisi - dişi tülkü); ikinci halda isə biz dilin özündə təbii olaraq işlənməyən ifadə üsulundan istifadə etmiş oluruq. Ancaq bu zaman biz dildə mövcud olan dişi pişik, qancıq pişik və s. tipli ifadə üsullarından çıxış edirik.

İngilis və Azərbaycan dillərində təsdiq modallığının ifadə üsulları arasında fərq əhəmiyyətli dərəcədə ola bilər. Məsələn, "birinci şəxsin" (mən) otaqda olmasının bu dillərdə necə ifadə olunmasına fikir verək.

I am in the room "Mən otaqdayam".

Mətnin ingiliscə variantında predikativ xəbər qrupu vasitəsilə, azərbaycanca variantında isə söz-forma ilə ifadə olunmuşdur. Başqa sözlə desək, ingiliscə cümlədə xəbər dörd sözdən, azərbaycanca cümlədə isə bir sözdən ibarətdir. Buna baxmayaraq, otaqdayam sözü ingiliscə cümlənin xəbər qrupundakı dörd sözün verdiyi bütün semantik və qrammatik məlumatı ehtiva edir. Daha bir misal:

Love is a spenderid thing "Məhəbbət çoxcəhətli şeydir (hissdir, duyğudur)".

Burada təsdiq modallığı *is a spenderid thing* konstruksiyası ilə ifadə olunmuşdur. Həmin birləşmədə bazis söz *spenderid* olsa da, o, təklikdə təsdiq modallığının

ifadəçisi deyildir. O özündən qabaqkı və sonrakı sözlərlə birlikdə modallığın ifadəsini təmin edir.

Həmçinin müq. et: *I'm an honest man, a man of principle* "Mən bir namuslu adamam, prinsip adamıyam".

Beləliklə, biz görürük ki, təsdiq modallığı müəyyən semantik məzmunun dildə mövcud olan qrammatik vasitələrlə müəyyən subyektə "bənd olunma"sından ibarətdir.

Predikatın adlarla ifadə olunmasının aşağıdakı tiplərini qeyd edə bilərik:

1. Predikat ümumi isimlə ifadə olunur.

He is a teacher of English "O, ingilis dili müəllimidir".

İngiliscə cümlədə "*is a teacher*" tərkib hissəsi özündən sonrakı hissədən təcridolunmuş şəkildə götürülə bilər. Həmin cümlənin azərbaycanca variantında isə bütövlükdə söz birləşməsi cümlənin xəbəri olub, subyektlə predikativlik münasibətindədir.

İngiliscə cümlədə subyekt (*he*) və predikatın (*teacher*) ayrı-ayrı nitq hissələri ilə ifadə olunması (cümlənin azərbaycanca variantında da vəziyyət buna oxşardır) onlar arasında semantik nisbətdən danışmağı lüzumsuz edir.

Həmçinin müq. et: *He is a gentleman* "O, nəcib, (ağayana) adamdır".

2. Predikat səciyyələndirici, əlamət bildirən sözlə (sifətlə) ifadə olunur:

Sokrates is wise "Sokrat müdrikdir".

London is pretty "London gözəldir (qəşəngdir)"

This stick is bent "Bu çubuq əyridir".

It is red "Bu qırmızıdır".

He is fool, although he does not look it "O axmaqdır, çox da ki, belə görünmür".

3. Predikat cümlə üzvü və ya başqa cümlələr hesabına genişlənə bilir. Məsələn:

London is a great city "London böyük şəhərdir".

The cat is a clever beast "Pişik ağıllı heyvandır".

It is a house in which I was born "Bu mənim doğulduğum evdir (Bu o evdir ki, orada mən doğulmuşam".

Predikatın ifadə etdiyi məzmunun qətiliyi əlavə vasitələrin köməyi ilə artırıla da, azaldıla da bilir. Həmin vasitələrə nitq,

hissetmə, təfəkkür felləri, modal sözlər, modal fellər, və s. aiddir. Məsələn:

I see that he is a gentleman “Mən görürəm ki, o, nəcib adamdır”.

I hear that Cohn is leaving “Mən eşidirəm ki, Con gedir(çıxıb gedir)”.

Həmin misallarda əsas (budaq) cümlədə ifadə olunan mətləb baş cümlədə danışanın hissiyatına isnad etməklə təsdiqlənir. Başqa bir misal:

He is an artist. He is really an artist. He is an artist indeed. “O sənətkardır. O doğrudan sənətkardır. O əsil sənətkardır”.

Burada birinci cümlədə ifadə olunmuş mülahizəyə ikinci və üçüncü cümlələrdə yeni vasitələrlə qüvvət verilir. (Bu barədə əlavə məlumat üçün bax: [56, s.81].

Predikat tək bir bazis sözlə ifadə olunduğu kimi, iki və daha artıq bazis sözlə də ifadə oluna bilir.

Today is either Monday or Tuesday “Bu gün ya bazar ertəsi, ya da çərşənbə axşamıdır”.

Gördüyümüz kimi həmin cümlədə predikatın yeganə olmaması müvafiq həftə günləri adlarından əlavə, bölüşdürücü bağlayıcılarla da ifadə olunmuşdur.

Burasını da qeyd etmək lazımdır ki, predikatın məzmun və ifadə planları bir-birinə müvafiq gəlməyə də bilər. Məsələn, yuxarıdakı cümlədə məzmunca bir-birini təkzib(istisna) edən tərkib hissələri (*Monday, Tuesday*; bazar ertəsi, çərşənbə axşamı) ifadə baxımından birləşdirilmişdir. Amma biz bilirik ki, “bu gün” bazar ertəsidirsə, çərşənbə axşamı deyil və ,əksinə, çərşənbə axşamıdırsa, bazar ertəsi deyil.

Predikat ifadə planında markalanmamış (nişanlanmamış) da qala bilər, amma məzmun planına görə biz eyni morfoloci formada olan vahidin hansı məqamda predikat, hansı məqamda isə başqa üzv olduğunu müəyyənləşdirə bilərik. Məsələn:

Gəlirdim kənddən, Səs gəldi bərkdən. Ağzı sümükdən, Saqqalı ətdən (Tapmaca). Sən ağa, Mən ağa. İnəkləri kim sağa?! (Məsəl). Ər eldən, oğul beldən. Arada qardaş tapilmaz! (Məsəl).

Y.N.Starikova predikatın semantik rolunun təsnifatından danışarkən qeyd edir ki, subyekt kimi, predikat da öz ifadəsini açıq-aşkar, bilavasitə və gizli, bilvasitə formalarda tapır. Bu kateqoriyanın ifadəsi dairəsinə leksik, leksik-semantik, adlandırma, isimlə felin, isimlə sifətin, sözdüzəltmə əlaqələri, fellə əşyanın keyfiyyət xarakteristikasının əlaqəsi cəlb olunur [151, s.36].

Predikatın bilavasitə açıq-aşkar ifadəsi vasitələrinə predikasiyanın ikinci dairəsini əmələ gətirən məsdər, feli bağlama, feli sifət kimi qeyri-şəxsi fel formaları aiddir. Y. N. Starikova göstərir ki, ingilis dili cümləsindən ötrü hərəkət-prosesin felin şəxsli və qeyri-şəxsli formaları ilə adlandırılması xarakterikdir. Fel özünün qrammatik (zaman, şəkil, şəxs) mənalarını qeyri-şəxsli formalar üzərinə keçirir ki, bunlar da öz növbəsində cümlənin ucqar predikativ zonasını əmələ gətirir. Felin qeyri-şəxsli formaları ilə adlandırma feli şəxsli adlandırmadan təkcə semantik-sintaktik planda yox, morfoloci və genetik planda da asılıdır [151, s.38].

Y.N.Starikova belə hesab edir ki, predikat adlandırması finit (təsriflənən) fellər və onların qeyri-finit (təsriflənməyən) formaları ilə məhdudlaşmır. Bu nominasiyanın dairəsinə isimlər də, substansiyanın keyfiyyət xarakteristikasını, onun əlamətlərini, halını, hərəkətini, prosesi bildirən sifətlər də daxildir.

Linqvistikanın müasir inkişafı dövründə predikativlik təkcə felliklə əlaqələndirilmir. O, geniş, təyin olunan və təyin edilənin əlaqələrini də ifadə etməyə qabil olan bəzi vasitələr üzərində dayanan kateqoriya kimi başa düşülür [151, s.35]. Y.N.Starikova əlavə edir ki, predikativlik təkcə cümlə ilə bağlı deyil. O, subyekt-predikat münasibətlərini ifadə edə bilən hər bir vahidlər cütünə xasdır.

Deməliyik ki, predikativlik kateqoriyası yalnız təsdiq modallığına nisbətdə əhəmiyyətli kateqoriya deyil. O, dilin fundamental kateqoriyalarından olub, inkar, sual və s. modallıqlarla da əlaqədar olaraq fikrin bu və ya başqa şəkildə formalaşmasına xidmət edir. Bu barədə yalnız əmr modallığı müəyyən məqamlarda istisna təşkil edir.

3.2. İnkar modallığı.

İnkar modallığı təsdiq modallığının əksini təşkil edən bir modallıq növüdür. O, bütövlükdə təsdiq modallığının ifadə etdiyi məzmunun əksini bildirir. Elə bir təsdiq mülahizəsi yoxdur ki, onun inkar bildirən müqabili, korrelyatı olmasın. Təsdiq və inkar modallıqlarının özlərinin ifadə vasitələrinin mənsubiyyəti və sayına görə də bir-birinə müvafiq gəlir. Təsdiq və inkar modallıqlarının yalnız bir mühüm fərqi vardır ki, birinci markalanmamış (nişanlanmamış) olduğu halda, ikinci müəyyən inkaredici vasitələrlə (felin inkar forması, inkaredici əvəzlik, zərf, bağlayıcı, ədat, modal sözlər və s.) markalanır (nişanlanır).

İnkar modallığı cümlənin məqsəd və intonasiyaya görə bütün növlərində (nəqli, əmr, sual, hətta bəzi məhdudiyyətlərlə nida cümlələrində) özünü göstərir.

3.2.1. Nəqli cümlələrdə inkar modallığı.

Nəqli cümlələrdə inkar modallığı əsasən felin inkar forması ilə ifadə olunur. Məsələn:

I don't want to become hypocrite "Mən uzaqgörən olmaq istəmirəm".

Monkeys do not use instruments "Meymun(lar) alətdən istifadə etmir".

Felin inkar forması ismi tərkib hissəsi ilə əlaqəyə girərək, mürəkkəb predikativ konstruksiya yaradır. Azərbaycan dilində bu məqamda deyil predikativindən istifadə olunur.

Coe is not a Shaekespere "Cou Şekspir deyil".

He is not the man, which his father wanted him to be "O, atasının arzuladığı adam olmayıb (deyil). Yaxud: O elə adam deyil ki, atası onu arzulamış olsun".

İnkaretmə modallığının başqa vasitələrlə ifadəsi üsullarından aşağıdakıları qeyd edə bilərik:

1. İnkar modallığı *but* inkar bağlayıcısı ilə ifadə olunur. Məsələn:

My name is Sue, but I am a boy "Mənim adım Syudur, amma (ancaq) mən oğlanam".

Burada qarşılaşdırma münasibəti eyni ad formasının həm oğlana, həm də qıza verilməsi adəti ilə bağlıdır.

Demək lazımdır ki, Azərbaycan dilində inkar bağlayıcıları yalnız amma və ancaq deyil. Lakin və fəqət bağlayıcıları da bu qəbildəndir. Amma yuxarıdakı cümlənin üslubi məkanına yalnız amma və ancaq bağlayıcıları uyğun gəlir.

She is exceptional. She is busy but she helps us all the same. "O (qız) qəribə adamdır. O məşğuldur (onun işi çoxdur), amma yenə də bizə kömək edir".

Həmin cümlədə inkar modallığı başqa bir mülahizəyə əsaslanır: *"Busy people do not help"* (Məşğul adamlar (başqasına) kömək etmir).

But qarşılaşdırma bağlayıcısı paralel işlənən mətləblər arasındakı fərqi də ifadə edir:

He spoke spanish, but she spoke italian "O (oğlan) ispanca danışırdı, o (qız) isə italyanca (danışırdı)".

I like it, but I cannot afford it "Mən bunu xoşlayıram, amma özümə rəva bilmirəm".

He tried, but he failed "O (bunu eləməyə) çalışdı /cəhd elədi, amma eləyə bilmədi".

Cohn hates ice cream, but I like it "Conun dondurmadan zəhləsi gedir, amma mənim (yaxud: mənimsə) ondan xoşum gəlir".

Cohn turned left, but Bill turned right "Con sola döndü, Bill isə sağa".

But bağlayıcısı eyni subyektə istinad verilən əlamətlər arasında uyuşmazlığı da bildirir:

Mary is inteligent, but she is ugly "Meri ağıllıdır, amma çirkindir (kifirdir)".

Eyni məqamda *but not* inkaredici bağlayıcı vasitəsi də işlənir. Əlimizdə olan materiallar içərisində onun həmcins, lakin eyni zamanda bir-birini istisna edən üzvlər arasında tətbiq olunduğunu görürük:

Man, but not ape, uses instruments "Meymun yox, (məhz) insan alətdən istifadə edir".

2. İnkar modallığı *neither...nor* bağlayıcıları ilə ifadə olunur. Həmin bağlayıcılar sinonim məzmunlu bağlayıcılardır. Azərbaycan dilində bunlara sözdüzəltmə baxımından əlaqədar olan nə...nə də bağlayıcıları müvafiq gəlir.

I demand neither liberty, nor death “Mən nə azadlıq istəyirəm, nə də ölüm”.

Müq. et: Nə balını istəyirəm, nə də balasın (İdiomatik ifadə).

3. İnkar modallığı *no one* bağlayıcısı ilə ifadə olunur.

No one can do that “Heç kəs(heç kim) bunu edə bilməz”.

Misallardan gördüyümüz kimi, inkar məzmunun verilməsində ingilis və Azərbaycan dilləri arasında müəyyən fərqlər nəzərə çarpır. İngiliscədə yalnız *no one* inkar bildirir; azərbaycancada isə inkar məzmunu həm bağlayıcı, həm də felin inkar forması ilə ifadə olunur. Azərbaycan və ingilis dillərinin qeyd olunan bağlayıcılarını bir əlamət də birləşdirir: onların hamısı insana aiddir.

4. İnkar modallığı *nothing* əvəzliyi ilə ifadə olunur. Həmin modal məna Azərbaycan dilində heç nə əvəzliyi ilə verilir. Hər iki dildə həmin əvəzliklər cansız əşyaya aiddir.

The leader of party is unexperienced. He has done nothing to unit the party “Partiyanın rəhbəri sərişтəsizdir. Partiyanı birləşdirməkdən ötrü o heç nə eləməyib”.

5. İnkar modallığı *never* və *no more* zərfləri ilə ifadə olunur. Azərbaycan dilində bunlara heç vaxt və daha, artıq sözləri müvafiq gəlir. Məsələn:

Good skiers never abuse grease “Yaxşı xizəkçilər heç vaxt yağdan sui-istifadə etmirlər”.

A true artist is never satisfied with the work “Əsl sənətkar heç vaxt işindən razı qalmır”.

The accused stated that he never saw the victim “Müqəssir iqrar etdi ki, zərərçəkəni heç vaxt görməyib”.

You had a house. The house is no more “Sizin eviniz vardı. O ev artıq yoxdur”.

The Providence you know is no more “Sizin bildiyiniz (gördüyünüz, tanıdığınız) providens artıq yoxdur”.

3.2.2. Təsdiq və inkar modallıqlarının paralel olaraq işlənməsi.

Ünsiyyət prosesində bir çox hallarda (müzakirə, mübahisə xarakterli söhbətlərdə, didaktik şəraitdə və s.) təsdiq və inkar modallıqlarından paralel olaraq istifadə edilir. Belə hallardan bəzilərini nəzərdən keçirək.

Arlene wants a margarita or a grasshopper “Arlen ya qızçiçəyini, ya da cırcıramanı istəyir (xoşlayır)”.

Arlene wants neither a margarita, nor a grasshopper “Arlen nə qızçiçəyini, nə də cırcıramanı istəyir (xoşlayır)”.

Coffee and tea comes with the meal “Qəhvə və çay yeməklə birlikdə verilir”.

Neither coffee nor tea comes with the meal “Nə qəhvə, nə də çay yeməklə birlikdə verilmir”.

Bir sıra hallarda təsdiq və inkar modallıqları eyni cümlə çərçivəsində paralel olaraq işlənir. Bu zaman onlar cümlənin ayrı-ayrı tərkib hissələrində çıxış edib, fərdi, məxsusi subyektlərlə əlaqələnir.

He is a gentleman which his brother is not “O, nəcib adamdır, qardaşı isə belə deyil”.

Bəzən təsdiq və inkar modallıqları eyni cümlədə eyni subyektə aid olur, amma onların ifadə olunduqları dil vahidləri başqa-başqa xarakterli olub, onunla da başqa-başqa münasibətlərdən əlaqəyə girirlər. Məsələn:

He is fool, although he does not look it “O axmaqdır, çox da ki, belə görünmür(təsir bağışlamır)”.

3.2.3. Əmr cümlələrində inkar modallığı.

Əmr cümləsində inkar modallığı daha çox felin əmr şəklini inkar forması ilə ifadə edilir.

Don’t go away! (AHA,32) “Heç yerə getmə!” (AHA.a,31)

Əmr cümləsində inkar modallığı ədatlarla da ifadə olunur:

No, stay a few minutes (AHA,127) “Yox, bir neçə dəqiqə də qal!” (AHA. a,118).

Əmr cümləsində təsdiq modallığı kimi inkar modallığı birinci şəxslə əlaqədar olaraq işlənə bilir. Azərbaycan dilinin qrammatikasından bildiyimiz kimi, bu dildə felin əmr şəklinin 1-ci və 3-cü şəxslər üzrə tam paradiqması vardır. Doğrudur, həmin formalar heç də həmişə əmr bildirmir. Məsələn:

İti görüm, qurdu görüm, onu görməyim (İdiomatik ifadə).

Burada əmrdən çox arzu mənası vardır. Amma bununla yanaşı, burada felin arzu şəklinin yox, məhz əmr şəklinin təsdiq və inkar formaları qarşılaşdırılır. Bunun arxasında isə onların ifadə etdikləri təsdiq və inkar modallıqları dayanır.

3.2.4. Şərt bildirən cümlələrdə inkar modallığı.

İnkar modallığı şərt bildirən cümlələrdə ya təklikdə, ya bir neçə şərtin sadalanması şəklində, ya da təsdiq modallığı ilə qarşılaşdırılaraq tətbiq olunur. Məsələn:

If she hadn't been so busy with her own affairs, I can't believe that she wouldn't have suspected something was matter "Amma başı çox qarışıq olmasaydı, ətrafında nələr baş verdiyini görməyə bilməzdi".

Yesən, dadındı; versən, adındı; nə yesən (yeməsən), nə versən (verməsən) yadındı (Məsəl).

Allah qoysa da uçacam, qoymasa da (Lətifə).

3.2.5. İnkar modallığının fellərlə ifadəsi.

Bir sıra fellər (rədd etmək, etiraz etmək, imtina etmək, boyun qaçırmaq, istisna etmək) vardır ki, onlar inkar mənası ilə çıxış edirlər. Məsələn:

The criminal refused the arrest "Cani (dustaq) həbs olunmasına etiraz etdi".

The cudge recected the motion "Hakim təqdimatı rədd etdi".

Biz yuxarıda təsdiq modallığından danışarkən gördük ki, təsdiq və inkar modallıqları bəzən ümumi ilə xüsusinin qarşılaşdırılması şəklində təzahür edirlər. Qeyd etmək lazımdır ki, həmin kateqoriyaların sabit işlənmə məqamları yoxdur. Başqa sözlə desək, ümumi də, xüsusi də təsdiq modallığı ilə də, inkar modallığı ilə də ifadə oluna bilər. Məsələn:

No one can do that. But you did. "Bunu heç kəs(heç kim) edə bilməz. Amma sən etdin".

What everyone needs is a devoted wife, and you don't have a devoted wife "Hamıya (hər kəsə) sevən arvad lazımdır. Sənin sevən arvadın yoxdur.

3.3. Sual modallığı.

Sual modallığı ünsiyyətin təmin edilməsində xüsusi yer tutur. Sual verməkdən əsas məqsəd dinləyicidən, müraciət edilən şəxsdən suala cavab almaqdır. Sual mənası dinləyicinin məlumatlılığından xəbər tutmaqdan ibarətdir. Sualın bilavasitə ifadə vasitəsi sual cümləsidir ki, onun

kommunikativ təmayülü danışanın niyyətini əks etdirir. Bu niyyət iki cür ola bilər: a) Situasiyanın danışana məlum olmayan ünsürü barəsində məlumat əldə etmək; b) Müəyyən situasiyanın reallaşmasının təsdiq yaxud inkarına (təkzibinə) nail olmaq.

D. Vunderlix sualların praqmatik təsvirindən danışarkən aşağıdakı üç sinfi müəyyənləşdirir: 1. Əsl suallar. 2. Didaktik suallar. 3.Təəccüb bildirən suallar [214, s.135].

Sual mənası sual intonasiyası, sual əvəzlikləri və sual ədatları ilə ifadə olunur. Amma bütün bunlar mütləq xarakter daşımır. Sualın ifadə vasitələri dildən-dilə dəyişə bilər. N.A.Slüsareva qeyd edir ki, sual modallığı leksik vasitələrdən (sual əvəzlikləri) və sintaktik konstruksiyalardan savayı, xüsusi morfoloci kateqoriya ilə-əsas felə qoşulan *do* feli ilə, yəni sual şəkli ilə ifadə olunur [146, s.56].

Tədqiqatçı sual şəklinin *do* feli ilə ifadəsinin belə bir şərtini göstərir. *Do* köməkçi feli mübtədaya aid olmur; konstruksiyada isə modal və köməkçi fellər təsriflənmir.

Bu, ingilis dilində felə aid olan sualla bağlıdır. Qeyd etməliyik ki, Azərbaycan dilində felin sual forması tamamilə başqa cür yaranır: sual intonasiyası, sual ədatı və felin sual forması ilə (nə edir? nə deyir? və s.).

Sual modallığı məsələsi ilə əlaqədar olaraq sual mənasının bütün təzahür formaları vacibdir. Nəzərə almaq lazımdır ki, sual təkcə ayrı-ayrı nitq hissələri ilə deyil, həm də ayrı-ayrı cümlə üzvləri ilə bağlıdır.

Sual mənalarının aşağıdakı növləri vardır.

1. Müraciət edilənin kimliyini müəyyənləşdirməyə xidmət edən sual.

Who are you? Are you a boy or girl? “Sən kimsən? Sən oğlansan ya (yoxsa) qızsan?”.

Who are you? I am Cack. But who is she? “Sən kimsən? Mən Cekəm. Bəs o (qız) kimdir?”.

Bu qəbildən olan sual heç də həmişə cavab almaq məqsədi güdmür. Bəzi hallarda o, müqayisə xatirinə verilib, müəyyən münasibət ifadə edir.

Who are you? But who is he? “Sən kimsən, o kimdir?” (Sən hara, o hara!”).

2. Haqqında bəhs olunanın kimliyinin (nəliyini) müəyyənləşdirməyə xidmət edən sual. Bu tipdən olan suala yuxarıda verdiyimiz misalların ikisində rast gəlirik. Həmçinin:

Who is he? He is Mr. Cones. He is a doctor "O kimdir? O, mister Counzdur. O, həkimdir".

3. Danışanın özünə aid olan sual. Belə sual çox vaxt başqası tərəfindən verilən sualın təkrarından ibarət olur. Bəzən isə o, danışanın özünün sual verib, özünün də cavab verməsi şəklində təzahür edir. Müq. et:

Mən kiməm? Bir bikəsü bixaniman (Füzuli).

4. Ünsiyyətin iştirakçıları yaxud mövzusunu təşkil edənlərin necəliyinin müəyyənləşdirilməsinə xidmət edən sual. Bu, iki şəkildə özünü göstərir: ya müəyyən subyektə (obyektə) mənsub olan əlamət barəsində soruşulur, ya da müəyyən əlamətə görə subyekt və ya obyekt barəsində soruşulur.

Are those men black? "Onlar (bu adamlar) qaradır (qara dərilidir)?".

Is she a first-rate secretary? "O (qız) yaxşı katibədir?"

What is he? He is a doctor "O kimdir (nəçidir)? O, həkimdir".

Who is your favorite teacher? "Sizin sevimli müəlliminiz kimdir?"

Are those men polish? "Onlar (bu adamlar) polyakdırlar?"

Is he extremely good or not? "O yaxşı işçidir ya (yoxsa) yox?"

5. Obyektlərin müəyyənləşdirilməsi ilə bağlı olan sual. Bunlar obyektin tipini əks etdirən sual əvəzlikləri ilə ifadə olunur.

What do you see? "Sən nə görürsən?"

What do you hear? "Sən nə eşidirsən?"

I see a dog "Mən (bir) it görürəm".

I hear the sea "Mən dəniz (səsi) eşidirəm".

Bu cür sualın cavabı konkret olmaya da bilər:

I see something "Mən nəsə görürəm".

Did you feed the dog? "Siz itə yemək vermisinizmi?(Siz iti yedirtmisinizmi)".

6. Sual ümumi vəziyyəti öyrənmək məqsədi daşıya bilər.

Is everything right here? “Burada hər şey qaydasındadır?”

7. Sual danışan və onun əhatəsinin(dairəsinin) hərəkət xəttini müəyyənləşdirmək məqsədi daşıya bilər.

Should we give him tenure? “Ona yaxşı vəzifə verməyə dəyərmi?”

Will you buy it? “Siz bunu alacaqsınız(mı)?”

8. Müəyyən əqli nəticə çıxarmağa xidmət edən sual.

All animals have sense. A dog is an animal. Does a dog have sense? “Bütün heyvanların duyma qabiliyyəti vardır. İt (də) heyvandır. İtin duyma qabiliyyəti vardırmı?”.

Həmin suala cavab verərkən formal olaraq sualdan da başlamaq olar. Ancaq başqa bir tərtibat da istisna edilmir.

A dog does have sense, for dogs are animal, and all animals have sense “İtin duyma qabiliyyəti vardır, çünki, it heyvandır, bütün heyvanlarınsa duyma qabiliyyəti vardır”.

9. Sual müsahibi nə söylədiyini müəyyənləşdirmək məqsədi ilə verilə bilər.

What did she say? “O (qız) nə dedi?”

Bu cür sual vasitəsiz və vasitəli nitqin tərkib hissəsi kimi də işlənə bilər. Məsələn:

Sizin dediyinizdən beıə çıxır ki, dəvə uşaqdır? (Lətifə).

10. Sual ümumi və xüsusi tərkib hissələrinin vəhdəti şəklində işlənə bilər.

What did she say? Can we count on her? “O (qız) nə dedi? Biz ona bel bağlaya (arxayın ola) bilərikmi?”

What way did they go? Did they turn left or right? “Onlar necə (hansı yolla) getdilər? Sola döndülər, yoxsa sağa?”

What language did they speak? Was it Spanish? “Onlar hansı dildə danışırdılar? İspan dilində?”

11. *Does she help us or not?* “O bizə kömək edir, yoxsa yox?

Who hates ice cream and who likes it? “(Sizlərdən) kimin dondurmadan zəhləsi gedir, kiminsə ondan xoşu gəlir?”. Müq. et:

Kim yatmış, kim oyaq? Hamı yatmış, Cırtdan oyaq (“Cırtdanın nağılı”).

12. Sual ümumi-xüsusi və alternativ xarakterdə ola bilər.

How do you people like ice cream? Do you like it or not? “Siz dondurmaya necə baxırsınız? (Yaxud: Sizin dondurma ilə aranız necədir? O, xoşunuza gəlir, ya yox?”

13. Bir cümlədə birdən artıq sual ola bilər:

Who turned where? “Kim hara döndü?”

Who spoke what language? “Kim hansı dildə danışırdı?”

Kimsən, nəçisən, mətləbin nədi? “Buralara gəlməkdə məqsədin nədi?”(“Koroğlu” operasının librettosu).

3.3.1. Təsdiq və inkar bildirən sual cümlələri.

Azərbaycan və ingilis dillərində bir sıra hazır ifadələr vardır ki, onlar sual cümləsi (yaxud ifadəsi) şəklində olmaqla, təsdiq və inkar bildirirlər.

İngilis dilində təsdiq bildirən sual ifadələrindən bunları qeyd edə bilərik: *Why not? Who else? What else? Yes why? Why else? Where else? How else?*

İnkar bildirən hazır işarələr: No, why? No, what? No, when? What on? What ever for?

Misallar:

Aeloise: Could master Abelard really have written such a song?

Supiro: Why not? (Forsyth C.) – “Ustad Abelard, doğrudanmı, belə mahnını yazmış (bəstələmiş) olar; yaxud: yaza bilərmiş?” – Niyə də yox?)

Robert. You really think that?

Pulengly. Is there anything else but for us to think? (Show B.)

“Siz, doğrudanmı, belə düşünürsünüz? Burada bizim üçün düşünməyə daha nə var ki! (Bizə belə düşünməkdən savayı daha nə qalır ki!)

Olive: Listen, you didn’t know I was married did you?

Brief: We – when? (Van Druben C.) (“Eşit, sən bilərsənmi (bilmirsən), mən evlənmişəmmi, bilib – eləmirsən?” Biz? Nə vaxt?

Hazır sual ifadələrinə Azərbaycan dilində də kifayət qədər rast gəlmək olur. Biz bunlardan aşağıdakıları qeyd edə bilərik: yox, əşi? (səndən) nə əcəb? sən hara, bura hara? sən kimin kimsənəsisən? səni kimin iti tutub? aldın payını?

necə bəyəm? mənə nə? mən nə bilim? sənə nə (var)? siz hara baxırdınız? gözün(üz) kordur? bu hardan çıxdı? və s.

3.3.2. Sualların formal tipləri.

Sualların aşağıdakı formal tiplərinə təsadüf etmək olur:

1. Əks (tərsinə) söz sırasına malik olanlar.

Have you never had a moment's regret for all the unhappiness you caused them? (S.Maugham. The Moon and Sixpence, 91) – Onlara gətirdiyiniz bədbəxtlik üçün bir anlıq da olsa vicdan əzabı çəkmirsiz?

Cohnson – Isn't there anything I can do! "Burada mənim edə biləcəyim bir şey yoxdur ki?"

Qeyd etməliyik ki, Azərbaycan dilində felin xüsusi sual forması olmadığından sual cümləsinin bu şəkli də Azərbaycan dilində işlənmir. Bu dildə düzünə söz sırası olub, intonasiya ilə ifadə olunan sual işlənir.

2. Sözlərin düzünə (bilavasitə ardıcıllığına) müvafiq gələn söz sırası. Bunun iki tipini ayırd etmək olur. Birinci tip müvafiq nəqli cümlədən yalnız intonasiya ilə fərqlənir.

Oh, you know Gordon? "Aha, siz Qordonu tanıyırsınız?

İkinci tipə bölüşdürücü sual aiddir:

You will coin us, want you? "Siz bizə qoşulacaqsınız, istəyirsinizmi?"

3. Ardına qoşulma cümlələr artırılan sual.

You are good girl? I hope? "Sən qəşəng qızsan? Əmin olunmu?"

4. Postpozitiv ünsürlü sual.

Who was here? Peter? "Burada kim olub? Peter?

When shall I come? Tomorrow or next day? "Nə vaxt gəlim? Sabah, yoxsa birisigün?"

5. Gizli surətdə ifadə olunan sual. Bu o zaman özünü göstərir ki, danışan ona məlum olan faktı müsahibinin nəzərinə çatdırır, onun təsdiq və inkarını isə yenə də müsahibin öhdəsinə buraxır. Məsələn:

I hear you're going away, Warburton, the old Duke of Hereford said him "Eşidirəm (qulağıma dəyib) ki, siz yol üstəsiniz (getməyə hazırlaşırsınız), Varburton, Herefordun qoca qrafı ona dedi".

Həmin modal məna *“Are you going”* sual cümləsinin eynidir.

6. Sual mənası baş cümlənin xəbəri vəzifəsində işlənən “soruşmaq” mənalı sözlə mətnə daxil edilir. Budaq cümlədə sualın konkret olaraq nədən ibarət olduğu aydınlaşdırılır.

I ask you, where he lives? “Mən sizdən (səndən) soruşuram (ki), o harada yaşayır?”

Burada sual budaq cümlədə ifadəsini tapmışdır; sualın *ask* feli ilə mətnə daxil edilməsi ona təkid xarakteri verir.

Azərbaycan dilində sual bildirən fellərin sayı bir neçədir: soruşmaq, sual vermək, xəbər almaq. Məsələn:

Xosrov xəbər aldı:-Hardansan, cavan?

Fərhad cavab verdi:-Dost diyarından! (Nizami Gəncəvi, Xosrov və Şirin).

Qeyd edək ki, bu iki aşiqin arasındakı sual-cavab(bir növ ədəbi-bədii yarış) çox çəkir. Amma həmin sual-cavabın sonrakı hissələrində həm sualda, həm də cavabda daxiledici ünsür kimi dedi sözündən istifadə olunmuşdur:

Dedi:-O diyarda hansı sənət var?

Dedi:-Canı satıb, qəmi alırlar.

Dedi:-Can satmaqda nə fayda vardır?

Dedi:-Aşiqlərdə bu qayda vardır və s. (Nizami Gəncəvi, Xosrov və Şirin).

Həmçinin: Xəbər alsan bu vilanın əhvalın, Bir özgədir keyfiyyəti-Qarabağ (Qasım bəy Zakir).

3.3.3. Sual mənasının başqa modal mənalarla birgə işlənməsi.

Sual mənası təklikdə işləndiyi kimi, başqa modal mənalarla birlikdə də çıxış edə bilər. Bunlardan aşağıdakıları qeyd etmək olar.

a) Sual gizli inkarla birlikdə olur. Məsələn:

Will you go to see him on Sunday? Me? At my age? “Sən bazar günü onu görməyə gedəcəksən? Mən? Bu yaşımda (Yaşımın bu vaxtında?”)

Buradakı ritorik sual rədd cavabı (inkar) deməkdir.

b) Sualda məzəmmət ifadə olunur:

“Isabel? you know I wanted to marry you the first day I saw you”, he cried passionately. “Then why on earth didn’t you ask me?” she replied (W.S.Maugham) “İzabel, siz

bilirsiniz(mi) ki, mən sizi gördüyüm ilk gündən sizinlə evlənmək istəmişəm", - o, çılğınlıqla qışqırdı. Onda (elə isə) nəyə görə mənim fikrimi yerindəcə soruşmamısınız?", - o (qadın) cavab verdi".

Həmçinin müq. et: Sən də adını kişi qoymusan?!

c) Sual sövqetmə, təhriketmə mənası da bildirir:

Could you pass the salt? "Duzu (bəri) ötürməzsiniz?"

Həmin sual aşağıdakı əmr cümləsinə bərabərdir: *Pass the salt, please!* "Zəhmət olmasa, düzü verin!"

Təhriketmə mənasının başqa praqmatik mənalı cümlələrlə ifadəsi ingilis dilində geniş yayılmışdır. Bu ingilis etiketinin mühüm tərkib hissəsidir.

Adresatın müəyyən hərəkətin icrasına imkanını üzə çıxaran aşağıdakı sual cümlələrində sual mənası zəif, xahiş mənası isə güclüdür:

Could you be a little quite? "Siz bir az sakit ola bilərsinizmi?"

Can you pass the salt? "Siz duzu (bəri) verə (ötürə) bilərsinizmi?"

Have you got change for a dollar? "Siz (bir) dolları dəyişə (xırdalaya) bilərsinizmi?"

3.4. Əmr (təhriketmə) modallığı.

Əmr (təhriketmə) modallığı adresatı müəyyən hərəkətlərin icrasına təhrik etməklə bağlıdır. Təhriketmənin əsas ifadə vasitəsi əmr cümlələridir ki, bunların tərtibində felin əmr şəkli forması mühüm rol oynayır.

Felin əmr şəklinin paradiqmasının hansı formalardan ibarət olması məsələsi mübahisəlidir. Görünür, bu məsələdə ümumi mülahizələrdən deyil, konkret dil faktlarından çıxış etmək lazımdır. Hər halda Azərbaycan dilində felin əmr şəkli həm semantik, həm də formal cəhətdən tam paradiqma əmələ gətirir. İngilis dilində isə məsələ bir qədər başqa cürdür. Bu dildə felin əmr şəkli üçün xüsusi formal əlamət yoxdur. O, məsdər forması kökündən fərqlənmir və onun əmr mənası kəsb etməsi bir tərəfdən müvafiq situasiyanın, o biri tərəfdənsə real adresatın olmasını tələb edir.

Hər halda burada bizim mövzumuz felin əmr şəkli məsələsi deyil. Bununla belə, qeyd etmək lazımdır ki, felin

əmr şəklinin həm təsdiq, həm də inkar formaları olduğu kimi, əmr cümlələri də həm təsdiq, həm də inkar bildirən mülahizələr ifadə edir. Əmr modallığı baxımındansa bunlar arasında elə bir prinsipial fərq yoxdur: sadəcə olaraq bir halda adresata nə isə etmək, başqa halda isə etməmək əmr olunur.

Əmr modallığının aşağıdakı tiplərini qeyd etmək olar:

1. Əmr ikinci şəxsin təki, yaxud cəminə aid olur. İcrası əmr edilən hərəkətin baş tutması şəraitində subyekt bir vəziyyətdən başqasına keçməlidir.

Əmr şəklində olan fel təklikdə işlənə bildiyi kimi, müəyyən əlamətə, situasiyaya işarə edən sözlərlə də müşayiət oluna bilər. Məsələn:

Be good! "Yaxşı (adam) ol!"

Müq. et: Azərbaycan dilində hal - əhval tutma məqsədilə sual verərkən (necəsən? yaxşısanmı?) "Sən yaxşı ol!" Bu tipli cavab formulları:

Be a good girl! "Yaxşı qız ol!"

Be cautious ! "Ehtiyatlı ol(un)!"

Coin the Army! "Orduya daxil ol!"

Hide here! "Burada gizlən!"

Keep the x. in the cool, dry place, away from direct sunlight "X. – i sərin, quru, günəş işığı birbaşa düşməyən yerdə saxlayın".

Formal cəhətdən əmr şəklində olan hər bir təsdiq mənalı felin inkar forması da ola bilər. Bu, felin əmr şəkli kontekstində belədir. Amma nitq fəaliyyətində əmr şəklinin təsdiq və inkar formalarının hər birinin öz işlənmə, tətbiq sahəsi vardır. Belə ki, hər təsdiq forması işlənən yerdə inkar formasını və, əksinə, hər inkar forması işlənən yerdə təsdiq formasını işlətmək olmaz.

Felin əmr şəklinin inkar formasına aid misallar:

Do not be a hypocrite! "İkiüzlü olma!"

Do not use ... after expiry date indicated on the package "Bükümün (bağlamanın) üstündə göstərilən müddətdən sonra istifadə etmə(yin)!"

Getmə gözümdən, gedərəm özümdən (İdiomatik ifadə).

Yemə, içmə, xəttü xalına, gül camalına tamaşa elə.

2. Əmr modallığı məsləhət, tövsiyə xarakteri daşıyır.

Put some apple in the salad “Salata bir az alma vur (qat, əlavə elə)!”

Add a little red “Bir az qırmızı (rəng, boya) qat (əlavə elə)!”

Ey həmdəmim, səni qana qərq eylər, Gəl, tərpətmə yaralanmış könlümü! (M.P.Vidadi).

Ey oğul, xəlqə söyləmə böhtan, Yaxşıya yaxşı ol, yamana yaman (ol)! (S. Ə. Şirvani).

3. Əmr modallığı təklif məqamında işlənir. Müvafiq əmr cümlələrinin xəbəri birinci və ikinci şəxsin tək və cəminə aid olan əmr şəkli ilə ifadə olunur. Məsələn:

Bu sualın cavabını mən deyim (verim) (Dan.).

Aşıq, bağrına bas sədəfli sazı, Min cavablı bir sualdan danışaq! Yar bəzənib çıxan zaman otaqdan. Başındakı tirmə şaldan danışaq! (S.Vurğun).

Aşıq Şəmşir, Dəli dağdan keşəndə Saz çalıb, söz qoşub, yada sal məni (S.Vurğun).

Gəlin, gedək bizim bağa, hərə çıxaq bir budağa (Xalq mahnısı).

Steve. Say, are you talking about me?

Cack. We certainly are (Gordon E. P.).

Mətndən göründüyü kimi, əmr şəklində olan fel (*say*) adresata müəyyən mətləb barəsində fikir söyləmək təklifini bildirir. Amma adresatdan tələb olunan, sual cümləsi şəklində onun nəzərinə çatdırılır. Adresatın verdiyi cavabda yalnız həmin sualın cavabı öz əksini tapmışdır. Burada *say* felinin müqabili ola biləcək kontekst ünsürü yoxdur. Bununla belə, adresatın müsahibəyə qoşulması özlüyündə danışanın (müsahiblərdən birinin) həmin təklifinin qəbul edilməsi deməkdir.

4. Əmr modallığı bildirən söz və ifadənin sayı birdən artıq ola bilir. Məsələn:

Give me liberty or give me death! “Ya mənə azadlıq verin, ya da (mənə) ölüm verin! (Məni ya azad edin, ya da öldürün!)”.

İstər dara çəkdir, istər əfv eylə, Qoymuşam yolunda başı cananın! (Aşıq Ələsgər).

5. Əmr modallığı bir sıra hallarda “əmr” məzmunlu fellərlə nitqə daxil edilir. Bu münasibətlə azərbaycan dilində əmr

etmək, ali üsluba mənsub olan hökm etmək felini, ingilis dilində order – "əmr etmək", require – "əmr eləmək", "tələb eləmək", demand – "tələb eləmək", suggest – "ehyam vurmaq", "təklif etmək", "məsləhət görmək", ask – "xahiş etmək" sözlərini qeyd edə bilərik.

Məsələn: *I order you to go home!* "Mən sizə əmr edirəm ki, evə gedəsiniz/evə gedin.

Həmin mətnin ingiliscə və azərbaycanca variantlarının müqayisəsindən görürük ki, ingiliscə budaq cümlədə infinitiv forması işlənir; azərbaycanca budaq cümlədə isə həm arzu, həm də əmr şəklindən istifadə etmək olar.

Konkret nitq aktlarında əmr cümlələrinin həm tabeli mürəkkəb cümlə, həm də sadə cümlə formasında olan tiplərindən istifadə olunur. Bunların fərqi, effekti məsələsinə gəldikdə isə, bizcə birinci halda daha çox təkid çaları, ikinci halda isə qətilik, yığcamlıq mülahizələri diqqət mərkəzində olur.

6. Əmr modallığının bilavasitə (birbaşa) ifadə vasitələri olduğu kimi, vasitəli (dolayı) ifadə vasitələri də vardır. Dolayısı ilə təhriketmə üsullarından biri adresatı müəyyən hərəkətləri icra etmək üçün danışan tərəfindən ona eyham edilməsi, işarə vurulması şəklində özünü göstərir. Bu məna növü ingilis dilində felin mümkünat şəklindən ötrü xarakterikdir.

I hope you'll come in time "Ümidvaram (ümid edirəm) ki, Siz vaxtında gələrsiniz".

I would / should appreciate it if you could do it in time "Siz bunu vaxtında edə bilsəydiniz, mən bunu qiymətləndirərdim".

Would you kindly leave the room? "Lütfən, otağı tərk etməzsiniz (etməzdiniz)?"

Won't you stop doing that noise soon? "Siz bu səs-küyə son qoymazsınız (qoymazdınız)?"

I would like you to go now! "Mən çox istərdim ki, Siz indicə (elə bu saat) gedəsiniz".

İngiliscə danışıqda təhriketmə mənası *please* sözü ilə formalaşır:

I'd like a can of sardine, please! "Zəhmət olmasa, mənə bir banka sardin verin!"

Gələcək zaman indikativ formaları qəti təhriketmə, təkidli tələb mənalarını ifadə edə bilir.

"I hate you", Philip said to Mrs. Boines. He pulled away from her and run to the door, but she was there before him, she was old, but she was quick, "Mister, Mister", she said "you'll say you are sorry" (G.Greene)

Təhriketmənin qətiliyi *Continuous* və *Indefinite* indikativ (*Present* və *Future*) formalarına da xasdır.

You're going with me now! (= you go with me now!)

You will be going with me now! (= go with me now!)

Əmretmə modallığı başqa formalarla ifadə oluna bildiyi kimi, onun özü də başqa modal mənaları ifadə edə bilir. Məsələn:

"Don't be a fool" təhriketmə cümləsi *"You are fool"* deməkdir.

Təhriketmə modallığı bildirən söz və ifadələr təkcə sintaksisin faktı olmaqla məhdudlaşmır. Onlar dilin leksik və qrammatik (morfoloci) sistemlərinin zənginləşməsində də mühüm rol oynayırlar. Məsələn, Azərbaycan dilində təhriketmə modallığı zəminində yaranmış bir sıra söz və ifadələr vardır ki, onlarda modal məna zəifləyib aradan çıxmış, bunun əvəzində onlarda andiçmə, alqış, qarğış və nəzakət mənaları meydana gəlmişdir. Bunlardan bəzilərini qeyd edə bilərik:

Nəzakət ifadələri: qadan alım, dərdin alım, başına dönüm, ayağının altında ölüm, canın sağ olsun, başın sağ olsun və s.

Andiçmə ifadələri: sən öl, mən ölüm, dünya işığına həsrət qalım (əgər yalan deyirəmsə).

Qarğış bildirən ifadələr: başın batsın, canın çıxsın, gözün çıxsın, qıçın sınsın, əlin qurusun, dilin yansın, ağzına qaya dəysin və s.

Beləliklə,biz görürük ki, əmretmə modallığı bildirən söz və ifadələr dil sistemi və nitq aktlarında nominativlik və kommunikativlik baxımından mühüm yer tutur.

3.5. Şərt modallığı.

Şərt modallığı müəyyən hal və hərəkətin baş verməsinin, yaxud baş tutmasının asılı olduğu ilkin şərtləri ifadə edir.

Şərt modallığının reallaşması üçün əsasən tabeli mürəkkəb cümlə tipi lazım gəlir: budaq cümlədə müəyyən şərt, baş cümlədə isə həmin şərtə bağlı olan hal-hərəkət öz ifadəsini tapır. Şərt modallığı ingilis dilində felin şərt şəkli ilə, Azərbaycan dilində isə felin şərt şəkli və əgər şərt bağlayıcısı ilə ifadə olunur. Azərbaycan dilində şərt mənasının əgər bağlayıcısı və felin şərt şəkli ilə ifadəsini şərt şəklinin analitik forması hesab etmək olmaz. Ona görə ki, birincisi, əgər bağlayıcısı olmadan da ifadə oluna bilər.

Azərbaycan dilində şərt mənası isə bağlaması və onun ixtisar formaları ilə də ifadə olunur. Bu bağlama təkcə fel formalarına deyil, adlarla, predikativlərlə də işlənərək, onların bildirdiyi keyfiyyətləri müəyyən şərtə bağlayır. Beləliklə, biz görürük ki, şərt modallığının ifadə vasitələri də, üsulları da müxtəlifdir. İndi isə bunlardan bəzilərini nəzərdən keçirək.

1. Şərt modallığı felin şərt şəkli ilə ifadə olunur. İngilis dilində bu, analitik yolla (şərt bağlayıcısı - əsas fel), Azərbaycan dilində isə sintetik yolla ifadə olunur. Məsələn:

If you are using any medical treatment, consult your doctor to ensure that the treatment won't affeet adversely "Əgər siz hansı isə tibbi müalicədən istifadə etmisinizsə, həkimlə məsləhətləşib – görün, onun əks təsiri yoxdur ki".

If you have either cake or cookies, you will get sick "Əgər sən ya piroq, ya da peçenye götürsən (yesən), xəstələnərsən (xəstələnəcəksən)".

Qara bax, qara – gör, necə yağır! Çıxsan bayıra, məni də çağır! (Uşaq şeri).

Xalamdan bir dilək diləyəcəyəm: versə də, sağ olsun, verməsə də (Məsəl).

Sabah allah qoysa da uçacam, qoymasa da (Lətifə).

Bu, potensial şərtdir, o, həyata keçə də bilər, keçməyə də.

2. Şərt modallığı həyata keçməsi mümkün olmayan hərəkətləri də bildirir. O, ingilis dilində felin mümkünat növü ilə, Azərbaycan dilində isə şərt şəklinin mürəkkəb forması ilə, başqa sözlə desək, keçmişə aid olan şərt forması ilə ifadə olunur. Məsələn:

If she had brother, I would have seen him “Əgər onun (qızın) qardaşı olsaydı, mən onunla görüşmüş olardım”.

3. Şərt modallığı təkcə bir ünsürlə deyil, bir neçə ünsürlə də ifadə oluna bilir. Biz yuxarıda bunu versə - verməsə söz formalarının timsalında gördük. Bu cür qoşa şərt təkcə eyni sözün müxtəlif formaları ilə yox, ayrı – ayrı leksik vahidlərlə də ifadə olunur. Məsələn:

Ağlasan ağlaram, gülərəm gülsən. (S. Rüstəm).

Ölürsə, yer bəyənsin; qalırsa, el bəyənsin (Məsəl).

4. Şərt modallığı göstəricisi adlarla, predikativlərlə ifadə olunan xəbərlə də işlənə bilir. Məsələn:

If necessary use water based lubricants “Zəruridirsə (vacibdirsə), yağlov sudan istifadə edin”.

Mənim orda olmağım vacibdirsə (lazımdırsa), mən də gəlim.

O odursa, mən də mənəm.

O, Keyxosrovdursa, biz də Əfrasiyabıq (Nizami Gəncəvi, Xosrov və Şirin).

5. Şərt modallığı şərtlər silsiləsi şəklində də işlənə bilir. Məsələn:

No, if we were together all this time, I’d to resent quitting my work whenever he decided to come home: And he’d get to resent my resenting quitting my work. And besides if we lived (!) all the time, he wouldn’t quit early. And I’d get resent that he worked late. And then, if we were together all the time, it wouldn’t be a holiday and he’d expect me to cook him dinner. And I’d resent cooking dinner, every night, he be happy with a cheese sandwich, as I am. And, of course he’d expect me to do the marketing (Marlin French. The Bleeding Heart). “Yox, əgər biz həmişə bir yerdə (olmuş) olsaydıq, o, evə gəlməyi qərara alan kimi işdən getmək mənə xoş gəlməzdi. Və mənim işdən getmək istəmədiyim də ona xoş gəlməzdi. Və, bundan başqa, biz həmişə bir yerdə olsaydıq, onun özü də işini tez qurtarmazdı. Və onun uzun müddət işləməsi də mənə xoş gəlməzdi. Və, sonra, biz həmişə bir yerdə olsaydıq, mənim bir dəqiqə də sərbəst vaxtım olmazdı və o mütləq istərdi ki, mən ona xörək bişirim. Və hər axşam bunu etmək mənə xoş gəlməzdi və o, əlbəttə, mənim kimi pendir – çörəyə qane

olmazdı. Və, əlbəttə, o, təkid edərdi ki, mən özüm bazarlıq eləyim".

6. Şərt modallığı artıq ifadə olunmuş mətləbə atmaca (replika) şəklində də işlənə bilir. Məsələn:

Flatt. You'd swear to that in a court of law!

Maclaehlan. İf necessary (Bridie C.) "Siz divanxanada (məhkəmədə) buna and içə bilərdiniz? Zəruridirsə; zərurət olsa".

Either you eat your dinner, or I'll spank you, if you don't! "Ya sən yeməyini yeyirsən, ya da mən səni şapalaqlayacağam – yeməsən!"

3.6. "Gələcək zaman" modallığı.

İngilis dilində gələcək zamanın modal xarakteri güclü təzahür edir. Keçmiş zaman fel formalarından da xüsusi modal mənalar inkişaf etmişdir.

N.A.Slüsareva göstərir ki, *shall/will* modal fellərinin, daha dəqiq deyilsə, onların müştərək *'ll* variantı və *should/would* keçmiş zaman forması şərtilik, irəlicədən gümanetmə, faktik qeyri – reallıq kimi düşünülən modal mənalar sayəsində ingilis dilində gələcək zaman formalarının modal xarakteri ön plana keçir [146, s.71].

Güman modal mənası mülahizənin məzmununun gerçəkliyə müvafiqliyi ehtimalı dərəcəsi *will* felinin infinitivlə calaşması yolu ilə də ifadə oluna bilir. Bu felin ifadə etdiyi modal mənanın *must, can, may, should* və *ought* fellərinin ifadə etdiyi modal mənalarla müqayisəsindən aydın olur ki, həmin fellərin bildirdiyi güman mənalarından ötrü onların leksik mənaları istinad rolu oynayırsa, *will* felinin infinitivlə birlikdə bildirdiyi güman mənasını onun leksik mənasından (buyruq, arzu, izharetmə) çıxarmaq mümkün deyildir. Bu isə o deməkdir ki, *will* felinin infinitivlə calaşmasının ifadə etdiyi güman mənası gələcək zaman forması zəminində inkişaf edir [146, s.101].

N.A.Slüsareva qeyd edir ki, ingilis dilində güman mənası bir neçə zaman forması ilə verilə bilər. *Will* felinin qeyri – perfekt infinitivlə calaşması o deməkdir ki, nəzərdə tutulan hərəkət gələcək zamana yox, indiki zamana aiddir. Məsələn:

Let me introduce Mrs. Honeychorc, whose sister you will remember at Florence "İcazə verin xanım Honeyçörçü sizə təqdim edim; onun bacısını siz, yəqin ki, Florensiyadan tanıyırsınız (xatırlayırsınız)".

Will felinin perfekt infinitivlə calaşması qabaqca baş vermiş hərəkət barəsində hal – hazırda bildirilmiş güman deməkdir.

I know his father Professor Harold S. Pyle. You'll have heard of him? "Mən onun atası professor Harold S. Pileni tanıyıram – Siz, yəqin onun barəsində eşitmisiniz (eşitmiş olarsınız)".

Biz bu tədqiqatın gələcək zaman fel formalarına həsr olunmuş bəhsində müvafiq modal mənalardan kifayət qədər bəhs etmişik. Orada deyilənləri bir də burada təkrar etməyə lüzum görmürük. Bununla belə, qeyd etmək lazımdır ki, gələcək zamanı ifadə edən vasitələr ("adi gələcək" və "keçmişdə gələcək") həm ingilis, həm də Azərbaycan dillərində kifayət qədərdir.

"Gələcək zaman" modal mənası təkcə fel formaları ilə ifadə olunmur. N.A.Slüsarevanın göstərdiyi kimi, modal məna yalnız morfoloci sahədə (dairədə) deyil, həmçinin leksik, sintaktik konstruksiyaların spesifikasında toplanmışdır. Modal məna bütün leksik – sintaktik strukturunda səpələnmişdir, bəzi hallarda isə onun hüdudlarından kənara adlayıb, mətn kateqoriyası kimi qarşıya çıxır [146, s.75].

"Gələcək zaman" modallığının ifadə olunmasında zaman, tərzi – hərəkət zərfləri və modal sözlər də iştirak edir. Məsələn:

Cohn will see a revived Boston "Con yenidən dirçəlmiş Bostonu görəcək".

I'll either be with Arlene or with Suzi "Bu axşam mən ya Arlenlə, ya da Suzi ilə olacağam".

An idiot will always remain an idiot "Heyvərə həmişə heyvərə olaraq qalacaq".

I think I'll cust go to the ladies room. I expect I'll be all right "Deyirəm, bəlkə, ayaqyoluna gedim. Məncə, orada keçib – gedər" (AHA, a, 216). ("Belə bilirəm (düşünürəm) ki,

düz ledinin otağına gedim (getməliyəm). Ümidvaram ki, yaxşı olaram").

Well, I suppose in the end I'll do what's sensible. I'll have an abortion. I cust have to think it through, talk it out, first (AHA, 222) "Yaxşı, deyəsən, əvvəl – axır bu ağlabatan yolu tutacağam. Abort elətdirəcəyəm. Amma əvvəlcə hər şeyi götür – qoy eləyib, bəzi məsələləri aydınlaşdırmalıyam" (AHA. a, 205). (Yaxşı, mən belə zənn edirəm (düşünürəm) ki, axırda mən ağlabatan nədirsə, onu eləyəcəm. Mən abort elətdirməliyəm. Artıq bu barədə düşünüb – daşınmışam").

3.7. Dialoci nitqdə modallıq.

Məlumdur ki, ünsiyyət iki tərəf arasında baş verir. Həmin tərəflər bir şəxslə də, bir neçə şəxslə də təmsil oluna bilər. Bundan başqa, həmin tərəf "danışan" - "dinləyən" və "danışan" - "danışan" olmaq üzrə də formalaşa bilər. Üstəlik, monoloci nitqdə dialoci mətnin ünsürləri də öz əksini tapa bilər. Yəni, bir şəxs təkcə özünün bildiyi şeydən yox, birisindən eşidib-oxuduğu şeylərdən də danışıb, onlara özünün və başqalarının münasibətini söyləyə bilər. Bu, modallığın müxtəlif təzahürlərinə geniş meydan açan bir sahədir. Biz burada dialoci nitqlə bağlı olaraq modallığın təzahür formaları məsələsini nəzərdən keçirəcəyik. Qeyd etməyi lazım bilirik ki, bizim materiallarımız yalnız iki konkret tərəf arasında baş verən nitq aktı nümunələri ilə məhdudlaşır.

Müsahiblər arasında nitq ünsiyyətinin formaları çox müxtəlif ola bilər. Tərəflərdən biri o birinin rəyi ilə tam razılaşa, qismən razılaşa bilər; o onun rəyinə bəzi əlavələr edə bilər, hətta onun dediyini rədd edə, təklifini yerinə yetirməkdən boyun qaçıra bilər. Bunun olduqca müxtəlif nümunələrini şifahi danışıqda, bədii əsərlərdə, xüsusən də dram əsərlərində müşahidə etmək olur.

İndi isə konkret nümunələrə müraciət edək. Danışan (tərəflərdən biri) müsahibinin fikrini qismən qəbul edir və müvafiq dil vasitələrindən istifadə etməklə bunu bildirir. Müvafiq mətnlərin azərbaycanca ifadəsində biz əsasən həmin ikinci tərəfin ifadə etdiyi modal mənalara fikir verəcəyik.

Cack. Afraid you'll have West Indians getting promition to order cobs?

Frank. That's partly it (Willies T.)

("Bu qismən belədir").

Gördüyümüz kimi, müsahiblərdən biri o birinin gümanını, zənnini qismən qəbul edir və onunla razılaşır.

Danışan müsahibinin dediyinə diqqətlə yanaşır, amma öz şübhəsini də açıq-aşkar bildirir. Məsələn:

Delude. Have they suffered like we have?

Can. I doubt it (Osborn I.)

("Mən buna şübhə edirəm").

Burada "şübhəetmə" modal mənası müvafiq fellə ifadə olunmuşdur. Azərbaycan dilindəki variantda bir qədər başqa cürdür. Burada həmin modal məna *şübhə* ismi ilə *etmək* felinin birləşməsindən əmələ gəlmiş mürəkkəb fellə verilmişdir. Azərbaycan dilində bu yeganə variant deyil; həmin məqsəd üçün "şübhəm var" ifadəsindən də istifadə etmək olar.

Həmin modal məna, bundan əlavə, ölçü və dərəcə bildirən zərflərlə də ifadə olunur. Məsələn:

Hester. Do you think we shall ever see him again?

Lampreft. I very much doubt that (Whiting C.)

("Mən buna çox-çox şübhə edirəm; Mənim buna xeyli şübhəm var")

Cavab atmacalarında müsahibin rəyini təsdiq və inkar etməklə yanaşı, əlavə məlumat da ola bilər. Məsələn:

Sophia. Are you in love with him?

Gondy. Can't see myself marrying any one else

("Özümü bir də (bir daha) evlənmiş görə (təsəvvür edə) bilmirəm")

Timothy. Can I have the key of the box of clothes?

Hallam. In my room on the dressing table (Whiting C.)

Burada təsdiq mənası dolayısı ilə, əlavə məlumatla ifadə olunmuşdur.

Əlavə məlumat inkar bildirən cavab cümləsindən də sonra gələ bilər.

Sally. Was it a famous place?

Bile. No, cust tiny (van Druten C.)

("Yox, az-maz; olsa-olsa "bir belə")

Şifahi danışıqda “bir belə” ifadəsi ilə verilən modal məna, yəqin ki, cestlə (əl hərəkəti ilə) müşayiət olunur.

Axel. Are you laughing at me?

Serena. No more than at myself (Coward N.)

(“Özümə [güldüyümdən] çox yox”).

Müsahibin sözünə qüvvət verən atmacalar bağlayıcıların köməyi ilə mətnə daxil edilə bilir. Bu zaman müsahib cümləni təsdiq və inkar formasına salıb, ona öz əlavəsini də edir:

The soldier. Was he tall?

The woman. Yes and handsome (Tombolt S.)

(“Bəli, həm də (üstəlik) qəşəng idi”).

She. You’ve got a pain there?

He. As if I’d been stabbed (Hartog C.D.)

(“Elə bil, yaralanmışam (yaralananda olduğu kimi”).

Əlavəli atmacaların bir qismində feli əvəzedici olur. Bunlarda həmişə əlavə məlumat olur.

Cean. Do you want to get married to Miss Murdoch?

Wlin. I do not, and that’s an evident fact (Bredie C.)

(“Mən [istə]mirəm istəyib-eləmirəm və bu açıq-aşkar faktdır/məlum şeydir”).

Feli əvəzedicili cavab atmacalarında yeni üzvlər də ola bilir:

Rose. Can a miracle be a fact?

Ron. This one can (Rottigan T.)

(“Bu biri ola bilər/bunu bacarar”)

Mrs. Mclalalan. Is fifty – five more than half?

George. No, technically it is not (Bridie C.)

(“Xeyir, texniki cəhətdən bu belə deyil”).

Cavab atmaca sualın ekvivalenti ola bilər.

Mary. Are you really hungry?

Cohn. I’m very, very hungry (Dicksang S.)

(“Mən xeyli, xeyli acam”).

Qeyd edək ki, azərbaycanca tərcümədə biz oricinalın motivini, özünəməxsusluğunu saxlamağa çalışmışıq. Azərbaycan dilində aclığın yüksək dərəcəsini ifadə etmək üçün aşağıdakı ifadə üsullarından istifadə olunur: “*Qurd kimi* acmışam”, “Elə acımışam ki, daşdan yumşaq nə olsa, yeyərəm”.

Ann. You aren't along now?

Clive. Yes. I'm very alone (Greene G.)

("Bəli. Mən çox (olduqca) yalqızam").

Müq. et: *Yalqızam, yalqız [...] Gəl, ey məni dərdə-qəmə salan vəfasız (R.Rza).*

Qeyd edək ki, Azərbaycan dilində tənha fərdlərin vəziyyətini ifadə etmək üçün *yalquzaq* sözü də vardır, amma bu söz yalnız qurd (canavar) barəsində işlədilir və bu səbəbdən də onu yuxarıdakı mətndə işlətmək olmaz.

Arthur. Are you ill?

Gucnevere. No, I am quite well (Bridie C.)

("Yox, mən tamamilə yaxşıyam").

Tom. Is that the truth?

Isabel. It's not whole truth (Bolt R.)

("Bu, bütün həqiqət deyil").

Atmacalar əlavə məlumat da verə bilir. Özü də bu məlumat tərəflərdən birinin və başqasının maraq dairəsinə uyğun seçilir. Məsələn:

Cochran. Did you come out at the second storey window?

Virginia. Yes and along the roof (Bridie C.)

("Bəli, həm də damla (damdan) [gəlmişəm]").

Burada əlavə məlumat danışanın təcrübəsinə əsaslanır.

Monica. Do you think I ought to here?

Cohn. Not if you don't want to (Coward R.)

("Əgər istəmirsinizsə, yox! ")

Cavab atmacalarında təsdiq və inkar mənası dolayısı ilə ifadə olunur.

The woman. He was killed. Even now I sometimes imagine I can hear him playing ... and see him.

The soldier. Is that why you come here?

The woman. Partly (Tombolt S.)

("Qismən").

William. You call that courage, senator?

Guswall. Courage of a sort, sir. (Taylor P.)

("Bu da bir cür cəsarətdir, cənab").

Atmaca cavablar əmr və nəqli cümlələrlə də əlaqədar olaraq işlənir. Məsələn:

Peter. And they can't prove it! My wife and her uncle can never sow it paid.

Tramp. Certainly (Goodman K.S)

("Əlbəttə şəksiz").

Boy. Don't leave until I've found out!

Man. Of course not (Huges G.)

("Əlbəttə ki, yox!").

Dialoci nitqdə nisbi əlaqələr də öz əksini tapır. Bu, sual-cavabın (daha doğrusu, cavabın) bir-birinin struktur-semantik tutumunu təkrar etməsi ilə bağlıdır.

Miss Hart. Did she break off?

Lady Wartuzton. Yes, she broke it off (Baring M.)

("Bəli, o (qadın) aranı kəsib")

Qarşılıqlı nisbətdə olan struktur-semantik əlaqələrdən aşağıdakı tipləri qeyd edə bilərik.

Cavab sualı yarımçıq cümlə şəklində təkrar edir:

Stella. Are you ready?

Charles. Ready (Weiting C.)

("Hazır[am]").

Cavab sualın transformasiyaya uğramış şəkli kimi özünü göstərir.

Axel. You had a son and he dead?

Serena. I had a son and he died (Coward N.)

("Mənim oğlum olub (var idi) və o ölüb").

Atmacaların bir qismi əvəzolunmalarla müşayiət olunur. Bunlar *"I (don't) think so"* modeli üzrə tərtib olunur. "So" əvəzedici rolu oynayır.

Paul. Is the weather going to be fine?

Stella. I think so (Whiting S.)

("Mən belə düşünürəm(Mən də bu fikirdəyəm)").

Bu qəbildən olan cavab atmacalarının bir qismi "(Yes). I do" "(No) I don't" modeli üzrə yaranır.

Rath. You mean he ought to go away?

Dr.Bradman. I do (Coward R.)

("Elədir ki, var").

Cavab atmacaların bir qismində həm təkrar, həm də əvəzetmələrdən istifadə olunur. Məsələn:

Rupert. Oh you really love me, dearest?

Cessie. Do, dearest, I do (Tarnington B).

(“Ah, əzizim, elədir ki, var”).

Qeyd: Bu və bundan qabaqkı cümlələrdə biz ingilis dilində *I do* ifadəsini azərbaycanca “elədir ki, var” şəklində verdik. Həmin ifadə üsulları tamamilə bir-birinə müvafiq gəlir. Ancaq unutmamalıyıq ki, *do* feldir, *var* sözü isə predikativ olsa da, fel deyil.

Felicity. I wonder if we ought to send for Patridge!
Cristwell. I think not, my lady (Coward R.)
(“Mən (belə) düşünmürəm, mənim gözəlim”).

Sual-cavabın qarşılıqlı nisbətindən danışarkən bunu qeyd etmək lazımdır ki, cavab-atmaca sualın bütün məzmun və strukturuna da aid ola bilir. Həmin qarşılıqlı nisbət *yes, no, sure, of course, certainly, no doubt* kimi modal söz və ifadələri, *brash, alas, fie, nonsense* kimi nida söz-cümlələri vasitəsilə ifadə edilir. Məsələn:

- You want to hear all of it?..
- Sure. (Brown C.).
(“Doğrudur”, “Əlbəttə”).
Maury. You’re serious, aren’t you?
Sharon. Yes! Yes! (Levin M.)
(“Bəli! Bəli!”)
Vladimir. You didn’t notice anything out of the ordinary?
Estragon. Alas! (Becket S.)
(“Heyhat! ”)
Nina. You do love me, don’t you?
Ordon. Of course. (O’Neill En.)
(“Təbii”).

Əlavələrin bir qismi sualda çatışmayanı, yaxud ona ehtiyac duyulmayanı tamamlamaq, doldurmaq məqsədi güdür. Bunun aşağıdakı tiplərini qeyd edə bilərik.

a) Yarımçıq cümlə şəklində olan tamamlayıcı.

Miss Brown. You’re a teacher too, aren’t you?
Mr. Ferrel. Of the dance. (Frings U.).
(“Rəqs [müəllimiyəm] ”).

Sualda, gördüyümüz kimi, ümumi şəkildə adresantın müəllim olub-olmaması barəsində soruşulur. Adresat həmin suala konkret şəkildə cavab verir, özü də müəllim sözünu təkrar işlətmədən.

b) Cavab atmacasında əvəzetmə və doldurma bir yerdə çıxış edə bilir:

Bully. You will come to me? Won't you?

Cean. I will tomorrow (Osborn S.).

("Mən sabah [gələ]cəyəm").

c) Təkrar və doldurma da bir yerdə çıxış edə bilir:

Lanus. And you believed him?

Ludy. I believed him at the time (Taylor P.).

("Mən ona vaxtında (bir vaxt) inanmışam").

Doctor. Don't you want to sit down now?

Venable. Yes, indeed I do before. I fall down (Williams C.).

ç) Əvəzetmə cümlə üzvləri arasında da işlənə bilir:

Simon. Mother, do you think I was sometime, a bit harsh?

Morland. I think you sometimes were, my son (Barry C.M.).

Pat. Did old Benthan know?

Cimmi. Know? He knew before (King).

Beləliklə, biz görürük ki, dialoci nitq modallıq kateqoriyasının ifadə üsullarının zənginliyi baxımından çox lazımlı material verir.

NƏTİCƏ

Azərbaycan və ingilis dillərinin materialları əsasında modallıq kateqoriyasının struktur-semantik təhlili aşağıdakı nəticələri çıxarmağa əsaslar verir:

1. Modallıq fəlsəfi-məntiqi və linqvistik kateqoriya olmaqla ünsiyyət prosesinin iştirakçısının, yəni danışanın özünün ifadə etdiyi fikrinin məzmununa və gerçəkliyə münasibətini əks etdirir. Məhz belə ikili münasibət tipindən asılı olaraq modallıq kateqoriyasını obyektiv və subyektiv modallıq olaraq iki növə ayırırlar. Bu baxımdan modallıq kateqoriyası obyektiv və subyektiv münasibətin insan təfəkküründə əksini tapmış dialektik vəhdətindən ibarətdir. Modallığın iki aspekti, yəni obyektiv və subyektiv modallıq bir-birini tamamlayaraq bütövlükdə ümumi modallıq məzmununu yaradır.

2. Modallıq kateqoriyası dilin kommunikativ vəzifəsi ilə bağlı olan kateqoriyadır. O, cümlə, mətnin köməyi ilə ünsiyyətin təmin olunmasının ilkin şərti və son məhsuludur. Modallıq kateqoriyası nitq subyektinin (danışanın, yazanın) kommunikativ niyyəti ilə bağlıdır. Belə ki, danışan, yazan müəyyən ünsiyyətə qoşulmaq, yaxud onun baş verməsinə səbəb olmaq istərkən ümumi nitq strategiyasından çıxış edir. O, kimə müraciət etdiyini, nədən bəhs edəcəyini və bu münasibətlə hansı vasitələrdən istifadə edəcəyini ümumi şəkildə təsəvvür edir. Nitq subyekti konkret şəraitdə müəyyən məlumatı adresata çatdırmaq, onda həmin məlumata arzuolunan münasibət yaratmaq məqsədi güdür. Həm ingilis dilinin, həm də Azərbaycan dilinin materialları bu mülahizənin haqlı olduğunu təsdiq edir.

3. Modallıq kateqoriyası üç cür münasibət ifadə edir: obyektiv gerçəkliyin əşya və hadisələrinin münasibəti, eləcə də onlarla onlara xas olan əlamət və keyfiyyətlərin münasibəti; danışanın ifadə edilən mülahizəyə (fikrə) münasibəti; ifadə olunan mülahizənin hadisələrin təbii gedişinə münasibəti. Aralarındakı genetik və tipoloci fərqlərə baxmayaraq, Azərbaycan və ingilis dillərinin materialları bu üç münasibəti ehtiva edir və onun hüdudlarından kənara çıxmır.

4. Modallıq kateqoriyası dilin praqmatik aspekti ilə qırılmaz surətdə bağlıdır. Həmin zəmində dilin məqsədə (və intonasiyaya) görə növləri meydana gəlmiş və gündəlik ünsiyyətdə müvəffəqiyyətlə fəaliyyət göstərir. Bunlar, məlum olduğu kimi, aşağıdakılardır: nəqli cümlə, sual cümləsi, əmr cümləsi və nida cümləsi. Həmin cümlə tiplərinə modallığın xüsusi tipləri müvafiq gəlir: nəqletmə (təhkiyə) modallığı (yaxud: təsdiq modallığı), sual modallığı, əmr (təhriketmə) modallığı və emosional – ekspressiv münasibət modallığı.

Qeyd edilən cümlə tipləri və müvafiq modal mənalar dilin adlandırma və ifadəetmə (kommunikativlik) imkanlarından özünəməxsus şəkildə istifadə edirlər. Əlavə etmək lazımdır ki, hər iki istiqamətdə bunların imkanları qeyri – məhduddur.

5. Dilin praqmatik aspekti onun leksikasına, morfoloci sisteminə və sintaktik quruluşuna müəyyən bucaq altında baxmağa imkan verir. Dilin lüğət tərkibindəki leksik inventar içərisində elə sözlər vardır ki, onların əsas vəzifəsi müəyyən münasibət bildirməkdir. Bura ilk növbədə modal sözlər və modal fellər aiddir.

Modallıq kateqoriyasının mühüm ifadə vasitələrindən birini modal sözlər təşkil edir. Bunlar danışanın öz nitqində ifadə edilən fikrə münasibətini obyektiv gerçəkliyə nisbət, ağıl və düşüncə qaydalarına müvafiqlik, emosional qiymətvermə, insan həyatı və taleyində oynadığı rola görə ifadəsinə xidmət edən sözlərdir. Təsadüfi deyil ki, Azərbaycan və ingilis dillərində modal sözlər sahəsində birbaşa təmas nöqtələri olmasa da, həmin dillərin modal sözlərinin əsas sinifləri bir-birinə uyğun gəlir.

Modal sözlər sadə və mürəkkəb cümlələrdə, dialoci nitqdə, nitq parçaları və nitq situasiyaları ilə sıx əlaqədə istifadə olunur. Onlar cümlənin müxtəlif yerlərində gələrək, olduqca rəngarəng cümləyaratma imkanları, qabiliyyəti nümayiş etdirir. Azərbaycan və ingilis dillərinin cümlə modellərini nəzərdən keçirdikdə görmək olur ki, onlar arasında həmin sahədə ümumi, oxşar cəhətlər çox olduğu kimi, fərqli cəhətlər də az deyil. Məsələn, bir çox modal sözlər ingilis dilində cümlənin ortasında və axırında gəldiyi halda, Azərbaycan dilində onların normal işlənmə mövqeyi cümlənin əvvəlindədir. Modal sözlərin seçilib-işlədilməsi

şifahi nitqdə danışanın, yazılı nitqdə isə yazanın, müəllifin linqvistik məqsəd və niyyətindən asılıdır. Məsələn, Azərbaycan və ingilis dillərinə məxsus olan dil materiallarını müqayisə edərək görürük ki, eyni modal məna müxtəlif şəkillərdə, iki cür, üç cür ifadə edilir.Modal münasibət başqa yollarla, üsullarla ifadə olunsa da, modal sözlər həmin münasibətlərə daha çox konkretlik, əyanilik verir. Hər iki dilin materialları bu fikri təsdiq edir.

Bundan başqa, dildə kommunikasiyasının fəal üzvü olan danışanın nitq aktına münasibətini bildirən fellər və səciyyələndirici sözlər vardır ki, bunlar cümlənin, mətnin tərtibində mühüm rol oynayırlar: *demək, soruşmaq, əmr etmək, məsləhət görmək, tövsiyə etmək* və s.

Dildə substansiya və əlamət bildirən sözlər vardır ki, bunlarda predikativlik münasibəti modallıq münasibəti ilə üst – üstə düşür. Məsələn: Kağız ağdır. *The paper is white.* Həmin cümlələr dil tipi ilə bağlı olan xüsusiyyyətlərinə görə bir – birindən fərqlənsələr də, ağlıq əlamətinin kağıza isnad verilməsi mənasında onlar arasında elə bir mühüm fərq yoxdur.

6. Modal mənanın birbaşa və dolayısı ilə olan ifadə vasitələri vardır. Birincilər sırasına modal sözlər, modal fellər, felin müəyyən şəkilləri aiddir. İkincilər sırasına birinci funksiyası başqa kateqoriyanın ifadəsi ilə bağlı olub, modallığı ikinci funksiya kimi ifadə edən vasitələr aiddir. Bundan başqa, modallıq kateqoriyasını müşayiət edən ifadələr də vardır ki, onlar bilavasitə olaraq modal mənanı əks etdirməyib, həmin mənanın gerçəkləşdiyi şəraiti, doğurduğu əhvali – ruhiyyəni, əks – sədanı verirlər.

7. Modallıq kateqoriyası ümumi linqvistik kateqoriyalardan olsa da, onun bu və ya başqa dildəki ifadəsi heç də eyni, bir tipli olmaya bilir. Məsələn, ingilis dilində modal fellər, felin mümkünat şəkli, felin sual şəkli kimi vasitələr vardır ki, Azərbaycan dilində bunların birinci funksiyada ifadə vasitələri yoxdur. Ancaq bu o demək deyildir ki, Azərbaycan dilində həmin modal mənaları ifadə etmək mümkün deyildir. Azərbaycan dilində müvafiq vasitələrdən sual intonasiyası, felin arzu, lazım, vacib şəkilləri, “keçmişdə gələcək” formalarının adını çəkə bilərik.

8. Ümumi dilçilik nəzəriyyəsindən hər bir dil mənasının çoxifadəliliyi və hər bir dil formasının çoxmənalılığı faktı yaxşı məlumdur. Bu müddəa modallıq kateqoriyası ilə əlaqədar olaraq da öz qüvvəsini saxlayır: belə ki, eyni bir modal məna bir çox paralel vasitələrlə ifadə edilə bildiyi kimi, eyni bir modallıq vasitəsi də bir çox mənalarda işlənə bilir. Məsələn, yaxşı məlumdur ki, əmr modallığı ilə bağlı olan əmr cümlələri, felin əmr şəkli təkcə əmr məzmununun ifadəsi ilə məhdudlaşmayıb, arzu, xahiş, məsləhət, öyüd – nəsihət mənalarının da ifadəsinə xidmət edir. İngilis dilində *shall/will* köməkçi fellərinin əsas vəzifəsi gələcəyə aid olan hərəkəti bildirməkdir. Həmin mənanın zəminində güman modal mənası yaranmışdır. Belə də olur ki, təzə meydana çıxmış modal məna ilkin mənanı sıxışdırıb aradan çıxarır. Məsələn, Onu allah vurmuşdu. sintaktik konstruksiyasını götürək. Onun işləndiyi konteksdə allahın kimi isə harada və nə zaman vurması kimi məsələlərlə maraqlanmaq lüzumsuz bir məşğuliyyət olardı. Həmin ifadənin aktual mənası kimə isə ikrah, nifrət hissinin ifadə olunması ilə əlaqədardır. Bu sintaktik konstruksiyasının mənası yalnız həmin modal mənanın ifadəsi ilə məhdudlaşır.

9. Modallıq kateqoriyası yalnız modal sözlər, modal fellər, felin bəzi şəkilləri, mülahizəni gerçəklik–yalanlıq baxımından qiymətləndirən sintaktik konstruksiyalar, danışanın emosional münasibətini bildirən vasitələrlə məhdudlaşmır. Modallıq kateqoriyası modal məna və qiymətləndirici münasibət bildrən hər bir dil vahidinə xasdır.

Modallıq kateqoriyasının əsas fəaliyyət sahəsi cümlədir. Amma bununla yanaşı, modal məna cümlələrarası sahədə, mətndə də özünü büruzə verir.

Bundan başqa, modallıq kateqoriyası təkcə monoloci nitqdə yox, həm də dialoci nitqdə özünü göstərir. Burada təkcə danışanın deyil, dinləyənin, haqqında söhbət edənin də söylədiyi mülahizəyə qiymətverici münasibət öz əksini tapmış olur.

Modal mənalar həm bir-birilə, həm də başqa dil mənaları ilə korrelyasiya münasibətində olur. Amma cümlədə və mətndə modallıq vasitələrinin xətti münasibətdə çıxış etdiyini görürük. Onlar nitqin, nitq parçasının ümumi

strategiyasına uyğun olaraq bir-birinə qüvvət verir, biri digərini möhkəmlədir, eyni mənanın müxtəlif vasitələrlə ifadəsini təmin edirlər.

Qeyd olunan ümumi strategiya zəminində biz genetik və tipoloci cəhətdən bir-birindən çox fərqlənən Azərbaycan və ingilis dillərinin bir çox modal mənaları özünəməxsus şəkildə ifadə etdiyini görürük. Həmin özünəməxsusluq dil vahidlərinin seçilməsi, nitq etiketinin təmin olunması, nitq vahidlərinin yerləşdirilməsi (söz və cümlə üzvlərinin sırası) kimi məsələləri əhatə edir.

10. Modallıq kateqoriyası nitq aktının iştirakçılarını vahid məqsəd ətrafında birləşdirir. Bu məqsəd müəyyən nitq parçasının açıq və gizli şəkildə ifadə olunmuş modal münasibəti bildirmə, onu qavrama (açma) və həmrəylik nümayiş etdirmək kimi tərkib hissələrindən ibarətdir. Aydın məsələdir ki, ünsiyyətdə olanlar bir-birini başa düşdüyü kimi, başa düşməyə də bilir, hətta bilərəkdən başa düşməmə halları da istisna olunmuşdur. Bu, birdilli ünsiyyətdə olduğu kimi, ikidilli ünsiyyətdə də tez-tez qarşıya çıxır. Tədqiqata bol-bol cəlb etdiyimiz ingilis dili və Azərbaycan dili materiallarının qarşılıqlı müqayisəsindən göründüyü kimi modal mənaların ifadəsi sahəsində dillərin imkanlarının öyrənilmiş olması bu prosesin müsbət mənada həllini asanlaşdırır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

Azərbaycan dilində

1. Abdullayev Ə. Aktual üzvlənmə və mətn. Bakı, Xəzər Universitəsi Nəşriyyatı, 1998, 190 s.
2. Axundov A. Felin zamanları. Bakı, Azərbaycan Dövlət Universiteti nəşriyyatı, 1961, 139 s.
3. Axundov A. Dil və ədəbiyyat. I cild, Bakı, 2003, 660 s.
4. Axundov A. Azərbaycan dilinin fonemlər sistemi. Bakı, "Maarif", 1973, 303 s.
5. Axundov A. Azərbaycan dilinin fonetikası. Bakı, "Maarif", 1984, 391 s.
6. Axundov C. Azərbaycan dilində sual cümlələri (eksperimental-fonetik tədqiq). Bakı, "Elm", 1998, 229 s.
7. Adilov M.İ., Verdiyeva Z.N., Ağayeva F.M. İzahlı dilçilik terminləri. Bakı, "Maarif" nəşriyyatı, 1989, 362 s.
8. Aslanov A.Ə. Müasir Azərbaycan dilində modal sözlər. Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri. X cild, 1957, s. 171-175.
9. Aslanov A.Ə. Modal sözlər. Azərbaycan dilinin qrammatikası. Azərbaycan SSR EA nəşriyyatı. 1960, 335 s.
10. Azərbaycan dilinin qrammatikası. Morfologiya, I hissə. Bakı, "Azərbaycan SSR EA nəşriyyatı, 1960, 335 s.
11. Azərbaycan dilinin izahlı lüğəti. I cild, Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1966, 595 s.
12. Azərbaycan dilinin izahlı lüğəti. II cild, Bakı, "Elm", 1980, 576 s.
13. Azərbaycan dilinin izahlı lüğəti. III cild, Bakı, "Elm", 1983, 554 s.
14. Azərbaycan dilinin izahlı lüğəti. IV cild, Bakı, "Elm", 1987, 541 s.
15. Babayev S.M. Müasir Azərbaycan dilində feli bağlama tərkibli sadə nəqli cümlələrin intonasiya

xüsusiyyətləri. Namizədlik dissertasiyası. Bakı, 1965.
16. Budaqova Z.İ. Müasir Azərbaycan dilində sadə cümlə. Bakı, “Elm”, 1963.
17. Cahangirov F.F. İngilis dilində perfekt zamanlar sistemi və onun Azərbaycan dilində ifadəsi. Namizədlik dissertasiyası, Bakı, 2000, 125 s.
18. Cavadov Ə. Modal sözlər. Müasir Azərbaycan dili (morfologiya). Bakı, “Elm”, 1980, s. 461-467.
19. Cavadov Ə. Modallıq məsələsinə dair bəzi qeydlər. Azərbaycan SSR EA-nın Xəbərləri (İctimai elmlər seriyası), 1959, №2, s. 83-89.
20. Cəfərov S. Azərbaycan dilində felin şəkilləri məsələsinin qoyuluşuna dair. Azərbaycan dili və ədəbiyyat tədrisi. Birinci buraxılış, Bakı, 1963.
21. Cəfərova B. İngilis və Azərbaycan dillərində felin zamanlar sistemi. Bakı, “Nurlan”, 2004, 260 s.
22. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı, “Elm”, 2001, 183 s.
23. Əlizadə Z. Müasir Azərbaycan dilində modal sözlər (namizədlik dissertasiyası). Bakı, 1963.
24. Əlizadə Z. Müasir Azərbaycan dilində modal sözlər. “Maarif” nəşriyyatı. Bakı, 1965, 148 s.
25. Hacıyev K. Azərbaycan dilində xüsusi nitq hissələri. Bakı, Çaşıoğlu, 1999, 164 s.
26. Hacıyev K. Azərbaycan dilində nida. Bakı, “Nurlan”, 2005, 215 s.
27. Hacıyeva T.Ə. Müasir Azərbaycan dilində felin keçmiş zaman kateqoriyası ilə əlaqədar olaraq **“imiş”** forması haqqında bəzi qeydlər. Azərbaycan SSR EA məruzələri, XIV cild, 1958, № 10, s. 815-819.
28. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, “Maarif” nəşriyyatı, 1973, 358 s.
29. İsrafilov M.M. Məntiq. Dərs vəsaiti. Bakı, “Maarif”, 1987, 334 s.
30. Qazıyeva M.Y. Səhnə nitqinin linqvistik problemləri (ingilis və Azərbaycan dilləri əsasında). Doktorluq dissertasiyasının avtoreferatı. Bakı, 2004, 66 s.

31. Quliyev H.K. Ədat. Müasir Azərbaycan dili, II hissə, Bakı, “Elm”, 1980, 510 s.
32. Quliyev Q.A. Müasir alman dilində modal fellərin funksional-semantik təhlili və onların Azərbaycan dilində ifadə vasitələri. Namizədlik dissertasiyasının avtoreferatı. Bakı, 2004, 21 s.
33. Mehdiyeva E.M. İngilis dilində feli frazeoloci birləşmələr və onların Azərbaycan dilində ifadəsi. Namizədlik dissertasiyasının avtoreferatı. Bakı, 2005, 22 s.
34. Məmmədov A.Y. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi. Doktorluq dissertasiyasının avtoreferatı. Bakı, 2003, 54 s.
35. Mirzəliyeva A. Azərbaycan dilinin qrammatikası: sxemlərdə, testlərdə. Bakı, 2005, 192 s.
36. Musayev O. İngilis dilinin qrammatikası. Bakı, “Maarif” nəşriyyatı, 1996, 392 s.
37. Müasir Azərbaycan dili. Bakı, Elm”, III hissə, 1981, 509 s.
38. Muasir Azərbaycan dili. II cild,Bakı,“Elm”, 1980,510 s.
39. Rəhimov İ., Hidayətzadə T. İngilis dilinin praktik qrammatikası. Bakı, “Maarif”, 1966, 314 s.
40. Rəhimov İ., Hidayətzadə T., Mircəfərova S. İngilis dilinin praktik qrammatikası. Bakı, Azərnəşr, 2001, 170 s.
41. Sadıxov Q. Məntiq. Azərtədrisnəşr, 1962.
42. Veysəlov F. Alman dilinin fonetikası. Bakı, “Maarif”, 1980.
43. Yusifov M. Türkologiyaya giriş. Bakı, “Nurlan”, 2001, 432 s.
44. Zeynalov F.R. Müasir türk dillərində ədat və modal sözlər. Bakı, 1965.
45. Zeynalov F.R. Müasir türk dillərində köməkçi nitq hissələri. Bakı, “Maarif”, 1971, 331 s.
46. Zeynalov F.R. Türk dillərinin müqayisəli qrammatikası. Bakı, ADU nəşri, 1974, 142 s.
47. Zeynalov F. Türkologiyanın əsasları. Bakı, “Maarif”, 1981, 347 s.

Rus dilində

48. Aqaeva F.A. Modalğnostğ kak linqvistiçeskaə kateqoriə. Aşxabad, 1990, 304 s.
49. Aqazade N.Q. K voprosu o kateqorii nakloneniə i modalğnosti v sovremennom azerbaydcanskom əzıke. İzd-vo AN Azerb.SSR, Baku, 1965, 112 s.
50. Aqazade N.Q. K voprosu o modalğnoy suhnosti form izəvitelğnoqo nakloneniə (na materiale azerbaydcanskoqo, nemeükoqo, russkoqo əzıkov). Uçenie zapiski. APİRƏL. im M.F.Axundova. Seriə XII, Əzık i literatura, № 3, Baku, 1966, str. 33-55.
51. Admoni V.Q. Vvedenie v sintaksis sovremennoqo nemeükoqo əzıka. M., İzd-lit. na inostr. əzıkax, 1955, 164 s.
52. Admoni V.Q. O modalğnosti predloceniə / uçen.zap. Leninqr.Qos.Ped.in-ta, 1956, T.21, vıp. 1. str. 47-70.
53. Anqeli A. K voprosu o kateqorii modalğnosti i leksiçeskix sredstvax ee vıracenie v törkskix əzıkax. AKD. M., 1964, 28 s.
54. Anqliyskaə qrammatika v dialoqax: Upotreblenie vremen (N.İ.Şpekina, N.İ.Üaplina, E.M.Alekseeva i dr.). M., Vısşaə şkola, 1986, 207 s.
55. Artemov V.A. Ton i intonaüiə. M., 1961.
56. Afanasğev P.A. Obuçenie dialoqiçeskoy reçi pri vıracenii podvercdeniə i otriüaniə v sovremennom anqliyskom əzıke. Rostov-na-Donu, 1979.
57. Axmanova O.S. Slovarğ linqvistiçeskix terminov. İzd. 2-e. M., "Sovetskaə Gnüiklopediə", 1966, 608 s.
58. Axmanova O.S. Loqiçeskie formı i ix vıracenie v əzıke. V kn.: Mışlenie i əzık. M., 1957, s. 198.
59. Bazovıe qrammatiçeskie ediniüı əzıka v reçevoy kommunikaüii (Sb. nauç. tr. Mosk. qos. İn-t inostr. əz. im Morisa Toreza). M., 1988, 144 s.
60. Balli Ş. Obhaə linqvistika i voprosı franüuzskoqo əzıka. İzd-vo inost. lit.-rı, M., 1955.
61. Balli Ş. Franüuzskaə stilistika. İzd-vo inost. lit.-rı, M., 1961.

62. Barxudarov L.S. O poverxnostnom i qlubinnom sintaksise. İnost. əzıki v şkole, 1974, № 1., s. 25-35.
63. Barxudarov L.S. Oçerki po morfoloqii sovremennoqo anqliyskoqo əzıka. M., Vısşaə şkola, 1975,156 s.
64. Baskakov A.N. Predlocenie v sovremennom tureükom əzıke. M., Nauka, 1984, 200 s.
65. Baskakov N.A. Karakalpakskiy əzık. M., İzd. AN SSSR, 1951, 410 s.
66. Baskakov N.A. Törkskie əzıki. M., İzd. Vostoçnoy literaturı, 1960, 247 s.
67. Başkirsko-russkiy slovarğ. S priloceniem kratkoqo oçerka qrammatiki başkirskoqo əzıka. Qos. İzd. İnostrannıx i naüionalğnıx slovarey. M., 1958, 804 s.
68. Belıy V.V. Modalğnıe znaçeniə infinitivnıx soçetaniy v sovremennom anqliyskom əzıke (dolcenstvovanie i pobucdenie). AKD, Kiev, 1955, 10 s.
69. Bondarko L.V. Qrammatiçeskaə kateqoriə i kontekst. L., Nauka, 1971, 114 s.
70. Bondarenko V.N. Analitiçeskie i sintetiçeskie sposobı vıraceniə modalğnosti v nemeükom əzıke. İnostrannıe əzıki v şkole. İzd. “Prosvehenie”, 1978, № 4, s. 31-37.
71. Bondarenko V.N. Vidı modalğnıx znaçeniy i ix vıraceniə v əzıke. Filoloqiçeskie nauki, 1979, № 2.
72. Bondarenko V.N. Ob adekvatnosti perevoda modalğnıx znaçeniy s nemeükoqo əzıka na russkiy i naoborot. İnostrannıe əzıki v şkole. 1981, ? 6/81.
73. Borkaçev S.Q. Modalğnıe slova raüionalğnoy oüenki sovremennoqo ispanskoqo əzıka. AKD, M., 1976, 24 s.
74. Brinkman İ.Q. Modalğnıe slova v sovremennom anqliyskom əzıke. AKD, Xarkov, 1953, 29 s.
75. Vasilenko L.İ. Modalğnıe slova kak sredstvo avtorizaüii teksta. Filoloqiçeskie nauki, 1984, № 4, s. 76-79.
76. Vinoqradov V.V. O kateqorii modalğnosti i modalğnıx slovax v russkom əzıke. V kn.: İssledovaniə po russkoy qrammatike. M., Nauka, 1975.

77. Vinoqradov V.V. O kateqorii modalğnosti i modalğnıx slovax v russkom əzıke. Trudı. İn-ta russk.əz., M.,-L., 1950, R II, str. 49.
78. Vinoqradov V.V. Russkiy əzık. M., 1947, 783 s.
79. Volğf E.M. Oüenka i "strannostğ" kak vidı modalğnosti. Əzık i loqiçeskaə teoriə. Sb. nauç. trudov. M., 1987.
80. Qadcieva T.A. Sistema form proşedşeqo vremeni qlaqola v sovremennom azerbaydcanskom literaturnom əzıke (avtoref. kandid. dissert.). M., 1958, 26 s.
81. Qak V.Q. Teoretiçeskaə qrammatika franüuzskoqo əzıka. Sintaksis. M., Vısşaə şkola, 1981, 208 s.
82. Qalğperin İ.R. O ponətii "tekst" / Voprosı əzıkoznaniə. 1974, №6.
83. Qordon E.M., Krılova İ.P. Modalğnostğ v sovremennom anqliyskom əzıke. M., Mecdunarodnoe otnoşenie, 1968, 135 s.
84. Qrepa M. O suhnosti modalğnosti. V kn.: Əzıkoznanie v Çexoslavakii. M., Proqress, 1978, s. 274-301.
85. Qulıqa E.V. Şendelğs E.İ. K voprosu o əzıkovıx makro-mikropoləx. Tezisı nauçn. konf. "Urovni əzıka i ix vzaimodeystvie". M., 1967, s. 57-58.
86. Qulıqa E.V., Natanzon M.D. Teoriə sovremennoqo nemeükoqo əzıka. Morfoloqiə. M., 1956, 174 s.
87. Qulıqa E.V., Şendels E.İ. Qrammatiko-leksiçeskie polə v sovremennom nemeükom əzıke. M., Prosvehenie, 1969, 184 s.
88. Qulıqa E.V. Modalğnostğ slocnopodçinennoqo predloceniə. Sb., "Voprosı leksikoloqii, qrammatiki i fonetiki nemeükoqo əzıka". M., 1959, str. 95.
89. Qureviç V.A. Upotreblenie modalğnıx slov v sovremennom nemeükom əzıke. Uç.zap. LQPİ im A.İ.Qerüena, L., 1959, t. 190, 4-1, str.82.
90. Qureviç V.V. Modalğnaə aktualizaüiə smıslovıx komponentov predloceniə i slova. Filoloqiçeskie nauki. 1985, № 2.
91. Quseynova L.V. Sistema dlitelğnıx vremen qlaqola (na materiale anqliyskoqo i azerbaydcanskoqo əzı-

kov). Dis. na soisk. uç. st. kand. filol. nauk. Baku, 2005, 133 s.
92. Demina E.B. Sposobı vıraceniə modalğnosti v qazetno-publiüistiçeskix tekstax sovremennoqo anqliyskoqo əzıka. AKD, Rostov-na-Donu, 1984, 22 s.
93. Deşerieva R.İ. O sootnoşenii modalğnosti i predikativnosti. Voprosı əzıkoznaniə, 1987, № 1, str. 34-45.
94. Dcusaev Dc. Qrammatiçeskie sredstva vıraceniə kateqorii modalğnosti v kirqizskom əzıke. Frunze, 1984.
95. Dolinskaə L.D. Leksiko-sintaksiçeskiy sposob vıraceniə modalğnosti v svəzi s funküionalğnoy perspektivoy i ritmiçeskoy orqanizaüiey teksta. Dis. kand. filol. nauk. M., 1976, 126 s.
96. Dırenkova N.P. Qrammatika şorskoqo əzıka. M., 1941.
97. Dğəçenko O.F. O sootnoşenii kateqorii irrealğnosti i kateqorii modalğnoy kateqoriçnosti-nekateqoriçosti v anqliyskom əzıke. V kn.: İssledovaniə po romanskoy i qermanskoy filoloqii. Kiev, 1975, s. 87-90.
98. Ermakova N.B. Distributivnıy analiz sredstv vıraceniə futuralğnosti v sovremennom anqliyskom əzıke. AKD, Kalinin, 1985, 28 s.
99. Ermoloeva L.S. K voprosu o sootnoheniy modalğnosti i predikativnosti. Sb. “Filosofiçeskie nauki”, 1963, № 4, str. 121.
100. Ermolaeva L.S. Sistema sredstv vıraceniə modalğnosti v sovremennıx qermanskix əzıkax (na materiale nemeükoqo, anqliyskoqo, şvedskoqo i islandskoqo əzıkov). Dis. kand. filol. nauk. M., 1962, 253 s.
101. Ermolaeva L.S. Sistema nakloneniy v sovremennom nemeükom əzıke (v sopostavlenii s druqimi qermanskimi əzıkami). M., 1976.
102. Efimova N.V. Modalğnıe slova v sovremennom anqliyskom əzıke. Dis. kand. filol. nauk. M., 1954, 258 s.

103. Canpeisov E.N. Modalğnıe slova v sovremennom kazaxskom əzıke. AKD., Alma-Ata, 1958, 18 s.
104. Zvereva E.A. Nauçnaə reçğ i modalğnostğ (sistema anqliyskoqo qlaqola). L., Nauka, 1983, 158 s.
105. Zolotova Q.A. O modalğnosti predloceniə v russkom əzıke. Nauçn. dokl. vısşey şkolı. M., Vısşaə şkola, 1962, № 4, s. 65-79.
106. Zommerfelğdt K.E. O roli funküionalğno-semanti-çeskoy poley v opredelennıx raznovidnostəx. İnostrannıe əzıki v şkole. № 1, 1988, s. 10-15.
107. İbraqimova S.İ. Modalğnostğ v uslovnıx kompleksax franüuzskoqo i azerbaydcanskoqo əzıkov. AKD, Baku, 1974.
108. İvanova İ.P. Vid i vremə v sovremennom anqliyskom əzıke. L., 1961, 200 s.
109. İvanova İ.P., Çaxoən L.P. İstoriə anqliyskoqo əzıka. M., Vısşaə şkola, 1976.
110. İsaev A.V. K voprosu o delenii sucdeniy po modalğnosti. V kn.: “Loqiko-qrammatiçeskie oçerki”, M., 1961, str. 85-96.
111. İssledovaniə po sravnitelğnoy qrammatike törkskix əzıkov. M., İzd. AN SSSR, 1961, 232 s.
112. Kaqan S.E. Modalğnıe slova anqliyskoqo əzıka v razliçnıx po üeli vıskazıvaniə tipax predloceniə. Dis. kand. filol. nauk. Xarğkov, 1953, 236 s.
113. Kazembek M.A. Obhaə qrammatika tureüko-tatarskoqo əzıka. Kazanğ, 1845.
114. Kanner L.M. Razvitie vıraceniə modalğnosti preterito-prezentnımi qlaqolami v nemeükom əzıke. AKD, L., 1953, 19 s.
115. Kolşanskiy Q.V. K voprosu o sodercanii əzıkovoy kateqorii modalğnosti // Vopr. Əzıkozn. 1961, № 1, s. 94-98.
116. Kononov A.N. Qrammatika sovremennoqo tureükoqo literaturnoqo əzıka. M., İzd. AN SSSR, 1956, 569 s.
117. Kononov A.N. Qrammatika sovremennoqo uzbekskoqo literaturnoqo əzıka. L., İzd. AN SSSR, 1960, 446 s.

118. Kononov A.N. İstoriə izuçeniə törkskix əzıkov v Rossii. L., İzd. “Nauka”, 1972, 272 s.
119. Kreynoviç E.M. Ökaqirskiy əzık. M.,-L., 1959.
120. Krivonosov A.T. O semantiçeskoy priroda modalğnıx çastiü. Filoloqiçeskie nauki, 1982, № 5, s. 50-58.
121. Kruşelğniükaə K.Q. Oçerki po sopostavitelğnoy qrammatike nemeükoqo i russkoqo əzıkov. İzd-vo lit-rı na inostrannıx əzıkax, 1961, 265 s.
122. Krılova İ.P., Krılova E.V. Anqliyskaə qrammatika dlə vsex. M., Vısşaə şkola, 1989, 270 s.
123. Kurlend G.E. İssledovanie funküionalğnoy modalğnosti qlaqolov mıslitelğnoy deətelğnosti v sovremennom anqliyskom əzıke. Dis. kand. filol. nauk. Pətiqorsk, 1977, 140 s.
124. Lixareva İ.Q. Vzaimodeystvie prosodiçeskix, leksiçeskix i leksiko-qrammatiçeskix sredstv vıraceniə modalğnıx znaçeniy anqliyskom əzıke (na materialı fraz, vıracaöhix uverennostğ-neuverennostğ). AKD, M., 1982, 26 s.
125. Lomtev T.P. Struktura i praqmatika predloceniy na osnove svoystv qrammatiçeskoy kateqorii modalğnosti. V filol. M., MQPİ im. V.İ.Lenina, 1969, № 341, s. 205-232.
126. Lomtev T.P. Predlocenie i eqo qrammatiçeskie kateqorii. M., İzd, MQU, 1972.
127. Ləpon M.V. K voprosu o əzıkovoy speüifike modalğnosti. İzvestiə AN SSSR. Seriə literaturı i əzıka. T. XXX. Vıp. 3. İzd., “Nauka”, 1971, s. 230-239.
128. Martemğənov Ö.S. Buduhee vremə ili predpolocitelğnoe nakloneniə. İnostrannıe əzıki v şkole, 1958, № 2, s. 15.
129. Moləavin D.V. Leksiçeskiy sposob vıraceniə modalğnosti razqovornoy reçi (na materiale anqliyskoqo əzıka). V kn.: Teoriə i praktika linqvistiçeskoqo opisaniə razqovornoy reçi. Qorğkiy, 1968, s. 108-110.

130. Moskalğskaə O.İ. Tekst kak linqvistiçeskoe ponətie (Obzornaə statğə) // İnostr. əzıki v şkole. 1978, № 3.
131. Musaev K.V. Qrammatika karaimskoqo əzıka. M., 1964.
132. Noqaysko-russkiy slovarğ. Pod redaküiey N.A.Baskakova. S priloceniem qrammatiçeskoqo oçerka noqayskoqo əzıka, sostavlennoqo N.A.Baskakovım. M., Qos. İzd. İnostrannıx i naüionalğnıx slovarey, 1963, 562 s.
133. Panfilov V.V. Vzaimootnoşenie əzıka i mışleniə. M., Nauka, 1971, 230 s.
134. Panfilov V.V. Kateqoriə modalğnosti i ee rolğ v konstituirovanii strukturı predloceniə i sucdeniə // Voprosı əzıkoznaniə, 1977, № 4, s. 48.
135. Panfilov V.V. Qnoseoloqiçeskie aspektı filosofskix problem əzıkoznaniə. M., Nauka, 1982, 357 s.
136. Petrov N.E. O sodercanii i obcema əzıkovoy modalğnosti. Novosibirsk. İzd. AN SSSR, 1982, 161 s.
137. Petrov N.E. Modalğnıe slova v əkutskom əzıke. Novosibirsk, Nauka, 1984.
138. Peşkovskiy A.M. Russkiy sintaksis v nauçnom osvehenii. M., Uçpedqiz, 1956, 511 s.
139. Raqimov M.Ş. İstoriə formirovaniə nakloneniy qlaqola v azerbaydcanskom əzıke. ADD, Baku, İzd. AN Azerbaydcana, 1966, 99 s.
140. Raspopov İ.P. K voprosu modalğnosti predloceniə // Uç.zap Blaqovehenskoqo Ped. İn-ta, 1957, t. 8, s. 177-197.
141. Reüker Ə.N. Teoriə perevoda i perevodçeskaə praktika. M., 1974.
142. Rikman İ.Q. Modalğnıe slova v sovremennom anqliyskom əzıke. Dis. kand. filol. nauk. Xarğkov, 1953, 299 s.
143. Saviükaə S.N. Frazeoloqiçeskie ediniüı s modalğnım znaçeniem v sovremennom anqliyskom əzıke. AKD, M., 1963, 16 s.
144. Serlğ Dc., Vandervenen D. Osnovnıe ponətiə isçisleniə reçevıx aktov. Novoe v zarubecnoy

linqvistike. Vıp. XV. Loqiçeskiy analiz estestvennoqo əzıka. M., Proqress, 1986.
145. Slinin Ə.A. Teoriə modalğnostey v sovremennoy loqike. Loqiçeskaə semantika i modalğnaə loqika. M., 1967, str. 199-147.
146. Slösareva N.A. Problema funküionalğnoy morfoloqii sovremennoqo anqliyskoqo əzıka. M., Nauka, 1986.
147. Smirniükiy A.İ. Sintaksis anqliyskoqo əzıka. M., İzd-vo lit-rı na inostr. əzıkax. 1957, 286 s.
148. Smirniükiy A.İ. Morfoloqiə anqliyskoqo əzıka. M., İzd-vo lit. na inostr. əz., 1959, 439 s.
149. Smirniükiy A.İ. Leksikoloqiə anqliyskoqo əzıka. M., İzd-vo lit. na inostr. əz., 1956, 260 s.
150. Smuşkeviç E.S. Modalğnıe slova kak çastğ reçi v sovremennom anqliyskom əzıke. V kn.: Voprosı teorii çastey reçi na materiale əzıkov razliçnıx tipov. L., 1968, s. 198-207.
151. Starikova E.N. Problemı semantiçeskoqo sintaksisa. Kiev, Vışa şkola, 1985.
152. Stupina T.N. Funküii modalğnıx qlaqolov kosvennoy reçi sovremennoqo nemeükoqo əzıka. AKD, Kalinin, 1982, 16 s.
153. Teoriə funküionalğnoy qrammatiki. M., Nauka, 1989, 347 s.
154. Torsueva N.R. Funküionalğnoe teoriə intonaüii. Diss. dokt. filol. nauk. M., 1975, 354 s.
155. Tureüko-russkiy slovarğ. M., İzd. “Russkiy əzık”, 1977, 966 s.
156. Uzbeksko-russkiy slovarğ. Qlav. red. A.K.Borovkov. Kratkiy oçerk qrammatika Uzbekskoqo əzıka. M.,Qos. İzd. İnostrannıx i naüionalğnıx slovarey, 1959, 839 s.
157. Ferdinad de Sossör. Trudı po əzıkoznaniö. M., Proqress, 1977, 695 s.
158. Xalilov A. Sposobı vıraceniə subcektivnoy modalğnosti v sovremennom tadcikskom əzıke. Duşanbe, Doniş, 1985.
159. Xlebnikova İ.B. Soslaqatelğnoe naklonenie v sovremennom anqliyskom əzıke. L., 1959, 174 s.

160. Çuvaşskoqo-russkiy slovarğ. Pod redaküiey M.İ.Skvorüova. M., İzd. “Russkiy əzık”, 1982, 712 s.
161. Şapiro A.B. Modalğnostğ i predikativnostğ kak priznaki predloceniə v sovremennom russkom əzıke // Nauçnıe dokladı vısşey şkolı. Filoloqiçeskie nauki. 1958, № 4, s. 20-26.
162. Şoabduraxmanov Ş. Uzbek tilida ërdamçi suzlar. Taşkent., 1958, 25 s.
163. Şvedova N.Ö. Oçerki po sintaksisu russkoy razqovornoy reçi. M., İzd. AN SSSR, 377 s.
164. Ştellinq D.A. O neodnorodnosti qrammatiçeskix kateqoriy. “Voprosı əzıkoznaniə”, 1959, № 1.
165. Şuvalov V.V. Modalğnıe slova v sovremennom anqliyskom əzıke. AKD, L., 1953, 24 s.

Başqa dillərdə

1. Abdullayev A. Discourse Analysis and Theme Development. Department of Linguistics Technical University of Berlin, 2003, 452 p.
2. Aitchison Cean. Teach Yourself Linguistics. London, Sydney,Auckland,Hodder and Stoughton,1992,232 p.
3. Aksu-Koc, Ayhan A. and Slobin. A psychological account of the development and use of evidentials in Turkish. In Chafe and Nichols. 1986; p. 159-167.
4. Austin C.L. How to do things with words. Oxford, 1962, 168 p.
5. Banguoglu P. Türkecenin grameri. Ankara. Türk tarih kurumu basim evi. 1990, 628 s.
6. Blokh M.Y. A course in theoretical English Grammar. Moscow, Russkaya Skola, 1983, 200 p.
7. Bolinger D. The Imperative in English. In: To Honor Roman Cakobson. The Hague, Mouton, Paris, 1967, p. 335-362.
8. Brinkmann H. Die deutsche sprache. Dusseld,1962,325 p.
9. Bugenhagen, Robert D. The Semantics of irrealis in the Austronesian languages of Papua New Guinea. In Reesink, 1994; p. 1-39.

10. Bybee, Coan. The semantic development of past tense modals in English. In Bybee and Fleischman. 1995, p. 503-517.
11. Cambridge International Dictionary of Phrasal Verbs. Cambridge University Press, 1997. 381 p.
12. Chung, Sandra and Timberlake, Alan. Tense, aspect and mood. In Shopen, 1985, Vol. III: 202-258.
13. Close R.A. A Reference Grammar for Students of English. M., Prosveshcheniye, 1979, 342 p.
14. Coates, Cennifer. The semantics of the modal auxiliaries. London: Croom Helm, 1983.
15. Der Grosse Duden. Die Grammatic der deutschen Gegenwartssprache. M., 1959.
16. Ehrman, M. The meaning of the modals in present-day American English. The Hague: Mouton, 1966.
17. Erben C. Abriss der deutschen. Grammatic Berlin, 1958.
18. Givon, Talmy. Irrealis and subcunctive Studies in Language, 1994, p. 265-337.
19. Grobe R. Die deutschen Modalverben in der neueren Forschung. Drezden, 1969, 408 p.
20. Groefsema M. “Can, May, Must and Should. A relevance theoretical account”. Cournal of Linguistics № 31, 1995.
21. Groenendick, C. and Stokhof M. Modality and conversational information. Theoretical Linguistics № 2, 1975.
22. Halliday M.A.K. Function diversity in language as seen from a consideration of modality and mood in English. Foundations of Language, Vol. 6, 1970, p. 322-361.
23. Ilyish B. The Structure of Modern English. Leningrad, 1971, 366 p.
24. Cahangirov F. Modality in English: Semantic, Pragmatic and Psycholinguistic Approaches. Tabriz, 2003, 201 p.
25. Kats C., Fodor C. The structure of a Semantic theory // language, 1963, Vol. 39, № 2, p. 470.

26. Krylova I.P., Gordon E.M. Modality in Modern English. M., “List Nğö”, 2002, 208 p.
27. Lakoff R. The pragmatics of modality. Papers from the VIII regional meeting of CLS, 1972, p. 229-246.
28. Landvoort R.W. A handook of English Grammar. Englewwod-cliffs: Longmans, 1966, 349 p.
29. Langacker, R.W. The form and meaning of the English auxiliary. Language, 1978, p. 853-882.
30. Lehrer A. Semantic Fields and Lexical Structure. Amst-Ind., 1974, 145 p.
31. Lyons C. Semantics. Cambridge, 1977, Vol I, 371 p.
32. Lyons C. Introduction of theoretical linguistics. Cambridge: Cambridge University Press, 1968.
33. Matthews P.H. Morphology (2nd edition). Cambridge: Cambridge University Press, 1991.
34. Murphy Raymond. English Grammar in Use. Cambridge University Press, 1995, 350 p.
35. Oxford Advanced Learners Dictionary Oxford, Oxford University Press, 1995, 1428 p.
36. Palmer F.R. Mood and Modality. Second edition, Cambridge University Press, 2001, 236 p.
37. Palmer F.R. Negation and the modals of possibility and necessity. In Bybee and Fleischman, 1995, p. 453-471.
38. Palmer F.R. Negation and modality in the Germanic languages. In Swan and Westvik, 1997.
39. Palmer F.R. The English Verb. London, Longman, 1974, 218 p.
40. Perkins M. Modal expressions in English. London, Frances Pinter, 1983.
41. Rivero M.L. Remarks on Operators and Modalities. Foundations of Language. 1972, Vol. 9, № 2, p. 209-239.
42. Roberts P. An Introduction to Transformational Grammar. New York, 1964, 404 p.
43. Schubiger, M. English intonation and German modal particles: a comparative study. Phonetica № 12, 1965.

44. Searle C.R. Intentionality. Cambridge: Cambridge University Press, 1983.
45. Steele, S. Past and irrealis: cust what does it all mean? International Cournal of American Linguistics № 41, 1975.
46. Swan, Toril and Westvik, Olaf Cansen. Modality in Germanic languages; historical and comparative perspectives (Trends in linguistics: studies and monographs 99). Berlin and New York, 1997.
47. Walton A.L. The Pragmatics of the English modal verbs. Ph.D. Thesis, University of London, 1988.
48. Warner A. English auxiliaries. Structure and history. Cambridge: Cambridge University Press, 1993.
49. Wunderlich D. Question about question. In: Grassing the Boundaries of Linguistics. Gordrecht, 1981, vol. 13.
50. Yunusov D. A Guide to English Grammar. Baku, 2004, 263 p.

İnternet saytları

1. http://www.englishpage.com/modals/modalintro.html
2. http://users.tkk.fi/~rvilmi/help/grammar_help/modalverbs.html
3. http://www.geocities.com/SoHo/Square/3621/MODALS.HTM
4. http://www3.telus.net/linguisticsissues/modalsinteaching.html
5. http://www.sp.uconn.edu/~li101is1/SP04/Apr19.pdf
6. http://www.netstoreusa.com/books/index/bkbla600.shtml
7. http://www.suite101.com/discussion.cfm/8707/75600
8. http://www.dartmouth.edu/~lpetitto/langAc.html
9. http://stella.hflcampus.monroe.edu/staffweb/ITS/Highfiles/LOTE.pdf
10. http://www.nottingham.ac.uk/english/nlc/badran.PDF

BƏDİİ ƏDƏBİYYAT

Azərbaycan dilində

11. Abbaszadə Hüseyn. Uzaqdan gələn qonaq. Bakı, “Gənclik”, 1974, 251 s.
12. Abdulla Qədiri. Ötən günlər. Bakı, “Gənclik”, 1987, 336 s.
13. Ağayev Z. Beş günün intizarı. Bakı, “Gənclik”, 1982, 128 s.
14. Ağayev Z. Dünyanın düz vaxtı. Bakı, “Yazıçı”, 1990, 240 s.
15. Axundov M.F. Bədii və fəlsəfi əsərləri. Bakı, “Yazıçı”, 1987, 368 s.
16. Axundov M.F. Komediyalar. Bakı, Azərnəşr, 1962, 172 s.
17. Axundov S.S. Qaraca qız. Bakı, “Maarif”, 1976, 180 s.
18. Babanlı Vidadi. Vicdan susanda. Bakı, “Yazıçı”, 1978, 512 s.
19. Babanlı Vidadi. Həyat bizi sınayır. Bakı, “Gənclik”, 1979, 389 s.
20. Babanlı Vidadi. Gəlin. Bakı, “Gənclik”, 1979, 389 s.
21. Babayeva Ələviyyə. Səni axtarıram. Bakı, “Gənclik”, 1981, 367 s.
22. Babayev Nurəddin. Adamın özü və sözü. Bakı, “Yazıçı”, 1992, 296 s.
23. Bayramov Bayram. Karvan yolu. Bakı, “Yazıçı”, 1986, 798 s.
24. Bayramov Bayram. Cıdır düzü. Bakı, “Yazıçı”, 1979, 473 s.
25. Cabbarlı Cəfər. Əsərləri. I cild, Bakı, “Yazıçı”, 1983, 238 s.
26. Çəmənzəminli Y.V. Romanları. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1968, 466 s.
27. Elçin. Seçilmiş əsərləri. I cild, Bakı, Azərb. Dövlət nəşriyyatı, 1987, 452s.
28. Əbülhəsən. Seçilmiş əsərləri. III cild, Bakı, Azərb. Dövlət nəşriyyatı, 1985, 240 s.
29. Əfqan. Həsrət də bir vüsaldır. Bakı, “Yazıçı”, 1984, 357 s.

30. Əfəndiyev İlyas. Seçilmiş əsərləri. Bakı, “Yazıçı”, 1984, 359 s.
31. Əfəndiyev Elçin. Talvar. Bakı, Azərnəşr, 1987, 453 s.
32. Əhmədova Əzizə. O günlərə baxıram. Bakı, “Yazıçı”, 1982, 306 s.
33. Əlisa Nicat. Qızılbaşlar. Bakı, “Yazıçı”, 1983, 255 s.
34. Əlisa Nicat. Gəncəli müdrik. Bakı, “Yazıçı”, 1990, 262 s.
35. Əliyev Məmmədhüseyn. Torpağın ətri. Bakı, “Gənclik”, 1979, 205 s.
36. Əlibəyov Cəmil. Vida görüşü. Bakı, “Yazıçı”, 1981, 386 s.
37. Əlibəyov Cəmil. Mənim analı dünyam. Bakı, “Gənclik”, 1972, 248 s.
38. Əylisli Əkrəm. Aydınlıq. Bakı, Azərnəşr, 1987, 479 s.
39. Fəzli Gəray. Yeddi ulduzlu səma. Bakı, “Gənclik”, 1978, 326 s.
40. Hacıbəyov Üzeyir. Seçilmiş əsərləri. Bakı, “Yazıçı”, 1985, 652 s.
41. Hacıyev Sabir. Xatirələr dil açır. Bakı, “Yazıçı”, 1988, 166 s.
42. Hacızadə Əlibala. Dünyanı tanı. Bakı, “Gənclik” nəşriyyatı, 1990, 423 s.
43. Hacızadə Əlibala. Təyyarə kölgəsi. Bakı, “Gənclik”, 1992, 302 s.
44. Haqverdiyev Ə.B. Seçilmiş əsərləri. Bakı, “Maarif”, 1987, 179 s.
45. Heyli Artur. Aeroport. Bakı, Yazıçı, 1988, 400 s.
46. Hidayət. Sabaha çox var. Bakı, “Yazıçı”, 1989, 406 s.
47. Hüseynov İsa. İdeal. Bakı, “Yazıçı”, 1980, 440 s.
48. Hüseynov İsa. Tütək səsi. Bakı, “Gənclik”, 1989, 232 s.
49. Hüseynoğlu Gülhüseyn. Seçilmiş əsərləri. I cild, Bakı, Azərnəşr, 1993, 440 s.
50. İbrahimov Mirzə. Seçilmiş əsərləri. III cild, Bakı, 1956, 622 s.

51. İldırımoğlu Əli. Dərd. Bakı, “Gənclik”, 1993, 271 s.
52. İsayev Əhməd. Göyərçin pərvazlanır. Bakı, “Yazıçı”, 1980, 155 s.
53. İsmayılzadə Müzahim. Üç nöqtə. Bakı, Təhsil, 2000, 135 s.
54. Kərimzadə F. Xudafərin körpüsü. Bakı, “Yazıçı”, 1982, 382 s.
55. Kərimzadə F. Qarlı Aşırım. Bakı, “Gənclik”, 1971, 228 s.
56. Kərimzadə F. Çaldıran döyüşü. Bakı, “Yazıçı”, 1987, 301 s.
57. Qabil. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1988, 355 s.
58. Qasımov İ., Seyibdəyli H. Uzaq sahillərdə. Bakı, 1961, 323 s.
59. Qədirzadə Salam. Hər gün ömürdən gedir. Bakı, “Yazıçı”, 1987, 317 s.
60. Qədirzadə Salam. Ülkər Aytəkin. Bakı, Azərb. Dövlət nəşriyyatı, 1976, 392 s.
61. Qədirzadə Salam. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1990, 509 s.
62. Qocayev Musa. Gecələrin mahnısı. Bakı, “Gənclik”, 1977, 243 s.
63. Levin Ayra. Ölümqabağı öpüş. Bakı, Hərbi nəşriyyatı, 1988, 238 s.
64. Mahmud İsmayıl. İki od arasında. Bakı, “Gənclik”, 1993, 341 s.
65. Mehdi Hüseyn. Kin. Bakı, Azərb. Dövlət nəşriyyatı, 1987, 176 s.
66. Məlikzadə İsi. Günəşli payız. Bakı, “Yazıçı”, 1982, 252 s.
67. Məmmədquluzadə Cəlil. Əsərləri, I cild, Bakı, Azərnəşr, 1983, 308 s.
68. Məmmədquluzadə Cəlil. Dram və nəsr əsərləri. Bakı, ADU nəşriyyatı, 1958, 810 s.
69. Məmməd Aslan. Bizdən sonra nə qalır. Bakı, “Gənclik”, 1979, 180 s.

70. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı, Azərb. Dövlət nəşriyyatı, 1967, 520 s.
71. Molla Pənah Vaqif. Əsərləri. Bakı, Azərb. Dövlət nəşriyyatı, 1960,257 s.
72. Nağıyev Nağı. Həsrət. Bakı, Azərnəşr, 1965, 320 s.
73. Nərimanov Nəriman. Bir kəndin sərgüzəşti. Bakı, Azərnəşr, 1956, 279 s.
74. Nəzirova Sara. Tale damğası. Bakı, "Yazıçı", 1992, 222 s.
75. Ordubadi M.S. Dumanlı Təbriz. II hissə, Bakı, "Yazıçı", 1985, 730 s.
76. Rzayev Anar. Zəncir. Bakı, Azərnəşr, 1988, 398 s.
77. Rzayev Anar. Taksi və vaxt. Bakı, Azərnəşr, 1988, 398 s.
78. Sabir. Hop-hopnamə. Bakı, "Yazıçı", 1980, 556 s.
79. Salamzadə Oqtay. Əsrlərin sirri. Bakı, "Yazıçı", 1989, 592 s.
80. Sarabski Hüseynqulu. Köhnə Bakı. Bakı, "Yazıçı", 1982, 252 s.
81. Seyidbəyli Həsən. Cəbhədən-cəbhəyə. Bakı, "Gənclik", 1988, 272 s.
82. Səməd Vurğun. İnsan. Bakı, Azərnəşr, 1974, 494 s.
83. Səməd Vurğun. Fərhad və Şirin. Bakı, Azərnəşr, 1974.
84. Somerset Moem. Ay və qara şahı. Bakı, Azərnəşr, 1993, 200 s.
85. Süleymanov Manaf. Dağlar qoynunda fırtına. Bakı, "Yazıçı", 1984,485 s.
86. Süleymanov Manaf. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1993, 452 s.
87. Süleymanov Mövlud. Köç. Bakı, "Yazıçı", 1984, 277 s.
88. Şıxlı İsmayıl. Dəli Kür. Bakı, "Yazıçı", 1983, 435 s.
89. Şıxlı İsmayıl. Seçilmiş əsərləri. II cild, Bakı, Azərnəşr, 1986, 480 s.
90. Vaqif Nəsib. Ceyrançöllü qoç Kərəməli. Bakı, "Gənclik", 1986, 336 s.

İngilis dilində

91. Dreiser Theodore. Cennie Gerhardt. Moscow, Progress Publishers, 1972, 358 p.
92. Galsworthy Cohn. The Forsyte Saga. Book I. The Man of Property. Moscow, Progress, 1974, 383 p.
93. Hailey A. Airport. New York, Doubleday and Company, 1968, 440 p.
94. Hemingway Ernest. Selected Stories. Moscow, Progress Publishers, 1971, 397 p.
95. Hemingway Ernest. For Whom the Bell Tolls. Moscow, Progress Publishers, 1981, 560 p.
96. Levin I. A Kiss Before Dying. New York, Simon and Schuster, 1953, 221 p.
97. London Cack. Martin Eden. Kiev, Dnipro Publishers, 1980, 367 p.
98. Maugham S. The Moon and Sixpence. Moscow, Progress Publishers, 1972, 240 p.
99. Modern English Short Stories. Moscow, Progress Publishers, 1979, 559 p.
100. Nineteenth Century American Short Stories. Moscow, Progress Publishers, 1978, 448 p.
101. Thackeray W.M. Vanity Fair, part II. Moscow, Foreign Languages Publishing House, 1950, 378 p.
102. Wilde Oscar. Selections. Volume I. Moscow, Progress Publishers, 1979, 392 p.